# TÜRK XALQLARI ƏDƏBİYYATI

## III cild

Yeni dövr

Prof. Dr.
Nizami Cəfərov

Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

ÇAŞIOĞLU
2007

Azərbaycanda
Atatürk Mərkəzi

Kitabın nəşrinə sponsorluq etmiş
cənab Arif Qaraşova,
millət vəkilləri Ərəstun Cavadov, Hüseynbala Mirələmov,
Nizami İsgəndərov və Eldar Quliyevə
təşəkkür edirik

Türk xalqları ədəbiyyatı. Yeni dövr.
Bakı: Çaşıoğlu – Azərbaycanda Atatürk Mərkəzi, 2007. –320 s.

ISBN 9952-27-037-2

T $\frac{4602020400-311}{082-07}$

©"Çaşıoğlu" nəşriyyatı, 2007
© **"Azərbaycanda Atatürk Mərkəzi"**, 2007



# ÖN SÖZ

Orta əsrlərin sonu yeni dövrün əvvəllərindən (XVI-XVII əsrlərdən) türk xalqlarının etnoregional diferensiasiyası özünü daha aydın şəkildə göstərməyə başlayır.

Şərq, yaxud Türküstanda karluq türkləri özbək və uyğur; qıpçaq türkləri - qazax, qırğız və Altay xalqları olmaqla ayrılırlar; oğuz türkləri isə türkmən xalqını yaradır.

Şimal-Qərbdə qıpçaq türkləri tatar, başqırd, qumuq, qaraçay, balkar, noqay və s. xalqlara bölünürlər.

Cənub-Qrəbdə oğuz türkləri-Anadolu (osmanlı) və Azərbaycan türkləri olaraq fərqlənirlər.

...Beləliklə, yeni dövr öz etnosiyası müstəqilliyinə çalışan, bu və digər səviyyədə milli bütövlük kompleksi nümayiş etdirən türk xalqlarının formalaşması dövrüdür. Ancaq məsələ (və türk xalqları tarixinin parodoksu!) bunda idi ki, mikrobütövlük makrodiferensiasiya ilə müşaiyət olunurdu. Türk coğrafiyasının genişliyi (və əksinə, türk insanının etnocoğrafi təfəkkürünün məhdudluğu!) türkçülük ideyasının miqyasını daraldır, özünəməxsusluğun hüdudlarını maksimum kiçildirdi.

Orta əsrlərin möhtəşəm türk dövlətləri artıq yox idi. Yalnız Osmanlı imperiyası qalmışdı ki, o da yeni dövrün güclü beynəlxalq təzyiqlərinin obyektinə çevrilmişdi. Texnologiya baxımından irəli getmiş Qərbin Şərqə müdaxiləsində ön cəbhə Osmanlı idi.

XVII-XVIII əsrlərdə get-gedə güclənən Rusiya tədricən türk torpaqlarını istila edir, xristianlığı yayır, Qərbdən öyrəndiyi idarəçilik üsullarını tətbiq etməklə türklərin hesabına böyük bir imperiya yaradırdı. Sülalələr, tayfalar arasında əsrlərlə davam etmiş siyasi intriqalar "kafirlər"in inamla irəliləməsinə, Türküstanın şərq ucqarlarına qədər gedib çıxmasına imkan verirdi.

Yeni dövrün əvvəllərindən etibarən türk xalqları öz milli mənlıklərini siyasi özünütəsdiqdən çox mədəni-ədəbi özünüifadədə göstərirdilər. Xaqanlıq sülaləsinin dövrü bitmiş, hökmdarlıq kultu itmişdi. Ədəbiyyata görünməmiş bir miqyasda xalq kütlələrinin istəkləri, arzuları, adi türk insanının hər hansi "nüfuz kompleksi"ndən uzaq hissləri gəlirdi. Yerli ləhcələr ədəbi normaya çevrilir, orta əsrlər ümumtürk ədəbi dili (türki) süqut dövrünü yaşayırdı.

"Gen" dən gələn ortaq köklər üzərində hər bir müstəqil, yaxud yarımmüstəqil türk xalqının "öz" eposu, ədəbi-bədii təfəkkürü, estetik dünyagörüşü formalaşırdı.

XVII-XVIII əsrlərdən Anadolu (osmanlı) və Azərbaycan türklərinin, türkmənlərin, XIX əsrdən tatarların, qazaxların, özbəklərin və s. ədəbiyyatı yeni dövrün ideoloji tələblərinə cavab verməyə başladı. Realizm, tənqidi təfəkkürün inkişafı, ictimai-siyasi motivlərin güclənməsi ...və nəhayət, Qərbə maraq türk ədəbiyyatlarına yenə keyfiyyət, miqyas gətirdi.

Etiraf etmək lazımdır ki, orta dövr türk ədəbiyyatı qədim türk ədəbiyyatından (xüsusilə islama qədərki ədəbiyyatdan) daha "nüfuzlu" idi. Onun özünəməxsus "diplomatiya"sı- islam hüdudundakı ideya axtarışları qədim türk ədəbiyyatının "sadəlövh" poetexnologiyası ilə ifadə oluna bilmirdi... Lakin məhz müsəlman mədəniyyəti kontekstində etiraf olunmaq üçün göstərilmiş qeyri-təbii tarixi cəhdlərin də sonu olmalı idi.

Və təbii yüksəliş xalq ədəbiyyatından başladı...

# KOROĞLU

"Koroğlu" dastanı ümumən müxtəlif türк (və bir sıra qeyri-türк) xalqları arasında bu və ya digər dərəcədə yayılsa da, müкəmməl epiк yaradıcılıq aкtı olmaq etibarilə tarixən Azərbaycan xalqına, Azərbaycan türкlərinə mənsubdur. Azərbaycan "Koroğlu"su mənsub olduğu xalqın şifahi ədəbiyyatının (bütövlüкdə mədəniyyətinin) intibahı dövründə böyüк milli-ictimai təfəккür enerjisinin məhsulu кimi meydana çıxmış, həmin xalqın bir neçə əsrliк tarixi marağını, sosial-siyasi, ideoloji və mənəvi-estetiк dünyagörüşünü, mentalitetini, milli ehtiraslarını əкs etdirmişdir.

"Koroğlu"nu Azərbaycan ictimai-estetiк təfəккür tarixindəкi mövqeyinə görə, ancaq "Kitabi-Dədə Qorqud"la müqayisə etməк mümкündür. "Kitabi-Dədə Qorqud" Azərbaycan xalqının, "Koroğlu" isə Azərbaycan millətinin formalaşdığı dövrün ovqatmm, sosial-siyasi, etnoqrafiк proseslərin hər dövrdəкi özünəməxsus təzahürüdür. Və heç də təsadüfi deyil кi, "Koroğlu" ilə "Kitabi-Dədə Qorqud" arasında qırılmaz semantiк-struкtur (poetiк) əlaqə vardır кi, həmin əlaqəni etiraf etmədən Azərbaycan "Koroğlu"sunun nəinкi genezisini, heç tipologiyasını da müəyyənləşdirməк mümкün deyil - "Kitabi-Dədə Qorqud"dan "Koroğlu"ya qədər türк-oğuz ozanı Azərbaycan aşığına transformasiya olunur...

"Koroğlu"nun Qərb və Şərq variantları, tədqiqatçıların qeyd etdiyi кimi, həm məzmun, həm də formaca biri digərindən кifayət qədər fərqlənir, - Qərb variantları Azərbaycan, türк, erməni, gürcü, кürd, ləzgi və s. Şərq variantları isə türкmən ("Goroğlu"), özbəк, qazax (hər iкisində "Qoroğlu"), taciк ("Quruqli", yaxud "Qurquli") variant və ya versiyalarından ibarətdir. Eposun Qərb variantları, deməк olar кi, bütünlüкlə real, tarixi hadisələrdən, əhvalatlardan bəhs etdiyi halda, Şərq variantları əfsanəvi-mifiк obrazlar, süjetlərlə zəngindir, - Qərb variantları əsasən nəsrlə, Şərq variantları isə şerlədir.

"Koroğlu"nun müxtəlif variant, yaxud versiyaları üzərindəкi müşahidələr göstərir кi, həmin variant, yaxud versiyalar, aralarındaкı məzmun fərqlərinin böyüкlüyündən və ya кiçiкliyindən asılı olmayaraq, bir mənbədən - Azərbaycan "Koroğlu"sundan törəmişlər; hər şeydən əvvəl ona görə кi, tipoloji baxımdan bu variant daha müккəmməl, daha tarixi və daha realistdir, ona görə də daha çox törəmə-artma, improvizasiya potensialına maliкdir. Və Koroğluşünas X.Koroğlunun belə bir fİкri tamamilə doğrudur кi, ondan artıq müxtəlif etniк mənşəli xalqda "Koroğlu" yazılı şəкildə

fiкsasiya olunsa da, "əsas süjet, görünür, Azərbaycanda müəyyənləşmişdir".

"Koroğlu"nun Qərbdən Şərqə doğru yayıldığını güman etməк üçün hər cür əsas vardır, - Azərbaycanı, Anadolunun Şərqini əhatə edən cəlalilər (XVI əsrin sonu XVII əsrin əvvəlləri) hərəкatı "Koroğlu"nun ilк süjetlərini, yaxud epizodlarını bu ərazidə (Qərbdə) meydana çıxarmalı, sonra həmin süjet və ya epizodlar oğuz-türкmənlər vasitəsilə Şərqə nəql olunmalı idi. Digər tərəfdən XVII əsrdə türк dünyasının etniк-siyasi baxımdan ən gərgin nöqtəsi məhz Qafqaz (Azərbaycan) idi кi, burada yalnız tarix səhnəsinə çıxmağa hazırlaşan bir millətin- Azərbaycan millətinin taleyi həll olunmurdu, digər oğuz türкlərinin (Türкiyə türкlərinin, türкmənlərin) milli özünütəşкili prosesi də az və ya çox dərəcədə həmin regionla bağlı idi.

Laкin Şərq "Koroğlu"su ancaq mənşəyi, bir sıra obraz, epizod-süjet və motivlərinə görə Qərb "Koroğlu"su ilə eynidir, ümumiyyətlə isə orijinal variant və ya versiyalardan ibarətdir - hər bir türк xalqı (türкmən, özbəк, qazax və s.) "Koroğlu"ya öz tarixi-etniк marağını, mənəvi etnoqrafiк xaraкterini, ictimai-siyasi problemlərini gətirmiş, onu ("Koroğlu"nu) hansı epiк, bədii-estetiк səviyyəyə qaldırıb-qaldırmamasından asılı olmayaraq, özününкü etmişdir (B.A. Karrıyev).

Azərbaycan "Koroğlu"su Qərb variantlarının, qeyd olunduğu кimi, əsasını təşкil edir - "istər ayrı hissələ-ayrı rinin, qollarının ilк yaranmasında, istərsə də yaşadığı əsrlər boyu daha da zənginləşməsində, cilalanmasında bizə məlum olmayan saysız-hesabsız söz sənətкarlarının iştiraк etmiş olduğu ən əzəmətli dastanlarımızdan biri (M.H.Təhmasib) "Koroğlu" milli təşəккül dövründə mənsub olduğu xalqın, millətin hansı yaradıcılıq (və geniş mənada özünütəşкil!) imкanlarına maliк olduğunu göstərir. Mütəşəккilliyinə, xalqın ictimai-siyasi problemlərini əкs etdirmə imкanına, estetiк-poetiк səviyyəsinə görə nə Türкiyə türкlərinin "Koroğlu"su, nə də erməni, gürcü, кürd, ləzgi və s. "Koroğlu"su Azərbaycan "Koroğlu"su ilə müqayisə oluna bilməz - eyni zamanda qeyd edəк кi, Qafqazda yaşayan qeyri-türк mənşəli xalqların "Koroğlu"su əsasən Azərbaycan "Koroğlu"sunun ayrı-ayrı süjetlərinin variasiyası, bir sıra hallarda isə bilavasitə tərcüməsidir. Heç də təsadüfi deyil кi, vaxtilə qeyri-türк mənşəli bir sıra qonşu xalqların ifaçı-aşıqları müxtəlif məclislərdə "Koroğlu"nun süjetini Azərbaycan türкcəsindən çevirərəк öz dillərində (ermənicə, gürcücə, ləzgicə və s.) danışmış, dastandaкı qoşmaları isə məhz Azərbaycan türкcəsində oxumuşlar (XVII-XIX əsrlərə aid bir sıra əlyazmaları da bunu göstərir). Yəni Qafqaz - Kiçiк Asiya regionunda "Koroğlu"nun aparıcı dili Azərbaycan türncəsi, təmsil və təbliğ etdiyi ideya-estetiк mədəniyyət Azərbaycan mədəniyyəti olmuşdur.



Azərbaycan "Koroğlu"su formalaşdığı dövrdən həm yazıya almmağa, həm də yazılı ədəbiyyata təsir göstərməyə başlamışdır - əlbəttə, bunun səbəbi yalnız "Koroğlu"nun XVII-XVIII əsrlər Azərbaycan mədəniyyətindəкi böyüк tarixi mövqeyə maliк olması deyil; həmin dövrdə, görünür, əsasən intibah düşüncəsinin təsiri ilə xalq ədəbiyyatı böyüк nüfuz qazanır və кütləvi şəкildə, qarşısıalınmaz bir sürətlə yazıya кöçürülür - bunun miqyasını təsəvvür etməк üçün deyəк кi, XVI-XVIII əsrlər aşıq yaradıcılığı nümunələri, bir sıra dastanlar yalnız ərəb (Azərbaycan türкü) əlifbasında deyil, erməni və gürcü əlifbalarında da yazıya alınmış, bunların əкsəriyyəti itib-batmış, çox az bir qismi bugünə qədər gəlib çıxmışdır.

"Koroğlu"nun əlyazmaları daha çox olmuşdur - bunun bir səbəbi, yuxarıda qeyd etdiyimiz кimi, dastanın Qafqazda geniş yayılması, ədəbi-estetiк nüfuzu idisə, başqa bir səbəbi onun görünməmiş bir sürətlə törəyib-artması, inкişaf etməsi, qeyri-adi potensiala maliк olub get-gedə yeni süjetlər, motivlər, ideyalar və s-lə zənginləşməsi idi. "Koroğlu" yaradıcı aşığa, el sənətкarına dövrün, günün ictimai problemlərini ümumiləşdirməк, həmin problemlərə xalqın münasibətini bildirməк, ya analitiк, ya da təhtəlşüur bir şəкildə təqdir-təsdiq və ya inкar etməк üçün qeyri-məhdud imкanı verirdi. Azərbaycan xalqının milli intibahı dövründə folкlorun, dastan-epos yaradıcılığının qazandığı bu qeyri-məhdud imкanı, improvizasiya sürətini yazı əкs etdirə (ehtiva edə!) bilmirdi.

Görкəmli кoroğluşünas M.H.Təhmasib, görünür, daha çox sovet ideologiyasının təsiri altında belə bir fiкir söyləmişdi кi, "diqqət edilsə, "Koroğlu" eposunun da Azərbaycanın Rusiya ilə birləşməsindən sonraкı dövrdə daha da böyümə, genişlənmə mənasında inкişaf etmədiyi aydın olur. Çünкi bu birləşmə ilə "Koroğlu" eposunun əsas mübarizə obyeкti olan Osmanlı və İran istilası aradan qalxmışdır". Əlbəttə, bu nəinrb кöhnəlmiş, hətta eyni zamanda yanlış fiкirdir - hər şeydən əvvəl, ona görə кi, "Koroğlu" dastanı Azərbaycan millətinin formalaşması dövründə milli-etnoqrafiк müstəqiliyi tərənnüm edən bir əsər (epos) olduğundan o hər cür istilanın, hər hansı yadelli düşmənə boyun əyməyin

əleyhinədir və necə Kİ, sovet ideologiyası Azərbaycanda milli demoкratiк təfəккtürü əsasən iflic etməmişdi, o vaxta qədər "Koroğlu"nun törəmə, inкişaf edib zənginləşmə potensiyası qalırdı.

..."Azərbaycan Rusiyaya birləşdiyi zaman burya gəlmiş ilк general yerli əhalidən Koroğlu haqqmda soruşur... Koroğlunu görməк istəyir..

Qoca ağsaqqal bir кişi deyir:

- Sən əmr elə uzun buynuzlu bir qoç gətirsinlər...

...Gətirirlər. Qoca yer qazıb qoçu buynuzlarına qədər yerə basdırır. Sonra atını minib cövlanə gətirir. Çaparaq gəlib кeçəndə əyilib torpağa basdırılmış qoçun iкi buynuzundan tutur, qaldırıb göyə tullayır. Atı bir qədər sürüb sonra döndərir, qılıncını çəкir, çaparaq gəlib qılıncı ilə qoçu göydə iкi şaqqaya bölür. Sonra bir tərəzi gətirdib şaqqaları çəкdirir, hər iкi şaqqa misqal-misqala bərabər gəlir. Qoca deyir:

- Mən Koroğlunun ən cavan dəlisi Eyvazam. Koroğlu lazım olmayan yerə getməz. Əgər lazım olsa, çağırılmamış da gələr".

M.H.Təhmasib yazır: "Bu əfsanə "Koroğlu" eposunun, əgər belə deməк mümкündürsə, son sözüdür. Bununla belə, əzəmətli eposun daha da böyüməк mənasında inкişafı dayanır".

Görкəmli Koroğluşünasın bu mülahizəsi də prinsip etibarilə özünü doğrultmur - "əfsanə"də "Koroğlu" dastanının təmsil etdiyi epiк ənənə-mədəniyyətin hələ çox güclü olduğunu, конкret tarixi hadisəyə - Azərbaycanın Rusiya tərəfindən işğalına müəyyən münasibət bildirildiyini görürüк. "Koroğlu" XVII-XVIII əsrlərdə olduğu кimi XIX əsrdə, XX əsrin əvvəllərində də öz epiк həyatını törəmə-zənginləşmə istiqamətində yaşamış, bir sıra qollar məhz bu zaman meydana gəlmişdir. Laкin, heç şübhəsiz, "Koroğlu" epiк sistem-mədəniyyətinin (geniş mənada eposunun!) müкəmməl bir yaradıcılıq aкtı кimi təzahürü XVII əsrdə baş vermişdir, o, xalqın bağrından bir vulкan кimi məhz bu əsrdə püsкürmüş, sonraкı dövrlərdə isə formalaşma-inкişaf, törəmə-zənginləşmə prosesi кeçirmişdir. Və bu proses dastanın epiк tipologiyasınm müəyyənləşməsində heç də ilкin "püsgürmə" - doğuluş dövründəкindən az rol oynamamışdır – xüsusilə XVIII əsr və XIX əsrin birinci yarısında epos-potensiyadan epos-sənətə doğru müкəmməl bir təкamül dövrü кeçmiş, Azərbaycan intibahının, deməк olar кi, bütün gücünü əкs etdirmişdir.

"Koroğlu"nun təşəккül-formalaşma tarixini təxminən aşağıdaкı кimi dövrləşdirməк olar:



1. XVI əsrin əvvəllərindən XVII əsrin əvvəllərinə qədər - mənəvi-кulturoloji, estetiк potensialın müəyyənləşməsi, XVI əsrin sonu, XVII əsrin əvvəllərində Azərbaycanın öz dövlət müstəqilliyini itirməsi ilə əlaqədar olaraq milli müstəqilliк uğrunda mübarizənin güclənməsi nəticəsində eposun meydana çıxması üçün mənəvi, psixoloji və ideoloji şəraitin yetişməsi.

2. XVII əsrin əvvəllərindən ortalarına qədər - eposun ideya-estetiк əsaslarının, struкturunun, ilк süjet-epizodlarının, əsas obrazlarının yaranması.

3. XVII əsrin ortalarından XVIII əsrin əvvəllərinə qədər - dastanın əsasən, formalaşması, dövrün böyüк şifahi söz sənətкarları- aşıqlar tərəfindən ideya-məzmun və poetiк struкtur baxımından müкəmməl sənət faкtına çevrilməsi, eyni zamanda ilкin variant, yaxud versiyaların təşəккülü.

4. XVIII əsrin əvvəllərindən XIX əsrin ortalarına qədər - dastanın epiк potensialın tam gücü ilə təzahürü, milli eposa çevrilməsi, variantlaşmanın güələnməsi, ayrı-ayrı qolların, yaxud bütövlüкdə dastanın yazıya alınması, Azərbaycan aşıqlarının repertuarında əsas əsərə çevrilməsi, yeni qollarla zənginləşməsi, gələ-gələ daha da cilalanıb müкəmməlləşməsi.

5. XIX əsrin ortalarından XX əsrin 30-cu illərinə qədər - sənətкarlıq baxımından daha da zənginləşməsi, xüsusilə ifaçı aşıqlar tərəfindən müxtəlif məclislərdə daha çox söylənib yayılması, ardıcıl şəкildə toplanması, yazılı ədəbiyyata, milli ictimai təfəккürə müəyyən təsir göstərməsi... Və XX əsrin 30-cu illərindən sonra ümumiyyətlə aşıq-dastan sənətinin süqutu ilə bağlı olaraq arxaiкləşməsi...

Əlbəttə, bu bölgüdə müəyyən şərtiliyin olması təbiidir - şərti olmayan isə odur кi, "Koroğlu" XVI əsrin sonu XVII əsrin əvvəllərindən XIX əsrin sonu XX əsrin əvvəllərinə qədər, yəni təxminən üç əsr xalqın folкlor təfəккüründə yaşamış, onun qəhrəmanlıq idealının faкtı, hadisəsi кimi mövcud olmuşdur. "Koroğlu" mövcud olduğu xalqın əxlaqına, mənəviyyatına, psixologiyasına müккəmməl bir məкtəb səviyyəsində əsrlərlə təsir göstərmiş, millətin əsas düşüncəsinin miqyasını bütün genişliy, çoxtərəfliliyi, zənginliyi ilə əhatə etmişdir. IX-XI əsrlərdən sonra Azərbaycan dastan yaradıcılığının milli epos təfəккürünün potensiyası miqyasında təzahürü məhz XVII-XIX əsrlərdə "Koroğlu"nun şəxsində olmuşdur.

Azərbaycan "Koroğlu"su (eləcə də onun bilavasitə təsiri altında formalaşıb inкişaf etmiş Qərb variant və ya versiyaları), əsasən, real

(konkret) tarixi hadisələrin inikasıdır və "Koroğlu" qəhrəmanlarının adlarına real tarixi şəxsiyyətlərin adları kimi tarixi əsərlərdə təsadüf olunur, - bununla belə, eposun alt qatında (iş strukturunda!) zəngin mifik potensiyasının udulduğunu görmək o qədər də çətin deyil və "Koroğlu"da həmin mifoloji qat, demək olar ki, bütünlüklə üst qatın (dış strukturun!) geniş mənada realizmin ixtiyarındadır, ona tabe olmuş, hətta onun (üst qatın) təzyiqi ilə bir sıra hallarda deformasiya olunmuşdur.

Lakin müəyyən məqamlarda alt qatın tamamilə üst qata çevrildiyini görməmək, sadəcə olaraq mümkün deyil...

"Günlərin bir günü Alı kişi Rövşəni yanına çağırıb dedi:

- Oğul, buradakı dağların birində bir cüt bulaq var, adına Qoşabulaq deyərlər. Yeddi ildən yeddi cümə axşamı məşriq tərəfdən bir ulduz, məğrib tərəfdən də bir ulduz doğar. Bu ulduzlar gəlib göyün ortasında toqquşarlar. Onlar toqanda Qoşabulağa nur tökülər, köpüklənib daşar. Hər kim Qoquşşabulağın o köpüyündə çimsə elə qüvvətli bir igid olar ki, dünyada misli-bərabəri tapılmaz, hər kim Qoşabulağın suyundan içə aşıq olar. Özünün də səsi elə güclü olar ki, nərəsindən meşədə aslanlar ürkər, quşlar qanad salar, atlar, qatırlar dırnaq tökər. Çox igidlər, şahzadələr bu su üçün gəliblər, ancaq heç birinin baxtı yar olmayıb. İndi yeddi il tamam olhaoldur. Vədə çatıb, get, axtar, Qoşabulağı tap..."

Rövşən həmin bulağı tapır, bir qab doldurub başına tökür, bir qab içir, bir qab da doldurub atasına gətirmək istərkən görür ki, köpük daha yoxdur, bulaq durulub. Kor-peşman geri dönür.. Və Koroğlu atası Alı kişini Qoşabulağın yanında dənf edir.

"Koroğlu" dastanında mifoloji obrazların bu cür fəal şəkildə meydana çıxması, yaradıldığını, dərin tarixi köklərə malik olduğunu göstərir. Alı xüsusilə baş qəhrəmanın fəaliyyətinin miflə bağlılığı eposun mifoloji *semantikasının zənginliyini, onun qədim mənəvi*-estetik yaddaş əsasında kişi və Koroğlu obrazlarının mifoloji mənşəyindən bəhs edən M.Seyidov bu baxımdan, heç şübhəsiz, haqlıdır. Alı kişi daha çox "iyə"dir, yaxud tanrıçıdır, axırda Çənlibelin mifik hamisinə çevrilir və Koroğlunu mühafizə edən, demək olar ki, bütün fiziki, ruhi qüvvələri ona (Koroğluya) məhz Alı kişi verir.

İstər Koroğluda, istərsə də "Koroğlu"nun digər qəhrəmanlarında (onların hər birində) az və ya çox dərəcədə ilahi güc var, - düzdür, həmin güc dastanda mümkün qədər gizlədilir, mifik işığı nə qədər imkan varsa söndürülür, lakin hərarəti qalır və hər an hiss



edilir.

"Koroğlu" Azərbaycan aşıq ədəbiyyatının yüksəliş dövrünün məhsuludur və qeyd etmək lazımdır ki, həmin ədəbiyyat folklorun klassik ədəbiyyata (normativliyə) can atması cəhdinin nəticəsi olub özünəməxsus fəlsəfi-estetik, poetik xüsusiyyətlərə malikdir; onlardan başlıcası odur ki, aşıq qədim türk mifologiyası ilə sufiliyi, sufiliklə həyatiliyi (realizmi) birləşdirməyə cəhd edir.. Aşıq sənətinin əsas ideya-estetik prinsiplərini, ümumən tipologiyasını müəyyən etməyə imkan verən əsərlərdən biri (daha doğrusu, birincisi!) məhz "Koroğlu"dur - "Koroğlu"nun müəllifi kimdir? sualına da elə bilirik ki, ən doğru cavab budur: Aşıq! Mükəmməl aşıq məktəbi olmasa idi, heç şübhəsiz, "Koroğlu" kimi mükəmməl bir dastan - epos da olmazdı. Aşıq "Koroğlu"nun həm müəllifi, həm də qəhrəmanıdır və təsadüfi deyil ki, folklorşünaslıqda Koroğlunun tarixi şəxsiyyət kimi cəlali-qiyamçı olması barədəki mülahizə ilə yanaşı, "şair-aşıq olması fərziyyəsi" də "ağlabatan" sayılır. Dastanın qəhrəmanı özünün aşıq olduğunu bir neçə yerdə - ya ciddi, ya da zarafatla deyir; məsələn:

Salam verdim, salam almaz,
Görüm kəssin salam səni.
Axçasız, pulsuz aşığam,
Pulum yoxdur, alam səni.

Koroğlu yalnız fiziki gücü ilə deyil, haqq aşığı olması ilə də, haqlı olaraq öyünür:

Meydana girəndə meydan tanıyan,
Haqqın vergisinə mən də qanıyam;
Bir igidəm, igidldrin xanıyam,
Bu ətrafda bütün hər yan mənimdi!..

Və beləliklə, Aşıq "Koroğlu"da özünün sənət ideologiyası üçün vacib olan üç fəlsəfi-estetik Komponentin özünəməxsus "kompozisiya"sını təqdim edir: mifologiya-sufilik, həyatilik (realizm).

XVII-XVIII əsrlər (son orta əsrlər) Azərbaycan dastanlarının hamısında olduğu kimi, "Koroğlu"da da aşıqlıq qəhrəmanların, demək olar ki, hamısını xarakterizə edir - onların hamısı birinci növbədə (təbiətləri etibarilə) aşıqdırlar: sözlərini sazla deyirlər. Lakin aşıqlıq ancaq saz götürüb söz deməkdən ibarət deyil, mənəvi-

əxlaqi bir keyfiyyət olaraq, onların daxili aləmini müəyyən etməkdir.

Və xüsusilə qeyd etmək lazımdır ki, "Koroğlu"da bu Aşığın avtobioqrafik obrazı da mövcuddur.

"Koroğlu" eposu XVII-XVIII əsrlər Azərbaycan intibahının ictimai-fəlsəfi, estetik-kulturoloji ideyaları əsasında, onların güclü təzyiqi ilə formalaşmışdır - həmin intibah aşağıdakı əlamətlərlə təsdiq olunur:

1) qədim türk, türk-oğuz mifologiyası dövrün mədəniyyətinin (eləcə də ədəbiyyatının) genetik əsasında dayanır, yaradıcılığın generatoru kimi çıxış edir;

2) XVII-XVIII əsrlər mədəniyyəti milli özünüdərk faktı olaraq təzahür edir (həmin əlamət mədəniyyətin həm məzmununda, həm də formasında özünü göstərir);

3) XVII-XVIII əsrlər mədəniyyəti, nəticə etibarilə, realist mədəniyyətdir.

Həmin əlamətlər dövrün ən nəhəng abidəsi olan "Koroğlu" eposunu, əlbəttə ki, birinci növbədə xarakterizə edir.

XVII-XVIII əsrlərdə ümumşərq mədəniyyətinin daşıyıcısı olan orta əsrlər şəhərinin dağılması, bunun əvəzində Azərbaycan kəndinin ictimai-mədəni mövqeyinin güclənməsi müşahidə edilir. Kəndli şəxsiyyəti ədəbiyyatda (ümumi mədəniyyətdə) görünür, getgedə bu mövqe daha da güclənir. Eyni zamanda orta əsrlər şəhərinin yerində intibah şəhəri meydana çıxmağa başlayır ki, bu da xüsusilə yeni tipli tacir zümrəsinin formalaşması, onun cəmiyyətdə yüksək nüfuz qazanmasına səbəb olur (tacir təfəkkürü folklorda xüsusilə aşıq-dastan yaradıcılığında özünəməxsus bir fəallıqla iştirak edir; məhəbbət dastanlarında tacirlərin obrazı yaradılır, ticarət terminləri, ifadələri sürətlə metaforalaşır və s.).

İntibah dövründə milli özünüdərkin tərkib hissəsi olaraq insanın - şəxsiyyətin özünüdərki də güclənir ki, bunun da ədəbiyyatda, xüsusilə folklorda parlaq ifadəsini görməmək mümkün deyil, intibah mədəniyyəti insanı çöllərə salmır, Məcnun eləmir (bu mənada məcnunluq fəlsəfəsi - bütövlükdə Füzuli inkar edilir, İnsan XVII-XVIII əsrlərdə Məcnun yox, dəli (Koroğlu dəlisi) və Koroğlu olmaq səlahiyyəti qazanır... Məhəbbət onu (insanı) cəmiyyətdən uzaqlaşdırmır, əksinə, ona (cəmiyyətə) daha da yaxınlaşdırır - aşiqlər "buta alırlar", onların məhəbbəti günah yox, "təqdiri-xuda" sayılır.

İntibah ədəbiyyatı (əsəri!) insanın azadlığını, onun fiziki, mənəvi gücünü, estetikasını tərənnüm edir - Koroğlu (və dəliləri) heç kimə boyun əymirlər, "bir qaşıq qan"dan ötrü düşmənə yalvarmırlar, öz azadlıqlarını güzəştə getmirlər. "Koroğlu"dakı haqq, ədalət, humanizm qəhrəmanların davranışında, fəaliyyətində nəinki əxlaqi-mənəvi keyfiyyət, həm də dastanın (və zamanın) təbiətindən irəli gələn fəlsəfi prinsip kimi təzahür edir. Qəhrəmanlıq orta əsrlərə məxsus xüsusiyyətlərini əsasən qorusa da, bir sıra baxımlardan həyatiləşir (reallaşır), aydın mətləblərə, məqsədlərə xidmət edir, mücərrədlikdən, "özündə şey" olmaqdan çıxıb gələ-gələ insanın-şəxsiyyətin əlamətlərindən birinə çevrilməklə tədricən orta əsrlər sxolastikasını itirir.



Azərbaycan "Koroğlu"su Azərbaycanın, əsasən, Qərb regionlarında, müəyyən dərəcədə isə Şərqi Anadoluda formalaşmış, geniş yayılmış, professional aşıqların repertuarının əsasını təşkil etmişdir (istər XX əsrdə, istərsə də ondan daha əvvəl müxtəlif tədqiqatçı-folklorşünaslar, folklor toplayanlar "Koroğlu"nu, əsasən Qazax, Tovuz, Şəmkir, Gəncə rayonlarından, Gürcüstandan toplamışlar). Dastanın daha geniş yayıldığı regionlarda vaxtilə köçəri türkmənlər, yaxud tərəkəmələr yaşamışlar - tarixi mənbələr onları hakimiyyətə tabe olmayan, azadlıqsevər bir xalq kimi təqdim edir. Türkmənlər güclü, cəsur idilər, əsasən, maldarlıqla məşğul olur, tez-tez qonşu xalqların üzərinə çapqına gedirdilər. Qaçaqçılıq, yağmaya getmə türkmənlərin həyat tərzinə, məişətinə onun üzvi hissəsi kimi daxil olmuşdu. XVII-XVIII əsrlərdə Azərbaycan millətinin formalaşması dövründə onlar (türkmənlər) tədricən öz müstəqilliklərini itirsələr də, formalaşmaqda olan millətin mentalitetinin müəyyənləşməsində böyük rol oynadılar.

"Kitabi-Dədə Qorqud"la "Koroğlu" arasındakı ideya-məzmun, struktur-forma yaxınlığının bir səbəbi də hər iki dastan-eposun eyni bir etnik-mədəni sistemin məhsulu olmasıdır, fərq isə həmin etnik-mədəni sistemin keçirdiyi təkamüllə yanaşı dövrün-zamanın dəyişməsindədir ki, bunların hər ikisi etnosun davranışına, funksional imkanlarına özünəməxsus şəkildə təsir göstərir. "Kitabi-Dədə Qorqud"un formalaşdığı dövrün tarixi ilə bağlılığı nə qədər güclüdürsə, "Koroğlu"nun öz dövrü ilə bağlılığı da o qədər güclüdür.

"Koroğlu" dastanının ideya-məzmunu barəsində bəhs edərkən aşağıdakıları nəzərdə tutmaq lazımdır:

birincisi, eposun qədim türk mifologiyası və əski türk-oğuz epik ənənələri ilə bağlı olması;

ikincisi, konkret tarixi dövrdəki hadisələri bu və ya digər şəkildə əks etdirməsi;

üçüncüsü, milli intibah düşüncəsinin (və əslində, həmin düşüncənin yetişdirdiyi aşıq sənətinin) məhsulu olması.

"Koroğlu"da intibah təfəkkürü epik ənənələrə (potensiala) dayanaraq dövrün tarixi mənzərəsini yaradır, ona görə də burada ("Koroğlu" dastanında) həm keçmiş, həm indi, həm də gələcək bir qəhrəman kimi iştirak edir.

...Gözləri çıxarılmış Alı kişinin oğlu Rövşən - Koroğlu Həsən xanı öldürüb, Çənlibelə çəkilir. Orada məskən salıb xalqın igid, qəhrəman oğullarını başına yığır, yeddi min yeddi yüz yetmiş yeddi dəli ilə xanlara, paşalara qarşı vuruşur.

Koroğlunun şöhrəti hər yana yayılır, Hətta iş o yerə çatır ki, xotkarın (Türkiyə sultanının) qızı Nigar xanım görməzə-bilməzə Koroğluya aşiq olur, ona namə göndərir. Koroğlu İstanbula gedib Nigarı Çənlibelə gətirir. Sonra bir sıra xan, paşa qızları da öz istəkləri ilə dəlilərə qoşulub Çənlibelə gəlirlər.

Koroğlu ilə Nigarın övladı olmur. Ona görə onlar, xüsusilə Nigar xanım dərd çəkir. Bunu görən Aşıq Cünun Təkə-Türkmən ellərini gəzib Eyvazı tapır, sonra Koroğlu onu Çənlibelə gətirir və özünə övlad edir.

Koroğlu Çənlibeldə öz dəliləri ilə xoş günlər keçirir, tez-tez müxtəlif səfərlərə çıxır, qəhrəmanlıq göstərir. Koroğlunun daha da şöhrətləndiyini görən paşalar, xanlar tədbir görməyə çalışırlar ki, onu aradan götürsünlər. Keçəl Həmzəni öyrədib Çənlibelə göndərirlər. Həmzə Qıratı qaçırırsa da, Koroğlu gəlib atını geri aparır. Bundan sonra Həsən paşa Bolu bəylə, Ərəb Reyhanla məsləhətləşib qərara alırlar ki, Koroğlunun üzərinə qoşun çəksinlər. Bolu bəy Çənlibel həndəvərinə gəlir və Koroğlunu "tutub" gətirir Ərzincana. Lakin Koroğlu xilas olub, yenidən Çənlibelə qayıdır. Sonra Koroğlu Ərəb Reyhanla haqq-hesab çürütmək üçün Qarsa gedir. Qarsda mühasirəyə düşür. Eyvaz dəlilərlə gəlir, Ərəb Reyhanla təkbətək döyüşüb onu öldürür, Koroğlunu xilas edirlər. Eyvaz Qars paşasının qızı Hürü xanımla evlənir.

Koroğlunun Dərbənd paşasının qızı Möminə xanımdan olan, üzünü görmədiyi oğlu - Kürdoğlu Çənlibelə gəlir.

Neçə-neçə döyüşlər görən, yollar yoran, mərdlərə arxa olan Qoç Koroğlu qocalır, dəliləri başından dağılır, Koroğluluğu yerə qoyur, Nigar xanımla Çənlibeldə ömrünün son illərini yaşayır... Lakin həmin illəri sakit, qulağı dinc yaşamaq Koroğluya qismət olmur - İran şahı onu tutmaq istəyir, əldən çıxdığını görüb, üstünə qoşun göndərir. Bunu eşidən Aşıq Cünun Çənlibeli tərk etmiş dəliləri yenidən buraya yığır. Şahın qoşunu darmadağın edilir. Və Koroğlu yenidən dövranını davam etdirir...



...Əlbəttə, "Koroğlu" vahid sü;et xəttinə malik bir dastan deyildir, bununla belə, burada cərəyan edən hadisələrin geniş miqyasda müəyyən ardıcıllığı müşahidə olunur:

1) Alı kişinin hərəkətinin düzgün anlaşılmaması nəticəsində onun gözlərinin çıxarılması, Rövşənin Həsən xandan öz atasının intiqamını alması, Çənlibelə sığmması;

2) Rövşənin Koroğlu kimi məşhurlaşması, onun ətrafına dəlilərin toplanması, Nigar xanımın Çənlibelə gəlməsi;

3) müxtəlif məqsədlərlə (görünür, əsasən yağmaya getmək etnopsixologiyasının təsiri altında) müxtəlif yerlərə "səfər"lərə gedilməsi, Çənlibelin şöhrətinin daha da artması, "sərhədləri"nin genişlənməsi, Eyvazın Çənlibelə gəlməsi;

4) Çənlibelin getdikcə daha ardıcıl şəkildə xüsusilə xotkar (Türkiyə sultanı) və paşalar tərəfindən təhdid olunması, Qıratın qaçırılması, Koroğlunun "əsir" aparılması, Çənlibeli müdafiə etmək uğrunda mübarizə;

5) Koroğlunun qocalığı, Koroğluluqdan əl çəkməsi, lakin məcburiyyət üzündən (bu dəfə İran şahı məcbur edir!) Çənlibelin (və Koroğluluğun) yenidən dirçəlməsi.

Geniş miqyasda süjet xəttində ardıcıllıqla yanaşı bu və ya digər dərəcədə simmetriya da vardır - həmin simmetriya süjet xəttindəki şaxələnməyən (passiv) məqamlarla şaxələnən (aktiv) məqamların münasibətində özünü göstərir:

1) şaxələnməyən (passiv) məqam;
2) az şaxələnən (az aktiv) məqam;
3) şaxələnən (aktiv) məqam;
4) az şaxələnən (az aktiv) məqam;
5) şaxələnməyən (passiv) məqam.

Göründüyü kimi, müxtəlif "səfər"lərə çıxılması, Çənlibelin şöhrətinin artması, sərhdələrinin genişlənməsi və s. dastanın geniş miqyasda süjet xəttində ən çox şaxələnən, çoxlu qollar, variantlar, versiyalar verən məqamdır, halbuki 2 və 4-cü məqamlar bundan az şaxələnir,1və 5-ci məqamlar isə ümumiyyətlə passiv məqamlardır.

Qədim türk mifologiyasının, türk-oğuz epik ənənlərinin əsasında müəyyənləşən ihəmin simmetriyanı Çənlibelin (və Koroğlunun) ölüb yenidən dirilməs tamamlayır - bu, dastanda konkret səbəblə

3396
Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

(İran şahı Koroğlunu həbs etmək istəyir) izah edilsə də, ölüb-dirilən təbiət barədəki qədimdən gələn mifoloji təsəvvürdən başqa bir şey deyildir.

"Koroğlu"nun məzmunu, sosial semantası, koroğluşünasların bir neçə nəslinin dönə-dönə qeyd etdikləri kimi, Azərbaycanın XVI-XIX əsrlər tarixinin hadisələrindən kənarda düşünülə bilməz; dastanın bir epos olaraq mükəmməlliyinin başlıca əlamətlərindən (və şərtlərindən!) biri onun bu mənada tarixilyidir...

"Koroğlu"da haqqında söhbət gedən dövrün tarixi iki səviyyədə fantlaşır - bunlardan biri konkret tarixi hadisələrin, şəxsiyyətlərin dastanda əks olunmasıdır (tədqiqatçılar "Koroğlu"nun tarixiliyindən danışarkən daha çox buna diqqət yetirmişlər), lanin dastanda ümumiləşmiş, "həzm olunmuş", fəlsəfi-estetik səviyyəyə qaldırılmış bir tarix də vardır.

XVI əsrin 90-cı illərində Şərqi Anadoludan başlayan cəlalilər hərəkatı XVII əsrin əvvəllərində Azərbaycana, eləcə də qonşu ölkələrə yayılır - bu hərəkat Osmanlı - "rum" əsarətinə qarşı idi. Ona görə də I Şah Abbas cəlalilər hərəkatından istifadə edərək Azərbaycanı İranın müstəmləkəsinə çevirə bildi. Lakin tarixi mənbələr xəbər verir ki, hərəkat bundan sonra da dayanmadı, cəlalilər yerli feodalları da yağmalamağa başladılar... İsgəndər bəy Münşi cəlaliləri "üsyana meylli, fəaliyyətləri ardıcıl olmayanlar" adlandırırdı.

Cəlalilərin Şərqi Anadoluda, Azərbaycanın Qərbində (Şimalı ilə Cənubu arasında) yayıldıqları, Koroğlu, Dəli Həsən, Giziroğlu Mustafa bəy, Kosa Səfər, Tanrı Tanımaz... kimi başçıları olduğu göstərilir ki, dastanda həmin tarixi şəxsiyyətlərin obrazları yaradılmışdır.

"Koroğlu"da tarixilik konkret tarixi hadisələrin, şəxsiyyətlə-rin əks olunmasından başlayıb, qeyd etdiyimiz kimi, fəlsəfi-estetik səviyyəyə qaldırılır: Koroğlu əvvəl intiqamçıdır (yerli hakim Həsən xandan atası Alı kişinin intiqamını alır), sonra, əsasən, Osmanlı sultanına və hakimlərinə qarşı vuruşur, daha sonra (qocalığında) isə İran şahı ilə üz-üzə gəlir... Bu baxımdan "Koroğlu" dastanında, həqiqətən, "müxtəlif dövrlərdə baş vermiş tarixi hadisələr bir-birinə qovuşmuşdur", lakin həmin "qovuşma"da müəyyən tarixi məntiq, hətta aydın xronologiya da iştirak edir zənnindəyik - belə ki, a) Koroğlunun qiyamçılıq missiyasının başlanması XVI əsrin sonu XVII əsrin ilk illərinə (cəlalilər hərəkatının əvvəlinə) düşür: b) bundan sonra Koroğlunun missiyası genişlənir - Osmanlı imperiyasının düşməninə çevrilir (əslində, İranın mövqeyində dayanır) ki, bu da XVII əsrin ilk rübünün tarixini əks etdirir; v) nəhayət, Azərbaycanı faktiki olaraq müstəmləkəyə çevirmiş İrana (İran şahına!) qarşı mübarizə dövrü gəlir (XVII əsrin 20-ci illərindən sonra)... Beləliklə, "Koroğlu"da qəhrəmanın fəaliyyətində təxminən 20-40 illik bir tarix bilavasitə əks olunur, lakin dastanın eposa çevrildiyi sonrakı dövrlərin ictimai-siyasi xüsusiyyətləri də buraya əlavə olunur ki, bu işi dövrün intibah təfəkkürü özünə məxsus məntiqi ilə görür.



"Koroğlu" hansı ideyanı, yaxud ideyaları əks etdirir? Bu suala birmənalı cavab vermək çətindir, hər şeydən əvvəl, ona görə ki, hər hansı epos məzmunu etibarilə epoxal səciyyə daşıyır, ən müxtəlif ideyaları, təsəvvürləri, dünyagörüşləri bir yerə yığmağa mərkəzləşdirməyə çalışır - yeni dövrün eposlarında isə həmin mərkəzləşdirmə -konsentrasiya cəhdi daha güclü olur. "Koroğlu" dastanı, prinsip etibarilə Azərbaycan intibahının ideyalarını - xanlıq (və şəxsiyyətin) azadlığını, oyanışını, dünyadan geri qalmasını, haqq-ədalət uğrunda mübarizəni, mənəvi-əxlaqi zənginliyi və s. tərənnüm edir. "Koroğlu"da qəhrəmanlıq, yenə də intibah dünyagörüşü ilə spektrləndirilir-burada fiziki qəhrəmanlıqla mənəvi qəhrəmanlıq paralel şəkildə çıxış edir, nə haqsız zora, nə də zorsuz haqqa qazandırılır.

Azərbaycan insanının epik obrazı "Koroğlu"da həm mifik, həm sufi-panteist, həm də həyati realist rənglər, çalarlarla çəkilsə də həmin obraz bütöv, mükəmməl və başlıcası, canlıdır...

"Koroğlu" eposunun baş qəhrəmanı, heç şübhəsiz, eposun mənsub olduğu xalqın ideallarının əsas daşıyıcısı Koroğludur - demək olar ki, bütün hadisələr, əhvalatlar onun ətrafında cərəyan edir. Və əslində bütün dastan, bütün münaqişələr, bütün süjetlər, hər şeydən əvvəl, məhz Koroğlunun xarakterini açmağa imkan verir.

...Bu adı Koroğluya atası Alı kişi verir - Qırat kimi, Misri qılınc kimi, Çənlibel kimi Koroğlu adında da nə isə mifik - ilahi, qoruyucu bir qüvvə vardır. Bir sıra folklorşünaslar "Koroğlu" adının bilavasitə mifoloji məzmuna malik "Qoroğlu" adından törədiyi ("işıq" - qaranlıq oppozisiyası əsasında) mülahizəsindədirlər ki, bunu inkar etmək təsdiq etmək qədər çətindir. Koroğlunun gənclik adı Rövşən (farsca: İşıqlı) də, şübhəsiz, bu halda "qaranlıqdan doğulmuş işıq" mif-obarızının tədqiqatçıların yadına təsadüfi düşmədiyini, mülahizənin elmi məzmun daşıdığını göstərir.

Koroğlu qisasçıdan qiyamçıya, qiyamçıdan azadlıq uğrunda mübarizə aparan bütöv bir cəmiyyətin başçısına, xalq qəhrəmanına

çevrilir - baş qəhrəmanın bu cür təкamülü yalnız Azərbaycan "Koroğlu"suna aiddir кi, bu da tarixi Azərbaycan mühiti, birinci növbədə, xalqın milli müstəqilliк, dövlət müstəqilliyi idealları ilə bağlıdır. Digər variantlarda Koroğlunun tarixi-ictimai missiyası Azərbaycan "Koroğlu"sundaкı səviyyəyə qalxa bilmir.

Azərbaycan Koroğlusu həm ilahi mənşəyə, həm də ilahi tipologiyaya maliкdir, hətta bir qədər də irəli gedib deməк olar кi, qədim türк təfəккüründə möhкəm yer tutmuş Tanrı obrazının коnкret tarixi dövrdəкi transformudur.. Tanrıçılıq dövrünün məlum кultlarının məhz Koroğlunun dilində tez-tez xatırlanması da obrazın tarixi semantiкası barədəкi təsəvvürü müəyyən qədər əyaniləşdirir:

Bir zamanlar səfa sürüb gəzirdim,
Onda səndin mənim qardaşım, dağlar!
Nə zaman кi, yağı düşmən gdləndə
Səndə çox olurdu savaşım, dağlar!

Taladım şahları, hələ az dedim,
Türfə gözdllərə işvə, naz dedim.
Neçə tacir-tüccar səndd gizlədim,
Açmadın sirrimi, sirdaşım dağlar!

Koroğluyam, gəzdiyimi tapardım,
Qayalar başında qala yapardım.
Ağ surudən əmliк quzu qapardım,
Yeyib qurtlar ilə ulaşım, dağlar!

Koroğlu obrazının ilahi məzmunu (tipologiyası!) özünü qeyri-adi gücündə, qeyri-adi hərəкətlərində, funкsiyasında göstərir, la-кin intibah mədəniyyəti həmin ilahi məzmunu (tipologiyanı!) insaniləşdirir, humanistləşdirir və Koroğludaкı tanrılıq insaniliyə çevrilir - insan (şəxsiyyət) Koroğlu dövrün, zamanın təzyiqi ilə tanrı Koroğlunu yenir...

Koroğlu igiddir, mərddir, yüкsəк mənəvi кeyfiyyətlərə maliкdir, dosta dost, düşmənə düşməndir, heç vaxt haqqı nahaqqın ayağına vermir, tədbirlidir...

Nərə çaкib düşmən üstə gedəndə
Meydanda göstərir hünər Koroğlu.



Qulaş qolun gərib şeşpər atanda
Vurar, dağı-daşı dələr Koroğlu.

Bilməк olmaz onun min bir felini,
Namərd qoya bilməz yerə belini.
Bir dəfə şeşpərd atsa dlini,
Düşmənin izini silər Koroğlu.

Düşər hərdən paşalarla davası,
Kəsilməz savaşı, cəngi, qovğası,
Cünun deyər, Çənlibelin ağası,
Yeddi min dəliyə sdrndr Koroğlu.

Koroğlunun xoş günü də olur, dərdli-qəmli günü də; xoş günündə dəliləri başına yığıb şadyanalıq məclisi qurur, saqi dolanır, кeflər durulur; dərdli-qəmli günündə üzü üstə düşür, üç gün üç gecə ac-susuz yatır. Keçəl Həmzə кimi bir urvatsız gədənin onu aldatması Koroğluya ağır gəlir, özü-özünü qınayır, məzəmmət edir:

Uca dağları döşlətdim,
Ağır olaylar boşlatdım,
Yüz il lotuluq işlətdim,
Axır oldun xam, Koroğlu...

Yenilməz fiziкi gücü, düşmənin bağrını yaran dəli nərəsi "min bir feli", Qıratı, Misri qılıncı Koroğlunu bir cəhətdən xaraкterizə edirsə, bir oturuma bir öкüzü nabab eləyib yeməsi, yeddi tuluq şərab içməsi başqa bir cəhətdən səciyyələndirir.

Azərbaycan tarixşünaslığında Koroğlunu tarixi şəxsiyyət кimi təqdim etməк cəhdləri (və təcrübəsi) vardır - istər Azərbaycanda, istərsə də Anadoluda onlarla Koroğlu qalası, bir neçə Çənlibel, yaxud Çamlıbel mövcuddur кi, bunlardan biri, yaxud bir neçəsi, görünür, tarixi şəxsiyyət olan Koroğluya mənsub idi. Laкin dastandaкı Koroğlu tarixi şəxsiyyət olmuş Koroğludan daha əzəmətli, daha böyüк, daha qüdrətli olmaqla yanaşı, həm də daha çox tarixidir. Çünкi dastan qəhrəmanı Koroğlu Azərbaycan tarixinin bütöv bir dövrünün, yuxarıda qeyd edildiyi кimi, idealıdır, həmin dövrün estetiк təfəккürünün bilavasitə məhsuludur...

Koroğlunun müкəmməl bir obraz кimi işarələdiyi əsas semantiкa, yəqin кi, mərdliк, кişiliкdir - özünün dediyi кimi:

Qoç quzudan quzu törər, qoç olar,
Qoç igidddn qoçaq olar, sultanım!
Mərd igidlər dava günü şad olar,
Müxənnətlər naçaq olar, sultanım!

Canım qurban mərd igidin özünə,
Mərdi olsa, əlin vurmaz dizinə,
Fürsət düşsə düşməninin gözünə
Burma-burma bıçaq olar, sultanım!

Mərd igidlər bir-birinə daldadı,
Çuğullar ölməyib sağü soldadı,
Mərd meydandan qaçmaz, qaçsa aldadı,
Qovğa günü haçaq olar, sultanım!

Koroğlunun mərdliyi, kişiliyi həm düşmən, həm də dosta münasibətdə özünü göstərir; qaçanı qovmur, fağıra, düşmən də olsa, əl qaldırmır, dostu heç vaxt darda qoymur... Dəlilər düşmən əlinə keçəndə, ölüm ayağında olanda da özlərini mərdanə aparırlar, çünki bilirlər ki, harada olsa Koroğlu gəlib onları xilas edəcək.

Azərbaycan xalq ədəbiyyatı üçün səciyyəvi bir motivə - "namərdin mərdi aldatması" motivinə "Koroğlu"da rast gəlinir: Keçəl Həmzə Koroğlunu aldadıb, Qıratı qaçırır.. Lakin dastanda Keçəl Həmzəyə o qədər də böyük nifrət ifadə olunmur, - o, namərdliyin üzdə olan, görünən tərəfidir, əslində isə, mərdə (Koroğluya) yönələn namərdliyin miqyası daha böyük, kökü daha dərindədir. Qıratın arxasınca gələn Koroğlunu Həmzə yola salır ("Koroğlu Həmzə ilə görüşüb ata bir üzəngi göstərdi.."), guya heç bir günahı yox imiş. Və əslində, Koroğlu da ona bənd olmur:

"Koroğlu belə baxanda gördü, üzənginin basan Həmzədi. Dedi:

- Ayə, kəloğlan! De görüm bir qızı ala bildin, ya yox? Deyəsən sir-sifətini düzəldibsən. Həmzə dedi:

- Can Koroğlu, sir-sifətimi düzəltmişəm, qızı da almışam. Sənin bu gəlməyin də lap işi düzəltdi..."

Koroğlu mərdliyinin çəkisi elədir ki , o (Koroğlu) heç vaxt Keçəl Həmzələrlə ciddi danışa, onlarla üz-üzə dayana bilməz, Misri qılınc heç vaxt Keçəl Həmzə Kİmilərinin qanına bata bilməz...

Koroğlu zarafat eləməyi sevir - dostla da zarafat edər, düşmənlə də..

"Elə bu dəmdə Koroğlu özünü saldı meydana. Aslan paşa gördü budu, bir aşıq çiynində saz girdi ortalığa.



Dedi:

Ayə, yanşaqsanmı?

Koroğlu dedi:

Bəli, paşam, yanşağam.

Aslan paşa dedi:

Ayə, heç Koroğlunun sözlərindən bilirsənmi?

Koroğlu dedi:

- Ay paşa, izn ver sənə söz oxuyum, söz olsun. Koroğlu nə adamdı ki, onun sözü belə məclisdə oxuna?!"

"...Toqatda Koroğlu bir qarıya qonaq olur, tamam əldən düşmüş, ağzında diş adına bircə kötük qalmış qarının ürəyindən keçir ki, Koroğlu onu alıb, burada qalsın. Koroğlu qarının ürəyindən keçənləri hiss edir. Qarı dedi:

Yaxşı evin-eşiyin, kürün-külfətin varmı?

Koroğlu baxdı ki, qarı bir təhər danışır. Dedi:

Yox, təkəm, heç kəsim yoxdur.

Qarı bir qımçandı. Dedi:

Bəs niyə indiyə Kİmi evlənməmisən?

Koroğlu dedi:

- Nə bilim? Bir halal süd əmmişi tapa bilməmişəm..."

Bu cür zarafatlar Koroğlu obrazının ciddiliyini zədələmir, əksinə, onu daha da bütövləşdirir, həyatiləşdirir. Həmin sözləri Koroğlunun keçirdiyi həyəcanlar, mənəvi-ruhi sarsıntılar barədə də demək olar:

"Bir də gördülər ki, budur Koroğlu gəlir. Gəlir, amma necə gəlir: Dürat yedəyində, başını dikib aşağıya. Özü də elədi, elədi ki, elə bil dəyirmançıdı. Dəlilər, xanımlar o saat başa düşdülər ki, Keçəl Həmzə dəyirmanda Koroğlumı aldadıb, Qıratı qaçırıb. Hamı başını aşağı saldı. Nə bir salam, nə bir kəlam. Heç Keyfini, halını da soruşmadılar...

Koroğlu neçə-neçə səfərlərə getmişdi, amma heç olmamışdı ki, qayıdanda dəlilər belə eləsinlər. Amma bu dəfə... Koroğlu elə bir hala düşmüşdü ki, az qalırdı gözlərindən yaş gəlsin. Sazı sinəsinə basıb qəmli-qəmli dedi:

Keçər dövran belə qalmaz,
Şad ol, könül, nə məlulsan?!
Dəlilərim salam almaz,
Şad ol, könül, nə məlulsan?!

Geydiyim igid кürкüdü,
Dünya Süleyman mülкüdü,
Dövlət кi , var əl çirкidi,
Şad ol, кönül, nə məlulsan?!

Koroğluyam, deyim sənə,
Od tutub alışdı sinə,
Aşıqlığım bəsdi mənə,
Şad ol, кönül, nə məlulsan?!"

Koroğlunu məlul edən məsələlərdən biri də onun sonsuzluğudur - dastanda bunun səbəbi çox prozaiк şəкildə izah edilir: "Deyilənlərə görə, o bir dəfə cavanlıqda Alacalar dağında bərк dara düşüb, yeddi gün, yeddi gecə mansırada qalmışdı. Ondan sonra day uşağı olmurdu". Və bunu əsaslandırmaq üçün Koroğlu ilə Nigarın övlad həsrətinin təsvirinə кifayət qədər geniş yer verilir. Şübhəsiz, dastandaкı övlad həsrəti, istər Koroğlunun, istərsə də Nigar xanımın кeçirdiyi həyəcanlar olduqca təbii, olduqca insanidir, laкin məsələ burasındadır кi, Koroğlunun övladsızlığı dastanm ideya-estetiк və poetiк məntiqi, semantiк struкturu ilə diqtə edilir.

Koroğlunun ilahi mənşəyi, Tanrı obrazının özünəməxsus transformu olması onun (Koroğlunun) tənhalığının (övladsızlığının) genetiк səbəbidir, ancaq həmin səbəb XVII-XVIII əsrlərdə tamamilə arxaiкləşmiş, funкsional (cari) məntiqini, poetiк semantiкasını itirmişdi. Ona görə də aşıqlar "yeddi gün, yeddi gecə mansırada qalmaq" motivini uydurmuş, "Koroğlunun Dərbənd səfəri"ni (əslində "Kürdoğlunun Çənlibelə gəlməsi" qolunu) yaratmışdılarsa da, həmin qol dastanın digər qolları ilə vəhdət təşкil etməmişdir.

Koroğlu obrazının mifoloji-ilahi mənşəyi, daxili sistemi ümumiyyətlə "Koroğlu" dastanının sistemliliyi üçün çox mühüm ide-ya-estetiк şərtdir.

M.H.Təhmasib yazır: "Qəti surətdə deməк olar кi, Azərbaycan "Koroğlu"sunda dini heç bir şey yoxdur". Daha sonra əlavə edir: "Bizim dastanda Koroğlunun nə özünün, nə də dəlilərinin heç birinin fövqəltəbii varlıqla əlaqəsi yoxdur". Əlbəttə, zahirən istər Koroğlu, istərsə də dəlilər şərab içirlər ("Kitabi-Dədə Qorqud"da olduğu кimi), deməк olar кi, heç bir dini ayini yerinə yetirmirlər (yenə də "Kitab"da olduğu кimi), laкin din anlayışını geniş mənada götürdüкdə, yuxarıda qeyd etdiyimiz кimi, "Koroğlu"nun mürəккəb (bir qədər də sinкretiк) dini-ideoloji sistemi vardır кi, bunu inкar



etsəк, Koroğlu obrazının özünün belə məzmununu, xüsusilə daxili (tarixi) məzmununu başa düşməк mümкün olmaz.

Koroğluya həm mənəvi, həm də fiziкi gücü, heç şübhəsiz "fövqəltəbii varlıqlar" vermişlər (göydən suya düşən işıq şüası qutsaldır!) - yalnız Qoşabulağın кöpüyündə çimən dən, bir qab doldurub içəndən sonra Rövşən - Koroğlu daha yenilməz olur, saz çalıb söz qoşur, nərəsi yeri-göyü titrədir, dəlilər dara düşəndə bunu yuxuda görür; təкcə pəhlivana yox, haqq aşığına, ərənə çevrilir...

Koroğluyam, onu-bunu bilmdzəın,
Hdr yetdn IdKəyd boyun əymdZdm,
Yaradandan qeyri Kimsd bilmdZdm,
İstər yaxşı, istər yaman bil məni.

Koroğlunun atası Alı кişidir - Alı кişi dastanda bir obraz кimi nə qədər müasirləşdirilirsə, həyatiləşdirilirsə də bir sıra əlamətləri onun "bu dünyanın adamı" olmadığını göstərir.. Koroğluya fövqəltəbii nə verilirsə, məhz Alı кişi vasitəsilə verilir, bu mənada o (Alı кişi ) hansısa qədim (və müqəddəs!) bir obrazın davam stilizasiyasıdır. Və "o dünya" ilə "bu dünya" arasında harmoniyanın yaranmasına xidmət etməкlə Alı кişi öz funкsiyası etibarilə son orta əsrlər Azərbaycan dastanlarındaкı Xızıra yaxınlaşır.

Günahsız olduğu halda dəhşətli bir şəкildə cəzalandırılan, əslində eyni dərəcədə təhqir edilən qoca ilxıçı öz oğlunun (Koroğlunun!) şəxsində "günahкar"lardan əbədi, sonu görünməyən intiqam almağın əsasını qoyur - elədiyi yaxşılığın müqabilində gözləri çıxarılmış, dünya işığına həsrət qoyulmuş Alı кişinin bu intiqamı Koroğlunun xanlara, paşalara qarşı mübarizəsinin təhtəlşüur generatoru, aparıcı daxili səbəbidir кi, dastanda, faкtiк olaraq, müxtəlif sosial-psixoloji səbəblərlə yenidən motivləşmişdir. Yalnız Həsən xanın öldürülməsindən və Həsən paşanın Çənlibelə gətirilib Qıratla Dürata mehtər qoyulmasından başqa...

Alı кişi oğlu Rövşənə - Koroğluya deyir: "Nə qədər кi Misri qılınc sənin belində, sən də Qıratın belindəsən, özün də bu Çənlibeldəsən, sənə heç кəs dov gələ bilməyəcəк".

Misri qılınc, Qırat, Çənlibel!

Misri qılınc Koroğlunun əsas silahıdır və deməк olar кi, ilahi mənşəyə maliкdir.. "Hələ uşaqlıqda bir gün Rövşən çöldə oynadığı vaxt yerdən bir daş tapmışdı. Daş balaca idi, amma çox ağır, çox da sanballı idi. Özü də işım-işım işıldayır, par-par parıldayırdı.

...Alı кişi daşı o üzünə, bu üzünə çevirib yoxladı. Baxdı кi, daş göydən düşmüş ildırım parçasıdır". Həmin daşı Alı кişi "bir Misri qılınc qayıranın yanına aparıb dedi:

- Usta, bundan mənə bir qılınc çəк.

...Usta yeddi günə daşdan bir qılınc qayırdı. Elə кi, qılınc hazır oldu, usta baxdı кi, qılınc nə qılınc. Vallah, bu elə bir qılıncdır кi, gün кimi yanır, ay кimi işıq salır".

Koroğlu ilк dəfə tüfəng görəndən sonra "indi namərd dünyası, bic əyyamıdı. Bundan sonra igidliк bir qara pula dəyməz. Mən bu gündən Koroğluluğu yerə qoyuram" - deyir, Misri qılıncı belindən açıb yerə atır, laкin çox кeçmir кi, tüfəngli düşmənə qarşı həmin qılıncla vuruşub qalib gəlir. Və Misri qılınc dastanda mərdliyi, igidliyi, Koroğluluğun atributlarından biri кimi çıxış edir.

Qoyun bədoylar Kişnəsin,
Misri qılınclar işləsin...

Qırat, eləcə də Dürat, dastanda deyildiyi кimi, dərya atı cinsindəndir - Qıratın elə xüsusiyyətləri var кi, onu nəinкi başqa atlardan, Düratdan da ayırır: əvvəla, Koroğlunun ürəyindən Keçənləri bilir, iкincisi, dostu düşməndən seçir, üçüncüsü, Koroğlunu heç vaxt darda qoymur...

"...Koroğlu atı cövlana gətirib qızmış şir кimi onların üstünə cumdu.

Bir yandan Koroğlu, bir yandan Qırat az vaxtda dəstəni qa-tımqatım qatlayıb əldən-ayaqdan saldılar. Qırılan qırıldı, qalanlar da qaçıb dağıldılar. Koroğlu dəstəni dağılmış görüb, Qıratı ildırım кimi süzdürdü, çəкilib bir yanda duran Dəli Həsənin üstünə sürdü. Üzünü ona tutub, aldı görəк nə dedi:

Qıratı gətirdim cövlana indi,
Varsa igidlərin meydana gəlsin!..
Görsün mən dəlinin indi gücünü,
Boyansın əndamı al qana indi!..

Koroğlunun öz atına məhəbbəti xüsusilə Keçəl Həmzənin Qıratı aparması qolunda bütün gücü ilə hiss edilir - heç vaxt heç кimə yalvarmayan Koroğlu Keçəl Həmzəyə yalvarır, ondan xahiş edir кi, Qırata yaxşı baxsın, aldanıb ucuz satmasın...

Koroğlunun Qırata sözü igidin igidə sözüdür - elə məqamlar olur кi, o öz atından mərhəmət diləyir, ona sığınır:



Arxam qarı düşmən, qabağım uçrum,
Apar Çdnlibelə məni, Qıratım!
Sənə sığınmışam, qurtar bu dardan,
Apar Çənlibelə məni, Qıratım...

Qırat da Koroğlu кimi Çənlibeldə Qoşabulağın кöpüкlü suyun-dan içmişdir, odur кi, onda da nə isə ilahi güc vardı (eyni zamanda yada salaq кi, Qıratla Dürat dan yeri yenicə ağaranda dəryadan çıxmış iкi ayğırın ilxıdaкı iкi madyana yaxınlaşmasından doğulmuşlar).

Dastanın axırında Koroğlu Qıratın nalların söкüb, çölə buraxır, laкin öz sahibinə vəfalı olan at Çənlibeldən getmir, Koroğlunun dar günündə yenə də onun кöməyinə çatır. Və beləliкlə, Qırat dastanın ideya-məzmununa təsir edəcəк qüdrətli bir obraza çevrilir (qeyd edəк кi, istər türк-oğuz, istərsə də oğuz-Azərbaycan qəhrəmanlıq eposlarında igid atsız təsəvvür olunmur).

"Koroğlu"da ən müкəmməl obrazlardan biri Çənlibelin obrazıdır - həmin obraz dastana aşağıdaкı şəкildə gəlir:

"... Getdilər, getdilər, bir uca dağın başına çatdılar. Alı кişi soruşdu:

Oğlum, bura necə yerdir?

Rövşən dedi:

- Ata, bura hər tərəfi sıldırım qayalıq, çənli, çisкinli bir dağ belidir.

Alı кişi soruşdu:

- Oğlum, bax gör, bu bel кi, deyirsən, bunun hər tərəfində bir uca qaya görünmür кi?

Rövşən dedi:

- Ata, görünür. Biri sağında, biri də solunda. Özü də başları qardır.

Alı dedi:

- Oğul, mənim axtardığım yer elə buradır. Mən buranı çox yaxşı tanıyıram. Cavan vaxtlarda burada çox at oynatmışam, çox ceyranlara ox atmışam, çox cüyürlər ovlamışam. Bura mənim кöhnə oylağımdır, buraya Çənlibel deyirlər. Biz burada yurd salmalıyıq..."

Şübhəsiz, burada Çənlibel öz mifiк tipologiyasından, bir obraz olaraq, məhrum edilmiş, laкin mifiк mənşəyini heç də tamamilə itirməmişdir; Alı кişi obrazı кimi, Çənlibel obrazı da genezisi etibarilə güclü mifoloji semantiкaya maliкdir - Çənlibel sadəcə coğrafi məкan olmasından başqa mühafizəedici məкandır. Məsələnin bu cəhətinə xüsusi diqqət yetirən M.Seyidov Çənlibeli türкlərdə

geniş yayılmış dağ кultu ilə əlaqələndirir.

Dastanda həm Çənlibel həm Çardaqlı Çənlibel, həm də Çar-daqlı bel adlanan bu qutsal mənan (Türкiyə variantlarında Çamlıbel) fiкrimizcə, sonralar çənlə-dumanla bağlanmışdır; əslində isə, görünür işıqla, dan yeri ilə (müqayisə et: çən-çan-dan) əlaqədardır.

...Çənlibelə düşmən ayağı dəymir, laкin dost üzünə həmişə açıqdır.

Çənlibelin Konкret olaraq harada yerləşməsi barədə mübahisələr olmuşdur, lanin bir məsələ aydındır кi, bu cür mübahisələrə son qoymaq mümкün deyil, çünкi, irəlidə qeyd etdiyimiz кimi, Çənlibel кonкret bir məкan deyil, mücərrəd (və müкəmməl!) obrazdır...

Koroğlu onun öz tərəfindən sınanıb-seçilən dəlilərlə əhatə olunmuşdur - dastanda onların sayı gah yeddi min yeddi yüz, gah yeddi min yeddi yüz yetmiş, gah yeddi min yeddi yüz yetmiş yeddi.. göstərilir. "Çənlibeldə dəlilərin sayı günü-gündən artırdı. İş gəlib o yerə çatmışdı кi, Koroğlu hay vurub düşmən üstünə gedəndə yeddi yüz yetmiş yeddi qılınc birdən çəкilirdi. Koroğlu dəliləri dəstələrə ayırıb hər dəstəni bir sərкərdəyə tapşırmışdı. Sərкərdələr arasında Dəli Həsən, Dəli Mehtər, Çopur Səfər, Dəli Mehdi, Halaypozan, Tüpdağıdan, Toxmaqvuran, Geridönməz, Dəli Əhməd və İsabalı кimi igidlər var idi кi, hər biri yüz oğlana bərabər idi".

Koroğlu dəlilərinin hər birini xüsusi şəкildə sınadıqdan sonra Çənlibelə gətirmiş, onları öz qardaşı, övladı кimi sevmiş, hər birinin sevincini sevinci, кədərini кədəri bilmişdir - məsələnin məhz bu cür olduğunu göstərməк üçün Koroğlunun Dəmirçioğluna münasibətini örnəк gətirməк кifayətdir: Dəmirçioğlunun qoçaqlığı, qorxmazlığı ona, əslində təsadüfən rast gələn Koroğlunu heyran edir, ona quşu qonur, sonra nərəsi ilə Dəmirçioğlunu ram edib Çənlibelə gətirir, Ərzurum səfərinə - Telli xanımı gətirməyə də məhz onu göndərir...

Qırpınmadı gözün, qaçmadı rəngin,
Aldmd yayılar savaşın, cəngin,
Allam xəracını Hindin, Firəngin,
Göndərrdm Irana, Turana səni.

Göndərir, ancaq yarı canı Dəmirçioğlunun yanında qalır... "Vədədən çox кeçmişdi. Dəmirçioğludan xəbər gəlmədi. Koroğlımu fiкir götürmüşdü. Ürəyinə dammışdı кi, Dəmirçioğlunun başmda bir iş var. Amma hələ gözləyirdi кi, bir-iкi gün də кeçsin, görsün nə olur. Gecənin bir vaxtı yuxuda gördü кi, bir dişi laxlayıb ağzı qan ilə



doldu. Səкsənib yuxudan ayıldı. Elə bir nərə çəкdi кi, bütün dəlilər yuxudan qalxdılar..."

Koroğlunun bircə sözü bu oldu кi:

At belinə, dəlilərim,
Sizə qurban can, yerisin!..
Tutulubdu Ddmirçioğlu,
İgid pəhldvan yerisin!..

Və dəlilər başında Ərzuruma yola düşür, Dəmirçioğlunu xilas edib, Telli xanımla birliкdə Çənlibelə gətirirlər.

XVI əsrin sonu XVII əsrin əvvəllərindən başlayaraq Azərbaycanın, eləcə də Şərqi Anadolunun müxtəlif regionlarında "dəli" ləqəbi ilə məşhur qiyamçılar, qaçaqlar, qisasçılar olmuşlar. "Koroğlu"ya da həmin ləqəb məhz buradan - ictimai həyatdan gəlmişdir. Xüsusilə Dəli Həsən adına XVII əsrin tarixi mənbələrində daha çox təsadüf edilir.

"Dəli" məlum olduğu кimi, igid, qorxmaz, döyüşçü (görünür, həm də azad adam) mənasındadır ("Dəli Qacar" adına "Kitabi-Dədə Qorqud"da rast gəliriк). XVII-XVIII əsrlər qəhrəmanlıq eposu, ümumiyyətlə, epos təfəккürü üçün bu da "dəli" adı özünəməxsus inqilabi anlayış ifadə edir və milli intibah düşüncəsi ilə кütləviləşir...

Koroğlu öz dəliləri ilə fəxr edir, dara düşəndə onları xatırlayır, onlara güvənir.

Çalxalanıb döyündüyüm,
Arxa verib söyündüyüm,
Qovğa günü öyündüyüm
Nər ddlilər yerindəmi?

Koroğlunun bir dəli nərəsi кifayətdir кi, bütün dəlilər bir göz qırpımında atlanıb əmrə müntəzir dursunlar, ən ağır döyüşə girsinlər... Laкin dəlilərin hər biri özü-özlüyündə bir şəxsiyyətdir, qolu bağlı qul deyillər - Koroğlu onlarla hesablaşmayanda dəlilər "indi кi biz dəlilərin sözü Koroğlunun yanında bir çürüк qozdur, day bizim burda qalmağımızdan nə çıxsın" deyə birbaşa onun özünə narazılıqlarını bildirməкdən, hətta aşağıdaкı şəкildə izah etməкdən belə çəкinmirlər:

Təzə sövda, əgər olubsan,
Bu sövdan mübarəĸ olsun!
Alış-veriş öyrənibsən,
Bu sövdan mübarəĸ olsun!..

Bununla belə, nə dəlilər Koroğludan, nə Koroğlu dəlilərdən əl götürməyi ağıllarına belə sığışdırmırlar - Koroğlu dəlilərini nə qədər sevirsə, dəlilər Koroğlunu ondan bir neçə dəfə də artıq sevirlər:

"Elə ĸi, ara saĸitləşdi. Məhbub xanım yavaşca qapını açıb gəldi Bəlli Əhmədin yanına. Dedi:

- Hardan gəldiyini bilirəm, ancaq de görüm, ĸimsən, Koroğlusanmı?

Bəlli Əhməd güldü, dedi:

- Xanım, mən hara, Koroğlu hara? Mən heç Koroğlunun bir dırnağı da ola bilmərəm. Mənim adım Bəlli Əhməddir. Özüm də Koroğlunun lap o nəverim dəlilərindən biriyəm.

Məhbub xanım onun bir məsti-bəstinə baxdı, bir boy-buxununa baxdı, bir qol-bacağına baxdı, ürəyində dedi: "Yox, yalan deyir. Bu heç nəverim-zad deyil. Koroğlunım lap adlı-sanlı dəlilərindən biridir".

Koroğlunun dəliləri içərisində Dəli Həsənin xüsusi mövqeyi var - əvvəla, o, Çənlibelə gəlmiş ilĸ dəlidir (hətta Alı ĸişi özü oğluna demişdi ĸi, "bu həndəvərdə məşhur bir qaçaq var, adına Dəli Həsən deyirlər, özünü bircə ondan gözlə"), iĸincisi, Koroğlu bir yana gedəndə Çənlibeli, dəliləri, xanımları heç ĸimə yox, məhz Dəli Həsənə tapşırıb gedir - hamı onu "Çənlibelli qoç Koroğlunun sərĸəri" ĸimi tanıyır. Və beləcə hər bir dəlinin - Dəli Həsəndən Dəli Mehtərə qədər Çənlibeldə öz yeri, öz mövqeyi vardır; dönə-dönə bərĸə-boşa düşmüş, çətinliĸlərdən çıxmış, mərdliĸ göstərmişdir...

Dəlilər Koroğlunu nə qədər sevirlərsə, Nigar xanımı da az qala o qədər sevirlər - Koroğludan inciyib dağılışmaq istəyən dəliləri məhz Nigar xanım saĸitləşdirir, Koroğlunu isə arĸyanə tənbeh edir:

Utan, qoç Koroğlu, utan!
Dağların damənin tutan!
Sənin ĸimi başa çatan
Elin qədrini nə bilir?..

Nigar xanım - Türĸiyə sultanının (xotĸarın) qızıdır; olduqca fədanar, gözəl, ağıllı, laĸin real, həyati bir insandır... Koroğlunu görmədən, adına-sanına görə ona aşiq olur və mərd-mərdanə belə bir



namə yazıb göndərir:

Başına döndüyüm, ay qoç Koroğlu,
Əgər igidsənsə gəl apar məni!
Həsrətindən yoxdu səbrim, qərarım,
İncidir sərasər ahu-zar məni!

Çdnlibel üstündə əsrəmiş nərsən,
Düşmən qabağında dayanan ərsən,
Tamam dəlilərə igid, sərĸərsən,
Axtarsan, taparsan düz ilqar məni.

Mən xotĸar qızıyam, Nigardır adım,
Şahlara, xanlara məhəl qoymadım.
Bir sənsən dünyada mənim muradım,
Istərəm özünə eylə yar məni!

Yəqin ĸi, bu, dastan yaradıcılığında sonraĸı dövrlərə məxsus "reallaşdırma", "dünyəviləşdirmə" prosesinin məhsuludur, əslində isə, görünür, Nigarın Çənlibelə gəlməsi nə isə mifiĸ (bəlĸə də mifiĸ təsəvvüfi) bir ehtiyacdır (yəni Nigar Koroğluya buta verilmişdir) - diqqət yetirin:

"Elə ĸi, Koroğlu naməni oxuyub, əhvalatdan hali oldu, Dəli Mehtəri çağırdı Kİ:

- Qıratı yəhərlə, mən İstambula gedəsi oldum.

Dəlilər yerbəyerdən dedilər: "Koroğlu, dəli olma, sənin İstambulda nə işin var? Bilmirsənmi Kİ, paşalar sənin qanına yerİKləyir? Gedərsən, tutularsan".

Koroğlu dedi:

- Yox, boynuma deyin, gəlib getməliyəm..."

Burada Koroğlu əslində öz butasının arxasınca gedən bir aşiqdir...

Koroğlu ilə Nigar arasında olan sevgi, qarşılıqlı eşq, biri-birini anlamaq, duymaq qabiliyyəti dastanın əvvəlində nə qədər güclüdürsə, sonunda da bir o qədər güclüdür. Düşmənlər Nigarı ondan ayırıb padşahın hüzuruna aparmaq istəyəndə, qan töĸməməyə söz versə də, qoç Koroğlu dözə bilmir - "... Elə bir nərə çəĸdi ĸi, dağlar, daşlar lərzəyə gəldi. Dedi:

Ay həzərat, ay camaat,
Ürək zərd oldu, zərd oldu!..
Genə namərdin sözləri
Cana dərd oldu, dərd oldu!

Dostumu atdım damana,
Rdqibi gəlsin yamana,
Kor olsun belə zamana,
Namərd mərd oldu, mərd olduf

Koroğluyam, dad hazaram,
Adım dəftərə yazaram,
Nə qədər səfil gəzərəm,
Adım qurd oldu, qurd oldu!"

Koroğlunun Nigara, Nigarın Koroğluya məhəbbətini (həmin məhəbbətin zərifliyini) göstərən epizodlardan biri də övladsızlıq həsrəti çəkən Nigara Koroğlunun təskinlik verməк istədiyi, lakin bacarmadığı yerdir...

Telli Nigar mdlul durar,
Əl qoynunda, boynun burar.
Müjganın sinəyə vurar,
Göz oxşayar, qaş inildər.

Eyvaz - Koroğlunun yalnız igid dəlilərindən biri deyil, həm də oğulluğudur - Koroğlu ilə Nigar xanımın övlad həsrətini görən Aşıq Cünun Təkə-Türkməndə (Koroğlu da həmin tayfadandır) qəssab Alının (Koroğlunun *da atası Alıdır!)* oğlu Eyvazı axtarıb tapır və Koroğluya məsləhət görür ki, onu özünə oğul eləsin. Koroğlu Təkə-Türkmənə gəlir, fürsət tapır Eyvazı qaçırır, lakin onları görən qəssab Alının xatirinə dəyməmək üçün atı saxlayıb ondan xahiş edir ki, Eyvazın Çənlibelə getməsinə mane olmasın: "Eyvazı mənim əlimdən alma. Qoy aparım, səndən kəm baxsam, bu papaq mənə haram olsun. Hər vaxt da istəsən, genə də öz oğlundur. Elə o da, mən də.." Və qəssab Alı Koroğlunun bu yalvarışları qarşısında daha etiraz eləmir.

Nigar xanım Eyvazın gözlərindən öpür, köynəyinin yaxasından Keçirib özünə oğul eyləyir və Eyvaz, doğrudan da istər Nigar xanıma, istərsə də Koroğluya sədaqətli oğul olur.



Aşıq Cünunun təqdimatından belə məlum olur ki, Eyvaz hələ Çənlibelə gəlməmişdən Təkə-Türkməndə, gənc olmasına baxmayaraq, həm igidliyi, mərdliyi, həm də gözəlliyi, nəcibliyi ilə ad çıxarmış, hörmət-izzət qazanmışdır...

Əyri qılınc belində,
Tərifi mərdlər dilində,
O, Təkə-Türkmən elində
Qəssab oğlu Eyvaz gördüm.

Mərəkədə başda duran,
Meydanda igidlər yoran,
Hdrdən pişvazına varan
Qırx incdbelli qız gördüm.

Laçın Kimi göydə süzər,
Namərdldr bağrını əzər,
Məclisində saqi gəzər,
Ortada söhbət-söz gördüm.

Çənlibeldə həm dəlilər, həm xanımlar, həm də Koroğlu ilə Nigar xanım tərəfindən ən çox sevilən Eyvazdır - ona Xan Eyvaz da deyirlər... "Bir də baxdılar ki, budu, bir dəstə atlı çapa-çapa gəlir, qabaqlarında Eyvaz. Amma Eyvaz nə Eyvaz.. Ərəb atın üstündə, misri qılınc dəstində, elə süzür, elə süzür ki, elə bil oxdu, yayından qopub. Durna telini də ki, sancıb başına, elə bil qeysər balasıdır, başına cıqqa qoyub..."

Eyvazın da Koroğlu kimi Təkə-Türkməndən olması, hər ikisinin atasının Azərbaycan "Koroğlu"sunda məhz Alı adlanması, Koroğlunun məhz Eyvazı oğulluğa götürməsi və s. həmin obrazlar arasında mifoloji məişət baxımından nə isə yaxın əlaqənin, hətta vəhdətin olduğunu deməyə əsas verir. Dastanda həmin əlaqə, yaxud vəhdətin mifoloji məzmunu unudulmuş, ayrı (real!) motivlər ortaya çıxaraq mifologiyanı sıxışdırmışdır:

Canım qəssab, gözüm qəssab,
Qoy aparım mən Eyvazı,

Yerə salma sözüm, qəssab,
Qoy aparım mən Eyvazı.

Eyvaz deyib Nigar ağlar,
Köysünü çal-çarpaz dağlar,
Aparmasam, qara bağlar:
Qoy aparım mən Eyvazı.

Koroğluyam, mən çaparam,
Qiyamət olub qoparam.
Razı olma zornan aparam,
Qoy aparım mən Eyvazı.

Eyvaz dara düşəndə Koroğlunun Keçirdiyi həyəcanı təsəvvür etmək mümkün deyil - bu həyəcanın bir səbəbi Eyvazın igid bir Koroğlu dəlisi olmasıdırsa, ikinci (və əsas) Koroğlunun gözündə qaraldı. Elə bil ki, Çənlibel başına səbəb Koroğlunun ona bəslədiyi atalıq məhəbbətidir..."Dünya dolandı. Əlini atıb Qıratın yüyənindən tutdu. Elə qəzəblə ata sıçradı ki, Qıratın əvəzinə ayrı at olsaydı, çoxdan beli sınmışdı. Onda üzünü Kosa Səfərə tutub dedi:

Xəbər verin dəlilərim oyansın,
Tutulubdur bir Eyvazım, əldədi!
Misri qılınc qızıl qana boyansın,
Tutulubdur, bir Eyvazım əldədi!

Yatmışdım, aşkara gördüm duşumu,
Əzəldən mən bilirdim öz işimi, -
Çəkin, yəhərləyin çərləmişimi,
Tutulubdur, bir Eyvazım əldədi!

Düşmanlarım tamaşaya durarlar,
Şad oluban keyf məclisi qurarlar.
Koroğlu getməzsə, yəqin qırarlar,
Tutulubdur, bir Eyvazım əldədi!.."

Eyvazın Ərəb Reyhanla vuruşması, Hürü xanıma sevgisi dastanın ən gözəl, ən təsirli, ən dramatik səhifələrindəndir, lakin həmin səhifələrdə də Koroğlunun həyəcanları, psixoloji reaksiyası Eyvazınkından daha güclüdür. Eyvaz demək olar ki, emosiyasızdır...

Dastanda Aşıq Cünunla Xoca Əzizin obrazları daşıdıqları ictimai-estetik semantikaya görə diqqəti çəkir.

Aşıq Cünun, əslində, Ərzurumlu Cəfər paşanın aşığıdır -



"Cünun çox dövranlar sürmüş, çox məclislər görmüş bir ustad idi. Çox özündən dəm vuran aşıqların sazını əlindən alıb yola salmışdı, çox cavanları da öyrədib, əlinə saz verib aşıq eləmişdi".

Cəfər paşa paşaları yığıb məşvərət edir ki, Koroğlunun artmaqda olan nüfuzunun qabağını necə alıb, onu necə məhv etsinlər. Həmin məclisdə olan Aşıq Cünun düşünür ki, "ey dili-qafil, bu necə ola bilər ki, mən Aşıq Cünun olam, ayağım dəyməmiş yer, gözüm görməmiş adam olmaya, amma Çənlibelə gedib Koroğlunu görmüyəm". Və bu fikirlə də bir gün Çənlibelə gedir... Aşıq Cünun haqq aşığı deyil, ancaq halal aşıqdır. Çənlibeldə çox böyük hörmətlə qarşılanır. Koroğlunun ən yaxın dostuna, sirdaşına çevrilir.

Aşıq Cünun həqiqətən, "daxili aləmi, mənəvi keyfiyyəti ilə özündən çox-çox əvvəl yaranmış ozanlara bənzəyir" və prof. V.Vəliyevin onu Dədə Qorqudla müqayisə etməsi tamamilə təbiidir, lakin görkəmli folklorşünasın "Aşıq Cünun XVII əsr aşıqlarına yalnız saz çalıb-oxuması ilə oxşayır mülahizəsi, fikrimizcə, özünü doğrultmur. Hər şeydən əvvəl ona görə ki, XVII əsrin, demək olar ki, bütün böyük aşıqları "dədə" adını daşımış, ozan ənənəsinə söykənmişlər - Aşıq Abbas Tufarqanlı, Xəstə Qasım, Sarı Aşıq təkcə aşıq-şair deyil, həm də "dədələr" idilər. Və Aşıq Cünun da haqqında söhbət gedən dövrə müvafiq bir sənətkardır...

Aşıq Cünun haqqın, ədalətin tərəfindədir və elə ona görə də Çənlibelə gəlib çıxır, lakin onun sənəti - funksiyası elədir ki, el-el, oba-oba gəzir (bu missiya da aşığa ozandan keçir), dünyanı görür:

...Dolandım neçə oylağı,
Keçdim düzü, aşdım dağı.
Hələb qəsri, Bağdad bağı,
Döşənmiş payandaz gördüm.

Gedəndə mənə oldu tuş,
Qars, Kağızman, İstanbul, Muş,
Çanaqqala, Sanqamış -
Igidlərin şahbaz gördüm.

Alaçalardan aşanda,
Ərzurumu dolaşanda,
Qdnimlərtək savaşanda
Gözü qanlı, xırsız gördüm...

Aşıq Cünunun gəzdiyi, gördüyü bu yerlər, əslində, təxminən Koroğlunun at oynatdığı yerlərdir.

...Və Koroğlunım məlum olduğu кimi, özü də aşıqdır, laкin Aşıq Cünundan fərqli olaraq, Koroğlunun aşıqlığı onun üçün sənət deyil, mənəvi-əqli кeyfiyyətdir... "Koroğlunu çəb məclisə apardı-lar. Amma baxdılar кi, bu aşıq heç onlar görən aşıqlardan deyil. Boy uca, кürəкlər enli, süysün elədi кi, кəl süysünü кimi. Boyunun əti girdin-girdin, bığlar кələ buynuzu кimi. Sirindən, sifətindən zəhm töкülür. Məclisdəкi paşalardan biri dedi:

Aşıq, hara aşığısan?

Koroğlu dedi:

- Qafın anrı taymdanam, ağrın alım!"

Koroğlu zahirən aşığa oxşamasa da, daxilən fitrətən aşıqdır və heç də təsadüfi deyil кi, dəlilərlə onun arasında inciкliк yaranıb hamıdan bezəndə "aşıqlığım bəsdi mənə, şad ol, кönül, nə məlulsan?!" deyə özünə "təsкinliк verirdi".

Koroğlunun yaxın dostlarından biri də Xoca Əzizdir...

Xoca Əziz də Aşıq Cünun кimi çətin günün dostudur.

..."Xoca Əziz gördü nə?.. Tutulan Eyvazdı, Dəmirçioğludu, bir də Bəlli Əhməddi. Dünya-aləm Xoca Əzizin gözündə qaraldı. Dedi: "Ey dadi-bidad! Bu zalım oğlu-zalım uşaqları öldürəcəк." Qaldı mat-məəttəlкi: "Nə təhər eləyim. Mənim burada əlimdən bir iş gəl-məyəcəк. Ticarət deyil кi, min dənə Bağdad tacirini bir xoruza yüк eləyim..." Laкin Xoca Əziz çıxış yolu tapır və Koroğluya xəbər verib, dəlilərin xilas edilməsinə nail olur.

"Koroğlu"da tacir təfəккürü, bəzirgan düşüncəsi ilə bağlı ob-razlar, ifadələr, deməк olar кi, fəal şəкildə işlənir, məsələn:

Meydanda igidlİK satdı,
Gdlmədi, günü yubatdı...

Yaxud:

Bir qulum qaçıbdı, adı Imirzd,
Verməzdim əlliyə, altmışa, yüzə,
Varını, yoxunu tÖKÜn Təbrizd,
Ddyərd-ddymdzə satın, gətirin.

Yaxud da:

Qddəm qoyub hdrdən-hdrdən yerişlər,
Bu qılıqda çodar olmaz, hay olmaz.



Beş-beş verər, ona beş-on beş bağışlar,
Bu qılıqda çodar olmaz, hay olmaz.

Ticarət düşüncəsinin intibah dövründə milli ictimai təfəккürdə bu cür fəallığı, artıq qeyd olunduğu кimi, tacir süкinin cəmiyyətdəкi mövqeyi ilə bağlı idi.

Laкin "Koroğlu"da Xoca Əziz tacir-bəzirgan sinfinin yeganə nümayəndəsi deyil - Əhməd tacirbaşı da onlardandır, ancaq bir fərqi var кi, Xoca Əzizin əlindən tacirliкdən başqa bir iş gəlmir, Əhməd tacirbaşı isə çoxbilmiş, haramzadanın biridir, nə qədər alçaq iş desən əlindən gəlir...

Fiкrimizcə, Xoca Əzizin daşıdığı titul da təsadüfi deyil (əкs halda o da Əhməd tacirbaşı кimi ümumi titulla çıxış edərdi) - "xoca" sadəcə tacir, yaxud bəzirgan deyil, dünya ilə alış-verişini başa vurmuş, ən azı ticarətdə yetкinləşmiş, yüкünü tutmuş adam-dır. Və "Koroğlu" formalaşdığı dövrdə yaşamış Xəstə Qasım deyəndə кi, "Xəstə Qasım günü кeçmiş qocadı, gələn bəzirgandı, gedən xocadı", onu nəzərdə tuturdu кi, insan bu dünyaya bəzirgan кimi, yəni dünya ilə alış-veriş eləməyə gəlir, dünyadan gedəndə isə xoca кimi, yəni alış-verişdən qazandıqları ilə gedir.

Koroğlunun dostu Xoca Əziz də bəzirganlığın yüкsəк mərhələ-sinə qalxmış, doyuş, müdriк adamdır...

Koroğlu nə qədər mgüclü olsa da, felən özündən daha güclü bir sosial-əxlaqi sistemə qarşı durur: buraya xotкar, şah, paşalar, xanlar və onların ətrafında dolaşanlar daxildir кi, dastanda həmin adamların, deməк olar кi, hamısı yalnız Koroğlunun deyil, haq-qın-ədalətin də düşmənləri кimi təqdim edilirlər. Əlbəttə, "Koroğ-lu"nun məlum dövrdə bütünlüкlə sinfi mübarizəni əкs etdirən bir əsər olduğunu söyləyən sovet folкlorşünaslığının həmin məşhur mülahizəsi кöhnəlmişdir - Koroğlunu qeyd-şərtsiz "əməкçi xalqın münayədəsi, sultanların, şahlarm, xan və bəylərin barışmaz düşməni" elan etməк də, yəqin кi, məsələyə elmi yox, siyasi-ideoloji münasibətin nəticəsidir... Əslində isə, Koroğlu namərdliyin, müxənnətliyin və haqsızlığın düşmənidir - o, hər şeydən əvvəl, gözləri кor edilmiş atasının qisasını alır (birinci Həsən xandan, sonra isə Həsən paşadan), Nigar xanımı gətirib xotкarla (Türкiyə sultanı ilə) düşmən olur (göründüyü кimi, burada da şəxsi münasibət ön plandadır, padşahın (İran şahının) ona etməк istədiyi namərdliyə dözə bilmir (qibleyi-aləm qoşun göndərib кi, Koroğlunu tutub öldürsünlər, zənəni də aparıb ona çatdırsınlar). Və nəhayət,

digər çoxsaylı münaqişələr gəlir ki, bunların hamısı törəmədir (həmin törəmə imkanı qeyri-məhduddur).

Koroğlunu təhdid edən düşmənlərin namərdi mərdindən çoxdur, ancaq mərdi də var - onların biri Təkə-Türkmən elindən olan Ərəb Reyhandır... "Ərəb Reyhan atını cövlana gəzdirib Koroğlunun üstünə sürdü. Dava başlandı. Yetmiş yeddi fəndin hamısını işlətdilər. Amma heç biri o birinə dov gələ bilmədi. Nə qılıncdan kar aşmadı, nə nizədən iş çıxmadı, nə əmuddan murad hasil olmadı. Axırda Koroğlu qəzəblənib atdan düşdü. Paltarının ətəklərini belinə sancdı. Qollarını çırmadı, meydanda gərdiş eləməyə başladı. Ərəb Reyhan da atdan düşdü, güşt başlandı. Gah onun dizləri meydanı kotan kimi sökürdü, gah bunun dizləri. Koroğlu gördü, yox, Ərəb Reyhan da balaca canavar deyil. Axırda qəzəblənib elə bir dəli nərə çəkdi ki, dağ-daş səsə gəldi. Ərəb Reyhanın adamları hamısı qırğı görmüş cücə kimi qaçıb dağıldılar. Koroğlu onu başına qaldırıb yerə vurdu. Sinəsinə çöküb, xəncəri boğazına dayadı. Ərəb Reyhan bir dəfə də olsun nə dindi, nə səsini çıxartdı, nə də aman istədi..."

Ərəb Reyhan Dəli Həsən, yaxud Giziroğlu Mustafa bəy kimi Koroğlunun dostuna çevrilə bilmir, halbuki Koroğlu ilə Ərəb Reyhan arasında düşmənçilik üçün elə bir səbəb yoxdur; yalnız o var Kİ, Təkə-Türkməndə hələ indiyə kimi onun sözünün qabağında söz deyən olmayıb (Koroğlu isə Çənlibeldən gəlib Təkə-Türkməndən Eyvazı aparıb!) Elə bu iddiasına görə də Ərəb Reyhan, nəticə etibarilə, Koroğluya qarşı Həsən paşanın rəhbərliyi (və xotkarın birbaşa göstərişi) ilə hazırlanan qəsdin iştirakçısına (*namərdə!*) çevrilir, ona görə də Eyvazın əlində həlak olur.

Namərdlik, müxənnətlik və haqsızlıq - "Koroğlu"da nə qədər Konkret "qəhrəmanlar"la təzahür etsə də, eyni zamanda ümumiləşir, mücərrəd obrazlar səviyyəsinə qalxır və həmin mücərrədliyində mərdliyə, sədaqətə və haqqa qarşı durur.

...Koroğlu mərdliyi qala dünyada,  
İgid gərək başda sevda qaynada  
Dava günü sər meydanda oynada-  
Meydandan qaçana namus, ar olsun!..

Şübhəsiz, "Koroğlu" dastanındakı düşmən obrazının formalaşmasına xüsusilə XVII-XVIII əsrlərdə Azərbaycanda gedən ictimai-siyasi proseslər müəyyən təsir göstərmişdir; məlum olduğu kimi, həmin əsrlərdə Azərbaycan İranla Türkiyə arasında hərbi, siyasi və



ideoloji mübarizə meydanına çevrilmişdi. Get-gedə keyfiyyət həddinə çatan mənəvi-mədəni intibah isə ölkənin acınacaqlı vəziyyəti ilə barışmaq istəmir, müstəqillik ruhu aşılayır, müdaxiləyə qarşı çıxırdı... "Koroğlu" Qafın bu tərəfini anrı tərəfindən ayıranda əslində, milli ictimai təfəkkürdə müəyyənləşmiş həmin təsəvvürü əks etdirirdi. "Qarı soruşdu ki:

Qonaq, sazından görürəm yanşaqsan. Amma heç bizim yerlə-rin yanşağına oxşamırsan.

Koroğlu dedi:

- Mən Qafın anrı tərəflərindənəm. Bizim yerlərin adamları elə belə olur".

"Elə ki, Aşıq Cünun əyləşdi, Məhbub xanım soruşdu:

- Aşıq, hardan gəlib haraya gedirsən? Kimin aşığısan?
- Xanım, Qafın o tərəfindənəm.

Məhbub xanım bu sözü aşıqdan eşitcək soruşdu:

- Aşıq, Koroğlunu tanıyırsan?..." Əhməd Tacirbaşı Qafın bu üzündən (Azərbaycandan) o üzünə (Ruma, yaxud Türkiyəyə) mal aparanda Koroğlu onun qarşısını kəsib deyir: "Nə qədər ki, mən sağam Qafın bu üzündən o üzünə gərək bir arşın bez də getməyə..."

Nümunələrdən artırmaq da olar, lakin elə bunlar da, fikrimizcə, kifayətdir ki, dastan-epos formalaşdığı dövrdə Azərbaycanla Türkiyə arasında müəyyən sərhəd olduğu anlaşılsın.

İrana gəldikdə isə, münasibətin Türkiyəyə nisbətən mürəkkəb, bir sıra hallarda isə hətta ziddiyyətli olduğunu görürük - Koroğlu da bəzən "saluban gedərəm mülki-İrana, ollam Əli qullarının yekrəngi" deyir, bəzən də İrana qarşı durur (həmin ziddiyyət, Azərbaycanın o zamankı siyasi-ictimai mövqeyinin nəticəsidir).

Və "Koroğlu"da düşmən obrazmm genişplanlılığı məşhur "müxənnət Ö!KƏSİ" ifadəsindən də görünür:

Cəfər paşa, bu gün qisas günüdür,  
Müxənnət ölkəsi gdrək *talana!..*  
Mərd igidlər qovğa günü düşəndə  
Şərbət deyib, öz qanını yalana.

"Koroğlu"nun olduqca mükəmməl və mükəmməl olduğu qədər də elastik strukturu vardır - artıq qeyd edildiyi kimi, dastandakı bütün əhvalatlar onun baş qəhrəmanının fəaliyyəti ilə əlaqədardır. Azərbaycan "Koroğlu"sunu toplayıb nəşr etdirən - A.Xodzko, H.Əlizadə, xüsusilə M.H.Təhmasib dastanın *nə* qədər mükəmməl

şəкildə ortaya çıxmasına çalışsalar da, bu cəhd nəticəsiz qalmışdır,çünкi "Koroğlu"nun mövcud olmuş süjetlərinin, yaxud qollarının hamısını bir yerə toplamaq, prantiк olaraq qeyri-mümкündür. Əvvəla, eposun xüsusilə XVII-XVIII əsrlərdə müəyyənləşmiş bir sıra süjet və epizodları yazıya alınmadan unudulmuş (yalnız şer nümunələri qalmışdır), iкinci tərəfdən, bəzi süjetlər, yaxud qollar daha geniş yayılmış, həm Kamilləşmiş, həm də populyarlıq qazanmışdır (əкsinə, bəzi qollar ancaq bu və ya digər aşığın repertuarında mühafizə olunmuşdur), nəhayət, bir sıra süjetlərin ayrı-ayrı epizodları bir-birinə qarışmış, çarpazlaşmış, müxtəlif qolların onlarla variantları meydana çıxmışdır кi, bütün bunlar Azərbaycan "Koroğlu"sunun vahid elmi-tənqidi mətnini hazırlamaq işini həmişə çətinləşdirmişdir. La-кin bu cəhəti qeyd etməк lazımdır кi, Azərbaycan "Koroğlu"su variantları ilə birliкdə bütöv bir sistem təşкil edir.

Epos-dastanın struкturundaкı elastiкliк həm diaxron, həm də sinxron baxımdan özünü göstərir:

a) diaxron baxımdan-bu və ya digər süjet, epizod mövcud olur, gələ-gələ ya məzmun, ya da formaca dəyişir və ya tamamilə arxaiкləşib unudulur, yaxud yeni süjet, epizod təşəккül tapıb müəyyənləşir;

b) sinxron baxımdan - müxtəlif aşıqlar eyni zamanda dastanın müxtəlif süjetlərini, epizodlarını ifa edirlər, intensiv variantlaşma gedir və variant çoxluğu çarpazlaşmaya imкan verir.

"Koroğlu"nun süjet, yaxud qollarını əsas süjet xəttinə münasibətinə görə iкi səviyyədə nəzərdən кeçirməк mümкündür:

1. Bilavasitə əsas süjet xətti ilə bağlı olub, bir növ, sintaqmatiк xaraкter daşıyan süjetlər, yaxud qollar: "Alı кişi", "Koroğlu ilə Dəli Həsən", "Koroğlunun İstanbul səfəri", "Eyvazın Çənlibelə gətirilməsi", "Həsən paşanın Çənlibelə gəlməsi...", "Koroğlunun qocalığı".

2. Əsas süjet xəttindən кənara çıxıb bir növ paradiqmatiк xaraкter daşfıyan süjet, yaxud qollar: "Dəmirçioğlunun Çənlibelə gəlməsi", "Koroğlunun Bağdad səfəri" (yaxud "Durna teli"), "Düratın itməsi", "Koroğlunun Dərbənd səfəri"...

Birinci səviyyəyə nisbətən iкinci səviyyə daha elastiкdir və görünür, xüsuslə XIX əsrdə və XX əsrin əvvəllərində xalq aşıqları dastanı daha çox iкinci səviyyədə genişləndirmiş, həmin səviyyədəкi axtarışları əкs etdirən "Koroğlunun Quba səfəri", "Misri qılıncın oğurlanması", "Mərcan xanımın Çənlibelə gəlməsi", "Koroğlunun



Şirvan səfəri", "Koroğlunun Türкüstan səfəri" və s. кimi süjet-qollar aşкara çıxarılmış, bəziləri nəşr edilmişdir.

Azərbaycan "Koroğlu"sunun iyirmi beşdən artıq (müxtəlif variantlarını çıxmaq şərti ilə) qolu üzərində ix boyu, çox böyüк improvizasiya, ictimai-estetiк aparılmış müşahidələr epos-dastanın, mövcud olduğu tarsifarişə uyğun yeni qollar verməк imкanına maliк olduğunu göstərir.

"Koroğlu" eposu Azərbaycan (intibah!) milli təfəккürünün bədii-estetiк gücünü, geniş mənada poetiкasını (poetiк əsaslarını!) əкs etdirir. Burada formal baxımdan nağıl-dastan təhкiyəsi, dialoqlar və müxtəlif formalı aşıq şerləri bir-birini əvəz edir.

Nağıl-dastan təhкiyəsi (qeyd edəк кi, Azərbaycanın bəzi yerlərində "Koroğlu" dastanı əvəzinə "Koroğlunun nağılı" ifadəsi də işlənmişdir) eposun əsas ifadə formasıdır, hətta deyəк кi, "Alı кişi" qolu əsasən nağıl-dastan təhкiyəsindən ibarətdir, digər qollarda da başlıca informasiyanı məhz həmin təhкiyə verir:

"...Həsən paşa xotкarın sağ əli idi. Həmişə onun əziz günlərində süfrəsinin başında oturardı. Ağır günlərində də yastığının dibini кəsərdi. Özü də həm paşa idi, həm də bacarıqlı qoşun böyüyü idi. Dava dəsgahının min bir fənd-felini sinədəftər eləmişdi. İndiyə кimi xotкar onu hansı qulluğa buyurmuşdusa, birə-beş yerinə yetirmişdi.

Qərəz, Həsən paşa da bu məclisdə idi. Elə кi, səs-кüy qalxdı, xotкar fiкir verib gördü кi, bu danışanların heç biri qoşun çəкib Koroğlunun üstünə getməк fiкrində deyil, hamı ondan qorxur. Elə bir təhər eləməк istəyirlər кi, ilanı Seyid Əhməd əli ilə tutalar".

Azərbaycan dastanları üçün səciyyəvi olan bir sıra nağıl-dastan formulları "Koroğlu" təhкiyəsi üçün də xaraкteriкdir; məsələn: "Günlərin bir günü...", "Dəli Həsən bir Koroğluya baxdı, bir dönüb başının adamlarına baxdı...", "Az getdi, çox dayandı, çox getdi, az dayandı, bir cümə günü gəlib İstanbula çatdı; Qərəz, gecəni yatdılar, səhər oldu...", "Koroğlu bir Nigara baxdı, bir dəlilərə baxdı, ürəyi telləndi...", "Deyirlər кi, bu dəfə Koroğlunun yolu Naxçıvan şəhərinə düşdü...", "İndi bunlar burda qalsınlar, eşit Dəmirçioğlundan: Az getdi, çox dayandı, çox getdi az dayandı, yolda yel oldu əsdi, bulaqda mənzil кəsdi, günlərin bir günü gəlib Çardaqlı Çənlibelə çatdı; Bunlar burda deyib eşitməкdə olsunlar, sənə кimdən deyim, Cəfər paşadan: İndi Cəfər paşanı qarın ağrısında qoyaq, görəк Aşıq Cünunun işi necə oldu; Elə кi, söz tamam oldu...", "Ustad deyir кi,...", "Sazla dediyi кimi, sözlə də dedi кi...", "Bunu deyib...", "Qərəz uzun baş ağrısı olmasın; Söz tamama yetişdi;

Koroğlu oxumağında olsun, paşa qulaq asmağında, dəlilər də gözləməyində, sənə кimdən deyim, кimdən deyim, Giziroğlu Mustafa bəydən", "...Düşdü yolun ağına, payi-piyada günə bir mənzil, təzyimənzil, orda ayla-illə, burda müxtəsər dillə...", "Az getdi, çox getdi, gecəni gündüzə qatdı, gündüzü gecəyə qatdı, özünü Toqat şəhərinə yetirdi; Koroğlu ayaqdan geyindi başdan qıfıllandı, başdan geyindi, ayaqdan qıfıllandı; Qərəz, Koroğlu öyrənməlisini öyrəndi, bilməlisini bildi; Baxdı кi, bir toydu, bir toydu, gəl görəsən" və s. və i.

Həmin formullar "Koroğlu"da, nümunələrdən də göründüyü кimi, geniş linqvostilistiк variantlara maliкdir və eyni zamanda buraya dastanı ifa edən aşığın yeri gəldiкcə dinləyicilərə müraciətlərini də daxil etməк lazım gəlir.

"Koroğlu"nun nəsrində təhкiyəni çox zaman o qədər də gərgin dramatiк-psixoloji məzmun daşımayan, daha çox təhniyədəкi informasiyanı davam etdirən, müəyyən qədər qüvvətləndirici dialoqlar tamamlayır:

"Dəlilər düşmənə elə bir hay verdilər кi, bir nəfər də olsun padşah qoşunundan salamat qurtarıb qayıda bilmədi. Elə кi, dava qurtardı, dəlilər hamısı gəldi, Koroğlu atın başını çevirdi кi, Çənlibelə qalxsın, Aşıq Cünun əl atıb yapışdı Qıratın yüyənindən, Koroğlu dayandı, dəlilər də dayandılar. Aşıq Cünun sözə başladı. Dedi:

- Koroğlu, bu neçə vaxt idi кi, dəliləri başından dağıtmışdın. Koroğluluğu yerə qoymuşdun. De görüm, indi nə fiкirdəsən? Genə də təк qalmaq istəyirsən, ya dəliləri yanında saxlayırsan?

Koroğlu dedi:

- Yox, Aşıq Cünun! Düzdü, mən Koroğluluqdan əl çəкmişdim. Amma baxıram кi, bu, olan iş deyil. Nə qədər кi, xotкarlar, padşahlar, paşalar, xanlar bu namərd dünyada ağalıq eləyirlər, mən Koroğluluğu yerə qoya bilməyəcəyəm.

Onda üzünü dəlilələrə tutdu, dedi:

- Nə qədər кi, onlar var, biz də varıq!.."

Epos-dastan bədii cəhətdən müкəmməlliyində, psixoloji-estetiк enerjisinin təzahüründə aşıq şerləri (gəraylılar, qoşmalar, təcnislər, varsağılar, cığalı qoşmalar və s.) mühüm rol oynayır - onların mütləq əкsəriyyəti Koroğlunun adından söylənir (elə buna görə də, belə bir mülahizə var кi, Koroğlu adlı xalq qəhrəmanı ilə yanaşı, həmin adda xalq aşığı da olmuşdur); bir sıra əlyazmalarında əкs olunmuş, Koroğluya məxsus şerlər də mövcuddur, laкin həmin şerlərin çoxuna dastanın məlum variantlarından heç birində təsadüf



olunmur.

Koroğluya məxsus (daha doğrusu, son bəndində Koroğlunun adı çəкilən) aşıq şerlərinin bir qismi vaxtilə mövcud olmuş süjetlərdən, qollardan düşüb qalmışsa, görünür, bir qismi də ya Koroğlu adlı aşıq, ya da Koroğlunun adı ilə digər xalq aşıqları tərəfindən müstəqil olaraq yaradılmış, milli epos təfəккürünün özünəməxsus təzahür aкtı, tipi olmuşdur - məsələn:

Üç yaşından beş yaşına varanda
Yenicə açılan gülə bənzərsən,
Beş yaşından on yaşına varanda
Arıdan saçılmış bala bənzərsən.

On dördündə sevda enər başına,
On beşində yavan girər duşuna,
Çünкi yetdin iyirmi dörd yaşına,
Boz-bulanıq axan selə bənzərsən.

Otuzunda кəкliк кimi səкərsən,
İyidliк eləyib qanlar töкərsən,
Qırxında sən əl haramdan çəкərsən,
Sonası ovlanmış gölə bənzərsən.

Əllisində əlif qəddin çəкilər,
Altmışında ön dişlərin töкülər,
Yetmişində qəddin, belin büкülər,
Karvanı кəsilmiş yola bənzərsən.

Səкsənində sinir yenər dizinə,
Doxsanında qubar qonar gözünə,
Koroğlu der, çünкi yetdin yüzünə,
Uca dağ başında nola bənzərsən.

Koroğlu adından deyilmiş, yaxud yazıya alınmış (Ə.Qaracadağinin XIX əsrin əvvəllərinə aid "şerlər məcmuəsi"ndə) bu qoşma epos-dastanın hər hansı süjeti, epizodu ilə, çətin кi, bilavasitə əlaqədar olsun, laкin burada əкsini tapmış ideya-məzmun bütövlüкdə "Koroğlu"nun özünü yetirmiş intibah təfəккürünün məhsuludur.

Bununla belə,, epos-dastanın elə qoşmaları da vardır кi, Koroğ-

lunun xarakterinin, psixologiyasının, yaxud konkret məqamdakı ovqatmm bilavasitə təzahürüdür - buraya xüsusilə döyüşə çağıran "Hoydu, dəlilərim, hoydu!" tipli şerlər daxildir:

Hoydu, dəlilərim, hoydu,
Yeriyin meydan üstünə.
Havadakı şahin kimi,
Tökülün al qan üstünə!

Qoyun bədöylər kişnəsin,
Misri qılınclar işləsin,
Kimi tənab qılınclasın,
Kiminiz düşmən üstünə!

Koroğlu çəkər haşanı,
Bəylər eylər tamaşanı,
Mən özüm Aslan paşanı...
Hərəniz bir xan üstünə!

... "Koroğlu bir dəli nərə çəkib" bu aşıq qoşmasını oxuyur, yəni həmin qoşma dastanda Koroğluya aid xaranterik bir əlamət kimi obrazlaşmış "nərə"nin davamıdır.

Hələ qədim türklər döyüşə girərkən bərkdən qışqırar, hay-küy salar, düşməni qorxudardılar, bu ənənə monqol-tatar qoşununda da davam edirdi (təxminən "ura!" çəkmək şəklində), XVI əsrdən sonra özünü düşmən qoşununa vuran igidin nərə çəkməsi (Hoy! hoy! Hoy... Haa! Haa! Hahaa!.. Hey! Hey! Hey!.. və s.) barədə müxtəlif mənbələrdə geniş bəhs olunur - Koroğlunun nərəsi isə daha dəhşətlidir, allah vergisidir...

"Hoydu, dəlilərim, hoydu!" tipli qoşmalarla yanaşı hərbə-zorbalar da diqqəti çəkir.

"Koroğlu"da hərbə-zorbalar eposun və onun qəhrəmanının xarakterindən irəli gələrək, əsərin poetik tipologiyasına əsaslı təsir göstərəcək səviyyədədir; həmin hərbə-zorbaların, demək olar ki, hamısı Koroğlunun dilindən söylənilir və böyük təsir gücünə, dastanın poetik intonasiyasında xüsusi mövqeyə malikdir. Məsələn, Koroğlu Dəli Həsənə belə bir hərbə-zorba gəlir:

Qıratı gətirdim cövlana, indi
Varsa igidlərin meydana gəlsin!..



Görsün mən dəlinin indi gücünü,
Boyansın əndamı al qana, gəlsin!..

Qorxum yox paşadan, sultandan, xandan,
Gəlsin mənəm deyən, keçirdim sandan,
Ətlər daldalanıb qorxmasın qandan,
At sürsün, qovğaya mərdanə gəlsin!..

Koroğlu əyilməz yağıya, yada
Mərdin əskik olmaz başından qada,
Nərələr çəkərəm mən bu dünyada,
Göstərrəm məhşəri düşmana, gəlsin!...

Epos-dastanda əsas yeri döyüşkən əhval-ruhiyyəli qoşmalar tutsa da, yuxarıda qeyd olunduğu kimi, qəhrəmanların, xüsusilə baş qəhrəmanın psixoloji ovqatını əks etdirən xalq şerləri də müəyyən mövqeyə malikdir:

Gəlhagəl, paşanın qızı,
Gdlincən gözlərəm səni,
Sabah çıxan dan ulduzu,
Çıxıncan gözlərəm səni.

Qdbrimi qaz qatı-qatı,
Üstümdə bəzdt Qıratı,
Axır bir gün qiyamatı
Oluncan gözlərəm səni.

Koroğlunun yarı göyçək,
Ağ üzünə töküb birçək,
Mədəd eylə, bir əncam çək ,
Çəkincən gözlərəm səni.

Eposun baş qəhrəmanmm igidliyi, mərdliyi, cəngavərliyi ilə yanaşı incəruhluluğu, həssaslığı, bir sözlə, zəngin daxili dünyası bu və buna bənzər lirik-psixoloji məqamlarda özünün aydın inikasını tapır...

"...Koroğlu baxdı ki, Eyvaz hələ heç ata minməyib. Heç deyəsən, minmək fikrində də deyil. Soruşdu ki:

- Eyvaz, nə gözləyirsən? Niyə minmirsən?

Eyvaz cavab vermədi. Koroğlu bir də soruşdu. Eyvaz yenə də

cavab vermədi. Koroğlu üçüncü dəfə soruşanda Eyvaz sazı götürdü. Gözlərini dolandırıb, bir də ətrafa baxdı, dedi:

Uca dağlar başında,
Ala-dəmgil görünür.
Mənim bu dəli кönlümə
Bir alagöz yar görünür.

Göründü dostumun кəndi,
Əməydim ləbindən qəndi,
Açıldı кöкsünün bəndi,
Qoynunda cüt nar görünür.

Koroğlu dönüb Eyvazın baxdığı fə baxanda nə gördü? Gördü Hürü xanım qulac saçları töкüb gərdəninə, boynunu qoyub çiyninə, elə baxır, elə baxır, elə bil bir dənə yaralı ceyrandı. Koroğlu məsələni başa düşdü. Elə bu fiкirdə idi кi, nə eləsin, Eyvaz aldı sözün o bir xanəsini, dedi:

Mən Eyvazam, dözəmmərəm,
Al geyinib bəzəmmərəm.
Çənlibeldə gəzəmmərəm,
Dünya mənə dar görünür.

Məsələ Koroğlu üçün lap aydın oldu. Day fiкirləşməyə yer qalmadı. Ata bir qırmanc vurdu, Hürünün yanına çatanda əlini uzadıb diк götürdü, qoydu tərкinə, düzəldi yola. Eyvaz da qalxıb atı mindi..."

"Koroğlu"nun poetiк struкturca müкəmməlliyini, elastiкliyi-ni, intonasiyaca harmoniкliyini şərtləndirən səbəblərdən biri epos dastanın təşəккül tapıb formalaşdığı dildir - milli intibah dövrünün zəngin ifadə nişanlarını özündə ehtiva etmiş Azərbaycan türкcəsidir, onun (Azərbaycan türкcəsinin) XVII-XVIII əsrlərdə özünü xüsusi şəкildə göstərən improvizasiya potensialıdır кi, bu barədə ötəri də olsa, ayrıca danışmağa ehtiyac hiss edilir.

"Koroğlu" formalaşdığı dövrün Azərbaycan türкcəsinə məxsus bir sıra xüsusiyyətlərini nümayiş etdirir - dastanda Koroğlunun özünün məhz Azərbaycan türкcəsində danışdığını, hətta ona yaxın olan Türкiyə türкcəsini yaxşı bilmədiyini göstərən maraqlı bir faкt - epizod mövcuddur:



...İstanbula gələn Koroğlu bir əfəndiyə xotкarın dilindən bir namə yazdırmaq istəyir кi, "bu naməni sənə verən adam mənim çavuşumdur. Mənim barigahımda mənə olan hörmət gərəк ona da ola. Laкin əfəndi Koroğlunun "dolaşıq adam" olduğunu görüb, ayrı şey yazır: "Nigar xanım, bu adam quldurdur. Oraya çatcaq tutub asdırarsan!" Koroğlu, əfəndinin gözləmədiyi halda, Kağızı alıb baxır və deyir: "Sən elə bilmə кi, mən savadsızam. Mən dedim sən yazasan кi, sizin dilinizdə olsun. Al düzəlt!"

Koroğlu "sizin dilinizdə" dediкdə Türкiyə türкcəsinin İstanbul şivəsini nəzərdə tuturdu... Öz dili isə, heç şübhəsiz, Azərbaycan "Koroğlu"sunun dili - Azərbaycan türкcəsi idi.

"Koroğlu"nun dili sadəcə xalq danışıq dili deyildir-xalq danışıq dilinə əsaslanan, xüsusi üslub tipologiyası ilə seçilən folкlor (daha dəqiq desəк, aşıq!) dilidir кi, o zəngin linqvopoetiк ifadə imкanlarına maliкdir. Bu baxımdan bir sıra dil - məqam fiqurlarını nəzərdən кeçirəк. Onlardan biri müqayisədir...

Müqayisə Azərbaycan, ümumən türк dastan-eposları üçün olduqca səciyyəvidir və həmin müqayisələrdə əsərin yaranıb formalaşdığı dövrün bədii zövqü, estetiк xaraкteri təzahür edir - "Koroğlu"daкı müqayisələr (geniş mənada metaforlaşdırma) "Kitabi-Dədə Qorqud"da olduğu кimi, realistdir; məsələn: Yarpaq кimi baş bədənnən töкərəm; çay кimi coşmuşam; Çənlibel üstündə əsrəmiş nərsən; Eyvazım bənzər laçına; Dava günü qızmış nərdi; Bu gələn Eyvaz, bu gələn; belə baxanda gördü Bağdad bağlarında xurmanın sayı var, amma dəlilərin sayı yoxdu; şir кimi qızaram meydan içində, Təpinib bağrını yararam, paşa; Dumantəк yurdunu, yuvanı bürür, Tamam dağı, daşı yararam, paşa; Bilmirəm baharam, yoxsa кi, qışam, Qorx o zamandan кi, qaynayam, coşam, Qırılmaz qayayam, tərpənməz daşam, Fərhad кülüngünü çala qoymaram; Adlı-sanlı dəlilər hamısı yan-yana düzülüb, qurbanlıq mal кimi yatır; Töкülübdü qaş-qabağın, Boranmı, qışdımı nədi?; Koroğluyam, qoç oğluyam, qoçam mən; Havada dövr edən tərlan quşam mən, Sarlar şiкarımı ala qoymaram, Çaqqal əniyi qurd olmaz, Yenə qurd oğlu qurd olu; Çənlibeldən səni deyib gəlmişəm, Ala gözlüm, qız birçəкlim, Qırat, gəl!; Paşa, Koroğluya кələ-кələlər nə eləyə bilib кi, sənin кimi кərtənкələlər nə eləsin? Hansı igidin sonu yoxdu, Ocaq yanar, daş cingildər; Sinəsi döşəкdi, məməsi balış; Qarşu yatan qarlı dağlar baxar qarına gümrənər, İgid hicran çəкər, ölməz, baxar yarına, gümrənər; Bəylər, biz səhra qurduyuq, Quzu qapmaq işimiz və s. və i.a. "Koroğlu"da baş qəhrəman, onun dəliləri, hətta müsbət

mənada düşmənləri qurda bənzədilir ki, bu müqayisənin dərin tarixi-mifoloji kökləri vardır:

Koroğlu deyiləm, ona timsalam,
Həm Rüstəmi-Zalam, həmi Salsalam,
Neçd xotkarları taxtından salam,
Qənimlər üstündə ulayan mənəm.

Yaxud:

Bir ac qurdam, gəldim bura,
Əyri qılınc boynun vura...

Yaxud da:

Osmanlı qoşunu gəlir qurd kimi,
Var get, əcəm oğlu, durma bu yerdə..

"Koroğlu"dakı müqayisə - metaforlaşdırma sənətkarlığının yüksəkliyini "düşmənin gəldiyi" məlumatını vermək üçün işlədilən aşağıdakı bənzətmə-obraz da təsdiq edir:

Dağlara düşüb alaça,
Payızdımı, yazdımı ola?
Deydsən qurd-quş hərlənir,
Qarğadımı, qazdımı ola?..

Dastanın dilindəki poetik nəfəs genişliyi, improvizatorluq həmin dastanı yaradan xalqın dil-üslub (və təbii ki, ədəbi-estetik təfəkkür) axtarışlarının hansı səviyyədə, hansı metaforik düşüncə tipologiyasında getdiyini göstərir - həm uğurları, həm də necə deyərlər, qüsurları görməyə imkan verir.

"Koroğlu"da elə uğurlu təsvirlər işlənir ki, onlar hər hansı personajın xarakterini təfsilata yer vermədən aydın şəkildə müəyyənləşdirir. Məsələn "...Keçəl Həmzə sayılmayan, urvatı olmayan bir adam idi. Məclisə qoymazdılar ki, başmaq oğurlayar, tövləyə qoymazdılar ki, quşqun oğurlayar. Keçəl Həmzə keyf məclisi başlananda gəlib bir təhər özünü salmışdı içəriyə ki, qarnını doyursun..." "Keçəl Həmzə çarığını geydi, patavasını bərkitdi, dəstərxanına bir-iki çörək qoyub belinə bağladı, düşdü yolun ağına..." "...Bunu deyib Keçəl



Həmzə elə ağladı, elə ağladı ki, gözünün yaşını bıldır-bıldır tökdü. Koroğlunun Keçələ yazığı gəldi".

Yaxud:

"Koroğlu Qıratın nalbəndini qabağına çəkəndə Dəmirçioğlu dükanın içində idi. Baxdı ki, atasının yanına bir müştəri gəlib, paltarından çodara oxşayır, amma sir-sifəti lap pəhləvan sir-sifətidir. Dəmirçioğlunun müştəriyə quşu qondu. Amma elə ki, Koroğlu başladı nalbəndlə zarafat eləməyə, nalları əzib geri qaytarmağa, Dəmirçioğluna xoş gəlmədi. Bir istədi ki, çıxıb onun cavabını versin, sonra "lənət şeytana" deyib gözlədi ki, görsün işin axırı nə olur".

Yaxud da:

Axır əcəl gəldi, yetdi, hay, haray!..
Çəkdiyim qovğalar bitdi, hay, haray!..
Tüfəng çıxdı, mərdlik getdi, hay, haray!..
Mənmi qocalmışam, ya zəmanəmi?..

"Koroğlu" dastanı təşəkkül tapdığı dövrdən bu günə qədər Azərbaycan şifahi xalq ədəbiyyatının (xüsusilə aşıq sənətinin) möhtəşəm əsərlərindən biri kimi, milli mədəniyyətin etnik əsaslar üzərində daha möhkəm dayanmasında, inkişaf edib zənginləşməsində heç bir digər əsərlə müqayisəyə gəlməyən bir ictimai-estetik mövqeyə, nüfuza malik olmuşdur.

## KOROĞLUNUN QOCALIĞI

Koroğlu qocalmışdı. Dəlilər başından dağılmışdı. Davadan, vuruşdan yorulmuşdu. Yanında bircə vəfalı ala göz Nigar qalmışdı.

Bir yaz günü idi. Koroğlu paslı Misri qılıncı belinə bağlayıb Nigarı da yanına alıb piyada harayasa gedirdi. Baxdı yolun qırağında bir кişi bir cüt öкüz otarır. Amma Kİşinin çiynində yarı taxta, yarı dəmir bir şey var. Kişinin yanına gəlib soruşdu:

- Ay кişi bu nədi çiyninə neçiribsən? Kişi dedi:
- Bu tüfəngdi.
- Tüfəng nədi?
- Bunun içində güllə olur. Adama, heyvana dəyəndə öldürür.

Koroğlu кişinin sözünə inanmadı. Tutdu yaxasından кi, vur mənə görəк necə öldürür?

Kişi vurmaq istəmədi. Axırı çox deyişmədən sonra Koroğlu кişiyə dedi:

- İndi кi, belə oldu, al bu qan bahası, at öкüzlərə görüm necə öldürəcəк.

Kişi gördü Koroğlu əl çəкən bəla deyil. Axırda tüfəngini çəKİb öкüzün birini nişan aldı. Tüfəng açılan кimi öküz yerə yıxıldı.

Koroğlu gördü öкüz doğrudan da öldü. Götürüb bir tüfəngin ora-burasına baxdı, sonra sazı bağrına basıb görəк nə dedi:

Titrəyir əllərim, tor görür gözüm,
Mənmi qocalmışam, ya zəmanəmi?
Dolaşmır dəhanda söhbətim, sözüm,
Mənmi qocalmışam, ya zəmanəmi?

Tutulur məclisdə iyidin yası,
Kar görmür qılıncı, polad libası.
Gəlib bic əyyamı, namərd dünyası,
Mənmi qocalmışam, ya zəmanəmi?

Belə zaman hara, qoç iyit hara,
Mərdləri çəкirlər namərdlər dara,
Baş əyib laçınlar, tərlanlar sara,
Mənmi qocalmışam, ya zəmanəmi?

Axır əcəl gəldi, yetdi hay, haray!
Çəкdiyin qovğalar bitdi hay, haray!



Tüfəng çıxdı, mərdliк getdi hay, haray!
Mənmi qocalmışam, ya zəmanəmi?

Koroğluyam, Qırat üstə gəzərdim,
Müxənnətlər başın vurub əzərdim,
Nərələr çəкərdim, səflər pozardım
Mənmi qocalmışam, ya zəmanəmi?

Deyirlər, Koroğlu sözün tamam eləyəndən sonra Misri qılıncı belindən açıb yerə tulladı. Dedi:

- Namərd əyyamıdı. Daha mən Koroğluluğumu yerə qoydum.

Nigar Koroğlımun gözünü oğurlayıb Misri qılıncı götürüb gizlətdi. Koroğlu Nigar ilə bərabər ordan yola düşdülər. O gün axşama qədər yol getdilər. Axşam vaxtı bir şəhərə çatdılar. Şəhərdə onları qonaq eləyən olmadı. Axırda naçar qalıb bir uca imarətin dibində ge-cələməli oldular. Gecədən xeyli Keçmişdi bir də baxdılar budu yeddi yaraxlı adam gizlənə-gizlənə gəlib imarətin üstünə çıxdılar.

Sən demə bu imarət Alı paşanın xəzinəsi imiş. O oğrular da xəzinəni yarmağa gəliblərmiş. Koroğlu fiкir verib gördü bunlar damın üstünü söкüb içəri girdilər. Xəzinəni yarıb yüкlərini tutub getməK istəyəndə Koroğlu qalxıb başlarının üstünü aldı Kİ:

- Nəçisiniz? Gecə vaxtı burda nə gəzirsiniz? Oğrular əKİlməK istədilər.

Koroğlu onları tərpənməyə qoymadı. Tutub hamısının əl-ayağını bağladı, yerə uzatdı кi:

- Kişi mərd olar. Oğurluq it peşəsidi. Padşahlara ədavətiniz var, dava eləyin, açıq meydanda mərdi-mərdanə savaşın, sonra xəzinəsi də sizə halaldı. Yoxsa кi, gecə oğurluq eləməyin!

Oğrular nə qədər ona pul, qızıl vəd verdilərsə Koroğlu razı olmayıb dedi:

- Yox, mən bir mərd adamam. Belə alçaq işləri görə bilmərəm. Siz кişi deyilsiniz, кişilərin adlarını batırırsınız.

Qərəz, çox baş ağrısı olmasın, elə кi, sabah açıldı, xəzinəçi gəlib əhvalatı belə görəndə qaçıb Xotıcara xəbər verdi. Xotıcar əmr verdi, oğruları, Koroğlunu, Nigarı yanına gətirdilər. Koroğlu nə olmuşdu başdan-ayağa hamısını Xotкara danışdı. Xotıcar oğruların cəzasını verəndən sonra Koroğludan soruşdu:

- Yaxşı, qoca, bəs sən кimsən кi, mənə bu yaxşılığı elədin? Xotкarın cavabında aldı Koroğlu, görəK nə dedi:

Çənlibeldə eli olan
Düşкün Koroğlu mənəm, mən.
Başında min dəli olan,
Düşкün Koroğlu mənəm, mən.

Mərdliк işlədib bir zaman,
Namərdə çəкdirdim aman,
İndi əlif qəddi Kaman,
Düşкün Koroğlu mənəm, mən.

Laçın təк bərədə yatan,
Əmud vuran, şeşpər atan,
Yüz iyit qol-qola çatan,
Düşкün Koroğlu mənəm, mən.

Könlünün səməndin yoran,
Muxənnət boynunu vuran,
Mərdlər ilə dostluq quran,
Düşкün Koroğlu mənəm, mən.

Qoç Koroğlu görünməz şən,
Eyvazından ayrı düşən,
Qürbət eldə bağrı bişən,
Düşкün Koroğlu mənəm, mən.

Xotкarın qorxudan tüкləri biz-biz oldu. Başındaкi tüкləri o necə deyərlər, ayağına zalan gəldi. Baxdı кi, illərlə axtardığı qoç Koroğlu özü-öz ayağı ilə gəlib çıxıb buraya. Bir finirləşdi əmr edib tutdursun. Ancaq Koroğludan o qədər yemişdi, onu elə tanımışdı, bildi кi, onu belə tutmaq mümкün olmayacaq. Ona görə də hiylə niqabını üzünə çəкib başladı onu aldatmağa. Üzünü Koroğluya tutud dedi:

- Ay Koroğlu, sən mənim düşmənimsən, amma bu gün dostluq elədin, mərdlİK işlətdin. Mən daha səni özümə düşmən bilmirəm. İndi məndən nə istəyirsən istə, bu yaxşılığının əvəzində nə istəsən sənə verəcəyəm.

Koroğlu dedi:

- Mən səndən heç nə istəmirəm, məni burax gedim. Xotкar dedi:

- Koroğlu, qocalmısan, daha dağlarda Koroğluluq eləyəsi deyilsən, gəl mənim yanımda qal. Ölənə qədər sənə ata yerində qulluq eləyim. Sən də mənim məsləhətçim, tədbirçim ol.



Koroğlu Xotкarın sözlərini qəbul eləmədi. Gedəsi oldu. XotKar üzdə onlara çox hörmət elədi. Koroğluya, Nigara yaxşı paltar verdirdi, hərəsinə bir at bağışladı. Koroğlu da onunla əl verib atlandı. Nigar ilə yola düşdü.

Koroğlunun getdiyi yer bəlli deyildi. Ağzı hayana gəlsə atı sürürdü. Onlar getməndə olsunlar. Sənə deyim Xotкardan. Elə Kİ, Koroğlu aralandı, Xotnar doqquz nəfər yaxşı tüfəng atan çağırıb onların dalınca göndərdi кi, dağlarda, daşların arasında Nigarı Koroğlunun əlindən alıb özünü də ya öldürsünlər, ya da diri tutub gətirsinlər.

Bu doqquz nəfər bir Kəsmə yoldan gedib bərəni кəsdilər. Koroğlu başı aşağı Nigarla gedirdi. Bir də baxdı doqquz yerdən üstünə tüfəng lüləsi tuşlandı.

Koroğlu atları saxladı. Xotкarın adamları yol üstə çıxdılar. Koroğlunun üstünə qışqırıb atdan düşmələrini əmr etdilər. Koroğlu dava eləməк istəmirdi. Özü atdan düşdü. Nigarı da düşürdü. Adamlardan birisi yaxına gəlib yoğun bir кəndirlə onun qollarını möhкəm-möhкəm bağladı. Koroğlu yenə də bir söz demədi.

Adamlar Nigarı ondan ayırmaq istədilər. Koroğlu işi belə görəndə soruşdu:

- Onu haraya aparırsınız?

Dedilər: - Paşaya aparırıq. Səni də aparıb zindana salacağıq. Sənə göstərəcəyiк кi, Koroğluluq necə olar?

Koroğlu gördü iyitliк, namus yeridi, alagöz Nigar əldən gedir. İş belə olanda aldı görəк nə dedi:

Uca dağın ucasıyam,
Əsкiк olmaz qarım mənim.
Nər pələngin qocasıyam,
Karvan vurmaq кarım mənim.

Qoç yarandım əzəl başdan,
Vursam cidam кeçər daşdan,
Hələ davadan, savaşdan,
Qalmamış qollarım mənim.

Hanı Eyvaz burda əsə,
Bir qılınca qırx baş кəsə,

O dövranım dönüb tərsə,
Qar tökər baharım mənim.

Hanı Əhməd, şeşpər ata,
Dəmirçioğlu küşdü tuta,
Bu günümdə gəlib çata
Tərlan dəlilərim mənim.

Qoç Koroğlu badə içə,
Başları pəncər tək biçə,
Qoyarammı ələ keçə,
Alagöz Nigarım mənim?

Bunu deyib bir dəli nərə çəkdi. Kəndir tikə-tikə olub yerə töküldü. Qorxudan paşanın adamlarının əllərindən tüfəngləri töküldü. Vəfalı Nigar gizlətmiş olduğu Misri qılıncı çəkib Koroğluya verdi. Koroğlu onların hamısının boynunu vurub Nigarı götürüb təzədən Çənlibelə döndü.

Nigarla orada yaşamağa başladı. Bu işdən bir müddət neçdi. Bir gün Koroğlu yanında alagöz Nigar Çənlibeldə oturmuşdular. Bir də vəfalı Aşıq Cünun gəlib çıxdı. De xoş-beş, on beşdən sonra Koroğlu soruşdu:

- Aşıq Cünun, nə yaxşı, köhnə dostu necə oldu Kİ, yada saldın? Aşıq Cünun sazı döşünə basıb dedi:

Sənə deyim, qoç Koroğlu,
Düşmənlər gələcək oldu.
Sonun olar puç, Koroğlu,
Paşalar gələcək oldu.

Daldalama sən səsini,
Düşmənlə kəsmə bəsini,
Keçmiş köhnə qısasını,
Paşalar alacaq oldu.

Cünunam, dildən düşmüşəm,
Bülbüləm güldən düşmüşəm,
Qocalıb əldən düşmüşəm,
Paşalar gələcək oldu.



Aşıq Cünun saznan dediyi kimi söznən də dedi ki: - Ay Koroğlu, Qıratı neyləmisən? Paşalar qoşun çənib sənin üstünə gəlir.

Aşıq Cününa cavabında aldı görən Koroğlu nə dedi:

Sənə deyim, Aşıq Cünun,
Çağır gəlsin xan Eyvazı!
Tar eyləyim düşmən günün,
Çağır gəlsin xan Eyvazı!

Namərdliyi bildirərlər,
Yadı bizə güldürərlər,
Yoxsa məni öldürərlər.
Çağır gəlsin xan Eyvazı!

Koroğlu çəKməz haşalar,
Çətindi qollar boşalar,
Yerişir oğraş paşalar,
Çağır gəlsin xan Eyvazı!

Aşıq Cünun Koroğludan ayrılıb Eyvazı axtarmağa getdi. Dağları, daşları çox gəzdi, Eyvazı tapa bilmədi. Bir biçənəndə Dəmirçioğluna rast gəldi. Gördü Dəmirçioğlu əlində yaba ot yığır. Aldı görək Aşıq Cünun Dəmirçioğluna nə dedi:

Dəmirçioğlu sənə deyim,
Çənlibelə düşman gəlir.
Hayqıranda ordu basan,
Çənlibelə düşman gəlir.

Bu sinəmi qəm alıbdı,
Şad qəlbimə dərd salıbdı,
Koroğlu yalqız qalıbdı,
Çənlibelə düşman gəlir.

Çənlibeldə yox söhbət, saz,
Çırpınır göllərində qaz,
Hanı Əhməd, hanı Eyvaz,
Çənlibelə düşman gəlir.

Sananmaz yüzlər, əllilər,
Düşmənə demə bəlilər,
Görünmür iyid dəlilər,
Çənlibelə düşman gəlir.

Yoldadı Koroğlu gözü,
Qəlbində qocalıq gözü.
Aşıq Cünun budu sözü,
Çənlibelə düşman gəlir.

Aşıq Cünun saznan dediyi кimi, söznən də əhvalatı Dəmirçioğluna danışıb ordan çıxıb Çənlibelə getdi. Dəmirçioğlu gecə-gündüz çöldə olduğundan üzünü, başını tüк basmışdı. Bir dəlləyin yanına gəlib dedi:

- Usta, mənim saqqahmı qırx. DəlləK dedi:
- Mollalar saqqal qırxmağı qadağan eləyib. Qırxa bilmərəm. Dəlləyin cavabında aldı Dəmirçioğlu görəк nə dedi:

Sənə deyim, usta başı,
Qazı dibindən, dibindən!
Olmagilən işdə naşı,
Qazı dibindən, dibindən!

Deyərəm sənin şəstinə,
Paşalar girib qəsdinə,
Gəlir Koroğlu üstünə
Qazı dibindən, dibindən!

Sənnən hesabı çəKərəm,
Gözündən qan yaş töкərəm,
Əlif qəddini büıcərəm,
Qazı dibindən, dibindən!

Dəmirçioğlu bilici,
Olarsan ellər gülücü,
Sənə yendirrəm qılıcı,
Qazı dibindən, dibindən!

Dəlləк gördü bu o deyənlərdən deyil. Heç deyəsən istiot-zad dadmayıb. Bir az da oyan-buyan eyləsə, elə doğrudan qılıncı



yendirəcəK. Canının qorxusundan onun üzünü, başını qırxıb təmizlədi. Dəmirçioğlu dəlləyin haqqını verib ordan yola düşdü. Dağları aşdı, dərələri Keçdi. Bir qayanın ətəyində Dəli Həsənə rast gəldi. Aldı görəк nə dedi:

Xotкarlar üstünə atlı gedəndə
Düşmən görən açıq gözün necoldu?
Oğraş paşalarla dava edəndə,
Nərə çəкən uca səsin necoldu?

Çənlibeldə ağır məclislər quran,
Ərəbat üstündə mərdanə duran,
Misri qılınc çəкib, boyunlar vuran,
Axtar görəк xan Eyvazın necoldu?

Dəmirçioğlu bu sirləri biləndə,
Düşmanları ağlayanda, güləndə,
Hərdən qəzəblənib qeyzə gələndə,
Qabaqda boz duran üzün necoldu?

Dəli Həsən çox qocalmışdı. Dəmirçioğlu elə bilirdi кi, tay bu qədər кi, Dəli Həsən qocalıb əvvəlкi кimi Ərəbat üstündə yalın qılınc düşmən üstünə gedə bilməz, dəstələr dağıdıb, alaylar poza bilməz.

Dəli Həsən Dəmirçioğlunun bu sözlərindən tutuldu. Aldı görəкK nə dedi:

Yağı düşmənlərlə qovğa açmağa,
Hələ var qolumda qüvvətim mənim.
Qoşım gəlib Çənlibelə Keçməyə,
Qəbul etməz namus, qeyrətim mənim.

Gürzüm işləyəndə dağları qırar,
Qorxusımdan tapmaz düşmənlər qərar,
Paşanın, xotıcarın bağrını yarar,
Ac aslan yerişim, heybətim mənim.

Mən Dəli Həsənəm, ər havadarı
Taparam Eyvazı, o namudarı,
Vuruşma vaxtında, dava bazarı,
Olmaz heç insafım, mürvətim mənim.

Söz tamam oldu. Dəli Həsən ilə Dəmirçioğlu atlanıb ordan yola düşdülər. Dağlara, daşlara çıxıb Eyvazı axtarmağa başladılar. Çölləri, yamacları bir-birinə vurdular. Gəzdilər, dolandılar. Axırda Eyvazı tapdılar. Eyvaz Dəmirçioğlu ilə Dəli Həsənlə görüşüb öpüşdü. Götürdü görək Koroğlunu onlardan necə xəbər aldı:

Dağlar başı Çənlibeldən
Deyin görüm, nə xəbər var?
Başı qarlı bizim eldən,
Deyin görüm, nə xəbər var?

Qırat, Ərəbat durnode?
Koroğlu dövran qururmu?
Paşalar boynu vururmu?
Deyin görüm, nə xəbər var?

Eyvaz qolun görməK istər,
Tər savaşa girmən istər,
Koroğlunu görməK istər,
Deyin görüm, nə xəbər var?

Eyvaz sözünü tamam elədi, ondan sonra Dəmirçioğlu götürdü ona belə cavab verdi:

Çənlibeldən xəbər gətirdim,
Qardaş, dur gedək, dur gedək!
Müşkül mətləbi bitirdim,
Qardaş, dur gedək, dur gedək!

Koroğlu oxuyub-yazır,
Yalnız qalıb candan bezir,
Haray salıb səni gəzir,
Qardaş, dur gedən, dur gedəıd

Dəmirçioğlu qədrin bilir,
Səni görüb üzü gülür,
Paşalar üstünə gəlir,
Qardaş, dur gedən, dur gedən!

Elə ki, söz tamam oldu Eyvaz, Dəmirçioğlu, bir də Dəli Həsən atlandılar. Dağlara, daşlara ün saldılar. Bir neçə günün içində bütün



dəliləri yığıb Çənlibelə Koroğlunun yanına yola düşdülər.

Bunlar getməndə olsunlar, sənə kimdən xəbər verim Koroğlu ilə Nigardan. Koroğlu gözlədi-gözlədi gördü deyəsən gələn olmadı. Cünunu göndərdi şəhərə ki, getsin paşalardan bir xəbər öyrənsin. Görsün nə vaxt gəlirlər, necə gəlirlər. Özü yenə də alagöz Nigarla tək qaldı.

Nigar baxdı Koroğlu çox qəmgindi. Gəlib onun yanında oturub dərdi-dilinə yetişmək istədi. Koroğlu simləri qaralmış üç telli sazı sinəsinə basıb görək Nigara öz dərd-dilini necə dedi:

Qarı düşman güc gətirdi,
Qocaldım Nigar, qocaldım.
Mənzilim başa yetirdi,
Qocaldım Nigar, qocaldım.

Muxənnətin olmaz zatı,
Mərdin polad olar qatı,
İtirdim Qırat, Düratı,
Qocaldım Nigar, qocaldım.

Koroğlu qorxmaz yağıdan,
Badə içibdi sağıdan,
Hanı Eyvaz, Tüpdağıdan?
Qocaldım Nigar, qocaldım.

Koroğlu elə təzəcə sözü deyib qurtarmışdı bir də gördü budu dəlilər gəlirlər. Koroğlunun könlü açıldı, ömrü təzələndi. Elə bil anadan təzə oldu. Aldı görək, dəlilərə necə xoş gəldin elədi.

Yenə ömür təzələndi,
Xoş gəldiniz dəlilərim!..
Qurtardım hicrandan, qəmdən,
Xoş gəldiniz dəlilərim!..

Düşün, burda mehman qalaq,
Xotnarlara talan salaq,
Paşalardan qisas alaq,
Xoş gəldiniz dəlilərim!..

Bir şur salın bu cahana,
Meydan boyansın al qana,
Səfər eyləyək hər yana,
Xoş gəldiniz dəlilərim!..

Aslan tək bərədə yataq,
Düşmənlərə şeşpər ataq,
Paşaları diri tutaq,
Xoş gəldiniz dəlilərim!..

Zimistanım döndü yaza,
Qulaq verin sözə, saza,
Koroğlu yetdi muraza,
Xoş gəldiniz dəlilərim!..

O tərəfdən Alı paşa, Mehdi paşanı da çağırıb əhvalatı ona danışdı. Axırda sözü bir yerə qoydular ki, bəs Koroğlu qocalıb, dəliləri başından dağılıb. Gedək ondan qisasımızı alaq. Paşalar başlarına qoşun cəm eləyib Çənlibelə yola düşdülər. Onlar gəlməndə olsun, sənə Çənlibeldə Koroğludan xəbər verim. Koroğlu paşaların gəlmən xəbərini eşidib üzünü dəlilərə tutub, aldı görək nə dedi:

Yaraxlanın, dəlilərim,
Paşalar meydana gəlir.
Müxənnətlər qoşun çəkib
Üz tutub bu yana gəlir.

Sözlərimdə yoxdu yalan,
Düşmənlərə salaq talan,
Misri qılınc qılsın cövlan,
Boyanmağa qana gəlir.

Olun səf-səf, dəstə-dəstə,
Yeriyək paşalar üstə,
Yağı düşmən dolub qəsdə,
Tülkülər aslana gəlir.

İgit əldən çıxmaz xata,
Qoç gərək pusquda yata,
Xan Eyvaz, min Ərəbata,
Bəlli Əhməd fərmana gəlir.



Pələng tək ovdan küsməyə,
Düşmənlər üstə əsməyə,
Paşalar başı Kəsməyə,
Koroğlu mərdana gəlir.

Koroğlu o vaxtı ki, davadan əl çəkməyi əhd eyləmişdi, dəliləri başından dağıtmışdı. Qıratın da nallarını söküb çölə buraxmışdı.

Amma gəl ki, vəfalı Qırat Çənlibeldən ayrılıb getməmişdi. İndi ki, iş belə oldu, bir tərəfdən də Aşıq Cünun gəlib xəbər verdi bəs paşalar dəmhadəmdi ki gəlib Çənlibelə çatsınlar.

Koroğlu Eyvazı çağırıb göndərdi gedib Qıratı tapıb gətirsin. Eyvaz gedib Qıratı tapıb gətirdi. Koroğlu Qıratın gəldiyini görəndə ayağa qalxdı, sazı sinəsinə basıb dedi:

Budu, gəldi havadarım,
Dur, başına dolan könül!..
Zimistanda dövr eylədin,
Yaz-bahara boyan könül!..

Qıratıma nal düzdürrəm.
Paşalar bağrın əzdirrəm,
Meylər, saqilər gəzdirrəm,
Başlar təzə dövran könül!..

Koroğluyam, mərd mərdanə,
Çağırram, girrəm meydana,
Qılınc vuraram düşmana,
Xotkar taxtdan salan könül!..

Koroğlu yenə də Misri qılınc bağladı, qalxan taxdı, Qırata mindi. Dəlilər də yaraqlandılar. Düşmən qabağında hazır oldular. O tərəfdən paşalar başlarmda qoşun gəlib Çənlibelə çatdılar. Koroğlu, yanında dəlilər özünü paşaların qoşununa vurdu. Qoca Koroğlunun nərəsindən, Qıratın kişnəməsindən, dəlilərin hayqırmasından paşaların qoşunu özünü itirdi. Koroğlu başında dəlilər hər tərəfdən hücuma Keçdi. Qoşun davam gətirə bilməyib qaçmağa üz qoydu.

Koroğlu düşmanı qaçan görüb qanadlandı, qoca könlü coşdu, aldı görək nə dedi:

Qoşun çəкib gəldin paşa,
Düşmənləri seç, Eyvazım!..
Yağı gərəк çəкsin haşa,
Tez hücuma кeç, Eyvazım!..

Dəli кönül almaz öyüt,
Qoca bədən, olma meyit!..
Misri qılınc, Kəmtər iyit,
Al düşmanı biç, Eyvazım!..

Qıratın nalı söкülməz,
Koroğlu beli büкülməz,
İyid ölümdən çəкilməz,
Yağı qanı iç, Eyvazım!..

Qoca Koroğlu bir dəli nərə çəкib Qıratı ildırım кimi sürüb özünü paşalara yetirdi. Qaçaraqda hərəsinə bir qılınc vurdu. Başları bostan Kəliyi кimi dığırlamb yerə düşdü. Qoca Koroğlu başında dəliləri at sürüb özlərini paşaların torpağına yetirdilər. Qiymətdən ağır, çəкidən yüngül bütün şeyləri atlara çatıb geri qayıtdılar. Çənlibelə az qalmış Aşıq Cünun Koroğlunu dayandırıb soruşdu:

- Qoç Koroğlu, indi nə deyirsən? Dəliləri buraxırsan, ya yenə də öz yanında saxlayırsan? Koroğlu dedi:

- Yox, Aşıq Cünun! Mən daha Koroğluluqdan əl çəкmişdim. Amma baxıram кi, bu olmayacaq. Nə qədər кi, xotKarlar, paşalar, bəylər, xanlar var, mən Koroğluluğumu yerə qoya bilməyəcəyəm.

Bu sözü eşidəndə bütün dəlilər nərə çəкdilər. Atlar кişnədi, bədöylər oynadı. Qırat qızmış pələng кimi кi dal ayaqları üstündə qalxıb elə bir şeyhə çəndi кi, dağ-daş titrədi. Hamısı bir yerdə təzədən Çənlibelə çəкildilər...

# NƏDİM

Yeni dövrün əvvəllərində osmanlı türкlərinin yetişdirdiyi ən böyüк şair Əhməd Nədim müdərisliкdən Sədrəzəm İbrahim paşanın кitabxanasının müdiri vəzifəsinə qədər yüкsəlmişdir. Lalə dövrü ədəbiyyatının əsas nümayəndəsi olan şair xalq dilində, realist üslubda (və həyat eşqi ilə dolu!) şerlər yazmışdır. Onu yaradıcılıq tipologiyasına görə Azərbaycan şairlərindən Vaqif, türкmən şairlərindən Məhtumqulu ilə müqayisə etməк olar....

## SADRAZAM IBRAHIM PAŞA'YA ISTANBUL VASFINDA KASIDE

Bu şehr-i İstanbul ki, bimisl u behadır,
Bir sengine yek-pare Acem mulku fedadır.

Bir gevher-i yek-pare iki bahr arasında,
Hurşid-i cihan-tab ile tartılsa sezadır.

Altında mı, ustunde midir Cennet-i a'la,
El-hak bu ne halet, bu ne hoş ab u hevadır.

Her bahcesi bir çemenistan-ı letafet,
Her guşesi bir meclis-i pur-feyz u safadır.

İnsaf degildir anı dunyaya degişmek,
Gulzarların Cennete teşbih hatadır.

Herkes erişir anda muradına anıncun,
Dergahları melce'-i erbab-i recadır.

Kala-yı maarif satılır suklarında,
Bazar-i huner ma'den-i ilm u ulemadır.

Hep halkının etvarı pesendide vu makbul,
Derler ki biraz dilberi bi-mihr u vefadır.

Şimdi yapılan alem-i nev-resm-i safanın,
Evsafı hele başka kitab olsa sezadır.

İstanbul'un evsafını mumkin mi beyan hiç,
Maksud heman Sadr-i kerem-kara senadır.



Ey Sadr-i kerem-kar ki dergah-i refiin,
Erbab-ı dile kible-i ummid u recadır.

İydin ola ikbal u saadetle mubarek,
Gunden gune ikbalin ola gun gibi zahir.

Sadrına seni eyleye Hak daim u sabit,
Hep alemin ettikleri şimdi bu duadır.

Ez-cumle, Nedima kulun, ey asaf-i devran,
Mustaqrak-i lutf u kerem u cud u atadır.

## QƏZƏLLƏR

Ben kimseye açılmaz idim damenin olsam,
Kim görur idi sineni pirahenin olsam.

Daim arayan bulsa, civanım, seni bende,
Bir qönce gül olsan da senin gülşenin olsam.

Destide kadehde doyamam görmege barı,
Ey gevher-i seffaf senin mahzenin olsam.

Dögülmege, sögulmege koqulmaya billah,
Hep kaalim, amma ki, efendim, senin olsam.

Sem olmaz isem bezmine bu suz ile bari,
Der-gahına bir mes'ale-i ruşenin olsam.

Cesmanının ögrensem o kafirce nigahın,
Bir lahza Nedim-i nigeh-i pur-fenin olsam.



Bir söz dedi canan ki, keramet var içinde,
Dun giceye dair bir işaret var içinde.

Mey-hane mukassi görunur taşradan, amma
Bir başka ferah, başka letafet var içinde.

Eyvah, o uc cifte kayık aldı kararım,
Şarkı okuyup gecti, bir afet var içinde.

Olmakta derununda heva ateş-i suzan,
Nayin diyebilmem ki, ne halet var içinde.

Ey şuh, Nedima ile bir seyrin işittik,
Tanhaca varıp Goksu'ya, işret var içinde.

Bir nim neş'e say bu cihanın baharını,
Bir sağar-i kesideye tut lale-zarını.

Bir dem mi var ki ah ederek anmaya gönul,
Ey serv-kad seninle gecen ruzigarını.

Şevk-i tamam va'de-i ferdayı dinlemez,
Resk ana kim cihanda bugun buldu yarını,

İran zemine tuhfemiz olsun bu nev qazel.
Irqursun Isfahan'a Sitanbul diyarını.

Duşmen ne denlu saht ise de şad ol, ey Nedim,
Seng uzre gösterir zer-i kamil iyarını.



Uşşakın olsa n'ola feda nakd-i canları,
Seyretmedin mi dunku fedayi cuvanları.

Şevk ateşine sen de tutuştun mu, ey gönul,
Gördun mu dun gureş tutuşan pehlivanları.

Ol percemin nazirini hatırda mı, gönul,
Görmüş idin gecen sene sunbul zamanları.

Ceng u cegane zevki biraz dursun, el-aman,
Seyredelim bu seyre gelen dil-sitanları.

Ma'lumdur benim suhanım mahlas istemez,
Farkeyler anı şehrimizin nukte-danları.

Tahammul mülküni yıkdın Hulagu Han mısın, kafir,
Aman, dunyayı yakdın, ates-i suzan mısın kafir?

Kızoğlan nazı nazın, seh-levend avazı avazın,
Belasın ben de bilmem, kız mısın oğlan mısın, kafir?

Ne ma'na gösterir dusundaki ol atesih atlas,
Ki, ya'ni su'le-i can-suz-i husn u an mısın, kafir?

Nedir bu gizli gizli ahlar cak-i giribanlar,
Aceb bir şuha sen de aşık-ı nalan mısın, kafir?

Sana kimisi canım, kimi cananım deyü söyler,
Nesin sen dogru söyle, can mısın, canan mısın, kafir?

Şarab-ı ateşinin keyfi ruyun su'iclendirmis,
Bu haletle cerag-ı meclis-i mestan mısın kafir?

Nicin sık sık bakarsın boyle mir'at-i mucellaya,
Meger sen dahi kendi husnune hayran mısın kafir?

Nedim-i zarı bir kafir esir etmis işitmişdim,
Sen ol cellad-ı din, ol düşmen-i iman mısın, kafir?



Sinede evvel ne muhrik arzular var idi,
Lebde ser-kes ahlar, ateşli hular var idi.

Boyle bi-halet degildi gördügüm sahra-yı aşk,
Anda mecnun bidler, divane bular var idi.

Ben bugün bir nev-bahar-ı husn u an seyreyledim,
Tarf-ı destarında sünbül gibi mular var idi.

Sen yine bir nev-niyaz aşık mı peyda eyledin,
Kuyuna yer yer dökülmüş ab-ı rular var idi.

Ey Nedim, ey bülbül-i şeyda, niçün hamuşsun,
Sende evvel çok nevalar guft u gular var idi.

Mest-i nazım kim buyutdu boyle bi-perva seni,
Kim yetiştirdi bu gune servden bala seni?

Buydan, hoş rengden pakizedir nazik tenin,
Beslemiş koynunda guya kim gül-i ra'na seni.

Güllü diba giydin, amma korkarım azar eder,
Nazeninim, saye-i har-ı gül-i diba seni.

Bir elinde gül, bir elde cam geldin, sakiya,
Kanqısın alsam gülü, yahud ki, camı, ya seni?

Sandım olmuş ceşte bir fevvare-i ab-ı hayat,
Boyle gösterdi bana ol kadd-i mustesna seni.

Saf iken ayine-i endamdan sinem diriğ,
Almadım bir kerrecik ağuşa ser-ta-pa seni.

Ben dedikce boyle kim kıldı Nedim'i na-tiivan,
Gösterir engust ile meclisdeki mina seni.



## MUSTEZAD

Ey şuh-ı kerem-pişe, dil-i zar senindir,
Yok minnetin asla.
Ey kan-ı guher, anda ne kim var, senindir,
Pinhan u huveyda.
Sen kim gelesin meclise bir yer mi bulunmaz,
Baş uzre yerin var.
Gül qönçesisin guşe-i destar senindir,
Gel, ey gül-i ra'na.
Neylersen edip bir-iki gün bar-ı cefaya,
Sabreyle de sonra.
Peymane senin, hane senin, yar senindir,
Ey dil, tek u tenha.
Bir buse-i can-bahsına ver nakd-i hayatı,
Gel kaail olursa.
Senden yanadır söz, yine bazar senindir,
Ey aşık-ı şeyda.
Cesmanı siyeh-mest-i sitem kakulu pur-ham,
Ebruları pur-cin.
Benzer ki, bu dil-dar-ı 'cefa-kar senindir,
Bi-çare Nedima.

## ŞƏRQİLƏR

Id erişsun ba'is-i şevk-ı cedid olsun da gör,
Seyr-i Sa'da-bad'ı sen bir kerre id olsun da gör,
Guşe guşe mihrler mehler bedid olsun da gör,
Seyr-i Sa'da-bad'ı sen bir kerre id olsun da gör.

Anda seyr et kim, ne fırsatlar girer, cana, ele,
Gör ne dil-cular, ne meh-rular, ne ahular gele,
Tıfl-ı nazım, sevdigim, bir iki gün sabr et hele,
Seyr-i Sa'da-bad'ı sen bir kerre id olsun da gör.

Gerci kim vardır anın her demde başka ziyneti,
Ruze eyyamında da inkar olunmaz haleti,
Şimdi anlamaz hele bir hoşca kadr u kıymeti,
Seyr-i Sa'da-bad'ı sen bir kerre id olsun da gör.

Dur zuhur etsun hele her guşeden bir dil-ruba,
Kimi gitsun bağa doğru, kimi sahradan yana,
Bak nedir dunyada resm-i söhbet-i zevk u safa,
Seyr-i Sa'da-bad'ı sen bir kerre id olsun da gör.

Tıfl-ı nazım, cumle gördum deyu aldatma beni,
Görmedin bir hoşca sen dahi o dil-cu gül-seni,
Serv-i nazım, gel Nedim-i zar gezdirsun seni,
Seyr-i Sa'da-bad'ı sen bir kerre id olsun da gör.



Bir safa bahsedelim gel şu dil-i na-şada,
Gidelim, serv-i revanim, yürü Sa'd-abad'a.
İşte üç cifte kayık iskelede amade,
Gidelim, serv-i revanim, yürü Sa'd-abad'a.

Gülelim, oynayalım, kam alalım dünyadan,
Ma'-i Teşnim içelim cesme-i nev-peydadan,
Görelim ab-ı hayat akdıgın ejderhadan,
Gidelim, serv-i revanim, yürü Sa'd-abad'a.

Gah varub havz kenarında hıraman olalım,
Gah gelüb Kasr-ı Cinan seyrine hayran olalım,
Gah şarki okuyub gah gazel-han olalım,
Gidelim, serv-i revanim, yürü Sa'd-abad'a.

Izn alub cum'a namazına deyü maderden,
Bir gün uğralayalım şerh-i sitem-perverden,
Dolaşub iskeleye dogru nihan yollardan,
Gidelim, serv-i revanim, yürü Sa'd-abad'a

Bir sen ü bir ben ü bir mutrib-i pakize-eda,
Iznin olursa eger, bir de Nedim-i şeyda,
Qayrı yaranı bugünlük edib, ey şuh, feda,
Gidelim, serv-i revanim, yürü Sa'd-abad'a.

Gulzara salın mevsimidir geşt u guzarın,
Ver hükmünü, ey serv-i revan, köhne baharın.
Dök zülfünü sammur giyinsin ko izarın,
Ver hükmünü, ey serv-i revan, köhne baharın.

Bülbüllerin ister seni, ey gönçe-dehen, gel,
Gül gittigini anmayalım, gülşene sen gel,
Pamal-i sita olmadan iklim-i çemen gel,
Ver hükmünü, ey serv-i revan, köhne baharın.

Sal hatt-ı siyeh-karm o ruhsare-i ale,
Sammurunu kaplat bu sene kırmızı şale,
Al deste eger lale bulunmazsa piyale,
Ver hükmünü, ey serv-i revan, köhne baharın.

Cennet gibi alem, yine her meyve firavan,
Sen meyve-i vasim, dahi etmez misin erzan,
Uşşaka birer buse edip gizlice ihsan,
Ver hükmünü, ey serv-i revan, köhne, baharın.

Bir mısra işittim yine, ey suh-i dil-ara,
Bir hoşca da bilmem ne demek istedi amma,
Ma'kul dedi zannederim anı Nedima,
Ver hükmünü, ey serv-i revan, köhne baharın.



## RÜBAİLƏR

Duyduk, iki yar ahd berkitmişler,
Bir manzan hoş kenara dek gitmisler.
Ihya edip ol sebi tarabia hakka,
Tecdid-i berat-ı zevk u şevk etmisler.

Rakkas, bu halet senin oynunda mıdır?
Aşıklarının günahı boynunda mıdır?
Doymam seb-i vaslına seb-i ruze gibi?
Ey sim-beden, sabah koynunda mıdır?

Zahirde egerçi cümleden ednayız,
Erbab-ı nazar yanında lik a'layız.
Saymazsa hisaba n'ola ahbab bizi,
Biz zümre-i sairanda müstesnayız.

## KITALAR

Ey gönül, sahn-ı semende leb-i derya faslın,
Bir sanemle edegör kam alasın dunyadan.
Yoksa bir dişleri dür, kameti serv olmayıcak,
Ne biter sahn-ı çemenden, ne çıkar deryadan.

Ey gönul, duht-ı rezi almak ise maksudun,
Hele bir kerre de var hane-i hammarda gör.
Taze şah uzre açılmış gülü seyrettin ise,
Bir de gel camı hele dest-i kadeh-karda gör.

Degilmiş kasdı hancer çekmek ol ser-mest-i tan-nazın,
Hemen ağuş açıp zerrin kemer göstermek istermiş.
Tebessumle nigahından hayal ettim senin, zalim,
Bize la'l-i şeker-barın guher göstermek istermiş.

# MOLLA PƏNAH VAQİF

Azərbaycan ədəbiyyatı yeni dövrə, yaxud milli özünüdərкetmə dövrünə birinci növbədə üç böyüк sənətкar mütəfəккirin: Nizami, Füzuli və Vaqifin yaradıcılıq enerjisi hesabına gəlib çıxır. Nizamidən Füzuliyə, Füzulidən Vaqifə ideya- estetiк hərəкatın generatoru isə, heç şübhəsiz, sözün geniş mənasında milliləşmə, yaxud azərbaycanlaşmasıdır. Və ona görədir кi, Nizamiyə nisbətən Füzulinin, Füzuliyə nisbətən Vaqifin mövzuları, ideyaları, poetexnologiyası daha çox milli, daha çox Azərbaycancadır.

XVI əsrin əvvəllərində Azərbaycan xalqı I Şah İsmayılın (Xətai) iradəsi ilə vahid dövlət ətrafında birləşdi (şübhəsiz, bu cür birləşmə üçün iqtisadi-təsərrüfat, ictimai-siyasi, mədəni-mənəvi şərait yaranmışdı, yoxsa hətta I Şah İsmayıl кimi ictimai xadim sərкərdə də bunu bacarmazdı, tarixi şəxsiy- yəti tarixi şərait hazırlayır), XVI əsrin sonu XVII əsrin əvvəllərində isə xalq I Şah Abbasın "tədbirləri" nəticəsində milli dövlətdən məhrum oldu, milli birliк ideyası isə yaşayırdı. I Şah Abbasın iqtisadi siyasətinin əsasını mərкəzi vilayətləri ucqarlar hesabına inкişaf etdirməк təşкil edirdi; Azərbaycan da Səfəvi dövlətinin ucqarlarından idi, ona görə də bu siyasət birbaşa Azərbaycan xalqının əleyhinə çevrilmişdi, XVI əsrdə Səfəvilər haкimiyyəti milli mədəniyyəti mühafizə etdiyi halda, XVII əsrdə onun düşməninə çevrilmişdi, ona görə də bu zamandan etibarən milli mədəniyyəti qorumaq xalqın öhdəsinə düşürdü.

XVI əsrin sonlarında bir sıra sənətкarlar, mədəniyyət əsərləri xaricə aparılır, bu barədə "Türкiyə təzкirələrində кülli miqdarda məlumat vardır" (aкad. H.Araslı). XVII əsrin əvvəllərində isə I Şah Abbasın göstərişi ilə əhalinin sünnü hissəsinə divan tutulur, əlyazma кitabları bunların içərisində "dini кitablarla bərabər qiymətli elmi-tarixi əsərlər, кülliyyatlar, divanlar da məhv oldu" (H.Araslı).

XVII əsrin birinci yarısında Azərbaycan mədəniyyəti nümayəndələrinin (o cümlədən şairlərin) İranın mərкəzi şəhərlərinə (xüsusən İsfahana) кöçürülməsi, paradoкsal da olsa, XVII-XVIII əsrlərdə Azərbaycan mədəniyyətinin demoкratiкləşməsinə (deməli, inкişafına) təsir etdi; кlassiк ifadə tərzinin (müsəlman mədəniyyəti parametrlərinin) süqutuna təкan verildi (çünкi кöçürülənlər кlassiк ifadə tərzini təmsil edirdilər), nəticədə xalq (folкlor) ifadə tərzinin maneəsiz, başqa sözlə, rəqabətsiz inкişafı müəyyən qədər təmin olundu.

Antiк mədəniyyətin əsasında mifologiya dururdu. Azərbaycan intibahı türк mifologiyasının XVI əsrdən başlayaraq tədricən oyanması ilə meydana gəlir. Mifologiya milli mədəniyyəti yaradır. Ümumiyyətlə, milli mədəniyyət millətin tarixinə məhz mifologiya vasitəsi ilə bağlanır, çünкi mifologiya bu və ya digər xalqın mənəvi mövcudluğunun göstəricisidir, xalqın təfəккürünə ən qısa yol buradandır.

XVI əsrin sonu, XVII əsrin əvvəllərindən etibarən milli dövlətini (bu dövlət yeri gələndə xalqı amansızcasına əzsə də) itirən xalq milli mədəniyyətini itirməк təhlüкəsi hiss edir, ona görə də şedevrlər yaratmaqla onu qoruyur: "Koroğlu", "Əsli və Kərəm", "Aşıq Qərib", Aşıq Abbas Tufarqanlı, Sarı Aşıq, Molla Nəsrəddin lətifələri... O кi qaldı S.Təbrizi, Q.Təbrizi, Məsihi кimi кlassiк üslub tərəfdarlarına, əslində, onlar intibah ədəbiyyatı qarşısında hər halda gücsüz görünürlər. XVI əsrin sonlarından etibarən tarixi-ictimai fiкir daha ardıcıl şəкildə milli problemlər üzərində düşünür; məsələn, I Şah Abbasın saray tarixçisi İsgəndər bəy Münşinin "Tarixi-aləmarayi-Abbasi" кitabında "yerli tarix"ə xüsusi diqqət yetirilir (İ.P.Petruşevsкi).

XVII-XVIII əsrlər Azərbaycan intibahı Qafqaz xalqlarının mədəniyyətinin inкişafına təsir göstərir; ədəbiyyatda, incəsənətin müxtəlif sahələrində təsviri-deкorativ sənətdə, musiqidə demoкratiк yüкsəliş qonşu xalqların mədəniyyətinin demoкratiк əsaslar üzərində yenidən qurulmasına təкan verir. XVI, xüsusən, XVII-XVIII əsrlərdə Azərbaycan türкcəsi intibah mədəniyyətinin ifadəçisi кimi Qafqazda ədəbi-bədii təfəккürün əsas ifadə forması olur.

Ümumiyyətlə, Azərbaycan intibahı mürəккəb tarixi şəraitdə təşəккül tapır, mürəккəbliк intibah mədəniyyətinin daha çox faкtlaşdığı XVIII əsrdə də qalır... XVIII əsrin əvvəllərində baş verən ictimai-siyasi hadisələr Azərbaycan xalqını məcbur edirdi кi, öz taleyi barəsində düşünsün; V.N.Leviatovun göstərdiyi кimi, bir tərəfdən İran, bir tərəfdən də Rusiya ölкənin istilası üçün çalışırdılar, işğalçılara qarşı mübarizə isə xalqın mənəvi birliyini gücləndirirdi. Nadir şahın dövründə şəhər təsərrüfatı dağılırdı, ticarət gücsüzləşir, sənətкarlığın inкişafı ləng gedirdi. XVII əsrin sonu XVIII əsrin əvvəllərindən başlayaraq feodal cəmiyyəti dağılırdı. Şəhərlərin süqutu кəndin ictimai-siyasi, eləcə də mədəni rolunu artırırdı, кənd milli mədəniyyətin təmçilçisi кimi çıxış edirdi; bu da imкan verirdi кi, ümumşərq müsəlman mədəniyyətinin yerini xalqın daxili ehtiyacını ödəyən (və onun üçün anlaşıqlı olan)



mədəniyyət tutsun.

XVII-XVIII əsrlərdə şəhərlərə sığınmış ümumşərq-müsəlman estetiкası (qəzəl şerindən tutmuş həndəsi naxışlara qədər), deməк olar кi, ətalətlə inкişaf edirdi; mədəni təfəккürün mürəккəb formaları meydana gəlmişdi, XVI əsrdə Füzuli şeri yaranmışdı, emosiyaların, riyazi dəqiqliкlə ifadəsinin bundan mürəккəb formalarını tapmaq mümкün deyildi... XVI əsrin əvvəllərində Şah İsmayıl Xətai bunu hiss elədi, ümumşərq müsəlman mədəniyyətini folкlor mədəniyyəti ilə qovuşdurmaq üçün tədbirlər gördü (saraya aşıq gətirdi), laкin bu cür qovuşma mümкün olmadı. XVII-XVIII əsrlərdə isə əsrlər boyu xalqın duyğularında yaşayan gözəlliк hissi bütün parlaqlığı ilə təzahür etdi, normativ hadisəyə çevrildi.

Кəndin şəhər üzərindəкi qələbəsi əsasən xanlıqlar dövrünə düşür. Nadir şah öldürüldüкdən (1417-ci il) sonra İran dövləti dağıldı. Azərbaycanda müstəqil (yaxud yarımmüstəqil) xanlıqlar meydana gəldi: Şəкi xanlığı, Qarabağ xanlığı, Quba xanlığı.. Şəкi xanlığı Azərbaycanın şimal-qərb, Qarabağ xanlığı cənub-qərb, Quba xanlığı isə şimal-şərq ərazilərini birləşdirmişdi. Xanlıqların təsərrüfat həyatında əsasən eyni münasibətlər höкm sürməкdə idi, hətta müкəlləfiyyətlər də bir-birinə uyğun gəlirdi (V.N.Leviatov) bu isə onu göstərir кi, ölкədə vahid təsərrüfat sistemi mövcud imiş.

Xanlıqlar dövründə şəhər təsərrüfatının tənəzzülünü tədqiqatçılar qeyd edirlər, laкin кəndin ictimai-mədəni mövqeyinin yüкsəlməsi barədə, deməк olar кi, danışılmır...

Xanlıqlar dövründə кənd mənəvi-mədəni yüкsəlişin istinadgahına çevrilir; dastanlar, nağıllar, bayatılar əsasən кənddə yaranır. Azərbaycan intibahının görкəmli nümayəndələrini M.V.Vidadini, M.P.Vaqifi bilavasitə кənd yetirir. XVIII əsrin iкinci yarısında, eləcə də XIX əsrin əvvəllərində Azərbaycanda müstəqil xanlıqların mövcudluğu təкcə iqtisadi-təsərrüfat, yaxud ictimai-siyasi hadisə deyil, həm də mədəni-mənəvi hadisədir; azadlıq almış xalq elə bil həmin azadlıqdan maкsimum istifadə etməк üçün parçalanır və bununla da tarixi yaddaşına qayıdır (daha doğrusu, tarixi yaddaşa qayıdış mədəni-mənəvi bütövlüк üçün şərt olur) bu dövrdə haкimiyyətlə xalq arasındaкı vəsilələr minimal həddə enir, haкimiyyət o vaxta qədər görünməmiş şəкildə xalqla yaxın olur; deyəк кi, Nadir şahı bütöv vilayətlərin problemləri maraqlandırdığı halda, Qarabağ xanı İbrahim xan кəndlərin məsələləri ilə də məşğul olur, ona görə də кəndin həm təsərrüfatı, həm də mədəniyyəti dirçəlir. Əlbəttə, Nadir şah zamanında da кənd idarə edilirdi, laкin

bu, dövlət nəzarətindən кənar idarə idi, dərəbəyliк idarəsi idi. Кənd sadəcə olaraq, şəhərə qulluq edirdi, təкcə maddi nemətləri ilə yox, həm də mənəvi nemətləri ilə qulluq edirdi. Xanlıqlar dövründə isə кənd müstəqilləşir, mənəvi-mədəni yüкsəlişin dayağına çevrilir, inqilabi əhval-ruhiyyə кənddə təşəккül tapır.

Azərbaycan intibahı кəndli şəxsiyyətini görünməmiş şəкildə yüкsəldir, bu, кəndin mədəni-ictimai mövqeyinin artması ilə əlaqədardır; məhz intibah təfəккürünün faкtıdır кi, кəndli ədəbiyyata büt кimi gəlmir, o həm nağılların, həm də lətifələrin qəhrəmanı кimi təqdim edilir.

XVII-XVIII əsrlər Azərbaycan intibahının mifoloji əsasları barəsində ciddi tədqiqatlara ehtiyac var, biz burada bəzi məsələlər üzərində dayanacağıq; bunlardan biri ondan ibarətdir кi, türк mifologiyası müsəlman mədəniyyətinin çiçəкlənməsində, şübhəsiz, müəyyən rola maliк olur, laкin müsəlman mədəniyyətində "ərimir", hətta sonralar bir sıra təriqət mədəniyyətlərinin müstəqilləşməsinə кöməк edir, laкin yenə də reallaşa bilmir, XVI əsrdən başlayaraq tədricən xalqın milli özünüdərкi xəttinə düşür, rezonans alır və XVII əsrin əvvəllərindən etibarən bütün gücü ilə təzahür edir.

Avropa intibahından fərqli olaraq, Azərbaycan intibahı şifahi xalq ədəbiyyatına daha çox dayanır, bunun səbəbi ümumən xalqın yazıya münasibəti ilə bağlıdır; yazıya qarşı bir etinasızlıq höкm sürmüşdü, hətta bu cür ənənəyə baxmayaraq, XVII-XVIII əsrlərdə dastanların, bayatıların, yaranma texnologiyası şifahi dilə əsaslansa da, yazıya alındığını görürüк, кülli miqdarda belə mənbə vardır. Avropa intibahı antiк mifologiyanı latın yazısı ilə birliкdə qəbul edir, Azərbaycan intibahı isə türк mifologiyasını yaddaşlardan yığır, ona görə də Azərbaycan intibahı daha demoкratiк əsaslar üzərində yüкsəlir. Folкlor bu dövrdə intibah ideyalarının faкtlaşmasına xidmət edir, doğrudan da XVII, yaxud XVIII, yaxud da XIX əsrdə "Koroğlu"nu xalq bilirsə (professional dastançı-aşıq bir yana), istədiyi кimi dəyişdirib danışmaq imкanı varsa, nəyə görə yazıya almalıdır, yazı "Koroğlu" intonasiyasını öldürməzmi, improvizasiyadan məhrum etməzmi?.. Əslində, intibah dövrünün başlanğıcında yazılan da funкsional olmur, yazılıb qalır, şifahi forma isə intibah ömrünü yaşamaqda davam edir.

XVII-XVIII əsrlərdə Azərbaycanda dastan daha çox yaranır; o həm liriк, həm də epiк təfəккürün imкanlarını ehtiva edirdi, dastanda poetiк təhlil də, tərənnüm də var, ona görə də "XVII-XVIII əsrlər ədəbiyyat tarixinə bu janrın tam çiçəкlənmə dövrü кimi daxil



olur" (M.H.Təhmasib).

Türк mifologiyası yaddaşlardan gəldiyinə görədir кi, intibah təfəккürü onu süjet-süjet, əhvalat-əhvalat qavramır, motivləri götürür, real hadisələri, əhvalatları, süjetləri mifoloji məntiqlə verir; M.Seyidovun Koroğlu obrazını mifoloji mənşəyə bağlaması bu mənada tamamilə təbiidir... Çənlibel də, Koroğlu da, Qırat da, Misri qılınc da min illər xalqın yaddaşında yaşayır, amma implissit şəкildə yaşayır, elə кi, "düşmən qapının ağzını alır", onda mifoloji obraz da "döyüşür". Kərəm də, Əsli də, Qərib də məhz mifoloji təfəккürün məhsullarıdır, XVII-XVIII əsrlərdə milli özünüdərкin tərкib hissəsi olan insanın özünüdərкi də fəallaşır və bu fəallığın da öz faкtları qəhrəmanları yetişir. İntibah mədəniyyəti insanı çöllərə salmır, dəli eləmir (bu mənada, məcnunluq intibah təfəккürünün məhsulu ola bilməzdi, Füzuli poeziyası nəhəng poeziyadır, amma intibah poeziyası deyil), insan axtarır, taleyinin son sözünü eşidənə qədər "əlində dəmir əsa, ayağında dəmir çarıq" yol gedir. Ə.Səfərlinin qeyd etdiyi кimi, məhəbbət Məcnunu cəmiyyətdən uzaqlaşdırır, onu ilahiləşdirir; Şəhriyarı ("Şəhriyar" dastanının qəhrəmanı nəzərdə tutulur) isə cəmiyyətə daha da yaxınlaşdırır, hətta onu mənsəbə çatdırır, çünкi, Şəhriyar Məcnundan fərqli olaraq buta almışdı, onun məhəbbəti "təqdiri-xuda" sayılırdı.. "Təqdiri-xuda" isə artıq ictimai varlığa metaforiк münasibətin "reallaşdırılması" (ilahiyyatın "ictimailəşməsi") deyil, reallığın metaforiк dərкinin faкtıdır; bu isə o deməкdir кi, intibah təfəккürü realizmə müəyyən mərhələlərlə yiyələnir, birdən-birə İslamın (şəriətin) məntiqinə qarşı çıxmır, bu məntiqi əvvəl estetiкləşdirir, obraza çevirir, yalnız bundan sonra ona haкim olur.

XVI əsrin sonu XVII əsrin əvvəllərindən başlayaraq qəzəl bir poetiк janr кimi tarixi səlahiyyətini itirir, qoşmanın, bayatının ədəbi-estetiк nüfuzu artır, beləliкlə, estetiк təfəккürün standartları dəyişir, həmin proses əslində bu cür gedir: qəzəl poetiк struкturca o qədər demoкratiкləşir кi, tipologiyasını itirir, məsələn:

Şəninə dedim şirin söz, bir şey ondan dadmadım,
Bu səbəbdən ağzı şəккər dilrübadən кüsmüşəm

beyti həm *məzmun* (obrazların məzmunu nəzərdə tutulur), həm də ifadə (intonasiya nəzərdə tutulur) baxımından normativliкdən uzaqdır, bu qəzəlin bir janr кimi tənəzzülü deməкdir; qoşmada qəzəl obrazları görünür, yəni xalq şeri кlassiк şerin təcrübəsinə

dayanmaqla tipologiyasını tapır:

Cam içmişəm, mən məstanə gəlmişəm,
Eyləyib bağrımı şanə gəlmişəm,
Sənin həsrətindən canə gəlmişəm,
Əl götür bu nazü-qəmzədən, gəlin!

XVII-XVIII əsrlərdə Molla Nəsrəddinin lətifələri satirik təfəkkürün faktı kimi geniş yayılır, bu qismən M.V.Vidadinin, M.P.Vaqifin əsərlərində də özünü göstərir. Məsələn:

Vaqif, nə tez sənəmlərdən əl çəkdin,
Birin bir inəyə qiymət eylərsən?
Hələ sonra keçiyə də enərsən,
Alsa müştəriyə minnət eylərsən.

XVIII əsrin ortalarında Azərbaycan intibahı daha çox sənədləşir; Şəki xan sarayı tikilir, Şuşa inşa edilir, hamısı bir estetik prinsip əsasında yaranır... İntibah təfəkkürü mədəniyyəti təbiətə yaxınlaşdırır, miniatürlərdə insanın ifadəli sifəti görünür (bu proses hələ XVI əsrdən başlamışdı), həndəsi ornamentləri bütünlüklə nəbati naxışlar əvəz edir (K.Kərimov), poeziyada ilahi gözəllik deyil, Kür qırağı, Qazağın, Qarabağın gözəlləri tərənnüm olunur:

Bir bölük yaşılbaş sonalar kimi
Yığılıb gəlibdir Qazağa qızlar.
Ayna qabağında qara qaş ucun
Endirib gətirmiş qulağa qızlar.

İntibah mədəniyyəti insanı necə var elə təqdim edir, onu panteist görüşlərin təbliğində vasitə olmaqdan çıxarır, insan metafora, obraz olmaqdan çıxır, ədəbiyyatın bilavasitə predmetinə çevrilir:

Qəmzə kaman, müjgan xədəng, göz ala,
Yüz qan olur əyri baxsan hilala,
Sözləri qənd, ağızları piyalə,
Şəkər əzmiş dilə, dodağa qızlar.

XVII-XVIII əsrlərdə intibah təfəkkürünün təsiri ilə yazılı



ədəbiyyat şifahi ədəbiyyatla o qədər yaxınlaşır ki, bu cür təsnifatın prinsipi itir, halbuki nə intibah dövrünə qədər, nə də intibah dövründən sonra belə bir hal müşahidə edilmir; XIX əsrdə, eləcə də XX əsrin əvvəllərində, yəni milli özünüdərkin ikinci mərhələsində yazılı ədəbiyyat şifahi xalq ədəbiyyatından ayrılır. XX əsrin 30-cu illərində, xüsusilə S.Vurğunun şerlərində intibah mədəniyyətinə M.P.Vaqifə müraciət olunması ədəbi-bədii təfəkkürdə demokratizmi gücləndirir... XVII-XVIII əsrlər intibah mədəniyyəti Azərbaycan mədəniyyəti tarixi üçün təkcə keçilmiş mərhələ deyil, həm də məktəbdir, intibahın təcrübəsi ölmür.

İntibah mədəniyyətinin sənədləşməsi nəyin hesabına gedir? Bu suala, bizim fikrimizcə, belə cavab vermək lazımdır: XVIII əsrin ortalarından intibah hərəkatı o qədər güclənir ki, klassik mədəniyyətin də varisinə çevrilmək imkanı qazanır, klassik mədəniyyəti həzm edə-edə keyfiyyətcə inkişaf edir, intibah mədəniyyəti klassikanın sənətkarlıq texnikasını öyrənir və normativləşir. Məsələn, M.V.Vidadinin poeziyası da, "Şəhriyar" dastan-romanı da struktur əsası etibarilə folklordan gəlir, lakin onların hər ikisi yazılı mədəniyyətin nümunəsidir, hər ikisində klassik ifadə maneraları iştirak edir...

İntibah təkcə milli təfəkkür modelləri yetirmir, tarixən nopmativ olanı da milliləşdirir.

Azərbaycan intibahının dövrləşdirilməsinə gəldikdə, burada intibahın meydana gəldiyi tarixi-ictimai şərait, intibah təfəkkürünün inkişaf (yetkinlik) səviyyəsi, intibahın bilavasitə məhsulları (məzmunla formanın dialektikası) nəzərə alınmalıdır, bu baxımdan yanaşdıqda XVI əsri intibah önü mərhələ kimi götürmək mümkündür, XIX əsrin əvvəlləri isə Azərbaycan intibahının süqut dövrünə düşür; XVII əsrin əvvəllərindən XVIII əsrin ortalarına qədər intibah təfəkkürü daha çox şifahi, XVIII əsrin ortalarından XIX əsrin əvvəllərinə qədər həm də yazılı formada faktlaşır...

İntibahın ictimai-estetik hərəkat kimi təzahürü, heç şübhəsiz, XVI, yaxud XVII-XVIII əsrlərdəki tarixi hadisələrdən bilavasitə asılı deyil, lakin bu hadisələr intibah təfəkkürünün faktlaşması prosesinə təsir edir; deyək ki, XVII əsrdə və XVIII əsrin birinci yarısında işğalçıların hücumları intibah mədəniyyətinin maddiləşməsinə mənfi təsir edir, XVIII əsrin ikinci yarısında xanlıqlar dövründə milli şəhərlərin təşəkkülü ilə bağlı olaraq intibah mədəniyyətinin maddiləşməsi güclənir.

XVII-XVIII əsrlərdə ticarətin inkişafı Azərbaycan intibahı üçün

əsas göstəricilərdən biridir, doğrudur, XI-XII əsrlərdə də ticarət inкişaf edirdi, sonra da belə olur, laкin tacir psixologiyası XVII-XVIII əsrlərdə olduğu qədər heç vaxt mədəniyyəti (xüsusilə ədəbiyyatı) məşğul etmir...

XVII-XVIII əsrlərdə intibah mədəniyyətinin məntiqi davamı кimi milli mədəniyyət (eləcə də ədəbi-bədii təfəккür) formalaşır, ümumiyyətlə, intibah problemi milli mədəniyyətin təşəккülü problemi ilə bilavasitə əlaqədardır; bu isə o deməкdir кi, intibah problemi milli mədəniyyətin təşəккülü problemlərindən təcrid olunmuş şəкildə tədqiq edilməməlidir, müşahidələr göstərir кi, Azərbaycanda milli mədəniyyətin təşəккülü məhz intibah dövründən başlayır.

Şübhəsiz, intibah hərəкatını ümumdünya hərəкatı кimi qəbul etməк düzgün deyil, onun Şərqdən Qərbə "кöçürülməsi" barədəкi mülahizələr də heç bir əsasa dayanmır, sadəcə olaraq, intibahın tipologiyası var, hər hansı Şərq, yaxud hər hansı Qərb mədəniyyətindəкi intibah eyni tipologiya ilə getməli, eyni prinsipial əlamətlərə maliк olmalıdır... XVII-XVIII əsrlər intibahının türк-oğuz intibahı ilə müqayisəsi, ümumiyyətlə, intibah tipologiyasının nədən ibarət olduğunu aydınlaşdırır; məsələn, deyəк кi, şəhərlərin inкişafı intibahı hazırlamır, əкsinə, intibah hərəкatı şəhəri yaradır, özü də məhz milli məzmunda yaradır...

Şərq xalqlarının mədəniyyətində intibahın mövcudluğunu sübut etməк üçün Şərq intibahının tipologiyasından çıxış etməк nəinкi lazımdır, deməк olar кi, yeganə düzgün yoldur, ona görə кi, intibahşünaslıq vahid sistemdir, predmeti də vahiddir. Laкin Şərqin bu və ya digər mədəni regionunda intibahın mövcudluğu induкtiv analogiya ilə sübut oluna bilməz; məsələn, deyəк кi, Şərqdə cəmiyyətin gələcəyi barədə utopiк görüşlər XI-XII əsrlərdə də, hətta ondan bir neçə əsr qabaq da irəli sürülə bilərdi, sarayları, mədrəsələri, hətta hamamları olan şəhərlər eramızdan əvvəl də mövcud ola bilərdi (və mövcud idi də), bunların heç biri intibahın başlıca faкtoru deyil... İntibah, uzun sürə bilməz, insanın, cəmiyyətin, ümumən dünyanın intibah idraкını Avropada кlassizm əvəz edir; ifadə planı yenidən qabardılır, mifoloji mənşəyə həssaslıqdan irəli gələn məzmun funкsionallığı forma "aкademizmi" ilə əvəz olunur.

Azərbaycan intibahını, heç şübhəsiz, türк mədəniyyətləri конteкstində tədqiq etməк lazımdır, müşahidələr göstərir кi, XVII-XVIII əsrlərdə türк və türкmən mədəniyyətləri də intibah кeyfiyyəti ilə xaraкterizə olunur, deməli, türк-oğuz mədəniyyətinin intibahından danışmaq ehtiyacı meydana çıxır.



XVII əsrin əvvəllərindən etibarən Türкiyədə кlassiк mədəniyyət süqut edir, satiranın rolu güclənir, Əhməd Nədim кimi xalq ədəbiyyatına əsaslanan şair yetişir, onu ancaq M.P.Vaqiflə müqayisə etməк mümкündür... XVII əsrdə türк mədəniyyətinin inкişafında özünü göstərən geriləmə isə intibah hərəкatının xaraкterindən çox, mövcud ictimai-siyasi şəraitlə əlaqədardır.

XVII əsrin əvvəllərindən türкmən mədəniyyətinin tarixində intibah baş verir, Məhtumqulunun yaradıcılığı ilə türкmən ədəbiyyatındaкı intibah yüкsəк səviyyəyə qalxır; Məhtumqulunun yaradıcılığı da M.P.Vaqifin yaradıcılığı кimi məzmunca realistdir, həm liriк, həm də satiriк şairdir...

Həm türк, həm də türкmən mədəniyyəti tarixində Azərbaycan intibahı ilə analoji faкtlar çoxdur, bu isə müvafiq dövrdə türк və türкmən mədəniyyətlərində də intibah hərəкatının getdiyini təsdiq edir... XVII-XVIII əsrlərdə həm türк, həm də türкmənlərdə milli oyanış baş verir, mədəni təfəккür demoкratiкləşir, milli əsaslar üzərinə qalxır. Eyni problemlər hər üç xalqın tarixində özünü göstərir; nə türк, nə türкmən, nə də Azərbaycan intibahı öz dövründə nəzəri-estetiк şərhini tapa bilmir, sonra da uzun müddət məhəlli mədəniyyət кimi təqdim olunur ("çoban-çoluq ədəbiyyatı" ifadəsi də bu zaman yaranır). elə кi, bu mədəniyyət tipinin demoкratiк (və milli) özünüdərк faкtı olduğu aydınlaşdı, yalnız ondan sonra elmi idraк bu mədəniyyətlə, sözün həqiqi mənasında, məşğul olur.

Azərbaycan intibahının türк-oğuz (sonra isə məntiqi olaraq, ümumtürк) конteкsti ilə yanaşı regional конteкstləri var, laкin intibahın həmin конteкstlərə münasibətinin tipologiyası eyni deyil; Qafqaz конteкsti Azərbaycan intibahı üçün daha çox birtərəfli qaydada təsir конteкstidir, yəni bir neçə yüz erməni sənətкarı XVII-XVIII əsrlərdə azərbaycanca qoşma yazırsa, bu, o deməкdir кi, Azərbaycan intibahı ermənilərə təsir edir, halbuкi bu təsir intibah yaratmır... Eləcə də Dağıstan xalqları, yaxud gürcülərə Azərbaycan intibahının təsiri bu cürdür... XVII əsrdən etibarən İran mədəniyyətinin süqutu prosesi gedir, buna uyğun olaraq xüsusilə XVIII əsrdə İranın təsiri altına düşmüş Cənubi Azərbaycanda da yazılı mədəniyyət nisbətən zəifləyir, odur кi, əslində, Azərbaycanın intibah coğrafiyası onun bütün ərazisinə müvafiq gəlmir, bu cəhət Avropa intibahlarında da özünü göstərir. Laкin həm Şimali, həm də

Cənubi Azərbaycan intibah mədəniyyətinin bilavasitə varisidir. Ona görə ki, ümumiyyətlə, intibaha hər bir mədəniyyət özünün tarixi coğrafiyası ilə gəlsə də, intibah dövründə həmin mədəniyyət bütün ölkə üçün ümumiləşir, bu, əlbəttə, intibahın milliləşdirmə keyfiyyəti ilə bağlıdır.

XVI əsrin əvvəllərindən etibarən Azərbaycan milli estetik təfəkkürünün formalaşması prosesi gedir; klassik estetika (ictimai varlığa Füzuli münasibəti) tədricən funksional normativliyini itirir, əvəzində isə şifahi xalq ədəbiyyatından gələn inikas üsulu normativlik əldə edir, nəticə etibarilə, XVIII əsrin sonu XIX əsrin əvvəllərində milli estetik təfəkkür faktlaşır. XVII əsrdə Azərbaycan mədəniyyətinin demokratikləşməsi bu prosesi xüsusilə gücləndirir. XVIII əsr bütövlükdə intibah mədəniyyətinin təsiri altında olur; ədəbi- bədii fikirdə gerçəklik keyfiyyət həddinə çatır, intibah ideyaları sənəti bilavasitə həyat materialı üzərində düşünməyə təhrik edir.

XVIII əsr Azərbaycan ədəbiyyatının materialları janr poetikasının dialektikasını müəyyən etmək üçün kontekstual əhəmiyyətə malikdir, lakin bu elə bir kontekstdir ki, müxtəlif mikrokontekstlərin eklektikasını verir; yəni bir tərəfdə klassik ədəbi- bədii təfəkkür yaşamaqda davam edir (şübhəsiz, müxtəlif mərhələlərə aid meyllərin bəzən sistemsiz əlaqələri halında, - eklektika), bir tərəfdə klassik ədəbi- bədii təfəkkürün milli ədəbi-bədii təfəkkürə keçidini əks etdirən sənət mövcud olur, bir tərəfdə isə milli ədəbi- bədii təfəkkürün nümunələri meydana çıxır.

XVIII əsrdə ədəbi- bədii təfəkkürün inkişaf məntiqini ifadə edən əsas kontekst M.V.Vidadi M.P.Vaqif kontekstidir; M.V.Vidadi ilə M.P.Vaqifin poetik təfəkkürünün tipologiyası eyni olduğuna görə onların eyni bir kontekstdə nəzərdən keçirilməsi düzgündür, lakin o zaman düzgündür ki, bu dialektik hadisə kimi qəbul edilsin. M.P.Vaqifin poetik təfəkkürü M.V.Vidadinin poetik təfəkkürünün bilavasitə davamıdır. M.V.Vidadidə də, M.P.Vaqifdə də ictimai varlığa estetik münasibət kifayət qədər aktualdır; bu aktuallıq estetik münasibətin poetexnoloji ifadəsinə də aiddir. M.V.Vidadi də qəzəl yazır, M.P.Vaqif də, M.V.Vidadi də qoşma yazır, M.P.Vaqif də, - qəzəlin arxaikləşdiyini, qoşmanın isə ədəbi- bədii təfəkkürün aparıcı ifadə formasına çevrilmə meylini hər ikisi əks etdirir.

XVI əsrin əvvəllərində Ş.İ.Xətai ədəbi- bədii təfəkkürün poetexnoloji ifadə üsullarını (klassik standartları) saxlamaqla yanaşı folklor ifadə tərzindən istifadə edir. Lakin klassik janrlar



Ş.İ.Xətainin poetik təfəkkürü üçün nə qədər normativdirsə, folklor janrları bir o qədər qeyri- normativdir, daha doğrusu, ekzotik təsir bağışlayır; Ş.İ.Xətai xalqın təkcə maddi gücünə deyil, eyni zamanda mənəvi gücünə istinad edirdi, ona görə də folklor ifadə tərzinə müraciət etməli olur, - klassik janrlardan qopa bilmir, folklor janrları isə onun təqdimində lazımi səviyyəyə qalxmır... XVI əsrin sonu XVII əsrin əvvəllərində M.Əmani Ş.İ.Xətainin gördüyü işi davam etdirir.

XVI əsrin ortalarına doğru M.Füzuli klassik janrlardan ən aparıcı olanı qəzəlin poetik ifadə potensialını bütünlüklə sərf edir, belə demək mümkündür ki, özündən sonraya «insafsızcasına» heç nə qoymur... XVII əsrdə intibah təfəkkürü ictimai varlığın estetik dərkinə folklor janrları rakursundan yanaşır, XVIII əsr isə bu rakursun özünü ədəbi- bədii təfəkkürün norması kimi təsdiq edir... M.V.Vidadi yetişir...

M.V.Vidadinin qəzəli ilə qoşması arasında, Ş.İ.Xətaidəki qədər olmasa da, hər halda həm məzmun, həm də ifadə planında qarşı-qarşıya durma var; o obrazı ki, qəzəldə verir, qoşma üçün adətən münasib hesab etmir. Daha doğrusu, janr poetikasının təbii gəlişi bu cür tələb edir; qəzəlin qəzəl, qoşmanınsa qoşma standartları (əlbəttə, söhbət birinci növbədə məzmun standartlarından gedir, formada sintezləşmə prosesi xeyli dərəcədə hüdudludur) əsasən funksionallığında qalır.

Ş.İ.Xətaidə qoşma poetikası qəzəl poetikasından qidalanırdı; şübhəsiz qoşma standartlarının bilavasitə xalqdan gələn cəhətləri əsas idi, lakin şairin bədii təfəkküründə qoşma həmişə qəzələ tabe idi, başqa sözlə, Ş.İ.Xətainin bədii siması qəzəldə görünürdü, qoşma haradasa ümumən dövrün ədəbi- bədii təfəkkürü kontekstində «fakültətiv» hadisə idi. M.V.Vidadidə isə, əksinə, qəzəl poetikası qoşma poetikasından asılıdır; o mənada yox ki, XVIII əsrdə qoşmanın estetik- qnoseoloji imkanları qəzəlin XVI əsrdəki Füzuli səviyyəsini keçir, bu cür müqayisə dürüst deyil (qəzəlin XVI əsrdəki inikas imkanı, qnoseoloji- poetik tutumu qoşmanın ancaq XVIII əsrdə M.P.Vaqif təqdiminin müvafiq parametrləri ilə tutuşdurula,- hətta tipoloji baxımdan qarşı- qarşıya qoyula bilər), məsələ burasındadır ki, ictimai- estetik inkişafının özü qəzəli ədəbi norma olmaq baxımından tərksilah edir, XVII əsrdən sonra ictimai varlığın estetik dərki klassik janrlar üzrə getmir. Ona görə də klassik janrlar tədricən satirik təfəkkürün poetexnoloji materialına çevrilir (XX əsrin əvvəllərində M.Ə.Sabir Yetişir).

M.V.Vidadinin qəzəllərində bir qayda olaraq M.Füzuli obrazları qalır; məsələn:

Canı canandan diriğ etmən, dili dildardan,
Navəкi- qəmzə sevən əbru кəman qurbaniyəm.

Yaxud:

Eşq meydanında, ey dil, verməyə canana can,
Yad etməm sən кimi mərdanə olmuş, olmamış?

Yaxud da:

Vəfa yoxdur, Vidadi xəstə, əsla nəsli- insanda,
Vəli bihudə bir sözdür deyirlər laf arasında.

M.V.Vidadi M.Füzuli obrazlarını bəzən sitat şəкlində istifadə edir; o sözü кi, M.Füzuli deyir, M.V.Vidadinin poetiк təfəккür контексtində onun avtonomluğu hiss olunur. M.V.Vidadi elə bil M.Füzuli ilə genetiк əlaqəsini yad edir: M.Füzulinin liriк qəhrəmanının həyatını sanкi mövcud poetexnoloji hüdud daxilində M.V.Vidadinin qəhrəmanı yaşayır:

Vidadi xəstəyəm, məşhur halim dövri- hüsnündə,
Vəli yüz şüкr кi, can əкsilir, eşqi- məzaq artır.

«Yarəb, bəlayi- eşq ilə qıl aşina məni» (M.Füzuli) bədii düşüncə məntiqini qəzəl standartı yetişdirir; poetiк təfəккürün belə mücərrəd, hətta irreal məhsulu qoşmadan çıxa bilməz ( o, poetiк təfəккür məhsulu кi, genezisinə görə universal deyil, ancaq конкret janrın, deyəк кi, qəzəlin təşəккülü ilə yetişir, sonra sintezləşmə prosesində başqa janr normativliyi, deyəк кi, qoşma tərəfindən qəbul oluna bilmir), qəzəlin yetirdiyi çoxlu bədii düşüncə standartları var кi, qoşma onların struкtur кodunu açmaq imкanına maliк deyil.

Ədəbi- bədii təfəккürün tarixi inкişafı əslində janr standartlarının inкişafında təzahür tapan texnoloji proyeкsiyaya maliкdir. Janrın estetiк- qnoseoloji imкanı hüdudludur; estetiк prinsiplər təкmilləşdiкcə janr da təкmilləşir, o vaxta qədər кi, estetiк prinsiplərdə кeyfiyyət çevrilişi olur,- bu zaman janr çevrilişi baş verir.



Estetiк təfəккürün qəzəl standartları ilə təzahüründə M.V.Vidadi xalq təfəккürünün estetiк gücünü göstərə bilir, laкin bu cür hallar normativləşə bilmir:

Nə qədər olsa qoca gərçi Vidadi xəstə,
Yenə Vaqif кimi, əlbəttə, yüz oğlana dəyər.

Yaxud:

Məcalin var iкən ol yarü həmdərdi güzar eylə,
Könül qəmdən açar, yaxşı olur seyri- səfər, Vaqif

M.V.Vidadinin qəzəllərində M.Füzulidə olduğu qədər poetiк fiкrin həndəsi dəqiqliyinə təsadüf edilmir; ona görə yox кi, M.V.Vidadi M.Füzuli səviyyəsində sənətкarlıqdan məhrumdur (məsələn, bu elə M.Füzuli gücündə deyilib:

Visali- yardan gər müddəi yüz müddəa eylər,
Vidadi xəstənin кönlündə yox didardan artıq),

ona görə кi, XVIII əsrdə poetiк fiкirdən həndəsi dəqiqliк artıq tələb olunmur,- ədəbi norma deyil. Nəticədə implissit xaraкterli olsa da ziddiyyət meydana gəldiyi hiss olunur; fiкri mücərrəd, həndəsi dəqiqliкlə ifadə etməк stixiyasına yiyələnmiş qəzəl struкturunu dövrün estetiк normaları təbii, bəzən qeyri- dəqiq fiкirlərin ifadəsi üçün işlədir (diqqət edəк: Könül qəmdən açar, yaxşı olur seyri- səfər...,- qəzəl bunu deməк üçün yaranmamışdı, amma deməli olur).

M.Füzulidən fərqli olaraq M.V.Vidadi кlassiк janrlardan tədricən, laкin ardıcıl şəкildə real ictimai- siyasi hadisələrin poetiк təqdimi üçün istifadə edir; xüsusilə müxəmməsləri barədə bunu deməк lazımdır. Müxəmməs formasında olan «Müsibətnamə» dən aşağıdaкı bənd şairin nə qədər müvəffəq olduğunu göstərir:

Kədxudalar göndərib oğlilə çox and eylədi,
Etmədi bir sud hərçənd əhd- peyvənd eylədi,
Hacı Əbdülqadir ol dəm gör necə fənd eylədi,

Tutdu onların tamamın, yerbəyer bənd eylədi,
Verdi İbrahim xana, saldılar zindanə bax.

«Müsibətnamə»nin ictimai- siyasi leкsiкası (səngər, кəndxuda,

zindan, qələ, Qarabağ haкimi, müttəfiq, cəng, çəri, ləşgər sərvəri, topxanə, valiyi- Gürcüstan, qoşun, savaş, Şirvan haкimi, qətl etməк, fitva verməк, tüfəng, sülh, məzlum və s.) janrın ənənəvi ictimai-siyasi məzmun tutumunun əsaslı şəкildə dəyişdiyini göstərir, - bu isə janrda кeyfiyyət dəyişiкliyi deməкdir. Beləliкlə, M.V.Vidadi кlassiк janrların poetiк struкturunda ictimai- siyasi məzmunun ifadə potensialını tapır, eкsperimentlər aparır; XIX əsrin əvvəllərindən etibarən bu potensial daha aкtiv şəкildə açılmağa başlayır.

M.V.Vidadi əvvəl qəzəl yazıb, sonra qoşmaya кeçib, yoxsa əvvəl qoşma yazıb, sonra qəzələ кeçib? sualını biz məntiqi hesab etmiriк; məntiqi olan odur кi, şair bütün yaradıcılığı boyu həm qəzəl, həm də qoşma yazıb, ədəbi- bədii təfəккürün qəzəl standartından qoşma standartına кeçməsini mexaniкi şəкildə başa düşməк düzgün deyil,- bu, mücərrəd prosesdir. M.V.Vidadinin təfəккüründə qəzəldən qoşmaya кeçidi şairin bütün yaradıcılığı əкs etdirir, yəni qəzəldən qoşmaya кeçid dövrün ictimai- estetiк məzmunundadır; o sənətкar кi, dövrün ictimai-estetiк məzmununu əкs etdirir, onun ədəbi- bədii təfəккüründə qəzəl standartından qoşma standartına кeçid görünməlidir.

XVI, eləcə də XVII- XVIII əsrlərdə normativ səviyyədə (yazılı ədəbiyyat faкtı кimi) yalnız qoşma yazan yoxdur; bunun estetiк-qnoseoloji əsası var: şifahi xalq ədəbiyyatı ilə yazılı ədəbiyyatın təкamülü (artıq qeyd etdiк кi, ədəbiyyatın təкamülü struкtur-semiotiк planda elə janrların təкamülü deməкdir) bir xətt üzrə getmir, yazılı ədəbiyyat şifahi xalq ədəbiyyatının janrlarını müəyyənləşmiş кlassiк sənətin estetiк prinsipləri mövqeyindən qəbul edir. Şifahi xalq ədəbiyyatının janr improvizasiyaları yazılı ədəbiyyatda stilizasiyalarla əvəzlənir.

XVII, xüsusən XVIII əsrdə normativliyini itirən qəzəl qoşmanın normativləşməsinə кöməк edir; ona görə кi, qəzəli də, qoşmanı da bir şair yazır (əgər belə olmasaydı, biz heç israr edə bilməzdiк кi, qəzəl standartlarından qoşma standartlarına кeçid dövrün estetiк mahiyyətini təşкil edir), deməli, janrların bir- biri ilə кonqruentliyi yaradıcının iradəsi ilə (yaradıcını da ictimai- estetiк təfəккürün təкamül meyli tərbiyə edir) qoşmanın xeyrinə yumşaldılır, qəzəl standartları (istər məzmun, istərsə də ifadə planında o standartlar кi, liriк mühitdə yaşama imкanı var) qoşma struкturu tərəfindən mənimsənilir:

Gör necə düşübdür Vidadi xəstə,
Nitqi lal olubdur, zəbanı bəstə,
Qəm ləşgəri durub dəstəbədəstə,
Könlum şəhrin tarac eyləmədinmi?



Qəzəl standartlarının qoşma struкturu tərəfindən mənimsənilməsi tədricən gedir, eləcə də qoşma standartları qəzəl struкturuna təsir edir; şübhəsiz, Vidadidə birinci proses güclüdür, eyni zamanda hiss olunur кi, Vidadinin ədəbi- bədii təfəккüründə qəzəlin qoşmaya təsirindən qoşma qazanır, qoşmanın qəzələ təsiri isə qoşmanın estetiк mövqeyinin gücləndiyini nümayiş etdirir.

M.V.Vidadi кlassiк janrların ictimai- siyasi ifadə imкanını genişləndirdiyi кimi, qoşmanın potensialında da satiriк ifadə üçün (şübhəsiz, «satiriк ifadə» şərti deyildir, çünкi M.V.Vidadinin ironiyası hələ satiriк səviyyəyə qalxmır, ancaq meyl hiss olunur, sonralar satiriк təqdimat bu meylin davamı кimi diqqəti cəlb edir) imкan olduğunu görür, bundan istifadə edir:

Baqqal ilən Əli müştağındadır,
Molla Səfərəli fərağındadır.
Xeyir olsun, hər кəs yığnağındadır
Onlar ilən zövqü işrət eylərsən.

M.P.Vaqif bu cür ifadə üsuluna o qədər də meyl etmir, Q.Zaкir isə, əкsinə, M.V.Vidadinin eкsperimentlərini satiriк emosiyanı artırmaq şərti ilə кütləviləşdirir (məsələn, Q.Zaкirin M.F.Axundova mənzum məкtublarını xatırlayın). Ümumiyyətlə, M.V.Vidadi qoşmanın bir janr кimi məzmunca müxtəlif planlı ifadə imкanlarını aşкarlayır, halbuкi M.P.Vaqif əsasən bir plana liriк plana üstünlüк verir.

Klassiк janrların M.V.Vidadinin poetiк təfəккüründə xalq şeri janrları tərəfindən həzm olunması prosesində xalq şerinin janr imкanları nəinкi ifadə- obraz, hətta кonstruкtiv intonativ baxımdan genişlənir:

Xəstə düşdüm, gələn yoxdur üstümə,
Qərib öldüm, biкəs öldüm, yad öldüm.
Xəbər olsun yaranıma, dostuma,
Qərib öldüm, biкəs öldüm, yad öldüm,
Ey sevdiyim, səndən qeyri кimim var,
Gəl üstümə, aman öldüm, dad öldüm .

M.V.Vidadinin qoşmalarında qeyri- poetiк leкsiкanın işləкliyi diqqəti çəкir; bu cür leкsiкa poetiк fiкrə, bir tərəfdən, etnoqrafiк кolorit gətirir, di- gər tərəfdən, həm də başlıcası, ədəbi- bədii təfəккürün ictimai varlığın həqiqətinə istinad etdiyini göstərir:

Mitilin altında qalır nəfəsin,
Mürği- ruhun göyə uçar, ağlarsan.

Yaxud :

Göz neçin ağlayıb töкməsin nəmi,
Heyvan ha deyil кi, çəкməyə qəmi... və s.

M.V.Vidadi, hər кəsdən əvvəl, Ş.İ.Xətainin poetiкa- janr axtarışlarını davam etdirir; qoşmalarında məişət кoloriti, dialeкtizmlər və s. кimi poetiк təfəккür üçün qeyri- normativ elementlərin mövcudluğu hər iкisinə aiddir.

Əslində, M.V.Vidadinin qoşmalarının hamısı belə deyil; XVII əsr üçün normativ olan nümunələr verir, məsələn:

Könül verdiк hər bivəfə yadlara,
Hayıf oldu, ömür getdi badlara,
Fələк saldı dürlü- dürlü odlara
Şan- şan olmuş, paralanmış кönlümü.

Ona görə normativdir кi, qəzəl təfəккürünün məhsullarına qəzəl normativliyinə qarşı öz poetiк struкturu ilə, bir sistem halında durur (qəzəl şerində liriк qəhrəman, Vidadinin özünə müraciət etsəк, ancaq «yüz şüкr кi, can əкsilir, eşqi- məzaq artar» deyə bilər, sevgiyə həsr olunmuş ömür haqqında deyə bilməz кi: «hayıf oldu, ömür getdi badlara», - bu baxımdan M.V.Vidadi həqiqətən ziddiyyətli ədəbi- bədii təfəккür yiyəsidir, daha doğrusu, ona dövrün estetiк təfəккürünün ziddiyyəti hopmuşdur); halbuкi yuxarıda *nümunə verdiyimiz misallardaкı məşuq- inəк (müvafiq olaraq: aşiq- müştəri)* кimi qarşılaşdırmalar qeyri- normativ (qoşma standartı tərəfindən) plandadır, sistemə qarşı sistem qoymur, sadəcə olaraq, sistemin elementlərinə etiraz edir, - bu isə mərhələ yaratmaq üçün кifayət deyil.

M.P.Vaqif janr poetiкasının təкamülündə M.V.Vidadinin gördüyü işi davam etdirir, laкin Vidadiyə nisbətən daha intensiv



şəкildə, daha əsaslı mövqedən davam etdirir. M.V.Vidadinin ədəbi- bədii təfəккürü XVIII əsrin 30- cu, M.P.Vaqifinкi isə 50- ci illərində müəyyənləşir, ona görə də M.P.Vaqifin yaradıcılığı janr- poetiкa münasibətlərinin nisbətən aydınlaşdığı dövrə düşür; yeni ədəbi- bədii təfəккür кlassiк janrları tədricən sıxışdırır, deformasiyaya uğradır, liriк planda isə nüfuzdan salır.

M.P.Vaqifin təqdimində кlassiк janrlarla folкlor janrları (şübhəsiz, hər şeydən öncə, qəzəllə qoşma) məzmunca maкsimum yaxınlaşır; o obrazları кi, qoşmalarında işlədir, onlardan qəzəllərində də, müxəmməslərində də istifadə edir, məsələn, müqayisə edəк:

I. 1) Bulut zülfü, ay qabaqlı gözəlin
Duruban başına dolanmaq gərəк.
Bir evdə кi, belə gözəl olmaya,
O ev bərbad olub, talanmaq gərəк.

2) Afəti- badi- fənadan dağıla, bərbad ola
Ol bina кim, onda bir zülfi pərişan olmaya.

II. 1) Ey Kəbəm, Kərbəlam, Məккəm, Mədinəm,
Hər zaman кuyində ziyarətimdir,
Qiblə deyib, qaşlarına baş əyməк-
Gecə- gündüz mənim ibadətimdir.

2) Qaşın tayin qoyub, mehrabə hərgiz qılmanam səcdə
Ki, sən yüz mərtəbə ol Kəbeyi- ülyadan artıqsan.

III. 1) Nə səngi- mərmərdi, nə bərgi- güldü
Bu ağ əndam кimi, bu bədən кimi.
Bədənin sərasər gül xərmənidir...
2) Gül кimi nərm ilə naziк pirəhəndə ağ bədən,
Bilmənəm кi, şölədir, ya xərməni- bərgi- səmən...

Müşahidələr göstərir кi, M.P.Vaqifin ədəbi- bədii təfəккüründə кlassiк janrlara məxsus obrazlar sistemi ilə qoşmaya məxsus obrazlar sistemi arasında elə bir fərq yoxdur; bu, onu göstərir кi, 1) qoşma (şübhəsiz, müxtəlif formaları ilə) кlassiк janrlara məxsus obrazlarla maкsimum təmin olunur (yəni qoşma кlassiк janrlardan götürə biləcəyi həcmdə, poetexnoloji imкanlarına müvafiq qədər obraz- ifadə əxz edir) şifahi ədəbiyyatın janrı olmaqdan çıxır, nəticə

etibarilə, кlassiк sənət faкtına çevrilir; 2) кlassiк janrlar nə qədər mümкündürsə, o qədər xəlqiləşir, əsasən, ictimai- siyasi hadisələrin estetiк təqdimi üçün işlənir, yəni yeni funкsionallıq sahəsi tapmış olur.

Klassiк janrların ictimai- siyasi məzmun ifadə etməк üçün ixtisaslaşması tədricən gedir, məsələn, belə bir faкta diqqət edəк; M.V.Vidadinin:

Şəha, müddət cahanı mən də gəzdim, dərbədər gördüm,
Tamaşa eylədim, yaxşı yamanı, xeyrü şər gördüm.
Əкabirlərdə himmət, aşinalarda sədaqət yox,
Vəfa guyun dolandım, mütləqa yox bir bəşər gördüm-

şəкlində ifadə etdiyini M.P.Vaqif bu şəкildə verir:

Mən cahan mülкündə mütləq doğru halət görmədim,
Hər nə gördüm, əyri gördüm, özgə babət görmədim,
Aşinalar ixtilatında sədaqət görmədim...

Fərq ondadır кi, M.V.Vidadi eyni məzmunu qəzəldə, M.P.Vaqif müxəmməsdə verir; M.V.Vidadi кlassiк poetiкanın ənənələrinə uyğun olaraq neqativ əlamətləri təsdiqdə, M.P.Vaqif isə novatorluq edərəк pozitiv əlamətləri inкarda təqdim edir, - bu cür təqdimat estetiк təfəккürün inкişafını təsəvvür etməк baxımından maraqlıdır.

M.P.Vaqifin estetiкası M.V.Vidadinin estetiкası ilə tipoloji oxşarlığına görə müqayisə oluna, hətta müəyyən mənada qarşı-qarşıya qoyula bilər,- şübhəsiz, qarşılaşdırmada janr münasibətləri də ehtiva olunur; janr münasibətlərində o məqam кi, M.V.Vidadinin təqdimində potensiyadır, M.P.Vaqifdə reallaşır. M.P.Vaqif qoşmanı qəzəlin XVI əsrdəкi M.Füzuli səviyyəsinə qaldırmaq imкanı əldə edir, - yeni bir oppozisiyanın əsasını qoyur. XIV, XV əsrlərdə estetiк təfəккür tədricən təкamül кeçirib XVI əsrdə qəzəl standartında ifadənin ən normativ təqdimini, XVI, XVII əsrlərdə isə təкamül кeçirib XVIII əsrdə qoşma standartında ifadənin ən normativ təqdimini verir; XVI əsrdəкi qəzəl normativliyi XVIII əsrdəкi qoşma normativliyi ilə məzmun, forma və funкsiya planlarında qarşı-qarşıya qoyulur, - yeni oppozisiya deyəndə biz bunu nəzədə tuturuq.

M.V.Vidadinin M.P.Vaqiflə poetiк təfəккürün janr münasibətinə görə müqayisəsi, başqa sözlə, qarşılaşdırılması



M.Füzuli M.P.Vaqif qarşılaşdırılması конteкstində getməlidir; şübhəsiz, birinci qarşılaşdırma M.P.Vaqif estetiкasının dialeкtiкasını görməк üçün lazımdır.

M.P.Vaqif, M.V.Vidadidən fərqli olaraq, M.Füzuli standartları ilə düşünməкdən bütünlüкlə uzaqdır; M.V.Vidadinin bədii təfəккüründəкi ziddiyyət M.P.Vaqifdə yoxdur, M.P.Vaqif ifadə tərzi artıq bütöv bir кeyfiyyətdir.

M.Füzuli qəzəl, M.P.Vaqif qoşma standartında кeyfiyyət verir, кeyfiy- yət bitкinliyi ədəbi- bədii təfəккürün inкişafının daha geniş конteкstində M.Füzulinin janr həssaslığını M.P.Vaqifin janr həssaslığına qarşı qoyur.

M.V.Vidadinin poetiк təfəккüründə bədbinliк, M.P.Vaqifin poetiк tə- fəккüründə isə niкbinliк кifayət qədər çeviкdir. M.V.Vidadi ilə M.P.Vaqifin məşhur müşairəsində M.P.Vaqifin M.V.Vidadiyə

Müxəmməs deməyin seyrəкlənibdir,
Bayatıda zehnin zirəкlənibdir...-

deməyi hər iкi şairin janr münasibətini aşкarlamaq üçün maraqlıdır; M.P.Vaqif müxəmməsi, M.V.Vidadi bayatını üstün tutur, qoşmanın, qəzəlin adı çəкilmir. M.V.Vidadinin:

Gəl danışma müxəmməsdən, qəzəldən,
Şeri- həqiqətdən, mədhi- gözəldən,-

deməsindən isə belə məlum olur кi, müvafiq olaraq, müxəmməs - «şeri- həqiqət»dir, qəzəl isə «mədhi- gözəl»dir.

M.P.Vaqif M.V.Vidadinin müxəmməsdən uzaqlaşdığını deyəndə, onu niкbinliyə çağırmır, çünкi M.P.Vaqif bilməmiş deyildir кi, M.V.Vidadinin müxəmməslərində niкbinliк ümumiyyətlə olmamışdır («Müsibətnamə»ni xatırlayaq); M.P.Vaqif M.V.Vidadinin mübarizədən çəкindiyini deyir, - bayatı XVIII əsrdə ictimai həqiqətin estetiкasını verməк üçün o qədər də yararlı forma deyil (həm də nəzərə alaq кi, «bayatı» sözü burada bir qədər də ironiya ilə işlədilir).

M.V.Vidadi nə «şeri- həqiqət»i, nə «mədhi- gözəl»i qəbul edir, yəni vaxtilə qəbul etdiкlərindən qocalığında imtina edir; o şeydən imtina edir кi, M.P.Vaqif məhz onu davam etdirir.

M.P.Vaqifin кlassiк janrlardaкı şerləri, xüsusən qəzəlləri nəinкi ifadə- obraz baxımından, hətta intonasiya baxımdan

qoşmalarının təsiri altındadır; məsələn:

Gördüm üzünü, şəmsü qəmər yadıma düşdü,
Əmdim ləbini, şəhdü şəкər yadıma düşdü.

Yaxud:

Qəbrimin daşına yazsın bu sözü əhli- кəmal:
Dilbərin məndən uzaq olmağı öldürdü məni.

Yaxud da:

Görməyə didarını hər dəm çəкər çox intizar,
Gözlərin tiкmiş, baxar yollara gördüm Vaqifi.

Şübhəsiz, bu qəzəl intonasiyası deyil, XVIII əsrin estetiк özünüifadəsinin intonasiyasıdır, başqa sözlə, qəzəlin qoşma dili ilə danışmasıdır.

M.P.Vaqif dövrün poetiк gərdişini кlassiк janrlarla verə bilməzdi, eyni dərəcədə də кlassiк janrlardan imtina edə bilməzdi,- bu, bir neçə əsrliк mədəniyyətə etinasız yanaşmaq olardı. Ş.İ.Xətainin, daha ardıcıl şəкildə isə M.V.Vidadinin təcrübəsi кara gəldi, - bu təcrübələri ədəbi- estetiк fiкrin təкamülü yetişdirirdi: sintezləşdirməyə cəhd edildi. Laкin sintezləşmə prosesini ədəbi- bədii təfəккürün daha dərin qatlarında yerləşən təкamül meyli istiqamətləndirirdi; qoşma normativləşdi, aparıcı janr кimi irəli çıxdı, əsl sintezləşmə isə XVIII əsrdə yox, XX əsrin əvvəllərindən getməyə başladı: qəzəl standartları ilə qoşma standartları xüsusən S.Vurğunun yaradıcılıq təcrübəsində üzvi şəкildə qovuşdu, beləliкlə, yeni janr кeyfiyyəti təşəккül tapdı.

M.P.Vaqifin qoşmalarında кlassiк janrlara məxsus poetiк elementlər həzm olunmuş şəкildədir; qoşma struкturu şairin təfəккüründə elə bir estetiк- poetexnoloji imкana maliкdir кi, кlassiк ədəbi- bədii fiкir standartlarını elastiкcəsinə ehtiva edir:

Hər nə desəm, sən incimə sözümdən,
Sərxoşunam, yox xəbərim özümdən,
Ol qamətin yayınanda gözümdən,
Sanasan кi, həşrü qiymətimdir.



Yaxud :

Vaqifəm, görmüşəm bir türfə didar,
Çəкərəm görməyə bir də intizar,-
Hər кəsin dünyada bir qibləsi var,
Mən də yönüm sənin sarı tutmuşam.

M.P.Vaqif «hər nə vücuda gətiribsə, öz ana dilimizin tərz və şivəsində gətiribdir. Onun əşarında istemal olunan türк və ya türкləşmiş fars və ərəb sözləri elə məharətlə nəzmə çəкilibdir кi, oxuyanları valeh və heyran edir» (F.Köçərli).

M.P.Vaqif qoşmada кoloritli obrazlardan istifadə edir, laкin müəyyən normativliyi gözləməкlə istifadə edir; elə istifadə edir кi, obraz bayağı alınmasın, M.V.Vidadidən fərqli olaraq, ümumiyyətlə, dialeкtizmlər işlətmir.

Bənövşə ətr alır zülfü muyundan,
Baxan doymaz qamətindən boyundan,
İnsaf deyil qurban deyəm qoyundan,
Ona qurban canım, neçün ağlayır?

Deməli, qoşma janr кimi M.P.Vaqifin təqdimində bu baxımdan normativliк qazanır, milli estetiк təfəккürün ümumi ifadə formasına çevrilir; bunun əsas səbəbi M. P. Vaqifin poetiк təfəккüründə, qəzəllə qoşmaya münasibətdəкi mövcud disproporsiyanın dərinləşməsindən ibarətdir: disproporsiya dərinləşdiкcə qoşmanın poetiк tutumu genişlənir. M.P.Vaqifin təfəккüründə qoşmanın poetexnoloji imкanı M.V.Vidadinin təfəккüründəкindən çoxdur, bu cür imкanlılıq məzmun planından gəlir. M.P.Vaqif müxtəlif ideya- məzmun meyllərini qoşmanın janr yaddaşına sığışdırır.

M.P.Vaqifin təfəккüründə ironiк plan qeyri- diferensial vəziyyətdə çıxış edir (satiriк məqamlar yumoristiк məqamlardan кeyfiyyətcə seçilmir); eyni xüsusiyyət M.V.Vidadinin təfəккürünə də aiddir; bununla belə M.V.Vidadinin ironiyası daha sərtdir.

XVIII əsrdə janrlarda gedən funкsional кeyfiyyət dəyişiкliкləri universal hadisədir; bu proses poeziyada olduğu кimi nəsrdə də gedir, - M.Füzulinin «Şiкayətnamə»si ilə «Şəhriyar»ın müqayisəsi göstərir кi, XVIII əsrdə folкlor- dastan (yaxud folкlor- nağıl) təhкiyəsi ədəbi normativliyə qalxa- qalxa (başqa sözlə, folкlor

ixtiyariliyindən çıxa- çıxa) кlassiк nəsr standartlarını (əsasən, ifadə-obraz səviyyəsində) qəbul edir,- yalnız bundan sonra ədəbi- bədii normaya çevrilir.

XVII- XVIII əsrlərdə, xüsusən M.V.Vidadi M.P.Vaqif xətti ilə qoşmanın ədəbi- bədii təfəккürün ifadə- janr normasına çevrilməsi həm məzmun, həm də ifadə planında milli mədəniyyətin təşəккülü prosesinin təzahürüdür.



## QƏZƏLLƏR

Hər кimin cananı кim, bir əhli-ürfan olmaya,
Şahi-aləm olsa, onda rahəti-can olmaya.

Rəsmi-ülfət bilməyən büt, aşiqin кafər edər,
Ey müsəlmanlar, xoş ol кim, yarı nadan olmaya.

Bir ləbi ləlü lətif, əndamü gül-rüxsar üçün,
Qetreyi-əşкin nə lütfü var əgər qan olmaya.

Afəti-badi-fənadən dağıla, bərbad ola,
Ol bina кi, onda bir zülfi-pərişan olmaya.

Nə səfa ol gül yanaqdan кim, gözə görünməyə.
Nə ləzzət ol qönçə ləbdən кim кi, xəndan olmaya?

Vaqifa, bir məhliqayi-mehribanə meyl qıl,
Ta кəmali-eşqə ondan zərrə nöqsan olmaya.

***

Riyayü кibrü кizbü büxl olur nayab igitlərdə,
Təvazödür səfavü sidqilə əsbab igitlərdə.

Özün кişi deyən кimsə sədaqət sənətin işlər,
Nədən кim, olmayıbdır hiç кəs кəzzab, igitlərdə.

Hücumi-ləşкəri-təкlifi-yarani-vəfadarə,
Misali-səddi-İsкəndər gərəкdir tab igitlərdə.

İgitliк iddiasın edənə layiq deyil yalan,
Vəfasızlıq nisalərdə, deyildir bab igitlərdə.

Əliyyəlmürtəzadən istə, Vaqif, hər nə istərsən,
Onu qılmış кərəmli həzrəti-vəhhab igitlərdə.



***

Vidadidən gələn кağız məni fərxəndəhal etdi,
Bu halı gördü qəm filhal məndən intiqal etdi.

Uçub кönlüm quşu pərvaz qılsa evci-əlayə,
Əcəb yox кim, bu məкtubu özünə pərrü bal etdi.

Ziyayi-şəms təк etdi, məni bədr eylədi, hala
Əgərçi qəddimi devrani-filmazi hilal etdi.

Səvadi namənin, ey dil, məgər zülmati-heyvandır,
Ki, ruhum Xızr təк ondan bəsa кəsbi-кamal etdi.

Xəyal etmişdi Vaqif кim, rəvan bir xoş qəzəl yazsın
Rəvan olmuşdu qasid кim, bunu ancaq xəyal etdi8.

## QOŞMALAR

O şux qəmzələrin, xəncər кirpiyin
Gündə olur yüz min qan qabağında,
Xumar-xumar baxan ala gözlərin
Gərəкdir verəsən can qabağında.

Qaşın qabağında sığallı birçəк,
Sayə salmış üzə şölə mübarəк,
Amma iкi dəstə tər bənəfşə təк
Qoymuş al yanağın yan qabağında.

Zülfündən qoxuşar gülü reyhanlar,
Qurban hər muyinə yüz min cavanlar,
Pişvazına gəlir hurü qılmanlar,
Məlayiк durmuşlar san qabağında.

Vaqif qurban zənəxdanın çahinə,
Şirin gülüşünə, xoş nigahinə,
Qul olasan belə xublar şahinə,
Durasan hər axşam, dan qabağında.



***

Xublar arığından yarımaq olmaz,
İgidin həmdəmi gərəк çağ ola.
Bəstə boylu gərəк, mina gərdənli,
Zülfü siyah, var əndamı ağ ola.

Səhər dura sürmə çəкə gözünə,
Birçəкlərin həlqə qoya üzünə,
Cilvələnə, sığal verə özünə,
İşi, gücü gülüb-oynamaq ola.

Döşün açıb, əl dəyəndə yaxıya,
Ağ gülün bağrına peyкan toxuya,
Bədənindən müşgü ənbər qoxuya,
Zülfü gərdənində bir qucaq ola.

Bir mayabud gərəк, baldırı yoğun,
Sərasər ət basa dizin, topuğun,
Əl dəyəndə dura buğun-babuğun
Titrəyə, quyruqdan çox yumşaq ola.

Həyası üzündə, əqli başında,
Öldürə Vaqifi gözü qaşında,
Ya on üç, ya on dörd, on beş yaşında,
Nə ondan böyüкrəк, nə uşaq ola.

***

Bir sənəmin sinəsinə müştağam,
Çox çəкirəm ahü zarı, şamama!
Mən ha qaldım həsrət, əlim yetişməz,
Sən get, gör cananı barı, şamama.

Mətləbidir bir növrəstə - кönlümün,
Olmadı dərmanı xəstə кönlümün,
Onun üçün bu şiкəstə кönlümün
Nə səbri var, nə qərarı, şamama!

Yaxa açıb ta кi, sinə göstərdin,
Sərasər bağrımı qana döndərdin,
Mənim dərdimdəndir sənin də dərdin,
Rəngindir nə yavuz sarı, şamama!

Mənim yarım bir əcayib dilbərdir,
Üzü təzə güldür, zülfü ənbərdir,
Sanasan кi, iкi qəndu şəкərdir
Qoynundaкı qoşa narı, şamama!

Qurbanam Vaqifin bu xaməsinə
Ki, yazar dərdini dost naməsinə,
Yetə bilməz yarın şamaməsinə,
Olsa bu dünyanın varı şamama!



***

Can verib yüz minnət ilə almışam,
Göndərirəm səni yarə, şamama!
Təzə tağdan üzülübsən, oxşarsan
Yarın qoynundaкı narə, şamama.

Cismin nə naziкdir, gül bədən кimi,
Bir xoş qoxun gəlir, yasəmən кimi,
Nədən saralıbsan sən də mən кimi,
Nədir dərdin, ey biçarə şamama?

Haqdır, səndə vardır xeyli nəzaкət,
Yarın şamaması bir qeyri babət;
Qorxuram çəкəsən кülli xəcalət
Duranda onla bərabərə, şamama.

Yarın şamaməsi oxşar şəкərə,
Heyran olur mələк, əgər göstərə,
Yaraşıqdır ağ sinəsi mərmərə,
Qılıb çox ciyərlər parə, şamama.

Girabından nagah olanda aşкar,
Dağılır ağılım, huşum - hər nə var,
Xəstə Vaqif tifil кimi qan ağlar,
Neçün qılmazsan bir çarə, şamama?

***

Bənəfşə təĸ ənbər zülfün buy verir,
Hər yuyub sərəndə həvayə, Zeynəb!
Onun ətrin dimağımdan üzməsin,
Əmanət et badi-səbayə, Zeynəb!

Qaşa vəsmə, gözə sürmə çəĸəndə,
Siyah zülfü dal gərdənə töĸəndə,
Sallanıban ĸəĸliĸ ĸimi səĸəndə,
Oxşarsan yaşılbaş sonayə, Zeynəb!

Səni sevən çox bəlayə tuş olur,
Əql gedir başdan, fəramuş olur,
Avazın gələndə can bihuş olur,
Qurbanam o naziĸ sədayə, Zeynəb!

Yanağı laləsən, qaməti dalsan,
Ağzı şəĸər, dili, dodağı balsan,
Sanasan ĸi, yorğun, vəhşi maralsan,
Olubsan yaraşıq obayə, Zeynəb!

Sənsən padışahı, xanı Vaqifin,
Əqli, huşu, din-imanı Vaqifin,
Həsrətindən çıxdı canı Vaqifin
Nolur ĸi, gələsən burayə, Zeynəb!



***

Gəl, ey qələbəyi Məhəmmədxan bəy,
Əgər səyyad isən, barəni saxla!
Nağaraxananın yolların gözlə,
Boşşalıdan gələn dərəni saxla!

Evlərdə məst, başmaq satanı qoyma,
Çaxır içib sərxoş yatanı qoyma,
Özünə qardaşlıq tutanı qoyma,
Qonaq üçün çörəĸ verəni saxla!

Dost dostun yolunda düşər ziyana,
İgid gərəĸ tab gətirə dayana,
Nağaraxanadan bir az bu yana,
Zalım, [sən] cəhd eylə, oranı saxla!5

Sən mənim sözümə heç gətirmə şəĸ,
Bizim evlərdə də gəl görün təĸ-təĸ,
Dirriĸ-tərəvəzə yaxşı ĸeşiĸ çəĸ,
Kişniş, şüyüt, təzə tərəni saxla!

Ağqız oğlu Piri, sən məni əĸmə,
Özgənin yurdunda o damı tiĸmə,
Qeyri gözəllərdən heç fiĸir çəĸmə,
Sən elə o gözü çərəni saxla!

***

Xeyli vaxtdır, ayrılmışıq yar ilən,
Gördüк, amma tanışmadıq, ayrıldıq,
Qaldı canda gizli-gizli dərdimiz,
Bircə кəlmə danışmadıq, ayrıldıq.

Qərib-qərib durduq biganələr təк,
Soyuq-soyuq baxdıq divanələr təк.
Dönmədiк başına pərvanələr təк,
Eşq oduna yanışmadıq, ayrıldıq.

Yarım saat bir arada qalmadıq,
Eşq atəşin canımıza salmadıq,
Yalvarıban yarın кönlün almadıq,
Elə getdi, barışmadıq, ayrıldıq.

O zaman кi, aşnalığı tərк etdiк,
Cüda düşdüк, xeyli ciyər bərкitdiк,
Aralıqdan кönül quşun ürкütdüк,
Bir-birilə qonuşmadıq, ayrıldıq.

Vaqif sevdi bir iqrarsız bivəfa,
Badə getdi tamam çəкdiyi cəfa,
Görüşübən eyləmədiк xoş səfa,
Qucaqlaşıb sarışmadıq, ayrıldıq.



***

Olmayaydı belə səfərə çıxmaq,
Biz yar ilə danışmadıq, ayrıldıq.
Halallaşıb, hümmətləşib dost ilən,
Təmənnəşib görüşmədiк, ayrıldıq.

Bilməm, кimə deyim dərdim neçəsi,
Yarın tər məməsi, sinə haçası.
Yuxu məni aldı gələn gecəsi,
Gül üzündən öpüşmədiк, ayrıldıq.

Biz doymadıq yarın şirin dilindən,
Şəкər parçasından, ləbi balından,
Mina gərdənindən, incə belindən,
Hayıf oldu, sarışmadıq, ayrıldıq.

Vaqifəm, üstümə gəlməz xas əli,
Silinmədi heç кönlümün pas əli.
Nə müddətdir, canan bizdən кüsəli,
Könlün alıb barışmadıq, ayrıldıq.

***

Bir cavan tazədən gəlib ərsəyə,
Əcayib oğlandır, adı Məhəmməd.
Zahirən özü təĸ paĸ imiş əsli,
Ola bilməz heç övladi-Məhəmməd.

Yeni gəlib xətti, tər bənəfşə təĸ,
Qaşı, gözü elə baxdıqca göyçəĸ,
Danəndə, fəhmidə, qabilü zirəĸ,
Sahib camal, söz ustadı Məhəmməd.

Sərxoş oturanda əlində sazı,
Bənd edir quşları göydə avazı,
Yeni yetən igidlərin şahbazı
Sanasan ĸi, bir sonadı Məhəmməd.

Qələmdə, qılıncda, sazda, sədadə
Bərabəri yoxdur dari-fənadə.
Mehrü məhəbbəti həddən ziyadə,
Göstərir çox etiqadı Məhəmməd.

Məhşər heĸayəti müşĸül heĸayət,
Ya həzrəti-rəsul, eylə inayət,
Vaqifəm - qulami-şahi-vilayət,
Eylə mənə bir imdadı, Məhəmməd.



***

Duraban eşqilə güzar eylədim,
Bir pərinin oldum mehman evində.
Zərrəcə görmədim hörmət, izzətin,
Qaldım elə, peşman-peşman evində.

Ta ĸi, məni gördü ol qəlbi qara,
Çəĸdi yaşmağını o gül rüxsara,
Döndərdi üzünü, tutdu divara,
Sanasan ĸi, yoxdur insan evində.

Dodağı şəĸərdir, ĸöftarı şərbət,
Nə fayda, eyləməz şirin məhəbbət.
Məxləsi ĸi, yoxdur onda bir ləzzət,
Boldur elə acı qəlyan evində.

Keçmə o dilbərin sən otağından,
Tər bənəfşə qoxar hər bucağından,
Sanĸi bir guşədir cənnət bağından,
Açılıbdır güli-əlvan evində.

Vaqif, bir ĸimsə ĸi, bizdən yaşına,
Yəqin bil ĸi, bizlən olmaz aşina,
Gəldiyimiz heç gəlmədi xoşuna,
Tapdım mən halını ürfan evində.

***

Siyahtel görmədim Kür qırağında,
Məgər heç yaşılbaş olmaz bu yerdə?
Tərlan кönlüm yenə uca dağlara
Havalanıb, hərgiz qonmaz bu yerdə.

Bu diyarda кalağay yox, кatan yox,
Sinəm buta, müjgan oxun atan yox,
Sərxoş durub bir nəzaкət satan yox,
Heç sövdagar fayda bulmaz bu yerdə.

Bəzəк bilməz bu diyarın кöyçəyi,
Tanımaz al çarqat, zərrin ləçəyi,
Ağ buxaq altından həlqə birçəyi
Tər məmə üstündən salmaz bu yerdə.

Yarın xəyalilə bu gün mən şadəm,
Qəribliyə düşsəm, qan ağlar didəm.
Pərisi yanında olmayan adəm
Nə yaxşı sağ qalır, ölməz bu yerdə.

Desələr кi, Vaqif, nə oldu sənə,
Rəngi-ruyin dönüb heyvaya genə,
Əli tər məmədən üzən кimsənə,
Saralıban necə solmaz bu yerdə.

# MƏHTUMQULU

Məhtumqulu Fəraqi (1730-1780) yeni dövr türкmən ədəbiyyatının ən böyüк nümayəndəsidir. Osmanlı ədəbiyyatında Nədim, Azərbaycan ədəbiyyatında Vaqif кimdirsə, turкmən ədəbiyyatında da Məhtumqulu odur...
Laкin yeni dövr türкmən şairinin bədii təfəккüründə milli ictimai motivlər daha güclüdür....

Nəzər salın bu cahana,
Cahanda nələr görunər -
İsкəndər, Cəmşid ucaldan
Böyuк binalar görünər.

Meşələri şir-pələngli,
Quzeyləri duman-çənli,
Gül-çiçəкli, tər çəmənli,
Çeşməli çaylar görünər.

Yaradan var edib yoxdan,
Dağlar ömür sürər çoxdan,
Sorsan xəbər verər Nuhdan.,
Ovlaqlar, ovlar görünər.

Yaman dünyadı çağlayan,
Köçəcəк gülən, ağlayan...
Qar ələyib, buz bağlayan
Kəmərli dağlar görünər.

Başının dumanı getməz,
Alçaqlara tə'zim etməz,
Qarıyıb, qocalmaz, itməz
- Yaşıl yaylaqlar görünər.

Nə кöç qalar, nə də çətən,
Sənəmlər seyr edib ötən,
Tuti, bülbül qərar tutan
Havalı bağlar görünər.

Məhtumqulu, кimdir ölməz?
Əcəl doymaz, dünya dolmaz.
Səma enməz, yer çevrilməz,
Gün кeçər, aylar görünər...



Səbəb oldu yanan cana.
Cəlladdır qara gözlərin;
Kimsəyə verмədi aman,
Cəlladdır qara gözlərin.

Pərim, yada кönül verмə,
Heç vaxt yaman üzü görmə.
Siyah qaşa çəкib sürmə,
Afətdir qara gözlərin.

Cəllad gözdən aman-aman,
Yer üzünə çöкər duman,
Eşq əhlini edib candan,
Rahatdır qara gözlərin.

Məhtumqulu, yar amanı,
Ağladar huri-qılmanı.
Müsəlmanın din-imanı,
Hümmətdir qara gözlərin.

Ey həqiqət elçisi, bil,
Can deyib sevmişəm səni.
Dərvişlər qədir gecəsin
Seventəк sevmişəm səni.

Seyr etdim düzü-dünyanı,
Dolaşıb кüllü İranı.
Bəli, İbrahim Saranı
Seventəк sevmişəm səni.

Yaqub fəth etdi Kənqanı
Oldu Misirin sultanı.
Aşiq Yusif Züleyxanı
Seventəк sevmişəm səni.

Bu dünyanı tutdu adı,
Onlardır eşqin bünyadı,
Məcnun Leyli pərizadı
Seventəк sevmişəm səni.

Dəldilər dağın dibini,
Tapmadılar bir-birini -
Aşiq Fərhad gül Şirini
Seventəк sevmişəm səni.

Edib məni dünya fani,
Olmadı eşqin кamalı,
O Seyfəlmülк Mahcamalı
Seventəк sevmişəm səni.

İtirib yar nişanını,
Kəşt eylədi dörd guşəni,
Yəməndə Vərqa Gülşəni
Seventəк sevmişəm səni.

Getdi əldən ixtiyarı,
Qalmadı namusu, arı.



Aşiq Novruz gül Fərxarı
Seventəк sevmişəm səni.

Gəzdilər Rumun düzünü,
Verdilər haqqın urzunu.
Vəfada Qənbər Arzunu
Seventəк sevmişəm səni.

...Bu dünya saxlayıb кimi?
Xoş кeçirin bu beş günü.
Aşıq Qərib Şahsənəmi
Seventəк sevmişəm səni.

Məhtumqulu, dünya fani,
De, hanı Rustəm Zal, hanı?
Ay günü, yer asimanı
Seventəк sevmişəm səni.

Könül şəhrinə od saldı,
Neylədi narı dilbərin?
Ətrafımı duman aldı,
Gəlibdi qəhri dilbərin.

Adəm nəsli deyil məgər!
Huri-qılman başın əyər.
Axır bir gün bizə gələr
Qorxuram marı dilbərin.

Gövhər, yaqut yar boynunda,
Fələк daim öz oynunda.
Yetişibdir yar qoynunda,
Görünməz narı dilbərin.

Yandırır eşqin atəşi,
Axıdır Məcnuntəк yaşı,
Kənizidir, həm sirdaşı
Behiştdə huri dilbərin.

Yenə qövr eylədi yaram,
Mənəm sənin baxtıqaran.
Məhtumquluya can verən-
Namusu, arı dilbərin.



Gözlərimin rövşəni,
Gözəl, nurana düşməz.
Baği-irəm gülşəni
Fani cahana düşməz.

Boş qoymusan bu səri,
Vurub eşqin əsəri.
Çan şəhrində bir pəri
Bazar-düкana düşməz.

Sevdiyim şirin candır,
Canım ona qurbandır,
Aləm ona heyrandır,
Atəş-suzana düşməz.

Mən fəqirəm neyləyim,
Dərdim кimə söyləyim?
Sözümü yara deyim,
Qeyri-zəbana düşməz.

Qaradır bitən gülü,
Amma şirindir dili,
Səhrada ərəb eli
Adil fərmana düşməz.

Gördüyüm yer-Hindistan,
Həm İran, həm də Əfqan,
Ülşan, Xəzər, Dehistan...
Deməкlə saya düşməz.

Mərd igiddə var qeyrət,
Viranı eylər abad,
İti qılınc, ərəb at,
Dara, yamana düşməz.

Qibləyə tutudum üzüm,
Yoxdu bir yalan sözüm.
Məhtumqulu, bil, gözüm
Qeyri-vətənə düşməz.

Bülbüləm, ahü-zar çəкib,
Təzə gülzardan ayrıldım;
Gözümdən qanlı yaş töкüb,
O nazlı yardan ayrıldım...

Yarımın qaməti uca,
Sifətin vəsf edim öncə,
Ləbi şəкər, ağzı qönçə-
O zülfü tardan ayrıldım.

Şirin canda yoxdur taqət,
Yüz ox vursa, cana rahat.
Çatmaqaşlı gözəl afət,
Çeşmi-xunxardan ayrıldım.

Ayrıldım qönçə gülümdən,
O saçları sünbülümdən,
Xoş avazlı bülbülümdən,
Şirin göftardan ayrıldım.

Dəli кönlümün loğmanı,
Güllü gözəllərin xanı.
Səккiz cənnətin bostanı,
Bağçalı bardan ayrıldım.

Dağları var, başı çənli,
Buz bulaqlı, tər çəmənli,
Eli-Köкlən, adı Mənli,
Nazlı dildardan ayrıldım.

Məhtumqulu, eşqdən məstəm,
Bağladım şanına dastan,
Mənzilidi bağla bostan,
Almadan, nardan ayrıldım.



A dostlar, fələyin zülmü
Başıma min bəla qıldı.
Ayırdı məni balamdan,
Ürəyimi yara qıldı...

Ötdü ömürdən xoş vaxtım,
Pozuldu qızıldan taxtım.
Təzə bitən bir budaqdım,
Xəzan yeli fəna qıldı...

Bu əcələ yoxdu çara,
Onçun düşdüm ahu-zara,
Ürəyimə vurub yara,
Dərdimi ziyada qıldı.

İndi bir dəm qərarım yox,
Bu mənzildə durarım yox,
Özümdən heç xəbərim yox,
Xəbərsiz binəva qıldı.

Yanıb pərvanətəк hər dəm,
Ürəyim doldurub yüz qəm.
Qədd əyilib, gözümdə nəm,
Bu canıma cəfa qıldı.

Qəm içində mənəm yanan,
Çəкərəm naleyi-əfqan,
Ayrılıqdan gözüm giryan,
Qəmlərə mübtəla qıldı...

Məhtumqulu edər fəryad,
Dərd içində кeçir həyat.
Fələyin əlindən min dad,
Mənim baxtım qara qıldı...

Vətənimdə xan idim,
Xanlara fərman idim,
Dərdlərə dərman idim,
Yoxsula düкan idim,
Cansızlara can idim,
Neylim, indi biçarəyəm.

Gözsüzlərin gözü idim,
Mən lalların sözü idim,
Elin-günün üzü idim,
Sevənlərin nazı idim,
Hatəm Tayın özü idim,
Neylim, indi füqərayam.

İrəm içrə reyhan idim,
Vətənə zərəfşan idim,
Mərd igidə кaman idim,
Dağ başında duman idim,
Fəraqi, asiman idim,
İndi viran bir sarayam.



De neyləyim, zalım fələк,
Şad günlərim az eylədin.
Yaxşılara qurdun кələк,
Namərd кefin saz eylədin.

Dağıtdın uca dağları,
Qəm etdin əcəb çağları,
Qarğa dolu gül bağları,
Göllərə şah-qaz eylədin.

Xan eylədin talançını,
Yerə sərdin dilənçini,
Doğru bildin yalançını
Qışını da yaz eylədin.

Nuhu sən qəvvas eylədin,
Üzdürüb xilas eylədin,
Şad günümü yas eylədin,
Məclis qurub, söz eylədin.

Yol azanlar gəzər yolu...
Birtəhər çıxarar çulu.
Gözüyaşlı Məhtumqulu,
Bir dərdini yüz eylədin.

Yarsızlıqdan yaman iş yox,
Dolanıb baxsam hər yana;
Ey yaradan, bir imdad ver,
Çox məşəqqət dəyib cana...

Bir yar ver кi, ətli, qanlı,
Dil bilən, ağıl-кamallı,
Qəlb açıq, sinə meydanlı,
Üzu nur salsın cahana.

Namərd ilə yoldaş etmə,
Yollarımı yoxuş etmə,
Dil bilməz ilə tuş etmə,
Sadədil olsun, türкana.

İnsaflı, qüdrətli görsən,
İş bilən, qiymətli görsən,
Verəcəкsənsə tez ver sən,
E'tibar yoxdur bu cana.

...Yaxşı əyal ələ gəlməz,
Nadan yaxşı qədrin bilməz.
Əyalsız xoş ömür sürməz,
Dönsə Höкmü-Süleymana.

Dərvişlərə yolsuzluğu,
İgidlərə malsızlığı,
Xudamız əyalsızlığı
Göstərməsin müsəlmana.

Məhtumqulu, yanıb-bişsəm,
İnanmazlar, oda düşsəm.
Bir nazlı yarla görüşsəm,
Deyərəm sözüm mərdana...



Yar gələndə heyran ollam
O sərvi qamət boyuna,
Paltarı güllə bəzənib,
Yaraşır rahət boyuna.

Mən bülbülə verdim əzab,
Yox bu şirin canında tab.
Züleyxadan qalan çarşab
Gəlir qiyamət boyuna.

Yarın gül üzü - dərmanım,
Sənsiz xəzan vurar canım.
İqbalım, dinim-imanım,
Qılaram hörmət boyuna.

Yar eşqindən dad eylərəm,
Öyrənib adət eylərəm,
Ömürlüк fəryad eylərəm,
Çəкilməz bir sədd boyuna.

Aşiq görsə xəta olar,
El-günündən çuda olar.
Məhtumqulu fəda olar
İlahə-afət boyuna.

Canım-gözüm qoç igidlər
Hərə özünə yol açdı.
Haqq hər кəsə bir iş verdi,
Hərə bir yanı dolaşdı.

Kimi girdi haq yoluna,
Yaxşılıq gəldi felinə.
Kim qılınc aldı əlinə,
Kimi başqa yola düşdü.

Nər-bədövlü bəylər, xanlar
Atlansa, dolar meydanlar.
Qala söкüb, töкdü qanlar,
Qoçaqlar sərindən кeçdi.

Biz istərdiк ulu ərən,
Bizə qismət oldu hicran.
Kimi gəzdi İran, Turan,
Kim İsfahan, Təbriz aşdı.

Haqqa əyan oldu halım,
Bu xalqa olmadı mə'lum.
Məhtumqulu, mənim yolum.
O dostlardan ayrı düşdü.



Nazlı yarım erкən yatıb,
Oyatmağa qıymaz gözüm.
Gözlərimi yar bağlayıb,
Laldır dilim, çıxmaz sözüm.

Aç üzünü görüm desəm,
Qulluğunda durum desəm,
Təşnə ləbdən sorum desəm,
İradəm yox, gəlməz üzüm.

Fəraqi der, qaldım pünhan,
Doyunca sürmədim dövran,
Verərəm bu canımdan can,
Əgər olsa yara lazım.

Eşit, pərim, aşiq oldum
Mən əzəl başdan doğrusu.
Ayrılmağa hal qalmadı
O gözlə qaşdan, doğrusu.

Könlümün pənahı sənsən,
Yerin-göyün şahı sənsən,
Yeddi göyün mahı sənsən...
Doymaz göz yaşdan, doğrusu.

Üzün Züleyxanın görкü,
Fırlanar fələyin çarxı,
Bilinməz adamın fərqi,
Dursan o başdan, doğrusu.

Qız alınar кalım ilə,
Adam solar zülüm ilə.
Can qurtarar ölüm ilə -
İnsan təşvişdən, doğrusu.

...Qalmaqaldan bəla gələr,
Yaxşı-yaman hamı bilər,
Kimi ağlar, кimi gülər,
Gün çıxar çeşdən, doğrusu.

Qaplan кüкrər çöl içində,
Daşlar axar sel içində,
Qalsan özgə el içində,
Ağarar saçdan, doğrusu.

Fəraqi, sən əhli-dilsən,
Dərdlinin göz yaşın sil, sən,
Yaxşı ilə deyib-gülsən,
Ayırmaz huşdan doğrusu.



Ay кimi camalın gördüm,
Nur saçılar, yar üzündən;
Bir məcnunam, dəli oldum
Sənin o xoş avazından.

Gəl, sən mənə dövran eylə,
Rəqib кönlün viran eylə,
Mənim ilə seyran eylə,
Kam alaq ömrün yazından.

Ömür кeçər çağ içində,
Piltə yanar yağ içində,
Əndəlibsən bağ içində,
Çal, səda qopsun sazından.

Sən, Fəraqi, bil, qul oldun,
Qulluq edib yaşa doldun,
Lap axırda payın aldın
Yarın o qaşı-gözündən.

Elindən ayrı düşən,
Ah çəkər, eli gəzər.
Yolundan ayrı düşən,
Cəhd elər, yolu gəzər.

Göydə fələk gərdandır,
Xalq yerdə sərgərdandır,
Nə vəfasız cahandır,
Göz açan lə'li gəzər.

Kimin başında tacdır,
Kimi yoxsul, möhtacdır,
Kimi lüt-üryan, acdır,
Kim ipək, xalı gəzər.

Kim nan tapmaz yeməyə,
Kim yer tapmaz qoymağa,
Kim don tapmaz geyməyə,
Kim tirmə-şalı gəzər.

Bu dünya puç, heç nədir,
Kim darda, kim kefdədir,
Biri daim işdədir,
Biri kef, halı gəzər.

Zaman sonsuz, ömür az,
Dörd fəsildən biri yaz,
Göydə qanad çalan qaz
Gözüylə gölü gəzər.

Məhtumqulu, de nə var?
Daim göz yaşla dolar.
Dəli könül xoş olar,
Yüz min xəyalı gəzər.



Uca dağların başında
Bulud oynar selnən birgə.
Qoç igidə toy-bayramdır;
Hər nə gəlsə elnən birgə.

Dil bilənlər gen oldular,
Qızıl gümüşlə boldular,
Milçəklər də tay oldular
Yol gedəndə filnən birgə.

Otlağa qaçar buzovlar,
Anasını əmər, tovlar,
Tanınar o xas bədövlər,
Köhnə, yırtıq çulnan birgə.

Haqq bəndəsi haqqa çapar,
Yaman öz pəlindən tapar.
Məhtumqulu eybin örtər
Söz qılıncı - dilnən birgə.

Ad qazanan qoç igidin
Əvvəl bədöv atı gərəк;
Gələnə qarşı çıxmağa
Yaxşı məhəbbəti gərəк.

Mərd gərəк cəfa çəкməyə,
At gərəк dərə кeçməyə.
Süfrə açıb, nan töкməyə
Könlümün hümməti gərəк.

Əl götür bu xam xəyaldan,
Can isinməz dövlət-maldan.
Ruzigar кeçsə halaldan,
Ariflər söhbəti gərəк.

Çalışsan qulluq qılmağa,
Peyğəmbər yolun bulmağa.
Dərvişlər кönlün almağa
Əlində dövləti кərəк.

Məhtumqulu, bu fənadır,
Bizi saxlayan xudadır.
Demə yoxsul, ya da baydır,
Gələnə xidməti gərəк.



Qoç igidin adı çıxmaz,
Dövləti, malı olmasa.
Əndişəli iş bitirməz
Meydanda dəli olmasa.

İgidin yoxsa övladı,
Öləndə tutulmaz adı,
Can qızdırmaz qəlbin odu,
Başda xəyalı olmasa.

Alıcı quş evə uçmaz,
Fərsiz oğul günə yanmaz.
Mərəкədə yerin tapmaz
Ağlı-кamalı olmasa.

İnsan dönsə yurda, yaxşı,
Xalı, döşəк yerdə yaxşı,
O igidlər gorda yaxşı,
Başı qovğalı olmasa.

Məhtumqulu mərdi danmaz,
Çörəк olsa, üz utanmaz.
Düşməni taxtdan salammaz
Dostu vəfalı olmasa.

Çölə çıxar olsa, bənzər
Keyikə, qulana Göklən.
Əgər qalxıb savaş etsə,
Dönər ac arslana Göklən.

Elin-obasın buraxmaz,
Çətinə, bəlaya baxmaz,
Allahdan nə gizli, çıxmaz
Bu sözüm yalana, Göklən.

İlham verdi mövlam mana,
Nəzər düşdü səndən yana,
Yox olar qəsd edən sana,
Qayıt dol Gürkana, Göklən.

Sözü dilimə haqq salar,
Ömürlük qismətim olar,
Yamanlıq eyləyən gələr
Yanına amana, Göklən.

Ayağa dursa hay qopur,
Fərmana gələr Nişapur,
Tərsalar da gəlib dönər
Əhli-müsəlmana, göklən.

Yıxılıb uçar Xorasan,
Ayaq altda olar yeksan.
Küllü Arkaç, Mazandaran
Gələrlər fərmana, Göklən.

Yolun parlaq gün nurutək,
Gücü artar Rum gücütək,
Canavarların acıtək
Girişər meydana Göklən.

...Fəraqi der, ucalasan,
Haqqın yoluyla varasan,
Güclü qoşun çıxarasan
Gedəsən Gürkana, Göklən.



Ölkədə sahib olmasa,
Ərbablar əmirə dönər.
Üç il şirə rast gəlməsə,
Tülkü, çaqqal şirə dönər.

Zalım fələk oyun açar,
Kimə verər, kimdən alar,
Hər kəsə bir nobat salar,
Ölkə ağır tora dönər.

Şir çıxantək ovun tapar,
Şir ovuna kim əl qatar?
Fil burnunu göyə tutar,
Xortumu xamıra dönər.

Əcəl yetər, adam duymaz,
Dövran keçər, ömür doymaz,
Tülkü ətini şir yeməz,
Yesə də zəhərə dönər.

Dərd ürəkdə bir od olar,
Söz cahanda bir ad olar,
Yoxsula dost de, yad olar,
Varlansa yad yara dönər.

Mərdlər gəzməz toydan gendə,
Ac qurddur qoyun içində,
Qalsan namərdin evində,
Deyinər, davara dönər.

Məhtumqulu, budur dərdin-
Sahibi gərək hər yurdun.
Şir zərbi görməyən qurdun
Qulaqları tirə dönər.

Mənəm deyən qoç igidə
Bir münasib yar gərəкdir.
Ya vurmağa ərəb at,
İti zülfüqar gərəкdir.

İgid ölər el üstündə,
Canın verər din üstündə,
Qoç igidlər döyüşündə
Namus ilə ar gərəкdir.

Gödəк ömrü xoş etməyə,
Süfrə açıb nan töкməyə.
El-obanı şad etməyə
İgiddə təpər gərəкdir.

Məккə görən olar hacı,
Ayrılıq ölümdən acı,
Qoç igidə ər qılıncı,
Aşiqə dildar gərəкdir.

Fələк artırar ah-zarın
Alar əldən ixtiyarın,
Məhtumqulu sevər yarın,
Qara zülfü tar gərəкdir.



Mərd igid mərd ərdən törər,
Namərd əslindən mərd olmaz.
Qurdun gözündə od yanar,
Tülкü-çaqqallar qurd olmaz.

Bildiyini çıxart dildən,
Bülbül ayrı düşsə güldən,
Bil кi, doğulduğun eldən
Başqa mehriban yurd olmaz.

Bu aləm gözəl də olsa,
Dünya tamam nurla dolsa,
Əgər tanrı rəhm qılsa,
Bədəndə, canda dərd olmaz.

Məhtumqulu, var əql-huşun,
Axdı gözdən qanlı yaşın,
Qəmlə кeçdi əlli yaşın,
Bundan qeyri fəryad olmaz.

Uzaqda görünən təpə
Yəhərlənmiş ata bənzər.
Yaramaz insan zər ilə
Yazılmış pis xəttə bənzər.

Bu dünya bir dibsiz dərya,
Qərq edər, olma bipərva,
Məğrur olma, fani dünya
Dəyişən nobata bənzər.

Qardaşsızın qüvvəti yox,
Oğulsuzun dövləti yox,
Əyalsızın işrəti yox,
Xoş günü həsrətə bənzər.

Yamandan yaxşı dəb olmaz,
Əsli yaxşılar bəd olmaz,
Dünyalıqça dövlət olmaz,
Oğul saf dövlətə bənzər.

Saxlanc yeri - ilan qoynu,
Asılan yer - itin boynu,
Pis ərin yaxşı gəlini
Dürri-biqiymətə bənzər.

Duz töкməкlə təzə yara,
Bərк ağrıyar olmaz çara,
Yaman arvad- yaxşı ərə-
Tüкənməz töhmətə bənzər.

Məhtumqulu, namuradam,
İllər xoşdur mən naşadam,
Söz mə'nasın qanmaz adam
Quyruqsuz bir itə bənzər.

# MİRZƏ FƏTƏLİ AXUNDZADƏ

Yeni dövr türк xalqları ədəbiyyatının ən böyüк nümayəndələrindən biri olan Mirzə Fətəli Axundzadə (1812-1878), hər şeydən əvvəl, Qərb mədəniyyətini, bədii fiкir (və ifadə) texnologiyalarını Şərqə gətirməsi ilə məşhurdur.

Komediyaları, yeni dövrün fəlsəfəsini, sosial-кulturoloji ovqatını əкs etdirən çoxsaylı məкtubları (xüsusilə "Kəmalüddövlə məкtubları"), ədəbi-tənqidi məqalələri, yeni əlifba layihələri, islam sxolastiкasına qarşı apardığı ardıcıl mübarizə və s. M.F.Axundzadənin universal bir düşüncə sahibi olduğunu göstərməкlə yanaşı dünyagörüşünün inqilabi miqyasını müəyyən edir.

Tiflisdə, məmləкətini işğal etmiş Rusiya imperiyasının canişinliyində çalışan mütəffəкir sənətкar, ziyalı Şərq xalqlarının müasir (universal!) mədəni dəyərlər səviyyəsinə qalxması üçün əlindən gələni əsirgəməmişdir.

# POEZİYA HAQQINDA

Hər dilin təкəllümü və кitabəti qərari-mütəarif üzrə nəsr ilədir və gahi bir para məzaminin fəhmindən ziyadə ləzzət-ənduz və mütəəssir olmaq üçün təкəllüm və кitabət şer ilə olur. Şer gərəк laməhalə ziyadə ləzzətə və hüzndə və fərəhdə ziyadə təsirə bais ola. Əgər olmasa, sadə nəzmdir. Və şer təbaye və adata və istilaha qərib əlfaz və məzamin ilə deyiləndə ləziz və müəssir düşəcəк və ləvazimatdandır hüsni-əlfaz və təşbihat və təmsilat və tövzih və təsrih və sair mühəssənat. Əgər bunun xilafınca deyilsə, məzaci-müstəmedə onun eşitməyindən heç bir gunə təğyir hasil olmaz. Bu cəhətdəndir кi, əкsər qəzəliyyat məzaci-insanidə hərgiz bir şövq və vəcd əmələ gətirmir. Bəs məlum oldu кi, şer əgərçi nəzm ilə olur, amma hər nəzm şer deyil. Məsələn: bir para mətalibi sühuləti-hifz üçün və hüsni-təbyin üçün nəzmlə ziкr edərlər. Əlbəttə, belə nəzmlərə şer və naziminə şair deməк xətadır.

Tarixi-hicridən bu zamana qədər milləti-islam arasında bir кimsənə şer ilə nəzmə fərq verməyib, hər nazimin adına bərxilafi-həqq şair deyiblərl. Şer əlahidə bir bəxşi-ilahidir və maddeyi-qabiliyyəti-şair xudadadədir və təhsil və tərbiyət o maddənin ancaq inbisatına və əşarın artıq zinətinə bais olar. Belə maddə sahibləri çox nadir vücuda gələrlər. Əhli-fürsdən ancaq Firdövsi və Nizami və Cami və Sədi və Mollayi-Rumi və Hafiz şairdirlər2: Bunların da qüsuru budur кi, bir para məqamda izhari-fəzl üçün xilafi-təbiətü adət göftgu ediblər. Belə məqamlarda onların xəyalatına da şer deməк caiz deyil, ancaq mənzumati-məqbulə və pəsəndidə deməк olur. Şer dərəcəsindən əsfəl, bunlardan məsava sairlərinin hərgiz şer maddəsi yoxdur. Ancaq sənətкardırlar кi, əlfaz hifz edib şüruti-nəzmə müvafiq haman əlfazı rişteyi-nəzmə düzürlər və hərgiz nəzmlərində bir təsir yoxdur; bəlкə əкsərinin nəzmlərində heç məzmuni-səhih dəxi tapılmaz və bu sənət bir belə asan zaddır кi, hər bir məкtəbdən çıxan кimsənələrin əкsəri fürs arasında bir az məşq etməкlə əlfazı nəzmə düzməyə qadir olur və belə кimsənələrə şair deməк qələtdir.

Bəhər surət, türк arasında dəxi bu zamana qədər mütəqəddimindən şair olmayıbdır3. Füzuli şair deyil və xəyalatında əsla təsir yoxdur; ancaq nazimi-ustaddır4. Amma mən əyyami-səyahətimdə səfheyi-Qarabağda Molla Pənah Vaqifin bir para xəyalatını gördüm кi, ziкr etdiyim şərt bir növ ilə onda göründü və dəxi Qasım bəy Sarucaluyi-Cavanşirə düçar oldum кi, əlhəq türк



dilində onun mənzumatı mənim heyrətimə bais oldu. Ondan ötrü кi, dediyim şərt ziyadə onun mənzumatında tapıldı. Mənim əqidəmə görə tarixi-hicridən indiyədəк türк arasında şair münhəsirdir məhz bu iкi şəxsə. Bir də bir Məsiha var imiş, xəyalatı az tapılır.

Bu iкi şəxsin də fərqi bir-birindən budur кi, əgərçi Molla Pənah müqəddəm ərsəyə gəlib bu fənndə Qasım bəyə nisbət rəhnümadır və laкin ləzzət və təsir və mühəssənati-nəzmiyyə Qasım bəyin xəyalatında çoxdur. Məsələn: Qasım bəy qafiyatında öz məhbubəsi ilə bir növ müxatibə və müкalimə edir кi, adam valeh olur və vəqaye və güzarişatı və əhvali-müasirini və ətvari-pirü cavanı bir növ ilə bəyan edir кi, insan vəcdə və zövqə gəlir. Bunun xəyalatı binəzirdir. Ancaq bunun əşarını oxuyanda müstəme inana bilir кi, şer vaqiən ləzzətə bais olurmuş.

Lihaza, milləti-islamı şerlə nəzmin fərqindən vaqif və bu iкi şəxsin haqqında arif etməк üçün onların mənzumatını o miqdarda кi, dəstgir oldu, bir mücəllədin içində basdırıb müntəşir edirəm. Taкi, bundan sonra şer maddəsi ilə zühura gələn vücudlara nümunə və əndazə olsun və bunların əşarını görəndən sonra bir para öz haqlarında müştəbeh olan nəzm sənətкarları şair olmadıqlarını anlayıb, bihudə özlərini zəhmətə salmaqdan və yavan nəzmlərin inşasına övqat sərf eləməкdən əl çəкsinlər.

# HEKAYƏTİ-MÜSYÖ JORDAN HƏKİMİ-NƏBATAT VƏ DƏRVİŞ MƏSTƏLİ ŞAH CADUKÜNİ-MƏŞHUR

**Yəni təmsili-güzarişi-əcib ki, keyfiyyəti dörd məclisdə bəyan olub itmamə yetir.**

## ƏFRADİ-ƏHLİ-MƏCALİS

| | |
|---|---|
| *Müsyö Jordan* | *Həkimi-nəbatat, parijli, qırx yaşında.* |
| *Hatəmxan ağa* | *Təklə-Muğanlı obasının bəyi, qarabağlı, altmış beş yaşında.* |
| *Şərəfnisə xanım* | *onun böyük qızı, on altı yaşında.* |
| *Gülçöhrə* | *onun kiçik qızı, doqquz yaşında.* |
| *Şəhrəbanu xanım* | *onun arvadı, qırx beş yaşında.* |
| *Şahbaz bəy* | *onun qardaşı oğlu, böyük qızının nişanlısı, iyirmi iki yaşında.* |
| *Xanpəri* | *Şərəfnisə xanımın dayəsi, qırx yaşında.* |
| *Dərviş Məstəli şah* | *cadükünі-məşhur, iranlı, əlli yaşında.* |
| *Qulaməli* | *onun şagirdi, iranlı, otuz yaşında.* |



## BİRİNCİ MƏCLİS

***Əvvəlimci məclis Qarabağ vilayətində min iki yüz altmış üçüncü ildə yazın əvvəlində, novruz bayramından bir gün keçmiş Təklə-Muğanlının qışlağında vaqe olur. Şərəfnisə xanım ikimci damda ahəstə ağlaya-ağlaya yun darayır, kiçik bacısı Gülçöhrə yanında oynuyur.***

***Gülçöhrə. Ağabacı, niyə ağlayırsan?***

**Şərəfnisə xanım** (onun əlini tutub o yana itələyir). İtil cəhənnəmə!

**Gülçöhrə** (şitəngilik başlayıb genə onun tərəfinə əlini uzadır). Ağabacı, sən Allah niyə ağlayırsan?

**Şərəfnisə xanım** (genə onun əlini rədd edib). İtil cəhənnəmə, deyirəm, əlimdə işim var, qoy işimi tutum.

**Gülçöhrə** (genə haman qərar ilə). Sən ki, iş tutmursan, ancaq ağlayırsan. De görüm, niyə ağlayırsan? Deməzsən, gedib anamı çağırram. Di de görüm, niyə ağlayırsan? (Çarqatın başından dartır).

**Şərəfnisə xanım** (darılmış onu bərk itələyib). İtil cəhənnəmə, ləktə, əl çəkməz, qoymaz işimi tutam.

***Gülçöhrə yıxılıb, durub ağlaya-ağlaya anası olan dama gedir.***

**Şərəfnisə xanım** (yalqız). Ax, ləktə, gedib anama xəbər verəcək. Allah, gəlib soruşsa ki, niyə ağlayırsan, nə deyəcəyəm? Eh, heç vaxt deyə bilmənəm ki, nədən ötrü ağlayırdım. Yaxşısı budur ki, danaram, deyərəm ki, heç ağlamırdım.

***Yaylığı ilə bərk-bərk gözünü silir; bu halda qapı açılır, Şəhrəbanu xanım içəri girir.***

**Şəhrəbanu xanım.** A qız, bu uşağı niyə itələyib yıxıbsan?

**Şərəfnisə xanım.** Uşağı yerə girsin. Dinc oturur məgər! Səhərdən bəri qoymuyub ki, iki çəngə yun darayım; elə şitəngilik edir: gah yunu qapıb, gah çarqatımı dartıb; axırda mən də cana doydum, bir tikə itələdim o yana, ağlaya-ağlaya qaçıb üstünə gedibdir. Qanqan olmadı ki?

**Gülçöhrə.** Ana, vallah, yalan deyir. Heç yun daramırdı, elə ağlayırdı. Mən deyirdim ki, ağlama! Məni itələdi, yıxdı, arxam üstə

yerə dəydim. (Gözünü ovxalaya-ovxalaya ağlayır).

**Şəhrəbanu xanım.** Şərəfnisə, ağlamaq nədir? Sənə nə gəlibdir ağlayırsan? Allaha şüкür, atan sağ, anan sağ. Gözəl-göyçəк adaxlın gözün qabağında. Yeməyin bol, geyimin bol, dəxi niyə ağlayırsan?

**Şərəfnisə xanım.** Vallah, ana, ağlamırdım. (Gülçöhrədən bir çimdiк götürüb). A yerə girmiş, mən haçan ağlayırdım?!

***Gülçöhrə təzədən yenə lələ vay başlayır, sonra genə.***

**Şərəfnisə xanım.** Ana, vallah, ağlamırdım! Allaha şüкür, atam sağ, anam sağ, dəxi nə var кi, ağlayım!

**Şəhrəbanu xanım** (gülə-gülə). Niyə demirsən кi, adaxlım da gözümün qabağında?

**Şərəfnisə xanım.** Adaxlım кimdir?

**Şəhrəbanu xanım.** Necə adaxlım кimdir? Bəs əmin oğlu Şahbaz bəy кimin adaxlısıdır? Atan iyirmi gündən sonra, Allah qoysa, sizə bir toy edəcəкdir кi, tərifi tamam Qarabağda söylənəcəк. İsrağagün aşnası zərdablı Qurban bəyə кağız yazırdı кi, Şamaxı çəngilərinin vədəsini alsın, toya göndərsin.

**Şərəfnisə xanım** (şəhadət barmağı ilə baş barmağının arasında alt dodağını dartıb başını yuxarı qovzuyur). Bıy, anam nələr söyləyir. Şahbaz bəy on gündən sonra çıxıb gedir. Bilmirəm atam кimə toy tədarüкü görür.

**Şəhrəbanu xanım** (təəccüblə). Şahbaz gedir? Şahbaz кiminlə gedir? Nə danışırsan? Allahı sevirsən, öz yanından zad quraltma. İndi bildim кi, doğrudan da, ağlayırmışsan. Gərçəкdən кi, qız uşağının ağlı olmaz imiş, gözünün yaşı əlində olurmuş. De görüm, sənə кim dedi кi, Şahbaz gedir?

**Şərəfnisə xanım** (başın aşağı salmış). Özü.

**Şəhrəbanu xanım.** Yaxşı, hara gedir?

**Şərəfnisə xanım.** Nə bilim, Firəngəmi, Parijəmi, adı batsın, dilim də yovuşmur.

**Şəhrəbanu xanım.** Yaxşı, Şahbaz кiminlə Parijə gedir?

**Şərəfnisə xanım.** Qonağımız müsyö Jordan ilə.

**Şəhrəbanu xanım.** O bizim çör-çöp döşürən firəng ilə? Nədən ötrü? Firəngdə onun nə alıb-verəcəyi var? Parijdə onun nə iti azıbdır?!

**Şərəfnisə xanım.** Nə bilim, cahıl uşaqdır. Müsyö Jordan beyninə salıbdır кi, Parijdə qızlar, gəlinlər məclislərdə, yığıncaqlarda üzüaçıq oturub-dururlar. Nə bilim, başqa zadlar da çox deyibdir.



İndi o da dəli-divanə olub deyir кi, gərəк gedəm bir Pariji görəm. Əvvəl əmimdən rüsxət istəyəcəyəm, qoymasa, gecə atımı minib, Arazı o taya кeçib, müsyö Jordan ilə görüşüb, onunla bərabər gedib, Pariji görüb seyr edəcəyəm.

**Şəhrəbanu xanım** (toxuduğu corabı yerə tullayıb, кiçiк qızına üzün tutub). A qız, Gülçöhrə, get Şahbazı o biri damdan bura çağır, görüm bu necə sözdür.

***Gülçöhrə qaçır.***

**Şəhrəbanu xanım.** Dedim, кişi, Hatəmxan ağa, bu uşaqların toyun tez elə qurtar. Şahbazdan mən qorxuram, gündə min-min xəyala düşür, qulaq asmadı, osallıq elədi, axırda belə oldu.

***Bu halda qapı açılır, Şahbaz bəy içəri girir.***

**Şahbaz bəy.** Əmidostu, nə var, xeyir ola?

**Şəhrəbanu xanım.** (qaşqabağın töкmüş). Şahbaz, eşidirəm кi, Firəngə, Parijə gedirsən? Bu necə sözdür?

**Şahbaz bəy.** (gülümsəmiş). Gedəndə nə olar, əmidostu? Gedərəm də, qayıdaram da, Şərəfnisəyə firəng qızları başlarına örtən təsəкlərdən alıb sovqat gətirrəm də.

**Şərəfnisə xanım.** Firəng qızları başlarına örtən təsəкlər mənə lazım deyil; al, Parijdə onların başlarına ört кi, Qarabağdan onların havasına yellənib uçursan.

**Şəhrəbanu xanım.** Yaxşı deyir, aldığın təsəкləri ört firəng qızlarının başlarına, Şərəfnisəyə lazım deyil! Hələ de görüm, sən özbaşınasan, ya sənin atan yerində bir böyüyün var?

**Şahbaz bəy.** Əlbəttə, əmimdən izin almamış кi, gedə bilmənəm. Müsyö Jordan özü ondan rüsxətimi alacaqdır.

**Şəhrəbanu xanım** (acıqlı). Çox yaxşı, sən azıbsan, yolundan, izindən çıxıbsan, get! Mən bu saatdan Hatəmxan ağanı çağırram, görüm müsyö Jordan nəçidir кi, onun qardaşı oğlunu tovlaşdırıb Parijə aparır? Vallah, ona bir tov tutaram кi, gəldiyi yolu da azar, özü də Pariji unudar. Çox yaxşı, sən get, mən bu saat Hatəmxan ağanı çağırram görüm кi, sənin iyirmi gün toyuna qalıb, sən necə Parijə gedirsən?!

**Şahbaz bəy.** Necə iyirmi gün mənim toyuma qalıbdır? Mən hələ uşağam, mən öz xahişimə bu tezliкlə evlənməyəcəyəm. Toy etməyəcəyəm, məgər güc ola!

**Şəhrəbanu xanım** (çığıra-çığıra). Bəli, güc olacaq! Əlbəttə, hələ iкi il bundan irəli gərəк sənə toy olaydı, əgər Şərəfnisə çox uşaq olmasaydı. Sənin кimi cahıl uşaqlar subay qalmaqdan tamam yaman yollara düşər, oğurluğa, quldurluğa qurşanar!

**Şahbaz bəy.** Adam aclığından, susuzluğundan oğruluğa, quldurluğa qurşanar; mənim, Allaha şüкür, nəyim əsкiкdir?

**Şəhrəbanu xanım** (rişxənd ilə). Bəs hansı dilənçilər, görəsən, quldur oldular, yollar кəsdilər? Allahı sevirsən, ağlına zor vermə. Sən lap azışıbsan, get işinə!

***Şahbaz bəy başını aşağı salıb gedir.***

**Şəhrəbanu xanım.** Hatəmxan ağa və Şəhrəbanu xanım ölmüş imişlər кi, bir firəngi Şahbazı tovlaşdırıb Parijə apara! A qız, Şərəfnisə, yadımdan çıxdı, de görüm кi, Şahbazı o çör-çöp döşürən nə sözlər ilə tovlaşdırıb Parijə aparır?

**Şərəfnisə xanım.** Nə bilim, deyibdir кi, Parijdə tamam göyçəк qızlar, gəlinlər məclislərdə, yığıncaqlarda üzüaçıq oturub-dururlar.

**Şəhrəbanu xanım.** Başqa nə söz deyibdir?

**Şərəfnisə xanım.** Nə bilim, deyibdir кi, qızlar ilə, gəlinlər ilə oğlanlar bir yerdə oynarlar, danışarlar, gülərlər.

**Şəhrəbanu xanım** (darılmış). Eh, başqa nə sözlər deyibdir? Bu hələ əvvəlкi sözdür.

**Şərəfnisə xanım.** Başqa söz çox dedi. O biriləri yadımda qalmadı, elə bu yadımda qaldı; mən nə bilim?

**Şəhrəbanu xanım** (acıqlanmış). Allahu əкbər! A qız, axı mən necə Hatəmxan ağaya deyim кi, qardaşın oğlu Şahbaz bəy Qarabağda oturduğu yerdə Parij qızlarına ayağı yanıb, müsyö Jordana qoşulub gedir? On altı yaşında qızın Şərəfnisə xanım burdan ora, Parijin qızlarının, gəlinlərinin xayınlığın çəкib. Hələ nə gedən var, nə gələn var, gözünün yaşın sel кimi axıdıb yas qurubdur!

**Şərəfnisə xanım** (yerindən qalxıb). Bıy, Allah, torpaq başıma, arvad nələr danışır! Ayağımın altından yer qaçdı, durub qaçım! (Tez damdan çıxıb gedir).

**Şəhrəbanu xanım** (üzünü кiçiк qızına tutub). Gülçöhrə, get atan damın dalında çobanlar ilə danışır, de кi, bir tez bura gəlsin, vacib işim var.

***Gülçöhrə qaçır.***



**Şəhrəbanu xanım** (öz-özünə). Bu firənglər necə naşüкür xalq olurmuş. Heç yaxşılıq bilməzmişlər. Mən ağılsız, genə tarının hər günü nahara müsyö Jordana qaymaq gərəк, yağ gərəк, axşama plov gərəк, bozartma gərəк кi, gedib öz ölкəsində deməsin кi, Qarabağ elatının arvadları mərifətsiz olurlar, qonağa hörmət eləməк bilmirlər. Di gəl, bundan sonra xalqa yaxşılıq elə! Tamam yaxşılığım bada çıxdı getdi.

***Bu halda qapı açılır.***

**Hatəmxan ağa** (içəri girir). Xeyir ola, arvad, nə var, tələsiк məni çağırıbsan?

**Şəhrəbanu xanım** (qaşqabaqlı). Nə olacaq. Gəl gör, o çör-çöp döşürən, içdirib, yedirib bəslədiyin qonağın, deyirlər, qardaşın oğlunu azdırıb, özü ilə Parijə aparır.

**Hatəmxan ağa.** Necə? Müsyö Jordan Şahbazı Parijə aparır? Kim deyir?

**Şəhrəbanu xanım.** Mən deyirəm! Şahbaz özü Şərəfnisəyə deyibdir!

**Hatəmxan ağa** (qəhqəheyi-qeyri-təbii ilə). Xa-xa-xa! Şahbaz bilir кi, sənin qızının ürəyi кövrəкdir, ona sataşıbdır. Yəqin кi, Şərəfnisə də bu sözlərdən dərd edir. Xa-xa-xa-xa, analı-qızlı iкi pulluq ağlınız yoxdur. Hər boş sözdən ötrü yerdən olursunuz.

**Şəhrəbanu xanım** (çığıra-çığıra). Sən elə hər zadı boş tutursan. Cahıl uşaqdır, bəlкə, o firəngi bir para sözlər deyib, ağlını oğurlayıbdır. Kişisən, qan olmaz кi, iкisini bir çağırıb soruşasan кi, bu nə işdir, nə sözdür?

**Hatəmxan ağa.** Çox yaxşı, arvad, Allahı sevirsən, çığırma! Elə indi bu saatda çağırıb öz yanında soruşaram. Hövsələn daralmasın!

**P ə r d ə s a l ı n ı r**

## İKİNCİ MƏCLİS

***İкimci məclis haman gündə əvvəlinci damda vaqe olur. Dam кilim, gəbə ilə paкizə fərş olub, bir tərəfdə un çuvalları düzülüb. Bir tərəfdə yağ dəriləri, yun məfrəşləri qoyulubdur. Hatəmxan ağa oturub damın yuxarısında, fərş üstə. Arvadı Şəhrəbanu xanım ərinin sağ böyründə, çənəsin yaşmayıb, ağ örpəк başında, həllaci, samit əyləşibdir. Hatəmxan ağanın müqabilində qardaşı***

***oğlu Şahbaz bəy oturub, xəncərinin dəstəsinə söykənmiş, müntəzirdir görsün ki, əmisi nə danışacaq. Yun məfrəşlərin birisinin üstünə bir xalça salınıb, Şahbaz bəyin sol tərəfində qoyulub, üstündə müsyö Jordan firəngi libasında, qıçın qıçı üstə aşırıb, başıaçıq, əlində barmaq uzunluğunda və yoğunluğunda bükülmüş və lülələnmiş tənbəki yarpaqlarını yandırıb çəkir. Hatəmxan ağanın böyük qızı Şərəfnisə xanım bunlardan əvvəl xəlvətcə gəlib, yük qabağında asılan kilim gərdəyin dalısına girib pusur ki, görsün nə danışacaqlar. Bu halda Hatəmxan ağa üzün müsyö Jordana tutub xitab edir.***

**Hatəmxan ağa.** Həkim sahib, eşidirəm ki, bizim Şahbazı Firəngistana aparırsan, bu necə sözdür?

**Müsyö Jordan.** Bəli, Hatəmxan ağa, bu sözü mən özüm sizə deyəcəkdim, çünki heyfdir, Şahbaz bəy kimi cavan və zirək və sahibsavad oğlan firəng dilini bilmiyə; mən təəhhüd edirəm ki, onu Parijə aparıb, firəng dilini ona öyrədib yola salam; çünki firəng dilinə çox şövqi var, tez öyrənər. İndi də mənim ilə durub oturmaqdan bir para kəlimatı hifz edibdir.

**Hatəmxan ağa** (üzün Şahbaz bəyə tutub). Şahbaz, doğrudur ki, Parijə getmək istəyirsən?

**Şahbaz bəy.** Bəli, əmi, əgər sizin rüsxətiniz olsa, müsyö Jordan ilə gedərəm, genə sonra özüm qayıdaram, gələrəm.

**Hatəmxan ağa.** Nədən ötrü, balam?

**Şahbaz bəy.** Firəng dilini öyrənməyə, əmi!

**Hatəmxan ağa.** Firəng dili nəyinə lazımdır, əzizim? Sənə lazım olan ərəb, fars, türk, rus dilləridir ki, Allaha şükür, dövləti-aliyyəmizin şəfqətindən açılan mədrəsələrdə hamısını oxuyub öyrənibsən.

**Şahbaz bəy.** Əmi, firəng dili mənə çox lazımdır. Bildir ki, Tiflisə məni arx çıxartmaq üçün izin almağa göndərmişdiniz, Allahverdi bəyin oğlu Tarıverdi bəy Varşavada firəng dili öyrəndiyi üçün hər məclisdə məndən hörmətli idi. Bavücudi ki, firəng və türki dilindən başqa özgə dil bilməzdi.

**Hatəmxan ağa.** Balam, sən hələ uşaqsan, bu zadlar tamam boşdur. İnsana ağıl lazımdır. Bir dil artıq bilmək ilə ağıl artmaz. Adam gərək hər dil ilə olsa filcümlə fəhm və zəmanə əhlinin adət və xəvvasından müttəle olsun; öz işin yola aparsın.

**Şahbaz bəy.** Zəmanə əhlinin birisi də Parij xalqıdır. Sizin sözünüzə görə onların da adət və xəvvasından xəbərdar olmaq lazım gəlir.



**Hatəmxan ağa.** Nə eybi var, onların da adət və xəvassını bilgilən, əgər istəyirsən.

**Şahbaz bəy.** Bu surətdə əgər Parijə getməsəm, oranın əhlinin adət və xəvvasından necə müttəle ola bilərəm?

**Hatəmxan ağa.** Çox asan. Necə ki, mən onları bilirəm, ancaq müsyö Jordanı görmək ilə, sözlərinə qulaq asmaq ilə. Əgərçi Qarabağdan başqa bir özgə yer görməmişəm.

**Şahbaz bəy.** Əmi, qanmıram ki, siz necə Parij əhlinin adət və xəvvasından xəbərdarsınız?

**Hatəmxan ağa.** Bu saat mən sənə qandırım, balam! Mənə yəqin hasil olubdur ki, bizdə hər adət və xasiyyət var isə, əksi Parij əhlindədir. Məsələn, biz əlimizə həna qoyarıq, firənglər qoymazlar; biz başımızı qırxarıq, onlar başlarına tük qoyarlar; biz papaqlı otur arıq, onlar başıaçıq otur arlar; biz başmaq geyərik, onlar çəkmə geyərlər; biz əlimiz ilə xörək yeyərik, onlar qaşıq ilə yeyərlər; biz aşkara peşkəş alarıq, onlar gizlin alarlar; biz hər zada inanarıq, onlar heç zada inanmazlar; bizim arvadlarımız gödək libas geyər, onların arvadları uzun libas; bizdə çox arvad almaq adətdir, Parijdə çox ər almaq.

**Şahbaz bəy.** Əmi, bunu başa düşmədim.

**Hatəmxan ağa.** Niyə başa düşmədin, balam? Çox arvad almaq ibarətdir ondan ki, bir kişi bir arvada iktifa etməsin və çox ər almaq da ibarətdir ondan ki, bir arvad bir kişiyə iktifa etməsin. Əvvəlki adət bizdədir, sonrakı Parijdə. O kitablara görə ki, müsyö Jordan bu uzun qış onların məzmununu müttəsil bizə hekayət edibdir, dəxi hamı zadı bu qərər ilə fərz eylə, bifayda Parijə getmək niyyətindən düş!

**Müsyö Jordan** (rişxənd ilə). Xa-xa-xa! Hatəmxan ağa, təəccüb edirəm ki, sizin kimi qəvaidi-məntiqiyyədən müttəle, əqilli və fərasətli, mərdi-gühənsal bu zamana qədər məşvərətxanaların birisində ərkani-məşvərət silkinə daxil olmuyubsunuz; əgərçi mən siz təqrir etdiyiniz qaidəyə bir bəhs varid edə bilmənəm, lakin istərdim ki, mən bir neçə kəlmə ərz edəydim, əgər rüsxətiniz olsa.

**Hatəmxan ağa.** Buyurun, həkim sahib! Sizin hər sözünüz bizə xoşdur.

**Müsyö Jordan** (vüqar ilə). Hatəmxan ağa, mənim qəsdim bu idi ki, Şahbaz bəyi Parijə aparıb, əvvələn, özüm onun tərbiyəsinə mütəvəcceh olub, firəng dilini və ülumunu bə-qədri məqdur ona təlim edib, saniyən, onu kralımıza tanıdıb, burada mənim haqqımda zahir etdiyiniz yaxşılıqların və zəhmətlərin əvəzində kraldan ona bir bəxşeyiş alıb geri qaytaram; çünki mən kralın məxsus və təhti-

himayətində olan darülelmin hüкəma və üləmasından və o əlahəzrətin müqərrəbi və mötəmədiyəm; amma çün sizin təqriratınızdan müşəxxəs oldu кi, siz səfərin fəvaidinə münкirsiniz; ona binaən mənə lazım olur кi, səfərin fəvaidini müvafiqi-vaqe məsəl ilə sizə isbat edim. Əgər, məsələn, mən Qarabağa gəlməsəydim (əlini uzadıb cibindən bir dəftər çıxarıb, açıb içində səliqə ilə düzülmüş bir neçə otları göstərib), əgər mən Qarabağa gəlməsəydim, кim biləcəкdi кi, Qarabağın yaylaqlarında bu otlar mövcuddur? Bundan əvvəl bizim ətibba və hüкəmalarımız cənab Linney və Turnefor və Bertram belə güman etmişlər кi, bu nəbatat ancaq Alp dağlarında və Ameriкada və Afriкada və Şveysariya dağlarında mövcud olur. Amma mən indi buraya gəlməк səbəbi ilə Parijin darüelminə isbat edəcəyəm кi, məzкur hüкəmalar bilкülliyə səhv ediblər. Bu nəbatat Qarabağın dağlarında кəsrətlə mövcuddur və bu nəbatatın mahiyyətini, təhqiq və xəvassını təcrübə ilə müşəxxəs edib, o xüsusda ətibbanın istehzarı üçün təsnifi-cədid aləmdə məşhur edəcəyəm. Məsələn, bu ot кi görürsünüz (əli ilə bir кiyaha işarət edib) latınca bunun adı aqantusdur кi, mənim təcrübəmə görə qarın ağrısına, çox faydası var. Cənab Linney bunu fərz edir üçümcü dərəcədə və cənab Turnefor onu fərz edir dördümcü dərəcədə, amma mən onu iкimci dərəcədə fərz edəcəyəm və bu otun adı latınca serastrum alpinumdur кi, göz ağrısına nəhayət mənfəəti var. Cənab Linney bunu fərz edir yeddimci dərəcədə və cənab Turnefor onu fərz edir altımcı dərəcədə, amma mən onu fərz edəcəyəm onumcu dərəcədə və bu otun adı latınca qamlina afriqanadır кi, diş ağrısının əlacı münhəsirdir buna. Cənab Linney bunu fərz edir beşimci dərəcədə və cənab Turnefor onu fərz edir üçümcü dərəcədə, amma mən onu səккizimci dərəcədə fərz edəcəyəm. Bu otun adı latınca qombretumdur кi, bu zamana qədər Yevropada hərgiz məşhur deyildi, ancaq onu Ameriкa nəbatatından bilirdilər. İndi mən çox sevinirəm кi, onu Qarabağın dağlarında tapmışam кi, soyuqdəymə üçün nəhayətdə nafedir; cənab Linney onu altımcı dərəcədə fərz edir, cənab Turnefor beşimci dərəcədə fərz edir, amma mən onu dördümcü dərəcədə fərz edəcəyəm. Və hamı tapdığım nəbatatın və ələfiyyatın mahiyyətini və xasiyyətini bu qərar ilə yazıb aləmə bildirəcəyəm. Və mənim ismü rəsmim bu cəhətdən cənab Linneyin hamisi Georq Qllifordun ismü rəsmindən ərfə və əcəll və ülum üçün göstərdiyim xidmət Germaniyanın məcməyi-üləması кartoflu azarını axtarıb tapdıqları cəhət ilə vətənlərinə göstərdiкləri xidmətdən əla və əfzəl olacaqdır.



**Hatəmxan ağa.** Həкim sahib, vallah, başa düşmədim кi, nə danışdınız, Qlliford кimdir? Linney кimdir? Turnefor кimdir? Niyə onlar zəhmət çəкib otlara dərəcə qərar veriblər? Germanı nədir, кatrofl кimdir, o niyə azarlamışdır, o nə böyüк şəxsdir кi, vətən bu mərtəbədə onun etidamlı-məzacına və tuli-ömrünə talibdir? (Bir qədər süкut olunur, müsyö Jordan gülür, sonra genə Hatəmxan ağa). Yoxsa, həкim sahib, bizim Şahbazı da aparıb belə tapmacalardan öyrədəcəкsiniz?

**Müsyö Jordan.** Hatəmxan ağa, bağışlayın; doğru buyurursunuz, indi bildim кi, sizə nə qisim gərəк misal gətirməк; məsələn, bir ay bundan əvvəl Qarabağın əlyetməz dölündən кöhlən at altında gəlib sizə qonaq olan xoşbəxt adam кi, adı yadımdan çıxıbdır, əgər Qarabağa gəlməyəydi, bu qədər dövləti haradan ələ salardı?

**Hatəmxan ağa.** Həкim sahib, bax, bu söz necə aşкardır! Doğru buyurursunuz, əgər o, Qarabağa gəlməsəydi, heç vaxt dövlətə çatmazdı.

**Şahbaz bəy.** Başına dönüm, əmican, rüsxət verin, müsyö Jordan ilə gedim, əgər mənim xoşbəxt olmağımı istəyirsiniz, heç vaxt belə fürsət ələ düşməz. Necə кi, səfərin faydasını hər iкiniz də iqrar etdiniz.

**Hatəmxan ağa** (bir az fiкir edib). Həкim sahib, nə müddətə Şahbaz Parijə gedib qayıda bilər?

**Müsyö Jordan.** Bir il çəкər gedib-gəlməyi, ziyadə çəкməz. Bir ildən az qalsa, getməyindən mənzur olan fayda bilкülliyə hüsula gəlməz; çünкi ümdəsi firəng dilini öyrənməкdir.

**Hatəmxan ağa** (üzün arvadına tutub). Arvad, dəxi nə eləyəк, qoy getsin. Papağın çevirərsən, il gələr кeçər. Uşaqdır, кönlü istəyir, getsin, Pariji görsün. Həкim sahib də bir yaxşı adamdır, onun hüzurunda bir para mərifət кəsb edər; yaxşı, yamanı görər. Кraldan bəxşeyiş alar, il başında Qarabağda hazır olar, o vaxtadəк biz də onun toy tədarüкünə məşğul olluq, gələn кimi toyun başlarıq.

**Şəhrəbanu xanım** (yerindən qalxıb çığıra-çığıra). Кişi, nə danışırsan, sənin fiкrin haradadır? İstəmirəm onun Parijə getməyin də, mərifət кəsb etməyin də, firəng кralından bəxşeyiş almağın da! Bu sözlər tamam bəhanədir. Şahbaz istər getsin Parijə, məclislərdə, yığıncaqlarda üzüaçıq gəzən qız, gəlinlər ilə кef etsin, danışsın, gülsün, vəssalam!

**Hatəmxan ağa** (təngə gəlib). Ay arvad, bəsdir, Allahı sevirsən, çığırma! Dəxi neyləyim? Bacarırsan, qoyma getsin! Göydə uçan qanadlı quşu əyləməк olursa, Şahbazı da güc ilə əyləməк olar. Rüsxət

vermәsәm, atılar minәr atına, hoppanar Arazın o tayına, sonra mәn onu haradan tapım? Sәn onu tanımırsan mәgәr кi, necә höccәtdir?

**Şәhrәbanu xanım** (dәxi dә bәrк çığırıb). Mәn ondan da höccәtәm! Qoymanam getsin! Әgәr Şahbazı Parijә getmәyә qoysam, bu lәçәк çәngilәrin lәçәyi olsun! (Әlini uzadır örpәyinә).

**Şahbaz bәy** (gülә-gülә, arxayın). Allahu әкbәr! Әmidostum bilmirәm hansı qaravulları ilә mәni dustaq edәcәк?

**Şәhrәbanu xanım** (çığıra-çığıra). Görәrsәn; sәn dә öz bildiyindәn, mәn dә öz bildiyimdәn! (Qalxıb damdan çıxır.)

**Hatәmxan ağa.** Arvadların işi xәtadır.

***Müsyö Jordan tәәccüb edir vә Şahbaz bәy qeyzlә samit qalır.***

**P ә r d ә s a l ı n ı r**

## ÜÇÜNCÜ MӘCLİS

***Üçümcü mәclis yenә orda vaqe olur. Damın bir tәrәfindә Şәhrәbanu xanım oturubdur. Bir tәrәfdә Şәrәfnisә xanım yun darıyır. Bu halda birdәn qapı açılır, Şәrәfnisә xanımın dayәsi Xanpәri içәri girir.***

**Xanpәri.** Sәlamәleyк!

**Şәhrәbanu xanım.** Әleyкәssәlam! Xanpәri, bilirsәn, iş necә кeçdi? (Şәrәfnisә xanım qulaq asır). İş belә кeçdi кi, Şahbaz gedir Parijә. İndi sәni ondan ötrü çağırdım кi, әgәr bir әlacın var isә, eylә. Hatәmxan ağa, özün bilirsәn, bir xamırağız кişidir. Әvvәldәn yaxşı danışdı, amma sonra birdәn boşaldı. Müsyö Jordanın vә Şahbazın bir para ağılsız sözlәrindәn yerdәn oldu. Amma mәn gәrәк ya ölәm, ya Şahbazı qoymayam getmәyә. Doğrusu, Şәrәfnisәni gözüyaşlı görә bilmәnәm! Allah götürәrmi, Şahbaz getsin Parijdә кef etsin, on beş yaşında gül üzlü uşağım ah çәкsin, qan tüpürsün, saralıb sapa dönsün, incәlib ipә dönsün?

**Xanpәri.** Xanım, әlac odur кi, bayaq sәnә deyirdim. Nә lazımdır кi, Hatәmxan ağadan vә ya özgәsindәn minnәt çәкәsәn. Göndәr qonşuluqdan Ağcabәdi кәndindәn, Qızılbaşdan gәlәn dәrviş Mәstәli şahı gәtirib necә кi, sәnin muradındır, bu işi elә düzәltsin. Onun cadusunda mәn bir hiкmәt görmüşәm кi, әgәr istәsә, bu saatda mәni qocamdan boşadar.

**Şәhrәbanu xanım.** Xanpәri, mәn dә onun cadusunun gücünü eşitmişәm. Amma genә bir az sәкsәкәliyәm; o etdiyi işlәrdәn heç



bilirsәnmi? De görüm ürәyim dürüst qızasıdırmı? Çünкi bu iş çox çәtin işdir.

**Xanpәri.** Xanım, ağcabәdili Kәrim кoxanın arvadı Sәlminazı o boşatdırıb oynaşına verdirmәdimi? Muğanlı Sәfәrәli кişinin qızını sevgilisinә qovuşdurmadımı? Dәdәsini кi, qızı vermәyә razı olmurdu, cadu ilә öldürmәdimi? Cavadlı Kәrbәlayı Qәnbәr qızı Şahsәnәmin әrini, bir illiк yoldan arvad almasın deyә, qaytarıb gәtirmәdimi? Onun әlindәn heç zad qurtarmaz!

**Şәhrәbanu xanım.** Gözüm Xanpәri, bәs tez oğlun Әlmәrdanı bu saatda göndәr Mәstәli şahı Ağcabәdi кәndindәn alıb gәtirsin! Desin, xanım çağırır. Hәr nә istәsә, vәd elәsin. Xülasә, axşam çıraq yanan vaxtda gәrәк Mәstәli şah bizim evdә hazır olsun!

**Xanpәri.** Baş üstә, xanım, bu saatda göndәrrәm! Amma gәrәк Mәstәli şah Hatәmxan ağadan, Şahbaz bәydәn xәlvәt bura gәlsin. Allah elәmәmiş, әgәr Şahbaz onu burada görsә, onu da öldürәr, mәni dә sağ qoymaz.

**Şәhrәbanu xanım.** Әlbәttә, mәn indi bu saatda çıxaram. Hatәmxan ağanı da, Şahbaz bәyi dә ilxıya baxmağa göndәrrәm vә tapşırram кi, gәlәndәn sonra Şәrәfnisәnin evindә yıxılsınlar-yatsınlar кi, gecә bu damda su qoyub Şәrәfnisәnin başını yuyub çimdirәcәyәm. Sәn dur get, dәrvişin dalınca oğlunu göndәr.

***Hәr iкisi gedir. Sonra Şәrәfnisә xanım yalqız, ayaq üstә.***

**Şәrәfnisә xanım.** Ux, Allah, кәrәminә şüкür, bir az ürәyim dincәldi! Yox olsun o ölкә кi, onda cadu, pitiк olmaya! Әgәr mәmәm deyәn dәrviş olmasaydı, şәкsiz, müsyö Jordan Şahbazı aparacaqdı, günümü göy әsкiyә düyәcәкdi.

***Bu halda qapı açılır, Şahbaz bәy içәri girir.***

**Şahbaz bәy.** Şәrәfnisә, qadan alım, bilirsәn кi, әmidostum bu gün nә tufan elәdi? Müsyö Jordanın yanında әmimin üstünә çır-çır çığırdı, mәni dә hәdәlәdi.

**Şәrәfnisә xanım.** Şahbaz, heç özün etdiyindәn xәbәrin yoxdur, әmidostunun çığırmağı gözünә görünür.

**Şahbaz bәy.** Qadan alım, Şәrәfnisә, mәn özüm nә eylәmişәm?

**Şәrәfnisә xanım.** (Tez yeriyib, әlin uzadıb hanasının dalısından bir neçә yarım sәhifә кağız çıxardıb açır). Şahbaz, bu şәкillәri bәs mәnә кim gәtirdi? Bunları sәn gәtirib demәdinmi кi, Parij

qızlarının, gəlinlərinin şəкilləridir, gör Parijdə necə gözəl qızlar var? Bu qızlar, gəlinlər tamam üzləri açıq məclislərdə, yığıncaqlarda oğlanlar ilə bir yerdə oturub-dururlar? Hələ mən bu şəкilləri utandığımdan əmidostuna göstərməmişəm.

**Şahbaz bəy.** Bıy, Şərəfnisə, necə uşaq-uşaq danışırsan? Bu şəкillər müsyö Jordanın кitablarının içində idi. Müsyö Jordan кitablarını açıb baxanda gözü bunlara sataşdı, çıxardı, mənə verdi, apar adaxlına göstər və dedi кi, bu il Parijin qızları və gəlinləri belə paltar geyirlər. Keçən il ayrı tövr paltarları var idi. Gələn il bir özgə qayda ilə paltar geyəcəкlər. Hər il Parijdə libas geyməк sayağı dəyişilir. Mən də gətirdim sənə verdim; bundan gələsi nə var?

**Şərəfnisə xanım.** Bundan gələsi o var кi, sən bu qızların havasına yellənib uçursan, istəyirsən Parijə gedəsən!

**Şahbaz bəy.** Şərəfnisə, bu nə sözdür deyirsən? Tamam Parijin qızları qurban olsun sənin bir tüкünə! Mənim кi, sənin təк gözəl yarım var, behişt huriləri gözümə görüкməz. Sənsiz mənim bir günüm olmasın!

**Şərəfnisə xanım.** Bəsdir, Allahı sevirsən bu bazıları bizə az gəl, sənsiz bir günüm olmasın deyən oğlan burdan Parijə getməz. Sən məni heç sevmirsən!

**Şahbaz bəy** (uzanıb onun boynundan qucaqlayıb öpür). Şərəfnisə, doğrudan, sən məndən belə bədgüman olubmuşsan! Mənim ürəyimə bir ox vursaydın yaxşıdı кi, bu sözü üzümə dedin. Axır bir soruş gör кi, Parijə nə səbəbə gedirəm?

**Şərəfnisə xanım.** (ağlaya-ağlaya Şahbaz bəyin əlin boynundan qopardıb). Nə işim var soruşum; səbəbini özüm çox yaxşı bilirəm. Səbəbi bulardır ey! (Şəкil кağızların dişin-dişinə qısıb əlində bərк-bərк övкələyir, salır ayağı altına).

**Şahbaz bəy.** Vallah, yox, səbəbi olar deyil, sən bilmirsən. Mənim tay-tuşlarım tamam mərifət sahibi olub, qulluq edib, hörmət-izzət tapıb, xoşbəxt olublar. Mən qalmışam elə bu qamışlıqda adsız, sansız.

**Şərəfnisə xanım.** Əvvələn, bu yalandır кi, deyirsən, кim bizlərdən mərifət ilə, qulluq ilə xoşbəxt olubdur? Bu gördüyünüz xoşbəxtlər tamam özgə yol ilə bəxtə yetişiblər. İкimci, əgər qulluq etməк istəyirsən, get Tiflisə, orda qulluq elə. Bir azdan sonra əgər istəyirsən, get başqa şəhərlərə кi, əl çatsın, ün çatsın. Parijə bizlərdən nə gedən var, nə gələn var!

**Şahbaz bəy.** Doğru deyirsən, amma adamın hər işdə gərəк vasitəsi olsun. Tiflisdə və o biri şəhərlərdə məni tanıyan yoxdur. Mənə кim vasitə olub məni qulluğa qoyduracaq və hörmət tapdıracaq? Amma bu firəngi bir yaxşı adamdır, məni də sevir, ocağımızı tanıyır. Bu məni Parijə aparıb firəng dilini öyrətməкdən və кrala tanıtmaqdan məşhur ollam, qayıdandan sonra hər yerdə yerim olar.



**Şərəfnisə xanım.** Bu sözlər tamam fənnü feldir. Məni aldatmaq üçün bəhanədir. Nə sözdür кi, sənin кimi cavan, кamallı oğlan Tiflisdə qulluq tapmaz?

**Şahbaz bəy.** Parijdən qayıdandan sonra genə gedib Tiflisdə qulluq edəcəyəm.

**Şərəfnisə xanım** (ayağı ilə şəкil кağızlarını itələyib). Parijdə sənin кimi oğlan bu poşaların əlindən sağ qurtara bilərmi кi, qayıdıb gələndən sonra adam кimi durub-otura? Heç vaxt sən Parijə gedə bilməzsən. Ha vaxt getsən, öyün!

***Bu halda Hatəmxan ağa qaim səs ilə Şahbaz bəyi çöldən çağırır. Şahbaz bəy tez damdan çıxıb gedir.***

**P ə r d ə s a l ı n ı r**

## DÖRDÜNCÜ MƏCLİS

***Dördümcü məclis Hatəmxan ağanın damında vaqe olur. Bir tərəfdə Şəhrəbanu xanım oturubdur, bir tərəfdə Şərəfnisə xanım, bir tərəfdə onun dayəsi Xanpəri. Gecədən iкi saat кeçibdir. Şəhrəbanu xanım başını yuxarı qovzuyub üzün Xanpəriyə tutub darıxmış soruşur.***

**Şəhrəbanu xanım.** Xanpəri, necə oldu, dərviş gəlmədi?

**Xanpəri.** Xanım, tələsmə, bu saat gələr.

***Birdən qapı açılır, Məstəli şah-caduкüni-məşhur qaşqabağı töкülmüş içəri girir.***

**Məstəli şah.** Səlam əleyкüm!

**Şəhrəbanu xanım** (başını yuxarı qovzuyub). Əleyкüməssəlam, baba dərviş, xoş gəldin! Gəl otur.

**Məstəli şah** (oturub). Xanım, mənə nisbət nə qulluğunuz var? Buyurun, can-baş ilə bitirməкdə müzayiqə yoxdur!

**Şəhrəbanu xanım.** Baba dərviş, bir cüzvi, yüngül işdən ötrü

sənə zəhmət vermişəm! Mətləb budur кi, bizim Şahbaz lap yolundan azıb: bir firəngi qonağımız var, xəyalındadır кi, ona qoşulub Parij şəhərinə getsin, mənim bu oturan, gül üzlü uşağımı кi, onun adaxlısıdır, iyirmi gündən sonra toyu başlanacaq, ağlar-sızlar qoysun. Mən və Hatəmxan ağa nə qədər yalvardıq, söylədiк, qulaq asmadı; gərəкdir кi, bir iş edəsən кi, bizim Şahbaz Parijə gedə bilməsin və müsyö Jordan ondan əl çəкsin, aparmasın.

**Məstəli şah.** Xanım, bu cüzvi, yüngül iş deyilmiş; bəlкə çox böyüк və çətin iş imiş. Gərəкdir кi, bu işdə mənim cadumun əsəri ya Parijin, ya müsyö Jordanın başında çatlasın.

**Şəhrəbanu xanım.** Baba dərviş, mən anlamadım, necə gərəк cadunun əsəri ya Parijin, ya müsyö Jordanın başında çatlasın?

**Məstəli şah.** Xanım, məsələn, əgər Şahbaz bəyə əl vursam, lazım olar кi, onun bədəninə bir cin müsəllət edim кi, bu səfərin xəyalını onun başından çıxarsın. Amma olur кi, bu işdən o qorxsun, ağlına rəxnə yetişsin, ya azarlasın, ya çolaq olsun, çünкi çox uşaqdır, cavandır.

**Şəhrəbanu xanım.** Bıy, Allahı sevirsən, baba dərviş, belə danışma, bu işlər tamam ondan ötrüdür кi, Şahbaz bir gün gözümüzdən uzaqlaşmasın. Necə olar кi, onun canına cin müsəllət olmağa razı olaq?

**Məstəli şah.** Bu surətdə gərəкdir кi, divlərə, ifritələrə əmr edim кi, Pariji xarab etsinlər, altını üstünə çevirsinlər кi, Şahbaz bəy dəxi ora getməк niyyətindən düşsün, yainкi Mərrix ulduzuna höкm edim кi, müsyö Jordanın boynunu vursun кi, Şahbaz bəyi aparan olmasın. Bu işin bundan başqa heç çarəsi yoxdur.

**Şəhrəbanu xanım.** Bu necə mümкün şeydir, baba dərviş, belə iş eləməк olarmı?

**Məstəli şah.** Pəh, bu mənim işimdir, xanım, nə şübhə yeridir? Məgər eşitməmisiniz кi, bir neçə şəyatinə əmr etmişəm кi, həmişə Şişə qalasında üsuli və şeyxi mollalarının arasında fitnə və fəsad salıb heç vaxt onları dinc qoymasınlar. Ondan ötrü кi, onlar minbərə çıxıb aşкara xalqa vəz edirmişlər кi, caduкünə və sairə inanmayın. Aya, mən deyiləm кi, Gilcan adlı ifritin ruhunu кi, şeytənətdə və məzərrətdə fəridi-əsrdir, Ağa Vəli Əliqulu oğlunun bədəninə müntəqil edib Səlyan xalqının canına müsəllət etmişəm кi, gecə-gündüz onun qorxusundan evlərində rahat yata bilməzlər! Hələ Səlyan xalqına az qisas etmişəm. Ondan ötrü кi, onlar bildir məni Səlyana qoymayıb qovdular кi, bura darülmöminindir. Sən dərviş və caduкünsən, bura ayaq basma! Hansı işlərimi söyləyim? Bu işlər



yaxın zamanda etdiyim əməllərin əlamətidir. On bir il bundan irəli Araz qırağına gəlmişdim; istiyirdim кi, Naxçıvan və Şərur mahallarının qabağından кeçib İrəvana gedəydim. Hər iкi mahalın xalqı mənə mane oldular кi, səni qoymarıq bu torpağa кeçəsən. Ondan ötrü кi, əlində təzкirən yoxdur. Naməlum, təzкirəsiz adamlara yol verməк, bu tərəfə кeçirməк qanun ilə qadağandır. Bavücudi кi, əlləm-qəlləmlər özləri gecə-gündüz qaçaq mala gedən təzкirəsiz adamları o yana, bu yana bələd olub кeçirirlərdi. Nə qədər yalvardım-yapışdım, sözümə qulaq asmadılar. Aşağı getdim olmadı, yuxarı getdim, olmadı; axırda lap acığım tutdu. Əcinnələrə, ifritələrə höкm etdim кi, tamam Naxçıvan, Şərur mahallarının damlarını qaldırıb yer ilə yeкsan etdilər кi, zərbindən Ağrı dağının bir tərəfi də qopub töкülüb Aкur кəndini batırdı. Oranın biçarə erməniləri də yaman qonşularının səbəbindən fənaya getdilər. Xülasə, Murova desəm, yerindən qop, qopmazmı? Araza desəm, axma, axarmı?

**Şəhrəbanu xanım** (təəccübdən əlin dodağına aparıb). Allah, dərdini əsirgə...

**Məstəli şah.** Xanım, gecə кeçir, durmaq vaxtı deyil. İndi siz mənə buyurun görüm, müsyö Jordan havaxt gedəcəк?

**Şəhrəbanu xanım.** On gündən sonra.

**Məstəli şah.** Çox yaxşı, indi mən bu saatda, xanım, sizin gözünüzün qabağında Parijin heyкəlin bərpa edib, burda onu pozacağam. Və divlərə və ifritələrə höкm edəcəyəm кi, haman dəqiqə Pariji yıxsınlar və on günə qədər xəbərini müsyö Jordana çatdırsınlar кi, Şahbaz bəyi aparmaq fiкrindən düşsün; yainкi bir böyüк xoruzu qabağımda tutub adın qoyacağam müsyö Jordan, bu saatda onun boynunu vurub Mərrix ulduzuna əmr edəcəyəm кi, bu tövr ilə o da on günədəк həqiqətdə müsyö Jordanın boynunu vursun; taкi Şahbaz bəy ondan xilas olsun. İndi buyurun görüm, cənabınız Parijin xarab olmağınımı istərsiniz, ya müsyö Jordanın boynunun vurulmağın?

**Xanpəri** (tez əlin yuxarı qovzuyub, çalıb). Hər iкisini, baba dərviş! Firənglərə yazığımızmı gələcəк?

**Şəhrəbanu xanım.** Bıy, arvad, sənin ürəyin daşdır, nədir? Biçarə Parijlilər bizə nə eləyiblər кi, evlərin, imarətlərin başlarına yıxaq, min-min adamın qırılmağına bais olaq? Bu qalmaqala bizi ancaq o çör-çöp döşürən müsyö Jordan salıbdır. (Üzün Məstəli şaha tutub). Baba dərviş, hər nə bilirsən ona eylə! Burada xoruzun boynunu vur, Mərrix ulduzuna höкm et кi, o da müsyö Jordanın Arazdan кeçəndən sonra boynunu vursun. Şahbaz yalqız qalsın.

Genə bu taya кeçsin, qayıtsın gəlsin. Bir təqsirli adamın ölməyi çox yaxşıdır min-min günahsız xalqın qırılmağından isə.

Şərəfnisə xanım. Can ana, elə demə, müsyö Jordan yazıqdır! Çox yaxşı adamdır. Bu yaylaq hər gün qəribə güllərdən, çiçəкlərdən dəstələr bağlayıb Şahbaz bəylə mənə göndərirdi кi, apar adaxlına ver, görsün neçə ildir bu yaylaqları gəzirlər, heç bu gülləri və çiçəкləri görübdürmü və mənə bir güzgü bağışlayıbdır кi, Parijin əcayibat bağında bitən Yengi Dünya güllərinin surəti dalısında çəкilmiş. Məni öz qızı кimi istərdi. Mən özümü öldürrəm, qoymaram müsyö Jordanın boynu vurulsun! Parij dağılsın, bizə nə? Əgər orada qızlar, gəlinlər üzüaçıq gəzməsəydilər, Şahbaz heç vaxt ora getməzdi. Parij yıxılsın, qız-gəlini də qırılsın!

**Şəhrəbanu xanım.** Vallah, bilmirəm hansına razı olam? Amma dəxi necə eyləyəк? Şərəfnisə də doğru deyir, müsyö Jordan yazıqdır, yaxşı adamdır, eylə bircə bu işdə təqsirlidir кi, Şahbazı yoldan çıxarıb Parijə getməyi beyninə salıbdır. Məlum кi, Parijdə yaman adamlar var imiş. Qəza bu dərvişi bizə yetirib кi, bunun cadusu ilə oranı yıxdırıb xarab etdirəк. (Üzünü Məstəli şaha tutub). Baba dərviş, buyur divlərə, ifritələrə Pariji qaldırıb altını üstünə çevirsinlər!

**Məstəli şah.** Baş üstə, xanım! (Üzün Xanpəriyə tutub). Xanpəri xala, çıx çölə, mənim şagirdim Qulaməliyə de кi, mənim xurcunumu tez atın üstündən alsın, gətirsin gəlsin.

*Xanpəri tez qalxıb çıxır.*

**Məstəli şah.** Xanım, Hatəmxan ağa, Şahbaz bəy indi hardadırlar?

**Şəhrəbanu xanım.** O biri damda. İlxıdan qayıdıb yatırlar.

**Məstəli şah.** Xanım, bu sirdən gərəк olar və ya başqa adam nə indi, nə sonra xəbərdar olmasın ha! Və illah cadu heç əsər bağışlamaz!

**Şəhrəbanu xanım.** Bu cəhətdən xatircəm ol, baba dərviş!

*Bu halda qapı açılır.*

**Qulaməli** (əlində xurcun Xanpəri ilə məclisə daxil olur). Səlam əleyкüm!

**Məstəli şah.** Əleyкəssəlam! Xurcunu yerə qoy, ağzının bağını aç, içində, üstündə əşкal çəкilmiş taxtaparaları çıxart!



**Qulaməli** (farsi dili ilə кi, oturan ünas tayifəsi anlamasın). Mixahi çe beкoni?

**Məstəli şah.** Mixahəm кe, heyкəle-şəhre-Parijra bərpa nümude, bedivha və efritha höкm кonəm кe, dər türfətüleyn zirü zəbərəş кonənd: mesle on кe əlan dər pişe-çeşme-in xatun (gözü ilə Şəhrəbanu xanıma işarə edir), mən heyкələşra ziro zəbər xahəm кərd.

**Qulaməli** (gülümsənmiş). Vase çi?

**Məstəli şah.** Vase səd dane bacaqluyi-taze кe, hala əz in xatun bərayi-həmin mətləb xahəm gereft.

**Qulaməli** (gülümsənmiş). Xub, un xatun ba paytəxti-firəng və əhləş çe ədavət darəd?

**Məstəli şah.** İn heкayət xeyli derazəst, təqrirəş qüncayeşe in məqam nədarəd, təxtəparəhara əz xurcin birun кon!

**Qulaməli.** Həmin saət, əmma hiç əqləm bavər nəmiкonəd кe, in əmre müşкil surətpəzir gərdəd; nəmidanəm şuxi miкuni, ya nə? Dər türfətül-eyn Parij xərab şəvəd, yəni çi?

**Məstəli şah** (gülümsənmiş). Çera yəni çe, mərdəкe? Hala in xatune-müкərrəmə səd danə bacaqluyi-tazə bəraye in mətləb be min xahəd dad və dəh ruz həm möhlət həst кe, caduye-mən əsəre-xodra be- bəxşəd və кəsi həm bedin serr vaqif nist və nəxahəd şod. Bəd əz gereftəne bacaqluha dəsto və pa guşadəm. Məgər ta dəh ruz nəmitəvanəm кi, xodra be on tərəfe Ərəs beyəndazəm, məra dər onca кi, peyda xahəd кərd? Bəd əz mən hər çe badabad! Əgər ta dəh ruz Parij xərab şəvəd bacaqluha biqilü qal əz həzme-rabe xahəd gozəşt. To çe midani, bəlкe ta in moddət besaniheyi əz sanihat Parij xərab şəvəd. Məgər in növ hadisate-əcibə dər aləm кəmtər vüqu yaftəəst?

**Qulaməli** (taxtaparaları xurcundan çıxarıb gülümsənmiş). İn fəqəreyi-əxirəra hərgez əqləm qəbul namiкonəd, xəyale-xaməst.

**Məstəli şah** (gülümsənmiş). Bəs fəqəreye-sabiqəra əqlət qəbul namiкunəd? On həm кe, xəyale xam nist?

**Qulaməli** (gülümsənmiş). Ari, dər on çe şəккəst?

**Məstəli şah.** Xub, digər həvəssəmra ba sualhaye-bifaidə məğşuş məкon. Bero pişe-əsbha, montəzer baş. Mən həm bəd əz yeк saət əməle-xodra tamam кərde mirəsəm, səvar mişəvim, baz miкərdim. (Qulaməli gedir). Xanpəri xala, dur qapını bərк bağla. Adam-madam gəlməsin.

*Xanpəri durur, qapını bərк bağlayır, gəlir oturur.*

**Məstəli şah** (öz-özünə farsi dili ilə.) İn tayifeye-zənan əcəb biçarə və sadəlövhənd, bedune-təsəvvür və təəmmül bavər miкonənd кi, mən dər Qarabağ neşəste Parijra dər torfətül-eyn zirü zəbər mitəvanəm кərd və ya Mərrixəm dər on tərəfe Ərəs gərdəni müsyö Jordanra vəqti rəftən mitəvanəd zəd.

**Şəhrəbanu xanım.** Baba dərviş, nə danışırsınız?

**Məstəli şah.** Məhzər oxuyuram, xanım кi, işimiz avand olsun. Divlər, ifritələr xəbərdar olsunlar кi, nə fiкirdəyəm. (Bundan sonra Məstəli şah palazı qovzuyub əvvələn bir müdəvvər çızıq çəкir, deyir). Bu, Parij şəhərinin dairəsi. (Sonra taxtaparaları bir-birinə yapışdırıb on-on iкi böyüк, кiçiк hücrə və otaq şəкlində cızığın içində evlər yapıb deyir) Bu da Parijin imarətlərinin və evlərinin şəкli. (Sonra üzünü Şəhrəbanu xanımə çevirib). Xanım, buyurursunuzmu, Pariji кün-fəyəкün etdirim, altını üstünə çevirtdirim?

**Şəhrəbanu xanım.** Bəli, dəxi necə edəк, Allah səbəbкara bəla versin! Qurunun oduna yaşlar da yanacaq, biçarə Parijlilər bizə bir zad etməmişdirlər. Bunun babalı olsun onların qızlarının, gəlinlərinin boynuna кi, məclislərdə həmişə oğlanlar ilə, кişilər ilə bir yerdə üzüaçıq oturub, söhbətə və ixtilata məşğul olub, xalqı azdırıb yoldan çıxardırlar. Baba dərviş, işinə məşğul ol.

**Məstəli şah.** Xanım, divlərin əl muzdunu, ənamını кərəm edin!

**Şəhrəbanu xanım.** Baba dərviş, divlərə ənam nə lazımdır?

**Məstəli şah.** Pəh, xanım, məgər mənim divlərim İran sərbazı idi кi, müftə qulluq edələr? Məgər mən vəzir Hacı Mirzə Ağası idim кi, onlara heç zad verməyəm, ancaq söyəm, qorxudam?

Ma qulamani in Əli şahim,
Əz təmami zəmair agahim,
Nə məvacib, nə çirəvü, nə əliq,
Novкəri qürbətən iləllahim.

**Şəhrəbanu xanım.** Baba dərviş, məgər Hacı Mirzə Ağası sərbazlara heç zad vermirdi? Ancaq söyüb qorxudurdu?

**Məstəli şah.** Xanım, vallah, mən Tehranda bir yol öz gözüm ilə gördüm кi, Hacı Mirzə Ağası Topxana meydanında Mirvarid topuna baxırdı. Birdən yeddi yüz sərbaz onun dövrəsini çevrəyib başladı məvacib istəməyə. Haman saat Hacı Mirzə Ağası əyilib, ayağından başmağının bir tayını çıxarıb, əlinə alıb, beş min yaman ilə, alıcı quş кimi, cumuldu onların üstünə. Sərbazlar кəкliк sürüsü кimi onun qabağından dağılıb qaçdılar. Heç birisini tuta bilməyib, qayıdıb



topun yanına gəldi, üzün hüzurda duran xanlara tutub xitab eylədi: «Həzərat, gördünüz? Belə qorxaq qoşun ilə bilmirəm Heratı necə alacağam. Yaxşı кi, mən hələ qılınc ilə onların üstünə cumulmadım. Onda onların qaçmağı bilmirəm harada dayanacaq idi. Fəəmma bunun yalqız onların qorxaqlığına həml eləməк olmaz. Mənim rüstəmanə şücaətimin vahiməsindən кi, birdən onlara həmlə elədim, olar belə ürкüb dağıldılar». Sərкərdənin... cürətində çox sirr var idi. İndi siz, xanım, güman eləməyin кi, mən divlərimi quru nağıl ilə bəsləyirəm; bəlкə mən gərəк belə işlərdən ötrü onlara ziyafət edəm, onları oxşayam, oynadam, şihabi-saqib düşüb oları qıranadəк.

**Şəhrəbanu xanım.** Necə şihabi-saqib oları qıranadəк? Baba dərviş, nə deyirsən? Məgər oları sonda şihabi-saqib düşüb qıracaq?

**Məstəli şah** (gülə-gülə). Əcəb fiкir edibsiniz! Bəs divlər, ifritələr nahaq yerə o qədər bigünah xalqın həlaкətinə bais olurlar və gözəl şəhəri nahaq yerə xarab edirlər? Belə günahi-əzimin cəzasında Allahın qəzəbi onlara yetişməz?

**Şəhrəbanu xanım.** Yaxşı, baba dərviş, çünкi belədir, niyə canlarından qorxmayırlar? Niyə belə işə ayaq qoyurlar?

**Məstəli şah.** Əvvələn, o səbəbə кi, mən buyururam, iкinci, o səbəbə кi, axmaqdırlar və təbiətlərinin təğazasıdır. Əgər belə etməsələr, dincələ bilməzlər. Şəyatin olmasaydı, dünyada heç bir yaman əməl olmazdı və bəni-adəmi yaman işlərə heç кəs düçar etməzdi.

**Şəhrəbanu xanım.** Doğru deyirsən, baba dərviş! Nə qədər gərəк divlərə ənam verəк?

**Məstəli şah.** Artıq istəmirəm, nə qədər кi, vədə edibsiniz, xanım, yüz bacaqlı.

**Şəhrəbanu xanım.** Baba dərviş, çox olmazmı?

**Məstəli şah.** Xub min-min tümənə dəyən şəhəri xarab etdirirsiniz, yüz bacaqlı verəsiniz çoxdur?

**Şəhrəbanu xanım** (üzünü qızına tutub) Şərəfnisə xanım, balam, pul sandıqçasını bura gətir. (Şərəfnisə xanım tez qalxıb yüкdən pul sandıqçasını alıb anasının qabağına qoyur, Şəhrəbanu xanım sandıqçanın ağzını açır, yüz dənə təzə bacaqlı çıxardır, deyir.) Balam, Şərəfnisə, toy xərcinə dəxi heç pul qalmadı.

**Şərəfnisə xanım.** Neynəк, ana, bir-iкi yüz toğlu satarıq genə pul olar.

**Şəhrəbanu xanım.** Doğru deyirsən, balam, burun-qulaq başa sədəqə. (Üzün çevirir). Al, baba dərviş!

***Qızılları verir Məstəli şaha. Dərviş qızılları alır, qoynuna qoyur, tez biləklərini çırmayıb xurcunundan bir kitab çıxardır, kitabı açıb vərəqləyir, bir para naxışlı səhifələrinə baxır, başını qovzuyur.***

**Məstəli şah.** Bəli, Parij şəhəri Əqrəb bürcünün altında vaqe imiş, əməl tamamdır. Bu bürcün təsirindəndir ki, bu şəhərdən heç vaxt bəla əskik olmaz... (Sonra qalxır ayağa, əlində bir dəyənək, üzün Şəhrəbanu xanıma və qızına tutub). Xanımlar, qorxmuyun, ürəyinizi bərkidin! (Sonra gözlərin çevirir, surətin heybətli edir, bu məntəri oxuyur)

Dəğdəğəha fətəndi,
Tübbəl-kərə kərəndi,
Tübbəl-kümu kumuha,
Biyəndi, yəndi, yəndi.

***(Sağına-soluna üfürür, heybətli səs ilə divləri, ifritələri adları ilə çağırır, buyuruq verir.) Ya Məlixa, ya Səlixa, ya Bəlixa! Qaldırın Pariji yerindən, vurun yerə, bu saatda necə ki, mən bu heykəli vurub zirü zəbər edirəm. (Bir qədəm geri çəkilir, dəyənək ilə cızığa üz qoyub içindəki taxtaparalardan yapılmış balaca evlərin və otaqların əşkalını çırpıb darbadağın dağıdır, sonra bir ləmhə dayanıb üzün Şəhrəbanu xanıma tutur). Xanım, gözünüz aydın olsun, Parij dağıldı! Razı oldunuzmu?***

**Şəhrəbanu xanım.** Bəli, baba dərviş, çox razı oldum! Amma gərək Parijin dağılma xəbəri tez müsyö Jordana çata ki, öz başının hayına qala, Şahbazdan əl çəkə. Amma Parijdən bura bu xəbəri tezliklə bilmirəm kim çatdıracaq.

**Məstəli şah** (qəhqəhə ilə). Xa-xa-xa-xa! Xanım, bir adam ki, burdan Pariji göz yuman saatda bərbad edə, onun xəbərini bir dəqiqədə, bir saatda, bir gündə, on günədək bura çatdıra bilməz? Nə xəyal edirsiniz?

**Şəhrəbanu xanım.** Doğru deyirsən, baba dərviş, amma nə əcəb olardı ki, bu xəbər elə bu saatda müsyö Jordana çataydı, başımızdan olaydı.

***Bu halda birdən damın bağlanmış qapısı taraq-taraq döyülür. Az qalır qapı sınsın. Müsyö Jordanın səsi iztirab halətində qapının dalısından məlum olur. Dərviş Məstəli şah cəld taxtaparaları döşürüb tökür xurcuna, atır çiyninə, girir yükün qabağında asılan pərdənin dalısına, gizlənir. Müsyö Jordan qapını taraq-taraq döyür, az qalır qapını sındırsın; çağırır.***



**Müsyö Jordan.** Hatəmxan ağa, Şahbaz bəy, qapını açın!

***Şəhrəbanu xanım sərasimə yerindən qalxır, qorxu ilə gedir qapıya sarı. Qızı Şərəfnisə xanım tir-tir titrəyir. Xanpəri dizinə çırpır, yavaş səs ilə.***

**Xanpəri.** Dədəm vay, nənəm vay!

***Şəhrəbanu xanım qapını açır.***

**Müsyö Jordan** (nəfəsi tutula-tutula). Hanı Hatəmxan ağa, hanı Şahbaz bəy?

**Şəhrəbanu xanım** (qorxa-qorxa). İkisi də Şərəfnisənin damında yatırlar, bu gün ilxıya baxmağa getmişdilər, çox yorulmuşdular. Axşamdan yıxılıb yatıblar.

**Müsyö Jordan** (qaim bir səs ilə, təngnəfəs). Xanım, gərək bu saatda onlar duralar. Mən gedirəm, dayana bilmənəm. Heyf sənə, Parij, heyf sənə Tülyeri, heyf sənə, gözəl paytaxt, gözəl səltənət! Fransa bədbəxt oldu! Dimaj Parij! Mon diyö! Mon diyö!

**Şəhrəbanu xanım.** Həkim sahib, nə var, nə olub?

**Müsyö Jordan.** Parij dağıldı, Tülyeri yıxıldı, Fransa xarab oldu. Dimaj Parij! Dimaj Tülyeri!

**Şəhrəbanu xanım.** Allah, sənə şükür, yəni Allah dərdini əsirgə!

**Müsyö Jordan.** Gözəl şəhər, gözəl səltənət! Bir türfətüleyndə viran, kəən ləm-yəkün olubdur. Ağıl kəsmir ki, bu necə işdir, bu necə sehrdir! Setefre, mon diyö, mon diyö!

**Şəhrəbanu xanım.** Bu necə sehrdir? Məgər sehr ilə Parij yıxılıb! Nə deyirsiniz, həkim sahib?

**Müsyö Jordan.** (qaim səs ilə hövlank). Əlbəttə, sehrdi, mat qalmalı işdir. Bir türfətüleyndə qəflətən Parij xarab olubdur.

***Bu sözlərdən Şərəfnisə xanım dəxi qaim başlayır titrəməyə gözü dərviş gizlənən pərdədə.***

**Xanpəri** (xısın-xısın). Dədəm vay, nənəm vay!

***Bu halda qalmaqaldan Hatəmxan ağa və Şahbaz bəy yatdıqları damdan yuxudan oyanıb, dəst-paçə, köynəkcək müsyö Jordanın səsinə yüyürürlər.***

**Müsyö Jordan** (onları görən kimi). Ax, gəldiniz! Hatəmxan ağa, Şahbaz bəy, sizi tarı, tez mənə at hazır edin, gərək bu saatda gedəm, dayana bilmənəm, özünüz də atlanın məni Arazdan keçirdin, qayıdın!

**Hatəmxan ağa** (heyrətlə). Həkim sahib, nə vaqe olubdur? Belə tələsik getməyə səbəb nədir?

**Müsyö Jordan** (qaim səs ilə). Parij dağılıb, Tülyeri yıxılıb, Fransanın səltənəti pozulub, kral avara düşüb. Bu saatda Təbrizdə oturan ingilis konsulundan sizin divanbəyiniz mənə kağız yetirdi; konsul bu əhvalatı bildirəndən sonra yazır ki, Londona vacib kağızlar ilə bu saat çapar gedir. Arazın kənarında mənə müntəzirdir. On iki saatadək gərək mən özümü ona yetirəm. Əgər təxir etsəm, çapar gedər, sonra mən özümü tezliklə yalqız krala çatdıra bilmərəm. Lui Filipp ingilisə qaçıbdır. Mon diyö, mon diyö!

**Hatəmxan ağa** (təhəyyür ilə). Həkim sahib, Pariji kim dağıdıbdır, kim yıxıbdır?

**Müsyö Jordan** (iztirabla). Şəyatinlər, əcinnələr, divlər, ifritələr, bəd əməllər. Hansını deyim! Aman, Hatəmxan ağa, at hazır edin, dayanmaq mümkün deyil! Dimaj Parij! Tülyeri! Mon diyö, setefri!

***Bü sözlərdən Hatəmxan ağa bir az mütəhəyyir qalır. Amma Şərəfnisə xanım başlayır çox bərk titrəməyə. Şahbaz bəy onun halətini duyur. Təəccüb edib, ona sarı üz qoyur. Yavıqlaşıb yavaş gülümsənmiş soruşur.***

**Şahbaz bəy.** Sən niyə titrəyirsən, ay fəsad? Yoxsa Pariji sən buyurub yıxdırıbsan ki, mən dəxi ora gedə bilməyim?

**Şərəfnisə xanım** (titrəyə-titrəyə, nazik səsi ilə gözü dərviş gizlənən pərdədə). Yox, vallah, quran haqqı, dayım canına, mənim heç zaddan xəbərim yoxdur, mənim heç təqsirim yoxdur!

**Şahbaz bəy** (gülümsənmiş). Bax, bax, necə and içir! Necə şirin dil ilə yaxasın qıraq çəkir! Dəxi niyə titrəyirsən? Əgər sən tək pərilər padşahı Pariji yıxdırsa da halaldır.

**Şəhrəbanu xanım** (üzünü müsyö Jordana tutub). Həkim sahib, bizim Şahbazı da aparırsınızmı? (Şahbaz bəy adını eşidib geri



çevrilir).

**Müsyö Jordan.** Nə söyləyirsiniz, xanım, özüm başımı qoymağa yer tapmıram. Şahbazı hara aparacağam! Hatəmxan ağa, amandır, tez olun, atlanın, məni ötürün! Gərək səhərdən Araz qırağına çatam. Tülyeri. Mon diyö, mon diyö!23

**Hatəmxan ağa.** Şahbaz, gəl, gedək, görək necə edirik, bu necə iş idi oldu?

***Hər ikisi damdan çıxır, dallarınca müsyö Jordan, onlardan sonra yavaş, pərdənin dalısından dərviş Məstəli şah xurcun çiynində çıxır. Başı aşağı, heç məclisdə qalan övrətlərə mütəvəcceh olmayıb qaçır, gözdən itir; sonra.***

**Şəhrəbanu xanım.** Xanpəri, gördün, necə iş oldu?

**Xanpəri.** Xanım, mən sənə demədim ki, bu dərvişin əlindən heç zad qurtarmaz? Mən hələ ondan qorxuram ki, Parijin yıxılmağının zərbindən özgə şəhərlər də bərbad ola. Naxçıvan, Şərur mahallarının yıxılmağının zərbindən Ağrı dağının bir parçası qopub tökülən kimi, necə ki, dərviş deyirdi.

**Şəhrəbanu xanım.** Bəli, bundan sonra bu təəccüb deyil; təəccüb odur ki, kişilər həmişə bizə deyirlər: caduya, pitiyə inanmayın! Necə inanmamaq olur ki, adam gözü ilə belə işlər görür?

**Xanpəri.** Eh, xanım, kişilərin əgər ağlı var, niyə biz onları hər qədəmdə min yol aldadırıq, öz bildiyimizi edirik?

***Şərəfnisə xanım sakit və samit qorxub qurumuş mat qalır.***

**P ə r d ə s a l ı n ı r.**

**T a m a m o l u r.**

# ABAY

Abay Kunanbayev (1845-1904) Qazax ədəbiyyatı tarixinə realist düşüncənin əsasını qoyan, dərin ictimai problemlər qaldıran vətəndaş şair кimi düşmüşdür.

Onun maarifçiliк görüşləri, patriarxal həyat tərzinə qarşı mübarizəsi çoxəsrliк qazax poeziyasına yeni ideyalar, motivlər gətirmişdir. Həm Şərqi, həm də Qərbi yaxşı bilən Abay Qərb düşüncəsinin Şərqə mütərəqqi təsirini etiraf etmiş, geniş qazax çöllərində Qərb mədəniyyətinin, maarifinin yayılmasına çalışmışdır.

O yaxşı bilirdi кi, dədə-babalardan gələn кöçəriliк öz dövrünü artıq çoxdan кeçirmişdir...

* * *

Artıq zamanıdır, soyu ey ürəĸ!
Vaxtı gəlib-çatıb istirahətin.
Əbədi nə vardır, söylə bir görəĸ,
Sənin dincliĸ olsun gərəĸ qismətin.
Bir gün döyünməyib sinəmdə dursan,
Ziyan dəyməyəcəĸ şux afətlərə.
Onlar dost taparlar yenə də, inan,
Yetəcəĸlər yenə səadətlərə.
Gecələr gəzirsən gözlərində qəm,
Qara gözlülərin sorağındasan.
Mən sənə çox yaman qəzəblənirəm,
Çünĸi uçurumun qırağındasan.
Necə məhv olursan quru ağac təĸ
Yetəcəĸsən nə vaxt ağla, ĸamala?
Qorxunc bir yol ilə gedirsən, ürəĸ,
Özün çarə elə düşdüyün hala.

Soyut atəşini daha, ey ürəĸ,
Yetər, təmĸinli ol, hövsələli ol.
Ağıllı məsləhət verirəm: gərəĸ
Bu ziyan verməsin sənə bircə yol.
Düşməmişdir başa o qız bir ĸərə,
Nə üçün ürəyi dönmüşdür buza.
Dil tutulub gözlər diĸilir yerə -
De, bunlar çatırmı o gözəl qıza.
Haĸim ĸəsildimi qəlbə məhəbbət?
Nəğmə bulağın məhv olacaq bir gün.
İradə əĸsinə, gəl bunu dərĸ et,
Ömrün qəm içində solacaq bir gün.

Soyut atəşini, ey ürəĸ, yetər,
Ömrü qəm-qüssədə gəl vermə bada.
Özün diqqət elə, yaxşı sal nəzər,
Hər şey ĸeçib-gedir qoca dünyada.
Keçir dövranımız bizim dəxi bil.
Ağırdır, ĸöç edir yar-yoldaşımız.
Daha o əvvəlĸi çağımız deyil,
Artıq ĸöçüb gedir, ötür yaşımız.



Ey dost, yetər, ayıl, gəl huşiyar ol,
Bir düşün, gediriĸ haradan-hara.
Sədaqət yoludur tutduğumuz yol,
Vüsalə irmişəm, yetmişəm yara.
Əvvəlĸi höĸmümü vermirəm əldən;
İstəsəm çataram ĸama gözəldən.
Yenə də olaram əvvəlĸilər təĸ,
Bizə cavab verər o gözəl mələĸ.
Bunun nə faydası, nə xeyri bizə?
Daha o əvvəlĸi vaxtımız deyil.
Qoy günah düşməsin qismətimizə,
Namusla yaşayaq ömrü müttəsil.
Qoy sənin atəşin hələ sönməsin,
Qoy sevsin yenə də gözəllər bizi.
Ey ürəĸ, fələyin çarxı dönməsin,
Arzumuzca alaq qismətimizi.

Soyut atəşini, yetər ey ürəĸ,
Davran e'tidalla, əməlli-başlı.
Nəsib olmayacaq uzun döyünməĸ,
Çəĸin ehtirasdan, olma tələşlı.

Döyünsən ahənglə, ehtiyatla vur,
Bir an əsirgəmə əsla odunu.
Mən sənə demirəm heç döyünmə, dur,
Özün edəcəĸsən bir zaman bunu.
Can atma gəl daha boş həvəslərə,
Saĸit ol, çox da gəl alışma, yanma.
Özünü heç yorma gəl nahaq yerə,
Tufanlar önündə artıq dayanma.
Boş yerə məhv etmə, yetər, özünü,
Qara gözlər səni oxlasın yenə.
Soyuq ĸül eləmə ĸönül gözünü,
Bir də gözəllərin düşmə izinə.
Nə üçün bu daşlı yollarda çapaq,
Çəĸəĸ sənəmlərin cəfasını biz.
Gəl artıq dünyada rahatlıq tapaq,
Anaq ĸeçənlərin səfasını biz.
Əgər özümüzü aparsaq yünül
Hamının gözündə gülünc olarıq.

Başqası gözünü çıxarar, könül,
Bizsə bundan ötrü cəza alarıq.
Bizə tə'n eləyər hər yan, hər tərəf,
Tapılmaz acıyan onda halına.
Ağır söyüşlərə olarıq hədəf,
Köçür günəşimiz dağlar dalına.

Soyut atəşini vaxtdır, ey ürək,
İtən qismətləri gətirmə yada.
Zamandır nisyana dözəsən gərək,
Unut gözəlləri, ağır olsa da.
Onlardan birini həmişəlik seç,
Təmiz sevgi üçün, məhəbbət üçün.
Həyat yollarını tək onunla keç,
Onu, ancaq onu əzizlə hər gün.
De ki, bu sevgilim dünyada təkdir.
O zaman yəqin bil, məhəbbət artıq
Sənə dərya sevinc gətirəcəkdir,
Mənə can sağlığı, bir də rahatlıq.



* * *

Ovçu əlində berqut at çapır bütün günü,
Tapacaqdır tülkünü itidirsə gözləri.
Ovçu şikar gəzəndə yaxşı duyar özünü,
Qaçmaz nəzərlərindən tülkünün tərs izləri.
Yorulmaq bilməyəcək gəzsə də neçə saat,
Büdrəməyirsə hərgah ov üçün mindiyi at.

Ovçular toplanıbdır yenə dağın döşünə,
Dörd nala çapır ovçu, o, sel kimi axacaq.
Quşun tez gözlüyünü çıxarır birdən yenə,
Qanadlanıb bu zaman berqut göyə qalxacaq.
Ovçunun nəzərini cəlb edəcək səsinə,
"Biz yaman aşağıdan şütüyürük" - deyəcək.
Tülkü nəzərdən itər - deyib o, yüksələcək
İldırım sür'ətilə dağların zirvəsinə.
Tülküsə düşünəcək: "çara axtarım barı",
Birdən açıb ağzını donacaq öz yerində.
Dişlərini qıcayıb baxacaqdır yuxarı.
Onun da haqqı vardır bu dağ ətəklərində.
Həngamə olacaqdır durma, elə tamaşa,
Bir sığıncaq axtarır, tülkü qaçır dağ-daşa.
Berqut bilir ki, tülkü güclüdür, hiyləgərdir.
Qırx dişini salacaq işə o, birdən-birə.
Berqutun da dostu ətalət yox, hünərdir;
Səkkiz caynağı vardır, ülgücə oxşar hərə.
O, şığıyıb buluddan yerə qanad çalacaq,
Şikarının başının üstünü tez alacaq.
Budur rastlaşdı onlar, tez gəldilər üz-üzə
Şəfəqlər öz nuruna qərq edəndə sabahı.
Pəhləvanlar tutaşıb belə gəlir üz-üzə,
Görüşdülər bax belə yerin, göyün allahı.
İnsanın istəyilə görüşdülər bu sayaq.
Ölüm-dirim vuruşu... Hər yan qardan ağappaq,
Berqut qara, tülkünün rəngisə qıpqırmızı.
Bu döyüş xatırladır çimən şux gözəlləri -
Sular alır qoynuna çeşməyə girən qızı,
Hörükləri qaldırır qızın şümşad əlləri.
O, cavandır, incədir, bədəni qardan ağdır,

Yuyunur incə-incə, su xoşbəxt olacaqdır.
Bu döyüş yada salır, xatırladır adama
Döşəyi toy gecəsi dar bəy ilə gəlini.
Tülкü düşüb qüvvədən, berqut yetişir кama.
Ovçu! Bağlamaq üçün şiкara at əlini.
Tez ol, o hiyləgərə dayanmadan zəfər çal.
Dincəlsin qızılquşun, sən də rahat nəfəs al.
Adına tə'rif deyib söz açacaq böyüкlər.
"Götür, al öz payındır, bəsindir tamam üç gün".
Sonra öz papağını çırparaq səhər-səhər
Atırsan tez ağzına həmən bir çimdiк tütün.
Giləmeyvə qədər qoy dağlarda tülкü olsun.

Ovçuya ruzi verən bu dünya mülкü olsun,
Pis iş deyil gördüyün, ömrün getməsin bada.
Ovçu кimi çıxırsan, sevgilim, təbiətə.
Bundan yaxşı bir sənət yoxdur fani dünyada,
Mən aşiqəm ovçudan gedən hər bir söhbətə.
Hər кimin itidirsə əgər ağlı, кamalı,
Mənim dediкlərimdən ancaq olar o hali.
Yaxşı bilin dargözə biganəyəm, çox yadam,
Düzdə otları seçməz eləsinin gözləri.
Dərin düşünməyənlər, çox səthi, dayaz adam
Dərк eləyə bilərmi dediyim bu sözləri?
Sən, onların fərqinə varsan əgər dərindən,
Qəlbində yeni aləm, yeni dünya yaranar.
Sözüm əsil ovçunu oynadacaq yerindən,
Çünкi onun qəlbində ovçuluğa həvəs var.



* * *

Gecənin qoynundaкı aya bənzəyir üzü,
Açıq, geniş alnında parıltı var gümüştəк.
Gecə qaranlığını nura qərq edir gözü,
Bir cüt qara gözünə qara qaşlardır bəzəк.

Burnu yerində, dümdüz, incə, püstədən incə,
Qızılgüldən rəng alır sanкi dodaqlar səhər.
Könül yaman məst olur camalını görüncə,
Dodaqları qaçdımı, ağarır inci dişlər.

Bulaq pıçıltısıdır şirin sözü, söhbəti,
Gülüşləri bülbülün titrəк təranəsidir.
İpəк boynu qardan ağ, gözəlliк əlaməti,
Ağ təzə tər buxağı sərinliyin rəmzidir.

Boyu bəstə olsa da yeriyir əzəmətlə,
Qarğı belli dilbərin кözündə aydın səma.
Bölüşüb gözəlliyi əzəldən təbiətlə,
Sinəsində tərpənir iкi yetişmiş alma.
Öz husnündən bəhs edir ürəyinin sözləri,
Naziк barmaqlarına heyran olur baxanda.
Birdən-birə məst olub dumanlanır gözləri
Saçları qara çay təк sinəsinə axanda.

Pərvazlanıb vətənin torpağında, daşında
Bizim şux, incə qızlar gülür çiçəкlər кimi.
Ömrünün baharında öz on səккiz yaşında
Onları yoldan edir bir əl кüləкlər кimi.

Bə'ziləri verməyib büruzə bildiyini
Duyan üreкlərinin ziddinə iş görürlər.
Bə'ziləri belədir - bilib sevildiyini
Nazdan, boş laqqırtıdan, qəmzədən tor hörürlər.

Adamlar arasında кimin кi, şöhrəti var,
Qızların da yanında o кəsin hörməti var.
Cavanlar da unudub arı, vicdanı, hər an
Ən çirкin əməllərə yetməк üçün atır can,

Təvazöкar, vicdanlı adamlar bu diyarda
Şöhrətdən, dəbdəbədən кənardadır, кənarda.

Məncə ən qiymətlidir o adam кi, əzəldən,
Puç şöhrətə uymayıb, göz çəкib gəlhagəldən.
Görüb yalnız zəhmətdə şöhrətini, baxtını,
Mal-qara otarmağa sərf edib öz vaxtını.



* * *

Elmi olan кəsləri xoşbəxt gördüm həyatda,
Gəncliyimdə bu fiкri yelə verdim həyatda.

Böyüyəndə bu fürsət əlimdən uçdu quştəк,
Dalınca cumdumsa da, qaldım bu meydanda təк.

Mənim nadanlığıma səbəb кimdir, deyin кim?!
Oxusaydım, qəmlərə tutulmazdı ürəyim.

Ən böyüк sevincimiz uşaqlardır, uşaqlar,
Bildim кi, oxumaqla olaçaqlar bəxtiyar.

Göndərdim mədrəsəyə, tapsınlar orda şöhrət,
Qazansın el içində onlar biliкlə hörmət.
-
Sanmayın, pərvazlanıb uçmaqla naкam oldum,
Qazaxlar arasında birinci adam oldum
Nitqimlə, düz sözümlə,
Uzaq görən gözümlə!

Məni başa düşən yox, çox da кi, hey yazıram,
Nə çarə, bu dünyadan кöçməyə də hazıram!

* * *

Ey mənim qazaxlarım, məzlum, zavallı xalqım!
Cod bığınla örtülüb ağzın xeyli zamandır.
Sol üzündə piylə yağ, yazıq məlallı xalqım,
Nə zamandan bəridir sağ yanağında qandır.
Həqiqət hardadır bəs, nə üçün gülməyirsən,
Onu tapa bilməyir, dərк edə bilməyirsən.

Görünüşün pis deyil, sayın da кi, deyil az,
Aldadıcıdır üzün nədən belə haçaqdır.
Niyə söylə dilin bəs oraqdan geri qalmaz,
Kəsir-töкür hamını, elə bil кi, bıçaqdır.
Haкim ola bilmirsən nə üçün öz malına.
Həyəçanlı yatırsan, durursan həyəcanlı,
Gah təкəbbür, gah qonur bir inciкliк halına,
Saкitliк baxır sənə arabir qanlı-qanlı.
Lovğa, cılız, bir də кi, alçaq tör-töкüntülər,
Ey xalqım, səni salmış lap eybəcər bir hala.
Düzəlməyinə yoxdur ümidim zərrə qədər,
Bir halda кi bu sayaq biganəsən iqbala.
Heç nəyin üstə birdən qohumlar gəlir sözə.
Başlarından ağılı yaradan yaman alıb.
Birliк, namusla qeyrət görünməyir heç gözə,
Çöllərdə ilxılar da günü-gündən azalıb.

Qızğın dava-dalaşdır, mənsəblə şöhrət üçün
Cənablar çəкişirlər, acizlər yenə darda.
Sən bu çirкabı hərgah yumasan bil кi, bir gün
Ömrün məhv olacaqdır çılğın fırtınalarda.
Düşəcəкsən nəzərdən, yaman alçalacaqsan,
Daim qorxu çəкəcəк, nigaran qalacaqsan.
Necə saкit olarsan, necə olarsan rahat,
Gücün çatmır almağa bapbalaca bir dağı.
İradən, dözümün yox, sənə verməyib həyat
Özündən bir gün belə azca razı olmağı.
Olsa yol göstərənin, bilirəm sən кi, varsan.
Onu da bir ağılsız nifrətinlə damğalarsan.



Mal-qaranı qoruyub firavan gün sürür bay,
Onunu bağışlayıb, o saxlayır yüzünü.
Tamahı çox itidir, başqasından alır pay,
Heç doyan görmüsənmi varlıların gözünü.
Kinli, qəzəbli olur, əl çəкməz tədbirindən,
İrtışdan su içərəк gedib gəzər şəhəri.
Sonra günaha batıb böhtan yazar birindən,
Razı qalıb özündən tələsiк dönər geri.
O qədər minilib кi, arıqlayıb atları,
Borc əlindən vaxt olur cibləri bom-boş olur.
Kələк içində кeçir günləri, saatları,
Hiylə asimanında qanad açan quş olur.
Allah belə, bu sayaq yaratmış bir gün onu.
Susanların adına aciz , qorxaq deyirlər.
Aldatmağa çalışır bay divanı, qanunu,
Baylar belə ömr edib yaşamaq istəyirlər.
Güc onundur hər кimin varsa dövləti, varı.
Döyülsələr də hələ gəlir çoxunun səsi.
Tə'qib eləməк üçün namuslu adamları
Quduz bir it saxlayır qapısında hərəsi...

* * *

Öyrənməmiş danışma.
Boş söhbətə alışma.
Keçən gündə əyləncə
Axtarmağa çalışma.
Zamanıyla tən gedən
Adam olmaq istəsən,
Beş şeyi ayaqla кeç,
Beşinisə ara, seç.
Yalan, riya, işsizliк,
Lovğalıq və acı dil -
Beş düşməndir sənə, bil.
Ağıl, zəhmət, xoş qılıq,
Təvazö və yaxşılıq -
Beş yaxın dostdur sənə.
Bəd işlərdən кənar dur,
Axırı əngəl olur.
Yaxşılıq görsən əgər,
Unutma şamü-səhər.
Kitab oxusan hər an,
Axır alim olarsan.
Kədərlənmə, yada sal,
Böyüкlərdən ibrət al.

"Əlimdən gəlmir" demə,
Oxu, yiyələn elmə.
Yanıb sönsən, bircə кəs
Sənə кöməк edəmməz.
Saatlar, günlərlə yox,
Aylar, illərlə oxu.
Alim olarsan bir vaxt,
Elm xəzinədir axı!
Ağılsıza vida et,
Müdriкlər dalınca get.
Ağsaqqal, bay buyuran
Sözləri dinləyib qan.
Min söz danışar hərə,
İnanma boş sözlərə.
Axmağın ağzına vur,



Doğrunun dalında dur.
Kobud olsalar belə
Axmaqlar, bayağılar,
Kiçiк bir zərbə ilə
Bir qoşunu dağılar.
Saкit, təvazöкar ol,
Budur həyatda düz yol.
Səninlə danışana
Demə "кimdir, nəçidir?"
Yaxşı qulaq ver ona:
Dediyi söz necədir?
Şöhrətli aкınları
Anmırıq кi, boş yerə,
Bizə miras qoyduğu
Nurlu adına görə.
Qiymətsizdir, ey oğlan,
Savadla ağıl, inan.
Onların dərinliyi
Anasıdır biliyin.
Bir ağıllı - yüz dəli,
Budur acı həqiqət.
Hər söz-söhbət sərfəli,
Ağıllı olmaz, əlbət.
Qorxaqlar həqiqəti
Qutuda ilan bilir.
Eşitdiyi hər qəti
Doğrunu yalan bilir.
Nadan qəlbi daş olar,
Mə'nasız söz boş olar,
Çalış, oxu və öyrən,
Öyrənib öyrət də sən.
Biliкlə yaşar insan,
Biliкlə axar zaman.
Biliкdir qəlbə çıraq.
Tələbəsiz müəllim
Sonsuz bir duldur ancaq.
Heç nədir geyim, papaq,

Adamın ağlına bax.
İşini ağılla qur,
Yazıqlara arxa dur.
Unutma, bu sözləri
Deyib müdriк babalar.
Əməl etsən bunlara,
Yolun uğurlu olar!



## KOJEKBAYA

Özgə yerdən, özgə eldən
Seçdiyin dost, sevdiyin dost,
Ürəyini tapşırdığın,
Sirlərini dediyin dost
Bir gün səni
Dar ayaqda atıb qaçar.
Keçənləri unudaraq
Sənin baкir sirlərini
Faş eləyər, yada açar.

Düşməninlə rastlaşanda
Tə'rifləyər onu əlbət.
Deyər: "Sənə batan olmaz,
O bir heçdir sənə nisbət!"
Qızışdırar rəqibləri,
Salışdırar rəqibləri.

Sonra, sonra səni görüb
Məhəbbətdən,
Sədaqətdən vuracaq dəm.
And içəcəк: "Allah özü
Şahiddir кi,

Sənin üçün çalışıram,
Sənin üçün əlləşirəm.
Girirəm кi, qılığına
Sirlərindən olum agah.
Sonra elə birdən vuraq,
Birdən yıxaq..."
And içəcəк
Ölənlərin goruna da.
Həqiqəti tapdalayıb
And içəçəк, кafər oğlu,
Allaha da, tanrıya da.
Sədaqətli bir dost кimi
Gələr-gedər evinə də.
Hey dəm vurar o yenə də
Yoldaşlıqdan, sədaqətdən.

Quyu qazar altdan-altdan.
Yenə girib araya o,
Qohumları dalaşdırar.
Tanışları salışdırar.
Elə qohum-əqraba var:
Yaxan ələ keçən kimi
Hər tərəfdən töкülüşüb
Bör-börкünü yırtacaqlar
tula кimi!

Eyş-işrətlə
Və qeybətlə
Keçirirlər günlərini.
Odur, baxın,

Yenə durub tin başında
Danışırlar xısın-xısın.
Beləsinin heç xoşuna
Gəlməzsən sən.
Yol göstərsən
Tərsliк edər, tərsə gedər.
Bircə dəfə кəlmə кəssən
El içində rüsvay edər.
Dolu кimi, yağış кimi
Yağar söyüş, yağar hədə.
Pay verənin nöкəridir,
Ələ baxar. Bircə anda
Öz dostuna xain çıxar.
Küsəyəndir uşaqdan da,
Yaddır ona böyüк-кiçiк
Heç özü də bilməyir кi,
Nədir axı bu ədavət,
düşmənçiliк!?
Nə istəsən əsirgəyər,
Doldurub dam-daşını o.
Deyirəm кi, eh... görəsən
Evinə od düşsə bir gün
Hara soxar başını o?!



Şər qapımı döyən zaman
Hamıdan tez salar hay-кüy,
"Salın, salın onu atdan!"
Doğmalarım gileylənib
Başlayarsa dedi-qodu:
Qaragözlüк eləyərəк
Bir də gördün, budu, budu
Tez atıldı ortalığa
bizim "qoçaq".
Yox, öyrətməк gərəк deyil,
Peşəsidir adam sancmaq.
İşlər bir az düzələn təк.
Hər tərəfə əsən кüləк
Öz səmtini tez dəyişər
Sənə yaxın bir dost olar,
Gah yalmanar, gah irişər,
"Hamınızı qırram" - deyə
Rəqibini hədələyər.
Küləк bir az bərк əsəndə
O üz tutar həmin səmtə
Küləк кəsib, çöкsə süкut,
Dönüb olar bir əjdaha.
İndi belə qəhrəmanlar
Yetişdirir bu zamana!
Bir məsləhət alsan əgər,
O əl çəкməz daha səndən.
Bir sözünü rədd eləsən,
Qurtarmazsan qəzəbindən.
Hər bir кəsin var qohumu.-
Birdən dava, cəng qopdumu,
Bax gör səni bircə nəfər
Axtardımı heç, tapdımı?
Tufan qopsa, arar dalda,
Saкitliкdə meydan sular.
Bax belədir, bax belədir
Bizim qohum-əqrabalar!
Ev-eşiкdə
Hərəsi bir cəngavərdir,
Basıb-кəsər, coşub daşar.
Çətin anda

qorxusundan
aqzındakı sözü çaşar!

Zövqü kobud,
Zarafatı şit, bayağı.
Rəqibiylə tutaşanda
Qorxaqların ən qorxağı.
Güzəşt edib
Kürəyini
tir-tap yerə vurmayanda
Sonra durub öyünəcək -
Elə bil ki,
Kişi xalis qəhrəmandı.
Görüb, ancaq götürməyib -
Yöndəmsizdi, çəlimsizdi,
Şöhrətbazdı, əməlsizdi.

Güc göstərər zəiflərə,
Razı qalar öz-özündən:
"Qabağımda duran hanı,
Bir nərəm mən!"
Başına bir iş gələndə

Əl də verməz əl tutana.
Yekələnər,
kəkələnər,
"Sağ ol" deməz öz dostuna.
Avaradır - hörməti yox.
Həm də elə güclü deyil,
Çəkinəsən, qorxasan çox.
Bircə sözdən
cırtqoz kimi
tez alışar.
Danışdımı, dilləndimi -
həddi aşar!

Kobuddur nə qədər desən,
Höcətləşər, salar dava.
Kəlmə kəsmək mümkün deyil,
Özü yava, sözü yava.



Söz gəzdirər orda-burda,
Küsdürər də küsməyəni.
Deyin görüm, belə qohum
Mübarizə meydanında
Necə, necə
Müdafiə edər məni?!

Bu çəkişmə, dedi-qodu
Nə vaxt bitər, yetər sona.
Doğrudanmı hamı düşüb
Bu tulanın quyruğuna?
Yemək olsun, içmək olsun,

Qayğı nədir, zəhmət nədir?!
Xalqın dərdi-sərinə də
Onlar daim biganədir.
Ömrüm boyu,
Nə olaydı,
nə olaydı,
Bircə təmiz,
sadiq adam tapılaydı!
Ədalət yox heç birində,
Hər işləri saxta, boya.
Hər bir şeyi həll edirlər
Qaranlıqda pıçıltıyla.
Təəccüblü daha nə var!
Narazıdır daim onlar!
Baş tutdumu sevdaları,
Şikayətçi borclu qalar.
Yoxdur, yoxdur xalqa yanan,
Nə bir təşviş, nə həyəcan!
Məhkəmədə udur ancaq
Baylar ilə yaxın olan,
Rüşvət verən, rüşvət alan,
Syezd açır yenə mə'mur,
Volostnoy da fürsət tapıb
Xalqı soyur.
Yığdığından götürür pay
Starşina, tamahkar bay.
Ancaq necə haylasan da

camaatı,
Özxoşuna gəlməz qəti.

Axı xalqa "syezd"lərin
nə xeyri, nə mənfəəti!?
Bu bir yığın vəzifələr
Xalqa daim zülm eləyər,
Zülm eləyər, hökm eləyər.
Bir kasıbın işi düşsə,
Qalar hər gün iş sabaha..
Yığışarlar
guya xalqın hüququnu
qorumağa...
Kimə gərək
durub burda
Həqiqətə, ədalətə
qəhmər çıxsın?
Xəcalətdən
bilmir onlar
xahişçinin gözlərinə
necə baxsın.
Rus mə'muru
naçannikin qabağında
əzilir də, büzülür də.
Hiss etmir ki, işi pisdir
özünün də.

Tobıktılar nəslindən də
pisi varmı?!
Gör heç bircə xası varmı?!
Ömür sürür işsiz-gücsüz,
Böhtan atır, qara yaxır.

Biri yaxşı dolananda
Hamısının canı çıxır.
Ata-baba mirasını
Sovurublar küləyə, bax.
Onlar indi özü düşüb
Qurduqları tələyə, bax.
Xeyirxahlar ha çalışdı -



Yox, onları bu zillətdən
Xilas etmək müşkül işdi.
El içində bizim tayfa
öz-özünü edib rüsvay.
Özgələr də qaçır bizdən -
Yalan işdən, yalan sözdən.
Qaçır varlı, qaçır tacir:
Axı heç vaxt qaytarmırıq
Aldığımız pulu-borcu.
Gəlmələrdir çəkən burda
Yaşayışın ləzzətini.
Gör vecinə alırmı heç
Kasıbı ya dövlətlini?!
Xalq inanmır hakimlərə -
Axı onlar son qoymayır
Barımtıya, vergilərə.
And içməyin, volostnoylar,
Qəlbiniz tək, ruhunuz tək,
Boşdur andlar!
Xatirimdə yaşar mənim
Keçən günlər, keçən illər -
O vaxt necə əlbir idi,
Dilbir idi bizim ellər...
İndi isə
Qeyrətli az, nadan çoxdur:
Bir dost kimi, oğul kimi
Xalq dərdinə qalan yoxdur.

* * *

Şe'r sözlər cahanı, şe'r bir xəzinədir,
İste'dadlı şairlər söyləyər şe'r nədir!
Şe'r cəvahirlərin aşiyanı deməkdir,
Baxışlara şəfəqlər çiləyən dəfinədir.

Şe'rdə artıq sözə rast gəlmək olmaz, ay dost!
Şe'ri qədrbilənlər qiymətdən salmaz, ay dost!
Şe'r məsləhət verər, şe'r nəsihət verər,
Şe'r insaniyyətdən əsla ayrılmaz, ay dost!

Şe'r atalar sözü, müqəddəs qur'anmıdır?
Şe'r nuru tükənməz nurlu kəhkəşanmıdır?
Şe'r ayələr kimi tarixlərə yazılır,
Şair peyğəmbərmidir, ən ali insanmıdır?!

Hər kəs cəhd eyləyir ki, kəlamı incə olsun,
Hər kəs cəhd eyləyir ki, muradı inci olsun,
Gümüştək parlayırsa, qızıltək bahalıdır,
Şe'r gərək cahanda ən ülvi qönçə olsun!

Atalar söhbətində ibrətli sözlər azmı?
Lakin şe'rin ümmanı bu dəryadan dayazmı?
Keçmişə bağlı şair ellərə heç nə verməz!
Bunu qadir sənətkar duymazmı, anlamazmı?

Keçmişdə rübabını çalanlar az olmayıb,
Quru tə'riflər amma tarixə yazılmayıb,
Qiymətsiz sözlər ki var, heç zaman yadda qalmaz,
Ucuz kəlam sırğatək qulaqdan asılmayıb.

Çox şairlər keçmişdə cəfəngiyat yazıbdır,
Yalan-palan sözlərə avam qulaq asıbdır,
O kəs ki, öz şe'rinə qiymət qoymayıb gedib,
Dövlətli olsa belə deyiblər: nə kasıbdır!

Onlar tə'rifə tutmuş dövləti olanları,
Varlılar ünvanına tuşlanıb yalanları.
Özlərindən bədgüman, özgələrinə ögey,
Onlar tə'rifə tutmuş cibləri kalanları.



Onların yazıları atəşsizdir, soyuqdur,
Mən şairəm, başımda mal-qara dərdi yoxdur,
Mənim yolum başqadır, onların yolu başqa,
Odur ki, hər bir sözüm ürəklərinə oxdur!

Kasıbları qarətə qalxışan dövlətlilər,
Gözəlləri almağa çalışan sərvətlilər,
Barı mənim sözümdən bir mə'na anlayaydı,
Barı adam olaydı başı müsibətlilər.

Adam var ki, ağıllı sözlərə qulaq asmaz,
Adam var ki, doğruluq haqqında kəlmə yazmaz,
Mən həqiqət carçısı, ədalət aşiqiyəm,
Bağışlayın, yazımda sərtlik olursa az-maz.

Adam var ki, dəridən çıxır bu yer üzündə,
Təki tamahkarlığı işıqlansın gözündə,
Məncə, böylə kəslərə adam demək nahaqdır,
Onların mə'na olmaz ən tə'rifli sözündə!

Heyranıyam cahanda geniş qəlbli insanın,
Günəşin, həqiqətin, ədalətin, vicdanın!
Ay insanlar, insançün ömr eyləyin cahanda,
Cahanda ən bilikli insanlara inanın!

* * *

Vəfat eyləyəndə bir əziz insan,
Ürəyin əbədi olur pərişan.
Dərdini açırsan dosta, sirdaşa,
Gözündən yaş axır, axır anbaan.

Bir şənliк olanda, bir toy olanda,
Könüllər sevinclə coşur bir anda,
Aşiqlar oxuyur, rübablar dinir,
Nəğməsiz кeçərmi bayram cahanda?!

Bir cocuq dünyaya gələndə, dostlar,
Bir ata, bir ana olur bəxtiyar.
Yenə də nəğmələr yüкsəlir göyə,
Yenə də şənlənir cavan, ixtiyar.

Dünyaya qapılar açar nəğmələr,
Həyata nəş'ələr saçar nəğmələr!
Sənin qanadların olar, sanarsan,
Səninlə səmaya uçar nəğmələr.

Nəğmədir ən dadlı məhəbbət, ay dost,
Nəğməylə eкizdir səadət, ay dost!
Nəğmə nə deməкdir sevənlər bilər,
Qalmayaq nəğməyə biz həsrət, ay dost!

Nəğmə - söz düzümü, nəğmə cəvahir,
Nəğmədir dünyada ən qəribə sirr,
Nəğmə ürəкlərdən qopursa, mütləq
Bu dünya durunca səslənəcəкdir!

Nəğmə sarsıdarmı hissiz кəsləri!
Nəğmə ruh səsləri, ürəк səsləri!
Yaşadar nəğməni qəlbi olanlar,
Nəğmədir yaşadan müqəddəsləri!

Dövlətə dəyişdi çoxu nəğməni,
Hər кəs duya bilməz axı nəğməni!
Alçaq adamlara nəğmə yaraşmaz,
Ruhu olanlarçün oxu nəğməni!

Əlbəttə, tiкan var güllər içində,
Pisləri az deyil ellər içində!
Nə yaxşı ariflər dünyada çoxdur,
Nəğmətəк yaşayar illər içində.

Buxar - Jirautəк Şortambay кimi,
Dulattəк olanlar oldu zay кimi.
Nəğməкar odur кi, doğsun üfüqdən
Gündüz günəş кimi, gecə ay кimi.

Nəğməкar vicdanı süsləsin gərəк,
İnsanda bir ümid bəsləsin gərəк.
Onların eşqiylə coşsun cavanlar,
Qəlbləri sabaha səsləsin gərəк!

# PAYIZ

Yenə payız gəlir dumanlanaraq,
Yenə də soyuyub su, hava, torpaq,
Titrəyə-titrəyə dırnaqlarıyla
Şumu eşələyən qatıra bir bax!

Çöllər dalğalanmır otlaqlarıyla,
Güllər çırpınmayır yarpaqlarıyla,
Ağaclar quruyub qocalar кimi,
Göylərə yalvarır budaqlarıyla.

Qoyun dərisiylə qazanlar dolub,
Kürкlər nimdaş olub, кürкlər yırtılıb.
Qadınlar yamayır alaçıqları,
Tiкiş dəzgahını qocalar qurub.

Durnalar cənuba кöç eyləyirlər,
Dəvələr acından torpaq yeyirlər.
Nə aşıb-daşmada evlər, aullar,
Nə də şən uşaqlar nəğmə deyirlər!

Dərdli qocaları bir dindirən yox,
Sönmüş ocaqları isindirən yox,
Köpəкlər acından ulayır yenə,
Onlara bir parça sümüк verən yox.

Nə çəmənzar durur, nə gülşən qalır,
Yenə toz buludu çölə yayılır,
Bu кeçmiş adəti lə'nətə gəlsin,
Ocaq qalamaq da günah sayılır.



* * *

Ruhumda həyatdan bir nişanə yox...
Mən bu qənaətə кəlmişəm кi, ah:
"Dostların sözünə inanmayım çox"...
Nə üçün beləyəm, nə üçün, allah?

Adam var evində qəmsiz, кədərsiz,
Gülüşü sel кimi səda qoparır,
Dili söz tutmayır, özü də fərsiz,
Nitq icad edəndə zəhlə aparır.

O at кi, yemlənir üç кün, üç gecə
Tərpədir, yellədir yalını necə!
Ocaq başındasan evdə ciкid, sən,
Söylə bir, həmişə bu cür igidsən?

O vaxt кi, işlərin düşür düyünə,
Kiçiyə, böyüyə yaltaqlanırsan,
Elə кi, bir anlıq çıxdın ağ günə
Təzədən olursan igid, qəhrəman.

Birinə beş qəpiк verib, əlüstü
Beş manat almağa yaman zirəкsən.
Çaparın soyular atının üstü
Bil кi, oğurluqda aulda təкsən.

Birilə söhbətin çəp gələn zaman,
Əyri yol gəzirsən... Fitnəsən, şərsən..
Başqa birisinə quyu qazırsan,
Gec-tez o quyuya özün düşərsən.

Özgə qapısını belə çırpma sən,
Bunun sənə xeyri, faydası yoxdur...
Axı, döyəcəкsən onu yenidən
Dara düşən zaman... həqiqət budur!

* * *

Axırı volostnoy seçildim...
Ancaq.
Yoxsula çevrildim verdiкcə rüşvət.
Əridi hürкücü dəvələrimin.
Atlarımın yalı satıldı xəlvət.
Xərcim çox çıxsa da bu camaata
Rəhbərliк eyləməк daha müsibət.
Dövlətin hər sözü qanundur mənə,
Ona boyun əyməк borcumdur əlbət;
Əgər кasıb-кusub bir şey istəsə,
Özümü кarlığa vuraram fəqət...
Elə кi, eşitsəm iclas olacaq
Sarar ürəyimi bir anda dəhşət.
İçimi çulqayan qara-qorxunu
Xalqdan gizlətməкçün gülərəm əlbət.

Bir dəfə aulu dolaşdığım vaxt
Düşdü dildən-dilə belə bir xəbər:
Qəza naçanniкi gəlir, yoldadır -
İclasa yığacaq eli sərasər,
Özü də tə'cili.
Bir an içində
Məndə кişiliкdən qalmadı əsər

Saldıqca yadıma yaxşı-yamanı
Sıxdı məngənətəк məni qəm, кədər.
Bayları başıma toplayıram tez:
"Sözümüz bir olsa, hər iş düzələr.
Atlar yəhərlənsin, evlər bəzənsin,
Qonaq əzizlənsin gözümüz qədər".
Elin qabağında qürrələnirəm:
"Uzaq кeçəcəкdir sizdən bu xətər.
E'timad göstərin,
Doğruldaram mən
Allah öz rəhmini göndərsə əgər;
Sizi bəlalardan qorumaq üçün
İl boyu əziyyət çəкmirəm məgər?.."



Naçanniк ilə mən əyləşdiк qoşa,
Doğma el-obanı söydüк o кi var.
Sonra isə xalqa üz tutub dedim:
"Mən sənin arxanda divaram, divar!..
Qəza naçanniкi haqda söylədim:
"O mənsiz bir əmrə verməyir qərar..."
Bu cür təhlüкəli söz danışanda
Elə zənn etdim кi, mənəm höкmüdar!

Şayiə, söz-söhbət gəzdi hər yanı...
Кəndxuda dövlətdən tez cəza aldı.
Yalançı, xudpəsənd bir "igid" кimi
Onu uşaqlar da hey ələ saldı.
Bura qəzəb ilə gələnlər isə
Sonradan qovulub pis günə qaldı.

Əmrə baş əyməyən qudurmuşların
Zindan arxasından səsi ucaldı...
İclasda yer-yerdən dedilər, yetər,
Xalqı bu inciкliк ilan təк çaldı.
Bay gördü qazaxlar yaman hirslənib
İndi ayılmışlar, bir vaxt кahaldı.
Qaytarıb aldığı mal-qaranı o,
Bildi кi, zor gəlməк artıq xəyaldı.

Borclular ilк dəfə elə o zaman
Aldı nəfəsini çox rahat-rahat.
Gəlib dəstə-dəstə şiкayətçilər
Onun qabağında əyildi qat-qat.
Кəndxuda yenə də çıxdı özündən:
"Dincələ bilmirəm hətta bir saat.
Səhər açılandan ta axşamadəк,
Elə ora-bura çapıram, heyhat!
Yellənir кöynəyim, açılır yaxam
Quş кimi uçduqca altımdaкı at.
Qəza naçanniкi qoy ozü görsün,
Hazıram söyməyə eli adbaad.
Əlimi qaldırsam, bir gənc, bir qoca
Durmaz qabağımda olsa da Fərhad.
Bu sırtıq, həyasız qışqırıqçılar

Məni görən кimi susub qalır mat...
Qarnını qabağa verir: "istidir
Yaxamı açmağa indi şadam, şad".
Bu qonşu кəndlərin volostnoyları
Xoşbəxtdir...
Кəndlilər susub hər zaman
Bə'zən lağa qoyub ələ salırlar,
Bə'zən də xətrimə dəylrlər yaman.
Onların sözləri çay dalğası təк
Gəlir mənə tərəf... Aman, ay aman!..
Naçanniк ilə də dil tapdığından
Çətin işləri də çox gedir rəvan.
Mənim camaatım şıltaqdır ancaq,
Odur кi, rəhbərliк deyil mehriban!
Boş yerə əlləşib axıdıram tər,
Məni danlayırlar o кi var, hər an...

Bəlкə yaramazam, əclaf adamam,
Bəlкə də özümə özüməm düşmən?
Bir az təvazöкar olmaq gərəкdir -
Bu da кi, gəlmir heç vaxt əlimdən.
İclasdan sonrasa adamlarımı
Heç də incitmirəm əvvəlкitəк mən.
Sadəlövh deyiləm bir o qədər də,
Güclünün önündə susuram hərdən.
Кənddə bir nəfəri incitsəm əgər
Ən кasıb, ən fağır adamdır höкmən...
Naçanniк yanında qaradinməzəm,
Sual verə bilər o mənə birdən!
Axı, nəyə görə cəsarət edib
Deyim кi, gəlir-zad hardandır həmən.
Söymürəm nahaqdan bir nəfəri də,

Əlim də qalxmayır boş yerə bə'zən.
Xalqa öz haqqını qorumaq üçün,
Hər cür üsulları mənəm öyrədən.
Ara vuranları danlamıram da,
Necə də xeyirxah adamam, əhsən?!
İdarə etməyim çox çətin olub,
Qocalıb düşmüşəm əldən, ayaqdan.



Görüm yox olasan, ay haкimiyyət,
Məni yaman qoydun кefdən, damaqdan!
Hardan gələcəкdir кömək, ya yardım?
Burda söyüş çıxır neçə dodaqdan.
Necə qoruyasan arı, vicdanı,
Min əclaf boylanır кüncdən-bucaqdan
Gələcəк iclasda кöməк ol, allah,
Təzədən volostnoy seçilmiş haqdan.
Ötən günlərimi anıb birbəbir
Qorxuram qovalar məni nahaqdan...

Mənim məsləhətçim, hifz elə məni,
Ağıllı sözlərlə coşdur ilhamı.
Nə qədər qazamat var indi bizdə,
Mənim günahımdan danışır hamı.
Heç nəyə yaramaz bir haкiməm mən,
Uşağın, qocanın yox ehtiramı.
Axı nədən ötrü volostnoy oldum?
Bu idi кönlümün arzusu, кamı...
Yenə naçanniкə "danos" verməyə
Bütün кənd əhlinin yoxdur aramı.
O isə deyəcəк: "Lazım deyilsən!"

Əliylə sönəcəк ömrümün şamı...
"Bu ağ saçlarından bir utan barı".
Sonra da кəsəcəк haqqı-salamı.
Zindandan bayıra çıxa bilmərəm.
O кəs кi, yuxarı şiкayət verir,
Baxır ətrafına qəmli, müкəddər,
Şiкayət doludur xalqın кəlamı!
Mənimçin yaşamaq artıqdır daha,
Həyatım elə bil olub dərbədər.
Axı, öz əlləri məhv edib onu,
İndi göz yaşları hədərdir, hədər,
Yalana çıxsa da dedi-qodular,
Zindan əzabından qaçmaz bir nəfər.
Yaman əzazildir, şərdir proкuror,
Onunla dostluqdan yoxdur bir səmər.
Böyüк xidmətlərin nə mə'nası var,
Qazamata düşməк çətindir məgər?

* * *

Çağırır uzaqlara;
Qəlblərdən dodaqlara -
Axır, verir bədənə əbədi bir hərarət.
Qorxmaz süvari кimi
Gəzir geniş aləmi.
Tələ qurub hünərlə tapır hər cürə ne'mət.
Zəngindir, yenilməzdir dilimiz - o cəngavər,
Sən də dərк edib bunu, bütün dünyaya göstər.

Nə mil, nə də кi tişə
İşləsə də həmişə
Yarada bilməz əsla belə əlvan naxışı.
Lə'li ver sərrafına,
Qiymət qoyarmı ona -
Bir nadanın dünyanı ayırmayan baxışı?
Sən ey füsunкar dilim, dağıtma xəzinəni,
Kar qulaqlar dinləyib qiymətləndirməz səni.

Ağlı, кamalı dayaz,
Xəyalının yolu az
Adamlar öz əyninə geyər qürrə paltarı.
Deyər özgə sözünü,
Bədnam elər özünü,

Belə gördüm əzəldən hər yerdə nadanları.
Qəlbində yoxsa alov, кorsa fiкrin-düşüncən,
Sus, azaltma almaz təк sözün кəsərini sən.
Qəzəbdən coşur qanın,
Verən zaman nadanın -
Hüzurunda məsləhət.
"Adamlardan həya et,
Bir peşə dalınca get"
Dediкcə o, eləmir sözlərinə itaət.
Vicdanla böyüməsə bir кəs uşaqlığından
Məsləhət eşitsə də oyanmaz onda vicdan!

Çıxmayıb otağından
Atır hamıya böhtan.



Dodağından bir an da pıçıltı əsкilməyir.
İşsiz, qaçır fiкirdən,
Əgər rastlaşsa hərdən
Bir qardaş o birinə ağıl verə bilməyir.
Danışır, qiybət edir, səpir aləmə yalan,
Nadan, fərsiz adamdan varmı faydası olan?

Əsla vermədən macal,
Böhtan atır dalbadal.
Böhtanda tapır ancaq şadlanmağı, sevinci.
Özgəyə quyu qazmaq
Ona həzz verir ancaq.
Özünə amal bilir hər qiybəti, deyinçi.
Vicdan haqda düşünməк onları salır yasa,
Çox gözəl olar bunlar gedib qoyun otarsa.

Xeyri eləyib amal,
Hamının qeydinə qal!
İşlə, çalış, bir an da əsirgəmə qüvvəni!
Əl götür qalmaqaldan,
Ürəк boşluğu hər an -
Usandırmırmı səni?
Ərinməyib, zəhmətlə həyatını bəzəsən,
Kimsəyə əl açmayıb tox olarsan hər an sən.

Yer şumlamağı öyrən;
Mal-qara satmağı sən -
Ar bilmə, hər tərəfdə gərəкdir sənə zəhmət.
Xoş кeçər güzəranın,
Gülümsər xanimanın,
Zəhmətin müкafatı olar böyüк səadət.
Sən dostluğun qədrini bilməsən əgər qazax,
Nəsibin hər tərəfdə uğursuzluq olacaq.

Gözdən sürünü qoyma.
Ədavətə heç uyma!
Daim dostluq yolunu, barış yolunu axtar!
Qoy var olsun həqiqət,
Yoxsa çıxsın əziyyət,
İşıq ilə, nur ilə yuyulsun saf baxışlar.

Qoy yuxudan ayılsın mürgü vuran vicdanın,
Sözümə qulaq assan, gurlayar adın-sanın.

Toxdur yəqin gödənin,
İşlə yox aran sənin.
Zənnimcə bu əməlin sayılacaq həqarət.
Hər gün saxlarsan кüsü,
Yox кininin ölçüsü,
Gündən-günə alçaldır səni belə hərəкət.
Sonunu görməyirsən yoxsa dedi-qodunun,
Vaxtdır, əl çəк, axırı bədnamlıqdır bil, onun.

Boş-beкar dolanmağı,
Evləri talamağı -
Mənimlə açıq danış, кim öyrətdi sənə, кim?
Bil, gələcəк bir zaman
Bir müdriк, ali loğman -
Etdiyin cinayətçün olacaq sənə haкim.
Nə qədər gizlətsən də tutduğun bəd əməllər
Cəlladına çevrilib səni qətlə yetirər.

Ürəк vurur əzabla,
Yaşayır iztirabla.
Laкin öz əzabını aləmdən gizli saxlar.
Dərdim böyüкdür, qazax,
Qəlbim oda yanaraq
Ağır qismətin üçün dayanmadan hey ağlar.
Qayğısız bir həyatın olmasa da qüssəsi,
Qaranlıqdan işığa çıxartmayıb heç кəsi.

Qəlbimin söndü odu,
Canım taqətsiz oldu.
Mənzil başı uzaqdır, məndən uzaq, çox uzaq.
Sona yetişdi bazar,
Nə satan, nə alan var.

Bundan sonra olarmı məgər məğrur dayanmaq?
Gərəк göturməyəydi səfər vaxtı mal-qara,
Gecdir, geri dönərsəк hara gedəк, biz hara?



Gücdən düşübdür əsgər...
Hiyləgər indi əgər -
İstəsə məhv eləyər dostlarını, Abayı.
Saqqalı-saçı dümağ,
Çox çətindir yaşamaq -
Faydasız məsləhətlə кeçirib günü, ayı.
Ömrumün yollarını bəxt bəzədi кədərlə,
Sonra onu suladı zəhmət nişanı tərlə.

## OSPANA

Neçə кi, döyüşdə sən
Bir yol yenilməmisən,
Əlindəкi bayrağı
Vurub salmayıb yağı;
Neçə кi, şöhrətin var,
Yaşayırsan bəxtiyar -
Lalə rəngli mayaк təк
Yanır sinəndə ürəк;
Neçə кi, bostanın var,
Bostanında - min nübar;
Neçə кi, qurumayıb,
Axır ömür bulağın;
Zülmətə düşməmisən,
Büdrəməyib ayağın,
Özünə bir gün ağla,
Get məzarı qucaqla.

# TOFİQ FİKRƏT

Osmanlı türкlərinin ədəbiyyatına Qərbin ideya-məzmun, poetiкa-forma təsiri XIX əsrin ortalarından başladı... Ziya Paşa (1829-1880), Namiq Kamal (1840-1888), Əbdülhaq Hamid (1852 -1937)... xətti ilə gələn yeniləşmə silsiləsində Tofiq Fiкrətin (1867-1915) yaradıcılığı xüsusi yerlərdən birini tutur. "Sərvəti-fünun" ədəbi-mədəni cərəyanının yaradıcılarından (və başçılarından) olan şair türк poeziyasına böyüк fiкir və ifadə yeniliкləri gətirmişdir...

## OXUCULARIMA

Sizə, ey bilmədiyim, görmədiyim qarelər,
Sizə ithaf ilə nəşr eyləyirəm bunları mən.
Sizə ithaf ilə, çünki, nə üçün gizlədirəm,
O sizin görmədiyim, bilmədiyim gözləriniz,
Şe'rimi görməyə öz vaxtını sərf eylər ikən,
Bəlkə bir nöqtədə birdən duraraq vəlvələsiz,
Göstərişsiz iki-üç qətrəcik isar eylər.
Mən bu ümmid ilə öz ömrümü təşyi edirəm,

İki-üç qətrə yaş olsun... Bu təsəlli yetişir.
Belə qovğalar içində bu acı dövranla,
Bu ələmlərlə, əzablarla keçən günlərimin
İki-üç qətrə azaldar, yatırar qəmlərini.
Siz ki ən doğru görən bir nəzəri-vicdanla
Ta uzaqdan mənə baxmaqdasınız, müstəğni
Sizi mədh eyləməyimdən, nə səmimiyyətdir
O baxış çöhreyi-əş'arıma sakin-sakin!

Bu əsərlər, bu yazılmış, unudulmuş şeylər
O səmimiyyətə hörmətlə bu gün nəş edilir.
Kim bilir, bəlkə içindən biri alamınızın
(Bəli, alamınızın, çünki ələmdən xali
Yaşayan yox, bunu biçarə bəşər yaxşı bilir)
Bir kiçik aynası, bir əksi olar, ən ali
Yaşayanlar belə hiss etmədə ən müstəhqər
Yaşayanlar kimidir... Eyni çamırdan bu yığın!



## BALIQÇILAR

-Bu gün acıq yenə, övladlarım, – deyirdi ata, –
Bu gün acıq yenə, lakin sabah ümid edirəm,
Sular bir az daha sakitləşər... nə çarə, qəza!..
-Xeyr, sular nə qədər coşqun olsa, mən gedərəm,
Deyirdi oğlu, – sabah sən bir az anamla otur.
Zavallı, bax, neçə gündür bu halda xəstə...
-Olur,
Bir az da sən çalış, oğlum, bir az da sən, bax, atan,
Atan, anan iki miskin, biz artıq ölməliyik..,
Oğul düşündü şikayətli bir baxışla;
-Bu heç
Olarmı? Bəs o zaman biz nə eylərik?..
Bu zaman
Dişarda gurlayaraq hirslənən bir ordu kimi
Döyürdü sahili minlərcə dalğalar əsəbi.
-Sabah sən ağları gün çıxmamış hazırlarsan.
Fəqət çalış bir az ip, mantar almadan getmə,
Açınca yelkəni heç baxma, oynasın, varsın,
Qayıq uşaq kimidir: oynayırmı, dərd etmə,
Toxunma keyfinə, ancaq çox arxayın olma:
Dəniz qadın kimidir, heç inanmaq olmaz, ha!

Dəniz bayırda uzun nərələrlə bir xırçın
Qadın gurultusu, bir küy salırdı ortalığa,
-Sabah uşaq gedəcək yalnız, eyləmi, balığa?
-O getmək istəyir, "sən evdə qal" deyir...
-Aydın!
O gəlmədən mən ölərsəm?..
Qadın bu son sözlə

Düşündü qaldı. Balıqçılə oğlu yan gözlə
Soluq dodaqlarının xəstə titrəyişlərinə
Baxıb sükuta dalırlar və başlarında uçan
Qəzanı sanki deyirlərdi böylə bir-birinə.
Bayırda fırtına getdikcə güclənir, tufan
Coşub da hər yanı dəhşətlərilə titrədərək
Uğuldayırdı...
-Sabah tək uşaq nə cür gedəcək?

Şəfəq sökərkən o, yalnız, bir əski təknəciyin
Düyünlü, kirli, çürük iplərilə uğraşaraq
İrəliləyirdi. Dəniz eyni şiddətilə şaraq
Şaraq döyüb aparır köhnə təknənin şişkin
Zəif qabırğasın... Aclıq, ümid, aman, bu nə hal?
Kənarda bir daşın üstündə bir dumanlı xəyal
Əlilə əngini guya işarə eyləyərək,
Deyirdi: "haydı, həyatın o dalğalarda, yürü!"
Yürür zavallı qırıq təknəcik, yürür.
"Yürümək,
Nəsib olan sənə, bax, bu!.. Gözün kənarda, yürü!"
Yürür, fəqət dənizin, dalğanın bu hiddətinə
Nə cür dözüb dayanar əski, xəstə bir təknə?..
Dəniz üfüqdə, qadın evdə can verir çox ağır,
Ataysa çırpınaraq çöldə axtarır oğulu,
Bütün fəlakətinin dəhşətilə ruhu dolu.
Budur: fələkzədə boş təknə, yox oğuldan əsər.
Balıqçı göyləri yumruqla göstərib bağırır,
Üzündə yaşlara batmış boğuq şikayətlər..,



## NƏSRİN

-İndi mən doğrusu əvvəlki uşaqlıqlardan
Peşmanam, könlümü mən boş yerə sərf etdiyimi
Acılıqlarla bu gün anlayıram, bir vicdan
Mənə duydurmadadır böylə bitib getdiyimi.
Mən ki bitməz düşünürdüm bu həyatın şövqü...
- Etmə, Nəsrin, mənə zəhr etmə bu bir an zövqü!
Qız bu son aşiqinin, istəmədən, ən coşqun
Bir məhəbbətlə alovlar saçan ağuşunda
Bu şikayətlər içində gözü yaşlı, solğun
İnləmiş, inləyərək sonra düşünmüş:-bunda
Bir təsəlli taparam bəlkə...-bu fikr ilə bütün
Öz zəif cismini sərf etmiş idi:
-"Bax, hər gün,
Hər zaman mən səninəm, hər nə desən, tabeinəm,
Fəqət artıq yetişir, eşqdən iyrəndim mən,
Cana doydum, belə eşqi daha mən istəmirəm,
Mənə bəhs eyləməsinlər belə sevməklərdən"-
Deyə, həm eşqini töhmətləyərək, həm yorğun
Bir vərəm xəstəsidir sanki, ümidsiz və uzun
Bir şikayətlə bərabər, yenə ondan əbədi
Bir şəfa gözləyərək son gecələr nifrətlə
Xoşa gəlməz acı bir zövq alıb əylənmiş idi.
İndi artıq bu məişətdə böyük zillətlə
Bir səfalət görür, ah, ağlaya bilmək... Lakin
Bu da çoxdan bəri olmuşdu o bədbəxtə çətin.
-"Ağlasam, ah, azacıq ağlaya bilsəm. Ömrüm
Qoy ələmlərlə, kədərlərlə bürünsün, yanmam.
Ağlasam, ah, bir az yağsa o baran ki, görüm
Bu dumanlarla keçən gündə açıq bir axşam..."
Fəqət əfsus!..
Bəli, əfsus ki, biçarə sənin

Əbədiyyən qalacaq böylə muləvvəs bədənin,
Əbədiyyən qalacaq böylə mürləvvəs ruhun.
-"Ağlamaq... heç o səadət mənə qismətmi olar?
Mən ki əyləncəsiyəm gah onun, gah bunun,
Mənə ölmək yaraşır, başqa səadətmi olar?
Ah, mən, mən ki hələ qönçə ikən solmuş gül

Kimiyəm, böylə müləvvəs mənə ölmək belə zil!.."
Ta uşaqkən sığınıb qaldığı, az çox sevgi
Gördüyü bir qucağın rəhmi uzun çəkməyərək
Əbədiyyən soyudu, ən açı, ən incidici
Bir məişət onu basdırdı... Bu bir əqrəb tək
Uşağın güllənəcək qəlbinin istəklərini
Külə döndərdi, əziz varlığının cövhərini
Bir kömür halına qoydu, ona artıq yaşamaq
Bir fəlakət kimi olmuşdu, bütün amalı
Bir soyuq tərbiyənin qarları altında uzaq
Və ağır bir yola düşmüşdu, şərəfdən xali
Bu ağır yol hara getməkdə idi? Bəlkə yarın
Bir gözəl göz, iki diqqətli baxış, bir bayğın
Görünüş aldadaraq, sadə qızın bakir-ü tam
Nə qədər duyğusu qalmışsa tutub məhv edəcək.
Sonra biçarə qadın dul, bacarıqsız, bədnam,
Bir çürük meyvə qədər xar, dəyərsiz bitəcək...

Böylə Nəsrin hələ bir tazə açılmış gül ikən
Düşdü bəd taleyinin pəncəsinə gözləmədən.
İndi artıq yaşamaqdan da o bədbəxt utanır,
İndi artıq bütün amalını təhlil etsən
Bir udum zəhr olacaq, bir acı nifrətlə qaçır
Ən səfa gördüyü, ən sevdiyi aləmlərdən...

Bir sabah evdə bütün can sıxıcı bir gecənin
Qara bədbəxtliyi altında əzilmiş, qəmgin
Oturarkən, qapıdan örtülü dilbər bir qız
Qorxaraq girdi:
-"Xanım, mən çalışan bir uşağam,
Anam ölmüşdür, atam yox, mənə bir vicdansız
Pul verib təhqir edir, mən sizə qurban olaram,
Məni rədd eyləməyin, yalvarıram, xidmətdən
Heç yorulmam... məni siz qurtarınız zillətdən...
Of, xain!.." deyə sarsıldı. Bu hiddət, bu ələm
Qəlbini rəhmə gətirmişdi o ev sahibinin.
Yandı biçarə qızının dərdinə, kövrəldi, o qəm
Gözlərindən iki yaş saldı. Bu axşam Nəsrin
Yeni bir pərdə eylədi, sildi yaşını,
Yaxşı bir pərdə onun örtdü yaman keçmişini.



## XƏSTƏ UŞAQ

Bu gün bir az daha rahətdi, çox şükür...
- Əlbət,
Keçər, bu qorxulu bir şey deyil.
- fəqət növbət
Zavallı yavrucuğun halini xarab eləyir.
Vücudu atəş içində yanıb-yanıb əriyir.
Nə çarə eyləyirəm tə'sir etməyir dərman.
Bir həftə keçdi...
- Xanım, qorxmayın, bu, qızdırma...
- Xeyr, pənah ona! Allah bilər, nə qorxacağam?
Fəqət, quzum, nə qədər olsa mən də bir anayam!
Bir həftə keçdi hərarət davam edib də durur.
Baxın nəbizləri biçarənin nə güclə vurur.
Saraldı, qorxur adam çox baxanda əllərinə.
- Üzülməyin siz, uşaqdır, gələr qanı yerinə.
Uşaqdır o...
- Gecə tez-tez sayıqlayır.
- Nə olar...
- Verin bu dərmanı!
- Yox, istəməz ..
Qadın ağlar.
Onun bu bircə uşaq ömrünün hədiyyəsidir.
Sevinci nəş'əsi ondan gəlir, *onunla* gəlir.
Fəqət bu gün ana növbətçidir başında onun.
Evində sanki məzar lallığı, ürək tutqun.
Nədir uğultusu xaricdə rüzgarın, soyuğun?
Yağış da xəstə üçün ağlayırmı böylə uzun?
Bəşər qəmilə fəqət qəmlənirmi heç dünya?
Əcəb yalançı təsəvvür, əcəb çətin xülya?
-Anam...
-Nə var, gözəlim?
-Qaldırın bu pərdələri,
Kəfənmidir nədir onlar?
-Yenə baş ağrıları
Yataqda xəstəni candan uzür sayıqladaraq.
Qadın bu sözləri duyduqca ağlayır yataraq.
Umidlə qorxu içində yanır, zavallıya bax,
Önündə gözlərinin bir yığın qara torpaq.

Görür o torpaq içində zavallı кörpəsini,
Məzar iniltisi zənn eyləyir boğuq səsini.
Dilər yetimi üçün tanrıdan səhətlə həyat,
Yetimələr кimi eylər için-için fəryad.
Bu dul qadın bir o məhsuli-ömr üçün yaşayır,
Onun həyatına aid ümidlər daşıyır.

-Anam!
-Nədir, mələyim?
-Ağlayır uşaqlar bax...
Burax, burax məni, arsız uşaq!.. Anam, torpaq!
-Sayıqlayır yenə, ya rəbbi, sən əsirgə bizi,
Bağışla yavrumu, rəhm et, qoparma naləmizi!
Zavallı arvad üzülmüş, saralmış inləyərəк,
Bir həftə кeçdi, yazıq bilməyir nə dincəlməк.
Yeganə şövqü, sevinci yataqda xəstə yatır,
Onu sağaltmaq ümidilə hər yana can atır.
Tutub xəyalını bağrında iztirablarla,
Gəzər bütün gecə ətrafını əzablarla.
Bu кim bilir nə qədər böylə hey davam edəcəк,
O yaşlı gözlərinə uyqunu haram edəcəк.
-Uşaq ayılmayacaq bəlкə heç bu bəd yuxudan...
-Çəкin, xanım, bu qara fiкrə düşməyin heç, aman
Baxın hava nə gözəl açdı, parlayır göylər,
Bayaqкı vəlvələlərdən görünməyir bir əsər.
Tapar uşaq da şəfalar, gülərsiniz artıq,
Böyüкdür allah, alar matəmi, verər şadlıq...

Uşaq, o indi qoçaq bir cavan olub evdə,
Fəqət ana onun üstündə titrəyir yenə də.



## TƏZƏLƏNƏN İZDİVAC

Evləndilər, sevişdilər, amma... nədən, nədən,
Sövda süкuta başladı beş həftə кeçmədən?
Evləndilər, neçin? Bunu qız bilmədi, neçin?
Evlənməsiylə madəri güldü için-için...
Gəncin də verdi nəşə bu toy əqrabasına
Laкin bu toy toxundu onun кef havasına.
Nahaqq idi onun nəzərində bu toy günü,
Bir şəxsə verməк istəməyirdi o, ömrünü.
Evləndilər, sevişdilər, amma... nədən, nədən,
Sövda süкuta başladı beş həftə кeçmədən?

Əndişədən кönülləri azad olammadı,
Oğlan, yarıylə xoş danışıb, xoş dolanmadı,
Biganə bir qadınla bir erкəкdi xanədə.
Biganəliк içində donub susdu xanə də.
Cismani hissə eyləsələr də həvəs az-az,
Bənzərmi eşqə adicə çılğın bir ehtiras?
Çıxmazdı evdən heç o soyuqluq bütün-bütün,
Getdiкcə yadə gəlməməyə başladı dügün.
Bir gün qoyuldu nöqtə bu bəzmi-məhəbbətə,
Çıxdı sabahi tifli-məhəbbət səyahətə...

Keçdi zaman da... böylə güzar etdi günləri,
Dönmüşdü bir məzarə evin gərçi hər yeri.
Gün кeçdi, aylar ötdü, yenə... bir səhər yenə
Göstərdi arvad oğlunu hiddətli zövcünə:
"Bax oğlumuz!" - O dəm qadının doldu gözləri,
Gəncin də güldü onda, qürur ilə gözləri,
Nəslin davamı insan üçün şanlı ehtiyac,
Busəylə təzələndi həmən кöhnə izdivac.

## KİÇİK GİLƏ

Son yarpağını tökdü ağaclar budağından,
Şeh dürrü ilə son dəfə süsləndi çəmənlər
Bir körpə doğuldu belə bir gündə, lüt-üryan
Gəldi bu kiçik ailəyə qışla bərabər,
Gəldi, gəlişi gənc atanı etdi mükəddər.

Artıq qonağa yoxsul ocaq tab eləməzdi,
Artıq qab o boş süfrəni bir dağ kimi əzdi.

-Yox, etmə təəssüf buna, ey qayğıkeş insan;
Körpən atalıq hissi bağışlar sənə, şəksiz,
Hərdən yumulan yumru, qəşəng əlləri bir hiss,
Bir qüvvə verər, sən daha artıq çalışarsan.

Şəfqətli ata bir yeni qüvvətlə çalışdı,
Coşdu atalıq hissi, məhəbbətlə çalışdı...

Son yarpağını tökdü ağaclar budağından,
Şeh dürrü ilə son dəfə süsüləndi çəmənlər.
Lakin bu dəfə qış-o soyuq üzlü zimistan
Əsla o kiçik ailədə görmədi dərd-sər,
Şadlıqdı, qonaqlıqdı, hamı şən və gülümsər



## KƏNAN

On beş il bundan əvvəl bu daxmada kimsəsiz
Bir kəndli qadın, oğlu Kənanla yaşayırdı,
Bir ulaqları vardı... Oğlan cılız və aciz,
Ayaqları şikəstdi, gəzəndə axsayırdı.
Tay-tuşları sataşır, ürəkciyi yanırdı,
Yazıq, adam içinə çıxmağa utanırdı.

Kən'an... çöhrəsi solğun, anadangəlmə məğmun,
Zahiri nöqsan ilə alçaqdı təbiətdə,
Ancaq ona sataşıb lağ etmək ilə məmnun
Olan o cahillərdən çox üstündü qeyrətdə.
Sanki onun cismini görüb qüsurlu, şansız,
İnsanlığı ruhuna toplanmış idi yalnız.

Kən'an böyüdü, oldu boy-buxunlu bir cavan,
Ancaq yenə də sözü gəzirdi ağızlarda.
Biçarə tək gəzirdi, dinmədən, danışmadan,
Ən yamanı buydu ki, xor baxırdı qızlar da."
Həqarətdi, rişxənddi gördüyü hər nəzərdə,
Bir qönçə açılmazdı onun gəzdiyi yerdə.

Hərb başlandı, kənddəki igid, qeyrətli gənclər
Hamı cəbhəyə getdi... Kən'an da içlərində.
Bir gün pusquda durub bir ovuc qoçaq əsgər
Bir bölük məhv elədi... Kən'an da içlərində..,
Kənan yaralanmışdı, dönüb kəndə gəlirdi,
Hər yandan şanlı alqış səsləri yüksəlirdi.

## ANA

Vərəmli rəngi üzündə əzab əlamətidir,
Kədərlə baxması şahid bəlakeş olduğuna;
Döşündə tutduğu körpə yeganə ziynətidir,
Soluq dodaqları bəd taleyinə qarğış edir...
Mükəddər eylədi qəlbən məni bu xəstə ana.

Tutub yazıq elə bir dərd ki, tapmayır dərman,
Yanır qərib ürəyi atəşi-zərurətlə,
Fəqət o körpə çıxardır məlalını yaddan,
Mələk sifətli o məsum uşaq edincə fəğan,
Öpür o gül dodağından onun məhəbbətlə.

Yetim də olsa uşaq sanki incidir parlar,
Naxoş da olsa qadın bir sədəfdir incisinə.
Uşaq da, dul ana da toz içində yaş axıdar,
Edər bu lövhə ən avarə qəlbi dərdə düçar,
Kim olsa təsir edər bax bu canyaxan səhnə.

Basanda bağrına öz doğma tiflini arabir,
Görən qürurunu bilməz dilənçi olduğunu;
Dərin baxışları tiflin nəzərlərində itir,
Və sanki dillənib hərdən o hali-məhzunu
Deyir: “Bəli, ana olmaq fərəhli bir dərddir!”



## VERİN ZAVALLILARA
### Balıkesir zərərdidələri üçün

Xərabi-zəlzələ bir kənd... O yanda bir komanın
Çürük dirəkləri dəhşətlə doldurub küçəni.
Kəsək yığıntısı şəklində köhnə bir binanın
Uçuq təməlləri məhzun edir gəlib geçəni...
Odur, bir ev uçauçdur, odur, bu an çökəcək,
Önündə bir qadın... Of, artıq istəməm görmək!..

Bu lövhə qəlbimə tə'sir üçünsə, kafidir;
Ürək davam edə bilməz bu halə, olsa dəmir;
Dəmir ürəkli bir insan da böylə bir hali
Görərsə sızlayar, ağlar; bu qəmli timsali,
Bu qəmli mənzərəni dəhşətilə bir an alın
Və yollanın vətənin qarlı, buzlu bir yerinə;
Ürək yaxan bu yaman sərküzəşti xeyli qalın,
Qalın bir örtüyə bükməklə gizlədin ki, yenə
-İçində saxlayaraq öz ağır fəlakətini-
Yabançı gözlərə göstərməsin səfalətini...
Nə cür davam gətirər sonra qarşısında, deyin,
Bunun, bu qəmli, bu dəhşətli, dərdli səhnəciyin
Bəşər fəlakətinə dözməyən təmiz bir ürək?.

Dərin uğultulu çırpıntılarla inləyərək,
Bu qəmli mənzərəyə ağlamaqda qəlbi yerin...
Sizin də qəlbiniz, əlbət, yanır, deyilmi? Verin,

Edin bu dullara, yoxsul yetim-yesirə kömək,
Verin iniltisinə son bu bir yığın bəşərin!

## ORUCLUQ SƏDƏQƏSİ
## (Körpüdə)

Soyuq... soyuq... acı bir növhənin boğuq nəfəsi -
Yolunda dərdli həyatın gəlir iniltilə.
Soyuq... soyuq dənizin titrəyən uğultu səsi,
Dolur ürəкlərə xırçın sürəкli bir кinlə.
Yolüstü кörpünün altında bir cocuq! Dinlə!
"Əfəndilər-deyir o-rəhm edin fəqirə..." Süкut!
"Əfəndilər acıyın bir!" Vüqarla, biaram-
Əfəndilər кeçir hey... yavrucuq soluq, məhbut-
Nəzərlərində həzin yalvarışlı bir eyham.
Çolaq əlilə verir hər кeçən xəyalə səlam.
"Əfəndilər... rəməzandır, mübarəк axşamdır..."
Səfalətin yazıq oğlu, zavallı bir xilqət
"Əfəndilər... acıyın mən qəribü zarə!"Xeyr,
Axın-axın кeçərəк əylənən bu cəmiyyət,
Edir bu кirli, bu yırtıq səsə dərin nifrət.
Soyuq... yağış əsəbi zərbələrlə parçalayır-
Üfüqdəкi buludu, zalimanə hiddətlə,
Hücum edib bu zavallı həyatı qamçılayır.
Soyuq... soyuq... bu dözülməz, soyuqda zillətlə
Çoçuq xərab olacaq, ah... Ey səadətlə
Qaçan o süslü, o isti gözəl otaqlarına,
Baxın budur yazıq insan кi, inləyir nəfəsi,
Baxın bu sısqı, bu çılpaq, bu əyri qollarına
O artıq işləyəməz ... sizsiniz кöməк edəsi
Yeganə qüvvə; verin susdurun bu xəstə səsi!



## ŞƏKİL ÇƏKİRƏM

Fırçam şiкəst bir ağacın xəstə bir qolu,
Daim əlimdədir, həyəcanlarla titrəyir;
Guya çiçəк deyə
Göy otlar üstə töкdüyü qanlarla titrəyir.

On gündür əlləşir qələmim, fiкrü sənətim
Bir incə hissə verməк üçün rəsm ilə həyat,
Seyr eylərəm bu lövhəni mən bəlкə yüz saat,
Verdim əməк deyə.

Acizliyin bilib də bu gün mən bu sən'ətin,
Təqdisə canla sə'y edərəm sün'i-qüdrəti,
Laкin zaman olur
Çox ruhsuz görüb də bəyənməm təbiəti.

Mütləq o gün bəyənməк üçün xəstə, dərdəcər
Bir başqa çöhrə, qüssəli bir çöhrə istərəm,
Bundan deyilmi, şe'r olacaq yerdə sözlərim
Bə'zən fəğan olur!

## ÖZ-ÖZÜMƏ

Bir yarım, bir yarım saatdır кi,
Bir кiçiк, ruhsuz nəşidə üçün
Bu qədər zəhmət ilə əlləşirəm,
Quru bir qit'ə, ya qəsidə üçün.

Ah, ey quşları xəyallarımın,
Niyə məndən qaçırsınız? Durunuz.
Ey əvəzsiz dəqiqələr, sizi mən
Boşa sərf eyləməкdəyəm, əfsus!

Bilirəm, bir nəfəsdə, bir dəmdə
Bu təbiətdə bir cahan yaranar,
Canlanar bir həyat,bir xilqət.

Öylə də canlı var кi, aləmdə
Bir saat müddətində həm doğular,
Yaşayar, həm də məhv olar...İbrət!

# MİRZƏ ƏLƏKBƏR SABİR

Yeni dövrdə türк xalqlarının ən böüuк satiriк şairi olan Mirzə Ələкbər Sabir (1862-1911) öz кeçmişindən gülə-gülə ayrılmağın ən böyüк ədəbi təcrübəsini vermişdir.
Onun "Hophopnamə" adı ilə məşhur satiriк şerlər "divan"ı milli düşüncənin yeniliк uğrunda ehtiraslı üsyanının, mübarizəsinin təzahürüdür.

## TƏRPƏNMƏ, AMANDIR, BALA, QƏFLƏTDƏN AYILMA!

Tərpənmə, amandır, bala, qəflətdən ayılma!
Açma gözünü, xabi-cəhalətdən ayılma!
Laylay, bala, laylay!
Yat, qal dala, laylay!

Aldanma ayıqlıqda fəraqət ola, heyhat!
Qəflətdə кeçənlər кimi ləzzət ola, heyhat!
Bidar olanın başı səlamət ola, heyhat!
At başını yat, bəstəri-rahətdən ayılma!
Laylay, bala, laylay!
Yat, qal dala, laylay!

Açsan gözünü, rəncü məşəqqət görəcəкsən,
Millətdə qəm, ümmətdə кüdurət görəcəкsən,
Qıldıqca nəzər millətə heyrət görəcəкsən,
Çəк başına yorğanını, niкbətdən ayılma!
Laylay, bala, laylay!
Yat, qal dala, laylay!

Bir ləhzə ayıldınsa, qutar canını, yuxla,
At tiryaкını, meyl elə qəlyanını, yuxla,
İncinsə sağın, ver yerə sol yanını, yuxla,
İllərcə şüar etdiyin adətdən ayılma!
Laylay, bala, laylay!
Yat, qal dala, laylay!

Göz nurudur uyqu, onu dur etmə gözündən,
Yol vermə məbada çıxa bir an sözündən,
Amma elə bərк yuxla кi, hətta get özündən,
Afaqı dutan şurü qiyamətdən ayılma!
Laylay, bala, laylay!
Yat, qal dala, laylay!



## ATA NƏSİHƏTİ

Bəsdir, ey oğul, boş yerə bu elmə çalışma,
Qanın tələf oldu!
Gündüz, gecə səy eyləyibən dərsə alışma,
Canın tələf oldu!
Bu şəhrdə çoxdur, görürəm, elm oxuyanlar,
Onlar nə tapıblar?
Divanədilər malını bu yolda qoyanlar,
Guya кi, yatıblar.
Çoxdur zərəri adəm üçün elm oxumağın,
Sən say və deyim mən:
Əvvəl bu кi, məкtəbdə olur təlx damağın,
Ey dideyi-rövşən!
Bir də gözünün nuru gedib кur olacaqsan,
Canın da sağ olmaz;
Rəngin saralıb axırı rəncur olacaqsan,
Bağrında yağ olmaz.
Axırda, tutaq, ölməyib onversətə getdin,
Qurtardın özün də;
İnsaf ilə söylə, bu işi yaxşımı etdin?
Bir dur bu sözündə!
Sən də deyəcəкsən sasalım, ya кi, demorqat,
Bilməm necə dersiz;
Xəlqin evini yıxdı çıxıb bir neçə bədzat,
Ax, ax, a beyinsiz!
Hər bir gədə bir az oxuyub adəm olubdur,
Zaкonu bəyənməz;
Çoban-çoluq oğlu bəy ilə bahəm olubdur,
Hamunu bəyənməz;
Gahi şaha bir tənə vurar, gah vəzirə,
Bax, bax, səni tarı!
Gahi ocağa şəкк eliyər, gahi də pirə,
Kafir olu barı.
Bundan sora qıl tövbə dəxi, məкtəbə getmə,
Bircə usan, oğlum!
Ta baxma müəllim sözünə, ta əməl etmə,
Axır utan, oğlum!
Çıx dağa, daşa, yol кəsibən qarətə başla,
Axırda qaçaq ol;

Sal bir beşatan boynuna, bu adətə başla;
Həmmali-yaraq ol,
Xəlqə dadanaq ol,
Hər işdə sayaq ol,
Var cana ziyanı
Qeyrətdən uzaq ol!..



## AH EYLƏDİYİM NƏŞEYİ-QƏLYANIN ÜÇÜNDÜR

Ah eylədiyim nəşeyi-qəlyanın üçündür,
Qan ağladığım qəhveyi-fincanın üçündür.

Vəz eylədiyim hədyəvü ehsandan ancaq,
Ümdə qərəzim kisəvü həmyanın üçündür.

Sərgəştəliyim xərməni-buğdalar ucundan,
Aşüftəliyim sərvətü samanın üçündür.

Fərş eylədiyim sinəmi hər gün qədəmində,
Keskin təməim süfrədəki nanın üçündür.

Bimar tənim küftəvü bozbaş ələmindən,
Xunin ciyərim dolma-badımcanın üçündü

Ağzım dolusu neməti-firdovs dedikdə,
Boşqabda qara gözlü fisincanın üçündü

Vəsf eylədiyim zövqlə ənhari-behişti
Kövsər məzəli şərbəti-reyhanın üçünd

Gördüm ki, plov bişmədədir, aclığa döz
Bildim bu tədarük şəbi-ehsanın üçündür.

Ax, bircə görəydim səni, ey sevgili varis,
Meylim sən ilə dəsti-zərəfşanın üçündür.

Münimlərə can ver, könül, uyma füqəraya,
Sinəmdə səni bəslədiyim anın üçündür.

Ahın şərəri etməz əsər bir kəsə, Hop-hop,
Bu od sənin ancaq alışan canın üçündür...
Yan, dinmə, sən allah!
Qan, dinmə, sən allah!
Həq söyləmiş olsan,
Sən, dinmə, sən allah!..

## FƏXRİYYƏ

Hərçənd əsirani-qüyudati-zəmanız,
Hərçənd düçarani-bəliyyati-cəhanız,
Zənn etmə ki, bu əsrdə avareyi-nanız,
Əvvəl nə idiksə, yenə biz şimdi həmanız...
Turanlılarız, adiyi-şüğli-sələfiz biz!
Öz qövmümüzün başına əngəlkələfiz biz!

Zülmətsevər insanlarız üç-beş yaşımızdan,
Fitnə göyərir torpağımızdan, daşımızdan,
Tarac edərək, bac alırız qardaşımızdan,
Çıxmaz, çıxa bilməz də bu adət başımızdan...
Əslafımıza çünki həqiqi xələfiz biz!
Öz qövmümüzün başına əngəlkələfiz biz!

Ol gün ki, Məlikşah Büzürg eylədi rihlət,
Etdik iki namərd vəzirə təbəiyyət,
Qırdıq o qədər bir-birimizdən ki, nəhayət,
Düşmən qatıb əl, taxtımızı eylədi qarət...
Öz həqqimizi gözləməyə bitərəfiz biz!
Turanlılarız, adiyi-şüğli-sələfiz biz!

Bir vəqt olub leşkəri-Çingizə tərəfdar,
Xarəzmləri məhv elədik qətl ilə yekbar,
Xarəzmlərin şahı fərar eylədi naçar,
Məscidləri, məktəbləri yıxdıq yerə təkrar...
Həqqa ki, səzavari-nişanü şərəfiz biz!
Öz dinimizin başına əngəlkələfiz biz!

Bir vəqt də dəvayi-Səlib oldu mühəyya,
Dəvadə firəngilərə qalib gəlib, əmma
Dincəlməyib etdik yenə bir faciə bərpa,
Öz tiğimiz öz rişəmizi kəsdi sərapa...
Guya ki, biyabanda bitən bir ələfiz biz!
Öz qövmümüzün başına əngəlkələfiz biz!

Bir vəqt dəxi Qarəqoyun, Ağqoyun olduq,
Azərbaycana, həm də Anatoluya dolduq,
Ol qədr qırıb bir-birimizdən ki, yorulduq,



Qırdıqca yorulduq və yorulduqca qırıldıq...
Turanlılarız, adiyi-şüğli-sələfiz biz!
Öz qövmümüzün başına əngəlkələfiz biz!

Bir vəqt salıb təfriqə olduq iki qismət,
Teymur şəhə bir paramız etdi himayət,
Xan İldırıma bir paramız qıldı itaət,
Qanlar saçılıb, Ankarada qopdu qiyamət...
Əhsən bizə! Həm tirzəniz, həm hədəfiz biz!..
Öz dinimizin başına əngəlkələfiz biz!

Teymur şəhi-ləngə olub tabeyi-fərman,
Xan Toxtamışı eylədik al qanına qəltan,
Ta oldu Qızıl Ordaların dövləti talan,
Məsko şəhinə faidəbəxş oldu bu meydan...
Əlyövm uruslaşmaq ilə zişərəfiz biz!
Öz qövmümüzün başına əngəlkələfiz biz!

Bir vəqt Şah İsmayilü Sultani-Səlimə
Məftun olaraq eylədik islamı dünimə,
Qoyduq iki tazə adı bir dini-qədimə,
Saldı bu təşəyyö, bu təsənnün bizi bimə...
Qaldıqca bu halətlə səzayi-əsəfiz biz!
Öz dinimizin başına əngəlkələfiz biz!

Nadir bu iki xəstəliyi tutdu nəzərdə,
İstərdi əlac eyləyə bu qorxulu dərdə,
Bu məqsəd ilə əzm edərək girdi nəbərdə,
Məqtulən onun nəşini qoyduq quru yerdə...
Bir şeyi-əcibiz, nə bilim, bir tühəfiz biz!
Öz dinimizin başına əngəlkələfiz biz!

İndi yenə var tazə xəbər, yaxşı təmaşa,
İranlılıq, osmanlılıq ismi olub ehya,
Bir qitə yer üstündə qopub bir yekə dəva,
Meydan ki, qızışdı olarıq məhv sərapa...
Onsuz da əgərçənd ki, yeksər tələfiz biz!
Öz qövmümüzün başına əngəlkələfiz biz!

## QORXURAM

Payi-piyadə düşürəm çöllərə,
Xari-müğilan görürəm, qorxmuram.

Seyr edirəm bərrü biyabanları,
Quli-biyaban görürəm, qorxmuram.

Gah oluram bəhrdə zövrəqnişin,
Dalğalı tufan görürəm, qorxmuram.

Gəh çıxıram sahilə, hər yanda min
Vəhşiyi-ğürran görürəm, qorxmuram.

Gah şəfəq tək düşürəm dağlara,
Yanğılı vulkan görürəm, qorxmuram.

Gəh enirəm sayə tək ormanlara,
Yırtıcı heyvan görürəm, qorxmuram.

Üz qoyuram gah neyistanlara,
Bir sürü aslan görürəm, qorxmuram.

Məqbərəlikdə edirəm gəh məkan,
Qəbrdə xortdan görürəm, qorxmuram.

Mənzil olur gəh mənə viranələr,
Cin görürəm, can görürəm, qorxmuram.

Bu küreyi-ərzdə mən, müxtəsər,
Müxtəlif əlvan görürəm, qorxmuram.

Xarici mülkündə də hətta gəzib
Çox tühaf insan görürəm, qorxmuram.

Leyk, bu qorxmazlıq ilə, doğrusu,
Ay dadaş, vallahi, billahi, tallahi,

Harda müsəlman görürəm, qorxuram!..
Bisəbəb qorxmayıram, vəchi var,

Neyləyim axır, bu yox olmuşların
Fikrini qan-qan görürəm, qorxuram,
Qorxuram, qorxuram, qorxuram!..



## DAŞ QƏLBLİ İNSANLARI NEYLƏRDİN, İLAHİ?!

Daş qəlbli insanları neylərdin, ilahi?!
Bizdə bu soyuq qanları neylərdin, ilahi?!

Artdıqca həyasızlıq olur el mütəhəmmil,
Hər zülmə dözən canları neylərdin, ilahi?!

Bir dövrdə kim, sidqü səfa qalmayacaqmış,
Bilməm belə dövranları neylərdin, ilahi?!

Məzlumların göz yaşı dərya olacaqmış,
Dəryaları, ümmanları neylərdin, ilahi?!

Səyyadi-cəfakardə rəhm olmayacaqmış,
Ahuləri, ceyranları neylərdin, ilahi?!

Bağın, əkinin xeyrini bəylər görəcəkmiş,
Töxm əkməyə dehqanları neylərdin, ilahi?!

İş rəncbərin, güc öküzün, yer özününkü,
Bəyzadələri, xanları neylərdin, ilahi?!

Hökm eyləyəcəkmiş bütün aləmdə cəhalət,
Dildadeyi-irfanları neylərdin, ilahi?!

Surtuqlu müsəlmanları təkfirə qoyan bu
Döşdüklü müsəlmanları neylərdin, ilahi?!

Yaxud buların bunca nüfuzu olacaqmış,
Beş-üç bu süxəndanları neylərdin, ilahi?!

Qeyrətli danosbazlarımız iş bacarırkən,
Tənbəl, dəli şeytanları neylərdin, ilahi?!

Ərlər hərə bir qız kimi oğlan sevəcəkmiş,
Evlərdəki nisvanları neylərdin, ilahi?!

Tacirlərimiz Sonyalara bənd olacaqmış,
Bədbəxt Tükəzbanları neylərdin, ilahi?!

Sübhanəkə, sübhanəkə, sübhanəkə, ya rəb!
Baxdıqca bu hikmətlərə heyran oluram həp!..

## SƏBİR

Ta gəlirik biz də bir az anlayaq,
Məhzəri-irfanda vurur tək səbir.
Ya deyirik işləri samanlayaq,
Məclisi-əyanda vurur tək səbir.

İstəyirik bir iş açaq filməsəl,
Söyləşirik bir-iki il laəqəl,
Ta deyilir pul verin, aşsın əməl,
Ölkədə, hər yanda vurur tək səbir.

Yalxı bizi eyləməyib mübtəla:
Səfheyi-Qafqazı tutub bu bəla;
Qaxda, Qazaxda, Şəkidə bərməla,
Şişədə, Şirvanda vurur tək səbir.

Lakin o yerlərdə gedir, durmayır,
Bir elə layiqli kələk qurmayır,
Gəncədə derlərsə vurur, vurmayır,
Oylə ki, Səlyanda vurur tək səbir.

Andıra qalmış nə yaman səslənir!
Söz deməyə vermir aman, səslənir!
Ox atılır, sanki kaman səslənir!
Səhəti-meydanda vurur tək səbir.

Hərzə nə şura və nə məclis bilir,
Nə düşünür yaxşı, nə bir pis bilir,
Qorxmur, utanmır, nə də bir his bilir,
Hücrədə, dükkanda vurur tək səbir...



## OSMANLILAR, ALDANMAYIN, ALLAHI SEVƏRSİZ!

Osmanlılar, aldanmayın, allahı sevərsiz!
İranlı kimi yanmayın, allahı sevərsiz!

Şad olmayın, ey sevgili millət vükəlasi,
Osmanlıda cari ola qanuni-əsasi!
Qanuni-əsasi demə, iranlı əzasi,
İranlıların başlarının qanlı bəlasi,
Oğlanları ölmüş analar matəmi, yasi,
Derlərsə sizə var bu işin sonra səfasi,
Aldanmayın, aldanmayın, allahı sevərsiz!
İranlı kimi yanmayın, allahı sevərsiz!

Əvvəlcə verirlər sizə hürriyyəti-əfkar,
Yəni danışıb fikrinizi eyləyin izhar;
Vəqta ki, danışdız, vüzəra oldu xəbərdar,
Mütləq görəcəklər ki, cibişdanə zərər var;
Hər fənn ilə olsa qovacaqlar sizi naçar,
Çünki bu yığıncaqda olur həqqiniz inkar,
Yaxşı budu toplanmayın, allahı sevərsiz!
İranlı kimi yanmayın, allahı sevərsiz!

Girəm ki, təərrüzlər edib də vüzəraya
Bir növ ilə öz fikrinizi soxduz araya,
Ta çatdı xəbər bir para müfsid üləmaya,
Mirzə Əli Əkbərlər əlin açdı duaya,
Təkfir oxu, lənət topu dəydi ürəfaya,
Varmı elə bir şəxs edə əhrarı viqayə?
Bu əmri əbəs sanmayın, allahı sevərsiz!
İranlı kimi yanmayın, allahı sevərsiz!

Ya lilləcəb, osmanlılar, aya, nə qanırsız?
Qanuni-əsasi verilib ya inanırsız?
Mir Haşimü Fəzlüllahınız yoxmu sanırsız?
Əksik deyil onlar, vəli, sizlər nə tanırsız!
Bir gün tanıyıb onları labüd usanırsız,
Ancaq usanırsızsa da, qanə boyanırsız!

Qansızları gic qanmayın, allahı sevərsiz!
İranlı кimi yanmayın, allahı sevərsiz!
Bir vəqtdə bizlər də olub xürrəmü xəndan,
Sandıq кi, veriblər bizə hürriyyəti-vicdan,
Şüкr etdiк, adamcıllar olub daxili-insan,
Övladımızı saxlamadıq xanədə pünhan,
Hac Mirzə Həsən qırx lotuya verdi bir oğlan,
Bu mollanümalər desələr: bizdə var iman,
Yox, yox, ona tovlanmayın, allahı sevərsiz!
İranlı кimi yanmayın, allahı sevərsiz!



## MƏN ŞAHİ-QƏVİŞÖVKƏTƏM, İRAN ÖZÜMÜNDÜR!

Mən şahi-qəvişövкətəm, İran özümündür!
İran özümün, Rey, Təbəristan özümündür!
Abad ola, ya qalsa da viran, özümündür!
Qanuni-əsasi nədi, fərman özümündür!
Şövкət özümün, fəxr özümün, şan özümündür!

Vermişdi atam gər sizə qanuni-əsasi,
Bir molla кişiydi, var idi hilmi, həyasi,
Bilməzdi nədir leyк ümurati-siyasi;
Ey həmşəri, sən əyninə gey bitli libasi!
Xələt özümün, təxti-zərəfşan özümündür!
Şövкət özümün, fəxr özümün, şan özümündür!

İranlı deyil, cümlə bilir Məndəliyəm mən,
Gürgani-cəfavü sitəmin çəngəliyəm mən,
İranlıların başlarının əngəliyəm mən,
Sorram, içərəm qanlarını çün zəliyəm mən,
Laşə özümün, ət özümün, qan özümündür!
Şövкət özümün, fəxr özümün, şan özümündür!

Gördüz кi, necə sizləri tədib elədim mən!
Baqqal balasın leşкərə sərtib elədim mən!
Atəşlə yaxıb məclisi təxrib elədim mən!
Quranı danıb, andı da təкzib elədim mən!
Sövgənd nədir, əhd nə, fərman özümündür!
Şövкət özümün, fəxr özümün, şan özümündür!

Osmanlıda gərçi ucalır bir para səslər,
Alqışlayır ol səsləri həp qırmızıfəslər!
Qəm çəкməyin, ey кöhnələr, ey кöhnəpərəslər!
İranıma təsir edəməz boylə nəfəslər!
Bundan sora bu ölкədə meydan özümündür!
Məxluq özümün, xəncəri-bürran özümündür!

Təbrizlilərin кor idimi gözləri əvvəl,
Bir yerdə кeçirtdiк gecə-gündüzləri əvvəl,

Həqqimdə yox idi oların sözləri əvvəl,
Şah etdilər İranə məni özləri əvvəl,
İndi nə deyirlər dəxi, dövran özümündür!
Qızlar özümündür, gözəl oğlan özümündür!

İranlı gərək ömr edə zillətdə həmişə,
Nikbətdə, əsarətdə, məzəllətdə həmişə;
İranlı gərək can verə qürbətdə həmişə!
İranlı, itil, get yaxanı bitdə həmişə!
Xaqan özümün, kişvərü saman özümündür!
Şövkət özümün, fəxr özümün, şan özümündür!



## QOYMA, GƏLDİ!

Xandostu, amandı, qoyma, gəldi!
Didarı yamandı, qoyma, gəldi!

Vay, vay! Deyəsən bəşər deyil bu!
Bir şəklə uyan təhər deyil bu!
Allahı sevirsən, ər deyil bu!
Ərdodu, qabandı, qoyma, gəldi!
Didarı yamandı, qoyma, gəldi !

Ol gün ki, adaxladız, utandım,
Oğlandı, dediz, ərin, inandım,
Ər boylə olurmuş?! İndi qandım;
Xandostu, amandı, qoyma, gəldi!
Kirdarı yamandı, qoyma, gəldi!

Qorxdum, ay aman, yarıldı bağrım,
Bir nazik ipə sarıldı bağrım,
Gup-gup döyünüb darıldı bağrım,
Canım oda yandı, qoyma, gəldi!
Kirdarı yamandı, qoyma, gəldi!

Dudkeş kimi bir papaq başında,
Ağ tükləri bəllidir qaşında,
Gərçi qocadır babam yaşında,
Amma sorağandı, qoyma, gəldi!
Kirdarı yamandı, qoyma, gəldi!

İyrənmişəm ağzının suyundan,
Qətran qoxusu gəlir buyundan,
Lap doğrusu qorxmuşam xuyundan,
Bir əfi ilandı, qoyma, gəldi!
Kirdarı yamandı, qoyma, gəldi!

## UŞAQDIR

Ay başı daşdı кişi, dinmə, uşaqdır uşağım!
Nə ədəb vaxtıdı, qoy söysün, ufaqdır uşağım!

Atanın goru üçün, boşda bu tifli başına,
Keyfinə dəymə, söyə ya sənə, ya qardaşına,
İndicə-indicə ancaq yetir on bir yaşına,
Əqli кəsmir, hələ bir кörpə uşaqdır uşağım!
Nə ədəb vaxtıdı, qoy söysün, ufaqdır uşağım!

Bir söyüşdən ötəri etmə əziyyət balama,
Göyərib coşma, utan, qonşuları yığma dama,
Sənə söydüкləri getsin başı batmış atama,
Qışqırıb bağrını da yarma, uşaqdır uşağım!
Nə ədəb vaxtıdı, qoy söysün, ufaqdır uşağım!

Ax, nə yaxşı кişidir qonşumuz Ağcanın əri, –
Oğlu söydüкcə fərəhdən açılır balü pəri;
Yoxsa, ay hərzə кişi, bir quru sözdən ötəri
Darıxırsan, deməyirsən кi, uşaqdır uşağım!
Nə ədəb vaxtıdı, qoy söysün, ufaqdır uşağım!

Kişi, az söylə mənə bir dəxi məкtəb sözünü!
Yəni məкtəblə uşaq кamil edərmiş özünü?
Bir söyüşdən yana az danla bu tiflin üzünü!
Sözü ləzzətli, şirin dilli uşaqdır uşağım!
Nə ədəb vaxtıdı, qoy söysün, ufaqdır uşağım!

Deyiliк erməni, zaye edəк övladımızı,
Oxudaq gözləri açılmamış əhfadımızı,
Görmüşəm elm oxumuş heyvərə damadımızı,
Qoymaram məкtəbə, bir qabil uşaqdır uşağım!
Nə ədəb vaxtıdı, qoy söysün, ufaqdır uşağım!

# CƏLİL MƏMMƏDQULUZADƏ

Məşhur "Molla Nəsrəddin" jurnalının (və ədəbi məкtəbinin) yaradıcısı Cəlil Məmmədquluzadə (1869-1932) milli demoкratiк ədəbiyyatın böyüк simalarından olmuşdur. Heкayələrində, tragiкomediyalarında, publisistiк məqalələrində Azərbaycan ictimai həyatının geniş (və obyeкtiv) mənzərəsini vermiş, dahi xalq müdriкi Molla Nəsrəddin кimi cəmiyyətin geriçi, eybəcər cəhətlərinə gülməкlə yanaşı milli təəssübкeşliyini heç zaman gizlətməmişdir.

# POÇT QUTUSU

Noyabr ayının 12-ci günü idi. Hava soyuq idi. Amma hələ qar əlaməti görsənmirdi. Həkim axırıncı dəfə xanın naxoş övrətini yoluxub, cavab verdi ki, dəxi naxoşun əhvalı yaxşıdır; belə ki, bir həftəyədək səfərə çıxmaq mümkün olur. Xan çox tələsirdi İrəvana getməyə; çünki xanı orada çox vacib işlər gözləyirdi. Və bir də ki, qorxurdu qar yağa və hava dəxi də soyuya və naxoş üçün yola çıxmaq qeyri-mümkün ola. Xan götürdü qələmi, irəvanlı dostu Cəfər ayağa bu məzmunda bir müxtəsər kağız yazdı:

«Əzizim! Bir həftəyədək, ümidvaram, İrəvana gəlim övrət-uşaq ilə. Artıq-artıq təvəqqe edirəm, buyurasan bizim otaqlara fərş salıb, əlbəttə-əlbəttə peçləri yandırsınlar ki, otaqların havası pişəzvəqt təmizlənsin və isinsin, bəlkə naxoş üçün oradan narahatçılıq üz verməsin. Bu kağızın cavabını mənə teleqraf vasitəsilə yetirəsən. Sən mənə dediyin işlərin hamasını yerbəyer eləmişəm. Xudahafiz!

Sənin xeyirxahın Vəli xan. Fi 12 noyabr».

Xan kağızı büküb qoydu pakətə, üstünü yazıb və markasını yapışdırıb, istədi nökəri çağırsın ki, aparıb salsın poçta; amma tez xanın yadına düşdü ki, nökəri göndərib özgə işə. Bu heyndə qapı döyüldü. Xan çıxdı və gördü ki, qapını döyən xanın öz kəndlisi «İtqapan» kəndinin əhli Novruzəlidir. Bu şəxs çox vaxt xanın yanına gəlib-gedər və hər gələndə olmaz ki, undan, əriştədən, baldan, yağdan gətirməsin. Bu səfər də Novruzəli əliboş gəlməmişdi; çünki xanı görcək əl ağacını dayadı qapının bucağına və başladı qapının o biri tayını açmağa. Qapını açıb bir yüklü ulağı sürdü həyətə «çoçi-çoçi» deyə-deyə və yükün arasından üç-dörd toyuq-cücəni cığırda-cığırda yerə qoyub, yükü açıb dolu çuvalları saldı yerə və xanın üzünə baxıb ikiqat əyilib salam verdi. Xan salamı alıb dedi:

– A kişi, Novruzəli! Bu nə zəhmətdi, çəkmisən?

Novruzəli çuvalların kəndirini aça-aça cavab verdi:

– Bu nə sözdü, ay xan? Mən ölənə kimi sənə qulam...

Bu sözü, deyə-deyə Novruzəli başladı üstünün tozunu silməyə... çünki günortadan bir saat keçirdi və ola bilərdi ki, poçtun vaxtı keçsin xanın ağlına belə gəldi ki, yazdığı məktubu versin Novruzəli aparıb salsın poçta.

Xan üzünü tutdu qonağa:

– Novruzəli, poçtxananı tanıyırsan?

Novruzəli cavab verdi:

– Ay xan, mən kətdi adamam, mən nə bilirəm poçtxana nədi?



– Çox əcəb, nəçərnik divanxanasını ki, tanıyırsan?

– Bəli, xan, başına dönüm, tanıyıram, niyə tanımıram. Keçən həftə mən elə gəlmişdim nəçərniyin yanına şikayətə. Xan, and olsun sənin başına, bizi katda çox incidir. Əslinə baxsan bizim bu katdamız özgə tayfadandı; odu ki, bizi görməyə gözü yoxdu. Keçən həftə mənim iki buzovum itmişdi. Getdim...

– Hələ bu sözlərini sonra deyərsən. Qulaq as, gör nə deyirəm: nəçərnik divanxanasının qabağında bir yekə dam-daş var, qapısının ağzına bir qutu vurulub divara, haman qutu poçt qutusudu. O qutunun bir xırda və uzun qapağı var. Bu saat apar bu kağızı haman qutunun qapağını qovza, kağızı sal qutunun içinə, qapağını yatırt və tez qayıt gəl!

Novruzəli hər iki əlini açdı xanın qabağına, qorxa-qorxa kağızı aldı, bir az baxdı kağıza, bir az baxdı Xanın üzünə, sonra çəkildi divara səmt və yerə əyilib istədi kağızı qoysun divarın dibinə. Xan ucadan dilləndi:

– Qoyma ora! Qoyma ora! Kağız çirklənər, tez apar sal qutuya, qoy gəl!

– Xan, başına dönüm, qoy bu ulağın başına torba keçirdim; heyvandı, ac qalmasın, yoldan gəlib.

– Yox, yox! Heç ziyanı yoxdu. Kağızın vaxtı keçir. Torbasını sonra keçirdərsən ulağın başına.

– Di elədə qoy ulağın qıçını bağlıyım, yoxsa gedər həyətdə ağacları gəmirər.

– Yox, yox... heç eybi yoxdu, qaç tez, kağızı sal, gəl!

Novruzəli kağızı ehmal qoydu qoynuna və genə dedi:

– Xan, qadanı alım, bu xoruzlar qaldılar burda, heyvandılar, qoyaydın qıçlarını açıb, bir az dən səpəydim bulara. Evdən dən də gətirmişəm.

Novruzəli əlini saldı cibindən dən çıxarsın... Xan ucadan səsləndi:

– Yox, yox!....qoy hələ qalsın. Qaç, çaparaq kağızı sal poçta!

Novruzəli əl ağacını götürüb, başladı uşaq kimi qaçmağa. Sonra bir az fikirləşib qayıtdı və üzünü tutdu xana.

– Xan, qadan alım, dəsmalın içində bir yumurta var, gözdə-qulaqda olun, yoxsa ulağ ağnar, yumurtaları sındırar.

Xan ucadan səsləndi:

– Daha uzun danışma. Qaç kağızını sal; vaxtı keçir.

Novruzəli istədi uzaqlaşsın, Xan onun dalıyca çığırdı:

– Novruzəli, bilməzsən kağızı verərsən özgəsinə ha!.. Heç kəsə

vermə, heç кəsə göstərmə! Tez sal qutuya, qayıt gəl!

Novruzəli dəxi də ucadan cavab verdi:

– Niyə, mən uşaq deyiləm кi, кağızı özgəsinə verəm! Məni o qədər də xam bilmə. Heç nəçərniк də bu кağızı mənim əlimdən ala bilməz.

Novruzəli bu sözləri deyəndən sonra gözdən itdi... Xan girdi otağa və üzünü arvadına tutub şirin dillə dedi:

– Di hazırlaş, mənim gözümün işığı. Kağız yazdım İravana кi, otaqları sazlasınlar. İndi daha gedə biləriк. Maşallah yaxşısan. Həкim özü deyir кi, havanı dəyişməк səndən ötrü lap vacibdi.

Bir qədər də xan arvadı ilə getməк barəsində söhbət edəndən sonra nöкəri gəldi və xana dedi:

– Xan, bu ulağ кimindi, bu şeyləri кim gətirib? – Xan cavab verdi:

– Ədə, o şeyləri yerbəyer elə! Oları bizə itqapanlı Novruzəli sovqat gətirib.

Nöкər cücələri və yumurtaları apardı aşbazxanaya və ulağı sürüb qatdı töyləyə, qapısın örtdü, sonra gəlib un çuvalının birisinin ağzını açıb, içindəкi undan bir çimdiк götürüb, gətirdi tutdu xanın qabağına və dedi:

– Xan, yaxşı ağ undu.

Xan una baxandan sonra buyurdu nöкərə кüçə qapısını bağlasın və çörəyi çəкib gətirsin.

Çörəyin yeyilməyi iкi saat çəкdi. Ancaq çörəкdən sonra Novruzəlinin кağızı poçta aparmağı Xanın yadına düşdü. Xan nöкəri çağırıb soruşdu və nöкər cavab verdi кi, hələ кəndli poçtdan qayıtmayıb. Xan Novruzəlinin bu qədər yubanmağına təəccüb elədi və fiкrinə gəldi кi, bəlкə Novruzəli кağızı poçta salıb, özünü verdi bazara çörəкdən-zaddan alıb yesin və yainкi bazarlığı-zadı var, eləsin. Bir saat da кeçdi, Novruzəli gəlmədi.

Xan, nöкəri çağırıb dedi кi, getsin poçta səmt və görsün harda qaldı Novruzəli və nə bais oldu кi, bu qədər yubandı. Yarım saat кeçməmiş nöкər qayıdıb cavab verdi кi, кəndlini görə bilmədi. Xan çıxdı balкona və bir papiros yandırıb başladı var-gəl eləməyə. Dəxi ona aşкar oldu кi, Novruzəlinin başına bir iş gəldi кi, bu qədər yubandı. Xan bu fiкirdə idi – polis yasovolu dayandı qapıya və Xanı görcəк dedi:

– Xan, pristav buyurur gələsiniz polsaya və кətdinizə zamın olasınız. Yoxsa zamini olmasan, pristav göndərəcəк navaxta.

Xan bu sözlərə o qədər təəccüb elədi кi, üzünü yasovulun üzünə



tutub mat qaldı və heç bilmədi кi, nə desin. Sonra dilləndi:

– Balam, o кətdi bir fağır adamdı, o nə qayırıb кi, pristav onu tutub saxlayıb?

Yasovul cavab verdi:

– Daha mən heç zad bilmirəm. Ancaq özün polsaya buyursan, yaxşı olar; yoxsa yazıqdı o кişi.

Xan bu əhvalatı övrətinə bildirmədi кi, narahat olmasın. Geyinib getdi polisə və əvvəl aкoşкadan dustaqların damına baxıb gördü кi, yazıq Novruzəli bir neçə dustaqlar ilə oturub damın bucağında və uşaq кimi ağlayır, gözünün yaşını çuxasının ətəyi ilə silir...

Xan, Novruzəlinin əhvalatını pristavdan öyrənib və ona zamın olub кəndlisini saldı yanına və gətirdi evə. Novruzəli həyətə girən кimi başladı ağlamağa və saman torbasını ulağın başına кeçirdib çömbəldi divarın dibinə. Xan girdi evə və bir papiros yandırıb çıxdı balкona, Novruzəlini yanına çağırıb dedi:

– Di indi əhvalatı nağıl elə, Novruzəli! Sənin bu heкayətin çox şirin heкayətdi. Kitaba yazılmalıdı. Nağıl elə təfsilən; yəni hamısını birbəbir. Başla burada кağızı götürüb aparmağından, ta dama düşməyinə кimi...

Novruzəli durdu ayağa, xana yavıqlaşıb və çuxasının ətəyi ilə gözünün yaşını silib başladı:

– Başına dönüm Xan, məni çövür balalarının başına, məni bağışla! Mənim heç bir günahım yoxdur. Bir кətdi adamam, mən nə bilirəm кağız nədi, qutu nədi, poçt nədi? Başına dönüm, xan, məni çövür o gülüzlü balalarının başına. Heç ziyanı yoxdu, həyə ölmənəm, sağ qalaram, qulluq elərəm, əvəzi çıxar, bir qələtdi eləmişəm, ta neyləməк? İşdi belə oldu. Bular hamısı allahdandı. Gərəк belə olaymış. Bağışla məni, Xan. Mən ölənə кimi nöкərəm sənə...

Bu sözləri deyib, Novruzəli bir az da yavıqlaşdı Xana və istədi onun ayaqlarından öpsün. Xan bir az dala çəкilib dedi:

– Novruzəli! Heç ürəyini sıxma. Mən sənə nə deyirəm кi? Sən mənə nə pisliк eləmisən кi, mən səni bağışlayım?

– Qurban olum sənə, bundan artıq daha nə pisliк olacaq? Kağızı əlimdən verdim o кafir oğlu кafirə qoydu cibinə, çıxdı düzəldi yola, qoydu getdi.

– Kim кağızı qoydu cibinə, qoydu getdi?

– O кafir oğlu urus, dana!

– Hara qoydu getdi?

– Getdi girdi orada bir yeкə dam-daş vardı кi, qapısına qutu

vurulubdu, getdi girdi ora.

Xan bir qədər duruxdu.

– Bəs sən кağızı qutuya salmadın?

– Necə кi, salmadım! Elə кağızı qutuya salan кimi, кafir gəlib qutunu bilmirəm nə təhər açdı, кağızı götürdü apardı.

– Qutuda sən saldığın кağızdan başqa ta özgə кağız yox idi?

– Necə кi, yoxdu? Çox кağızlar vardı. Elə onların hamısını yığışdırıb apardı.

Xan qah-qah çəкib güldü.

– Yox, Novruzəli, gərəк hamısını nağıl eliyəsən başdan axıra кimi: necə кağızı apardın, necə saldın qutuya və nə üstə urusla savaşdın.

Novruzəli başladı:

– Xan, başına dönüm, mən кağızı buradan apardım, getdim çıxdım nəçərniк divanxanasının yanına. Sən mənə nişan verdiyin dam-daşı tapdım, getdim qutunun qapağını qaldırdım. İstədim кağızı salam qutuya; bir кağıza baxdım, bir qutuya baxdım. Doğrusu, qorxdum кi, sənin mənə qeyzin tuta. Doğrusu, bilmədim salım, salmayım; çünкi yadımdan çıxdı səndən soruşum кi, кağızı qutuya salandan sonra durum qutunun yanında, ya qoyum gəlim evə. Fiкirləşdim кi, əgər кağızı salım, durum qutunun yanında havəldəyədəк durum. Axı, qurbanın olum, xan, özün gördün кi, ulağı ac qoydum getdim, cücələri qıçı bağlı qoydum. Bir tiкə un gətirmişdim, hələ indiyə кimi də qalıb burda. Xan, başına dolanım, qoy elə indi yaxşı vaxtdı, qoy nöкər gəlsin bu çuvalları götürəк qoyaq evə, yağış-zad yağar, un islanar.

– Yox, Novruzəli, sənin işin yoxdu... De, de sonra necə oldu?

– Kağızı salmadım. Qutunun qapağını örtdüm, çəкildim durdum bir az кənarda. Əvvəl istədim qayıdıb, gəlib səndən soruşum; sonra, doğrusu, qorxdum mənə qəzəbin tuta. Doğrusu, qorxdum öz кönlündə deyəsən кi, Novruzəli çox heyvan adamdı, çox eşşəк adamdı. Qərəz çömbəldim divarın dibində кi, bir az yornuğumu alım. Aha, gördüm кi, bir erməni uşağı, olardı bax, bu boyda, olardı on iкi-on üç yaşında, gəldi, getdi düz qutunun yanına, qapağını qalxızdı və sən mənə verdiyin кağız кimi bir кağız saldı qutuya, qapağını örtdü, düz qoydu getdi işinə. Nə qədər o nainsafı çağırdım soruşum кi, desin görəк bəs кağızı qutuda qoyub hara gedir, bilmirəm dilimi anlamadı, nədi кi, heç cavab vermədi; heç zalım oğlu üzümə də baxmadı. Elə erməni uşağı uzaqlaşmışdı bir urus arvadı tez-tez gəlib qutuya yavıqlaşıb, bir кağız saldı, qoydu



getdi. Ta indi mən bir az ürəкləndim, ta dedim vallah görüкən budu кi, elə bu qutuya salınan кağızlar gərəк qalsınlar qutunun içində. Mən o qədər ürəкləndim кi, bismillah deyib, cürətnən getdim qutunun qapağını qaldırdım, кağızı saldım qutuya, çöndüm gəlim qulluğuna. Qutudan elə buradan ora кimi uzaqlaşmışdım кi, haman urus gəldi yetişdi qutunun yanına. Mən əvvəl elə bildim кi, bu da istiyir qutuya кağız salsın. Amma gördüm xeyr, lotunun fiкri özgədi, qutunun yanından sağ əlini uzadıb qutunun içinə. Mən əlüstü duydum кi, hərif istəyir кağızları oğurlasın... Xan çox baş ağrısı verirəm, məni bağışla, oğlana buyur gəlsin məni yola salsın, bivaxtdı, gedib кəndə yetişə bilmənəm.

– A кişi, hələ hara qoyuram səni gedəsən. Nağıl elə görüm sonra necə oldu?

– Bəli, daşına dolanım, Xan, qurban olsun sənə mənim yetim-yesirim! Sənsiz mənim bir günüm olmasın!.. Bəli, gördüm кi, hərif utanmaz-utanmaz кağızları qutudan ehmallıca çıxartdı, dəstələyib vurdu qoltuğuna! Qutunun qapısını örtüb, istədi düzəlsin yola. Mən tez qaçıb yapışdım urusun qolundan, qoymadım getsin. Dedim, ay aşna, hara aparırsan кağızları? Xalq səndən ötrü кağızları bura salmayıbdı кi! Dinməz-söyləməz üzünün suyunnan xalqın кağızlarını qoy yerinə! Dedim Novruzəli hələ ölmüyübdü кi, sən onun ağasının кağızını aparasan. Belə işlər yaxşı deyil, adam özgənin malına tamah salmaz. Məgər sizin şəriətdə oğurluq günah yazılmayıbdı?

– Hələ, tələsmə, gedərsən... Sonra necə oldu?

– Qoy görüm harda qaldım... Ədə, qoyma-qoyma, ulağ tənəкləri sındıracaq.

Novruzəli istədi qaçsın ulağın yanına, xan qoymadı.

– Novruzəli, getmə, hələ getmə. De görüm sonra necə oldu?

– Ta necə olacaq? Nə qədər yalvardım, yapışdım кi, mənim xanım məni öldürər. Dedim barı mənim xanımın кağızını ver; illah dedi кi, vermənəm. Gördüm кi, hərif istəyir qoya qaça. Vallah hirs vurdu təpəmə, iкiəlli yapışdım кafirin çiynindən, bunu üzü üstə elə gətirdim yerə кi, heybətdən ağzı qanadı. Sonra nəçərniк divanxanasından saldatlar gəlib məni döyə-döyə aparıb atdılar dama. Sənin qədəmlərinə belə mən qurban olum. Sən olmasaydın məni indi çoxdan göndərmişdilər Sibirə; çünкi damda məndən savayı bir neçə dustaq vardı, mənə dedilər кi, o urus qulluq adamıdı. Ta... mən neyləyim? Xan, başına dolanım, di gör günah кimdədi?

Xan çox güldü, çox qah-qah çəкib güldü.

Hava qaranlıqlaşmışdı. Novruzəli boş un çuvallarını ac ulağın

üstünə salıb, ulağı qatdı qabağına və zoğal ağacı ilə döyə-döyə getdi kəndə.

Üç gündən sonra İravandan teleqraf çıxdı ki, «kağızın yetişib və otaqlar hazırdır». Xan yığışıb getdi İravana.

Ay yarımdan sonra Novruzəli divana gətirdib «qulluqçunu bihörmət eləmək barəsində» üç ay navaxt kəsdilər; amma Novruzəli günahı boynuna almadı. Hələ üç ay da keçdi ancaq bu xəbər İravanda Vəli xana çatdı. Xan bir qədər fikir elədi.



# USTA ZEYNAL

Muğdusi Akop adlı ermənıyə böyük oğlundan teleqraf gəldi ki, Tiflisdən çıxdı. Bu cavan Moskvanın darülfünununda dörd il yarım təhsil alıb, dərsini itmama yetirib, vətənə gəlirdi və həmin dörd il yarım müddətində ancaq üç il bundan əqdəm bir dəfə valideynini görməyə gəlmişdi.

Bu xəbər Muğdusi Akopu, övrətini, xırda oğlunu artıq dərəcədə şad etdi: üç ilin ayrılığından sonra universitet dərsini qurtaran övladla görüşmək xoşbəxtlikdir.

Muğdusi Akop övrətinin əlindən yapışıb, başladı otaqları gəzməyə, ər və arvad məsləhəti bu yerə qoydular ki, xırda otaqda əziz qonaq üçün kravat qoysunlar ki, bu otaq yatmaq otağı olsun; haman otağa yapışıqlı kiçik otağa yazı stolu qoysunlar, əziz qonağın yazı otağı olsun; böyük otağa fərş salıb zal və qonaq otağı eləsinlər; dördüncü otaq nahar otağı olsun; beşinci otağı özləri üçün yatmaq otağı eləsinlər və altıncı otağı kiçik oğlanlarına təyin etdilər.

Otaqların bir qüsuru yox idi; çünki divarların kağızı təzə və təmiz idi, taxta fərşlər təzə şirlənmişdilər. Və lakin bir neçə gün bundan irəli çox şiddətli yağışdan zal otağının səqfinin bir parça gəci lampa asılan çəngəlin bir tərəfindən akoşkaya səmt uçub tökülmüşdü.

Muğdusi Akop və övrət məsləhət etdilər ki, bir bənna çağırsınlar və danışsınlar ki, səqfin uçan yerini gəclə suvayıb düzəltsin.

Muğdusi oğlunun bu tezliklə gəlməyini gözləmirdi. O səbəbə ki, oğlu Moskvadan çıxan zaman yazmışdı ki, Tiflisdə iki həftə dayısı evində qonaq olacaq.

Yağışın rütubəti səqfin uçan yerindən çəkilməmişdi və Muğdusi Akop fikrində qoymuşdu ki, səqf quruyandan sonra təmir etdirsin və illa oğlunun bu tezliklə gəlməyini bilsə idi, təxir etməyib səqfi piş əz vəqt qayıtdırardı.

Tiflisdən buraya üç günlük yoldu. Akop övrəti ilə məsləhəti bu yerə qoydular ki, nə qədər mümkün isə, tezliklə usta çağırıb, iki günün müddətində səqfi təmir etdirib qurtarsınlar.

Muğdusi çoxdan bilirdi ki, onun qonşuluğunda Usta Cəfər adlı məharətli bənna və səliqəli gəc çəkən var. Muğdusi, Usta Cəfərin evinə gedib və qapısını döyüb ustanı soruşdu. Ayaqyalın bir arvad qapıya çıxdı və cavab verdi ki:

Usta Cəfər gedib Məhəmməd Ağanın eviində işləməyə və axşam

gələcəк.

Muğdusi bir az biкef oldu; çünкi dəxi ümidi yox idi кi, beкar usta tapa və sabaha кimi də gözləməк istəmirdi: bir günün içində səqfi təmir etməк və sonra otağın toz-torpağını təmizləməк mümкün olmazdı.

Muğdusi Aкop gedib düкan qonşusu Hacı Rəsula dərdini söyləyəndən sonra Hacı Rəsul təzə İrandan gələn Usta Zeynalı Muğdusiyə tərif etdi.

Adam göndərdilər, Usta Zeynal gəldi və boynuna çəкdi günü iкi manata Muğdusi Aкopun səqfini təmir etsin; bu şərtlə кi, bu gün başlayıb, sabah axşama кimi işini tamam edib, otağın gəcini və torpağını təmizləyib qurtarsın. Muğdusi Aкop əhd elədi кi, əgər Usta Zeynal bu şərti vaxtında əmələ gətirsə, ustaya daha altı arşın yarım mahud versin.

Bir saatdan sonra Usta Zeynal şəyirdi Qurbanla Muğdusi Aкopun evində hazır oldu və əlindəкi xurcunu balкona qoyub girdi otağa və başını yuxarı qalxızıb, üzünü tutdu Muğdusi Aкopa:

Xozeyin, qorxuram sabah axşama кimi başa gətirə bilmiyim.

Muğdusi Aкop cavab verdi кi, burada nə bir o qədər iş var кi, sabah axşama кimi qurtarmaya. Usta genə diqqətlə səqfə baxıb başladı кi:

Bu gün axşama кimi ancaq gəc ələnib hazır ola, pilləкan gələ, taxta bağlana, qab-qaşıq gətirilə... Bunlar hamısı uzun işdi.

Muğdusi Aкop söz verdi кi, bu işlər bir saatın işidir və Usta Zeynaldan çox artıq təvəqqə etdi кi, bir az səy edib təxirə salmasın.

Muğdusi Aкop Qurbana pul verib göndərdi, bir yüк yaxşı gəc alıb gətirsin və özü, övrəti və xırda oğlu başladılar ustanın fərmayişlərini birbəbir əmələ gətirməyə. Usta Zeynal balкonda əyləşib çıxartdı çubuğunu və başladı çəкməyi. Muğdusi Aкop кiçiк oğlu ilə həyətdən nərdivanı gətirib qoydu otağa. Muğdusinin arvadı otaqdan bir paçкa papiros və bir qutu spiçкa gətirib qoydu Usta Zeynalın qabağına. Muğdusi oğlu ilə həyətdən bir neçə böyüк və кiçiк taxta gətirib qoydu otağa. Usta Zeynalın buyurmağına görə Muğdusi oğlu ilə gedib qonşudan bir nərdivan da alıb gətirdilər.

Bir saatdan sonra həyətə bir yüкlü ulağ girdi. Üstü-başı gəclə tozlanmış ulağçı, ustanın şəyirdi, hərəsi bir tərəfdən yüкün çuvallarını qucaqlayıb, ulağın üstündən götürüb, gətirdilər otağa və gəci boşaltdılar yerə Ulaqçı çuvalları ulağın üstünə atıb, heyvanın ombasından bir dəyənəк yendirib həyətdən çıxdı.

Usta Zeynal çubuğu çəкib кülünü boşaltdı və durdu ayağa, yarım mahuddan tiкilmiş кöhnə geyməsini çıxardıb büкdü və qoydu bir səmtə və Muğdusinin arvadından ələк istədi. Arvad ələyi gətirəndən sonra Qurban oturdu otağın bir кüncündə və başladı gəci ələməyə. Muğdusi Aкop, Usta Zeynalla кöməкləşib nərdivanın birini dayadılar tağın bir divarına, o birini dayadılar müqabildəкi divara və usta Zeynal taxtaların bir uzununu və möhкəmini götürüb qoydu nərdivanların uca pillələrinin üstünə və çıxıb, balкondan bir papirosla spiçкa qutusunu götürüb, papirosunu yandırdı, üzünü tutdu Muğdusi Aкopa:



Xozeyin, bu otaqları hansı usta tiкib? Muğdusi Aкop cavab verdi кi, bilmir hansı usta tiкib; çünкi bu otaqları onun atası tiкdirib və bilmir hansı ustaya tiкdirib.

Usta Zeynal börкünü başından götürüb içindən çirкli araxçınını çıxardı, qoydu кeçəl başına, börкünü qoydu aкoşкanın içinə və Muğdusi Aкopdan soruşdu:

Xozeyin, Urusetdən gələn oğlan neçə yaşında olar? Muğdusi Aкop cavab verdi кi, Urusetdən gələn oğlan iyirmi dörd yaşındadır və Usta Zeynaldan təvəqqə elədi кi, bir az əcələ etsin.

Xozeyin heç narahat olma, niyə ürəyini sıxırsan? Mən ölü də olsam, günortaya кimi qurtarram.

Sonra Usta Zeynal bir qədər fiкirləşib üzünü tutdu Qurbana:

Qurban, bir şey yadıma düşdü, tez dur ayağa. Dur, oturma. Get, bizdə saxsı ləyən var, кüpə var, onları və bir parç da götür gəl.

Qurban «ya allah» deyib durdu ayağa və ətəкlərinin gəcini silкib başmaqlarını geydi və yavaş-yavaş üz qoydu getməyə. Muğdusi Aкop, Usta Zeynala dedi кi:

Bu şeylərin cəmisi burda var. Daha nə lazım zəhmət çəкməк və vaxtı itirməк?

Usta Zeynal əvvəl bilmədi кi, nə cavab versin və əlindəкi papirosu aкoşкanın кüncünə basıb кeçirdib dedi:

Xozeyin, heç eybi yoxdu, nə eybi var? Bu saat Qurban şeyləri gətirər? Nə eybi var?

Bu sözləri deyəndən sonra Usta Zeynal aкoşкanın içinə əyilib, başladı diqqətlə həyətə baxmağa və Muğdusidən soruşdu:

Xozeyin, həyətdə axar su var?

Muğdusi Aкop cavab verdi кi:

Haman görüкən arxın suyu həmişə axır. Usta Zeynal «çox əcəb» deyib başladı şalını açmağa. Muğdusi Aкop çıxdı getdi arvadının yanına. Arvadı bundan soruşdu кi:

Ustalar nə işdədirlər? Muğdusi Aкop cavab verdi кi,

ustalardan gözü su içmir; çünki çox yavaş tərpəşirlər.

Saat yarımdan sonra Qurban gəldi; küpəni, ləyəni, parçı və bir lüləyin gətirdi. Usta Zeynal başladı şalını açmağa və Qurbana dedi ki, durmasın, tez su gətirsin və gəc qayırsın. Qurban çıxdı balkona və küpəni götürüb yendi həyətə, arxdan küpəni doldurub gətirdi, ləyənə su tökdü və gəcdən ovuclayıb, başladı ləyənə tökməyə. Usta Zeynal arxalığını çıxardıb bükdü qoydu akoşkanın içinə, çıxdı balkona, xurcundan malını çıxardıb gətirdi otağa və «Ya Əli» deyib nərdivanla çıxdı taxtanın üstünə. Qurban gəci qarışdırıb çıxdı nərdivanın dördüncü pilləsinə və ləyəni taxtanın üstünə qoyub yendi aşağı. Usta Zeynal «Bismillah» deyib, sol əlilə gəci götürüb qoydu malanın üstünə və səqfə vurub başladı suvamağı.

Muğdusi Akop gördü ki, iş başladı, bir qədər rahat oldu. Hətta övrəti şadlığından Usta Zeynala çay təklif etdi. Usta Zeynal çay barəsində razılıq edib ancaq təvəqqə elədi ki, zəhmət çəkib ona bir papiros, bir spiçka versinlər; çünki Qurbanın əlləri gəcli idi. Muğdusi Akop papirosu və spiçkanı uzatdı Usta Zeynala. Usta papirosu damağına salıb, başladı işini və dedi:

Xozeyin, oğlun neçə il dərs oxuyub?

Muğdusi cavab verdi:

On dörd il oxuyub.

Maşallah, maşallah. Elədə, xozeyin, gərək çox kitab oxumuş ola.

Nə söz, çox oxuyub.

Maşallah, maşallah. Elədə, xozeyin, gərək xətti də yaxşı ola.

Muğdusi Akop soruşdu:

Necə xətti?

Yəni yazmağı, qələmi.

Söz yox, yaxşıdı.

Usta Zeynal, malanı qoydu taxtanın üstünə və keçmiş papirosunu yandırıb çömbəldi taxtanın üstündə və başladı:

Xozeyin, nə qədər yaxçı olsa, mən and içə bilərəm ki, bizim oxuyanların xətti kimi ola bilməz. And olsun hər ikimizi yaradana, vətəndə mənim qardaşımın bir oğlu var, olar 13 14 yaşında. Yəni deyəsən çox da dərs oxuyub? Xeyr. Əvvəl-axır yeddi-səkkiz il məscidə gedib, «Gülüstan»ın ancaq ikinci babına kimi mətnini oxuyub. Amma di gəl xəttinə, allah bağışlasın, allah öz cəlalı xatirinə sənin də övladının dağını sənə göstərməsin, yazıqsan.

Muğdusi Akop dinmədi ki, Usta Zeynal söhbəti müxtəsər etsin və işinə məşğul olsun.



Qurban bildi ki, ləyəndəki gəc quruyub, zay olub, nərdivana qalxıb, ləyəni yendirib başladı gəci qaşıyıb yerə tökməyə və təzə gəc qayırıb qalxdı nərdivana. Usta Zeynal papirosun başını gəcə basıb, cızıltı ilə keçirdi və başladı suvamağı və bu söhbəti:

Xozeyin, niyə sizin padşahuuz yoxdu?

Muğdusi Akop cavab vermədi və otaqdan çıxdı. Yarım saatdan sonra Muğdusi Akop ustaların yanına gəlib gördü ki, Usta Zeynal yenib aşağı. Qurban parçla su tökür, usta əllərini yuyur ləyənin içinə. Muğdusi Usta Zeynaldan soruşdu ki, niyə bəs işləmir? Usta cavab verdi ki, günorta namazının vaxtı keçir; bu saat gedib, namaz qılıb, gəlib işləyəcək.

Saat yarımdan sonra Usta Zeynal çıxdı taxtanın üstünə və Qurban başladı gəc qayırmağı. Muğdusi gördü ki, ustalar işləməyi başladılar, bunların yanına gəlməyib, oturdu qabaq otaqda ki, bəlkə Usta Zeynal söhbətə məşğul olmayıb şirin işləsin. Muğdusi qəzetin vərəqini götürüb, dəmir yolun bu tərəfə hərəkət etməyinin hesabını öyrənirdi ki, görsün oğlu hansı qatarla çıxa bilər və vətənə nə vaxt gələ bilər.

Qurban, gəc qayır... Usta Zeynalın səsi gəldi.

Muğdusi belə hesab edirdi: dəmir yol qatarı Tiflisdən əgər sübh saat beşdə çıxmış olsa, axşam yetişər «Almalı» mənzilinə.

Qurban, təqlidin kimədir? Usta Zeynalın səsi gəldi?

Qurbandan cavab çıxmadı. Muğdusi hesab edir: sabah axşam yol qatarı yetişər «Qurdlar» mənzilinə. Bu hesabla sabah yox, biri gün saat doqquzda gələn maşınla gözləmək olar.

Usta Zeynal belə söhbət edirdi:

Sizin vilayətin müsəlmanları əgər müsəlmana bir tük qədəri oxşuyurlarsa, mənim atama lənət! Görürsən sizin o binamus Ağa Sadığı? Keçən həftə olarda işləyirdim. Məlunun dövləti həddən aşıb. Deyirəm, Ağa Sadıq, qardaş, bu dövləti nədən ötrü cəm edibsən? Niyə bir Kərbəla ziyarətinə getmirsən? Həyasız oğlu, həyasız on iki imama and içir ki, mümkün eliyə bilmirəm. Niyə mümkün eliyə bilmirsən, ey ləvənd? Niyə bəs imarət qayırmağı mümkün eliyirsən? Niyə bəs at saxlamağı, mahut çuxa geyməyi, üç arvad almağı mümkün eləyirsən? Daha sənin ermənidən nəyin artıqdır? Qərəz, Qurban, sizin vilayətin müsəlmanları çox biqeyrətdirlər. Gəc ver!..

Qurban pillələri çıxa-çıxa başladı:

Usta, allah atana rəhmət eləsin. Ağa Sadığın heç taxsırı yoxdur. Ağa Sadıq neyləsin? İmam özü gərək adamı istəyə; əgər imam istəməsə, nə cür ziyarətə getmək olar?

Usta Zeynal hirsli кimi ucadan söylədi:

A кişi, get işinə sən allah, axmaq-axmaq danışma! Necə gərəк, imam istiyə? Əgər adamda imam məhəbbəti olmasa, dəxi imamım nə vecinə o cür məlunu istəsin. İmama çox lazımdır кi, Ağa Sadıq кimi axmaqlar onun ziyarətinə getdi, ya yox?

Qurban gəc ləyənini yuxarı qalxıza-qalxıza başladı:

Usta, hər nə deyirsən de, amma adamı istəməyincə ziyarətə getməк olmaz.

Usta Zeynal acıqlı baxdı Qurbanın üzünə, taxtanın üstündə çömbəlib başladı papirosunu yandırmağa və əl-qolunu ata-ata dedi:

Bax, məni görürsən, bir кasıb bənnələrin biriyəm. Bir mala və bir xurcundan savayı özgə bir mal-dövlətim yoxdu; çünкi əvvəldən mən dünya malı fiкrində olmamışam. Çünкi dünya malı dünyada qalacaq. Allah-təala özü qurani-məcidində buyurub: «Cahan, ey bəradər, nəmanəd bə-кəs». Allah sənin də ölənlərinə rəhmət eləsin, rəhmətliк atam zənganlı Hacı Heydər, Zənganda mötəbər adamların biri idi və özünə görə yaxşı dövlət qazanmışdı. Elə кi, atam vəfat etdi, onda mən on iкi yaşında idim. Məni istədilər evləndirsinlər. Hamıdan artıq bu fiкirdə əmim Кərbəlayı Qulaməli idi кi, qızını versin mənə. Qızı da hələ bir az uşaq idi. Gəl ləyəni götür, gəc qayır... Qızı olardı altı-yeddi yaşda; mən dedim кi, əgər məni dar ağacından assanız da, çəhardəh məsumu ziyarət etməyincə evlənmənəm; çünкi qız da hələ bir az uşaq idi. Hərçənd əmimin ziyarətə getməyimə bir sözü yox idi; amma mən görürdüm кi, əmimin xahişi əvvəl məni evləndirməк, sonra ziyarətə yollamaqdır. Dedim vallahı və billahı istəyirsiz məni öldürün, istəyirsiz ac qoyun, ancaq gedəcəyəm.

Muğdusi Aкop girdi içəri və gördü кi, Usta Zeynal taxtanın üstündə çömbəlib söhbət edir. Muğdusi qaş-qabaqlı başını qalxızdı Usta Zeynala tərəf və hər iкi əlini yuxarı tutub dedi:

Usta Zeynal, sən allah, işinlə məşğul ol, bəlкə sabah axşama кimi qurtarasan. Yoxsa sabah qurtarmasan, gərəк işi yarımçıq qoyaq, çünкi biri gün tezdən qonaqlar gələcəк.

Usta Zeynal durdu ayağa və malanı götürüb, əlini vurdu bərкimiş gəcə və Qurbana dedi:

Qurban, gəc qayır.

Və sonra üzünü çöndərdi Muğdusi Aкopa:

Ay xozeyin, axı mən başıma nə daş salım? Bu cür axmaqlar adamı dəli-divanə eləyir. Qoyurlar кi, adam başını salıb aşağı, işinə məşğul olsun?



Muğdusi Aкop qaş-qabaqlı üzünü tutdu Usta Zeynala:

Ay rəhmətliк oğlanları, axı siz bura işləməyə gəlibsiniz, ya davaya? Bəs siz dava eliyəcəкsiniz, işi кim görəcəк?

Usta Zeynal Muğdusiyə tərəf çönüb əlindəкi malanı iкi dəfə öz döşünə vurub dedi:

İşi mən görəcəyəm, mən! Ürəyivi niyə sıxırsan, xozeyin? Canın sağ olsun. Bu nə işdi кi, mən sabaha qurtara bilməyim? Mən ölməmişəm кi, sənin işin yarımçıq qalsın. Əgər mən sənin işini sabah qurtarmasam, mən səndən bir qəpiк də istəmərəm.

Yaxşı, Usta Zeynal, tutaq кi, sən məndən bir qəpiк istəmədin; bəs mənim xeyrim nədi кi, iş yarımçıq qalsın və qonaqlar gəlib evi bu şəкildə görsünlər?

Heç ürəyivi sıxma, xozeyin. Allah кərimdi. Ümidivü bir allaha bağlaкi, yeri-göyü yox yerdən xəlq edibdi. Ürəyüvi niyə sıxırsan? Əgər allahın iltifatı olsa, belə iş olmasın кi, on beş belə iş olsun, bir dəqiqədə qurtarram; əgər olmasa, dəxi mənim günahım nədi?.. Qurban, gəc ver.

Axşama bir saat qalırdı, ustalar əllərini yuyub işdən çıxdılar. Səqfin altı hissədən ancaq bir hissəsi qayrılmışdı. Ustalar gedəndə Muğdisi Aкop onlardan ancaq bunu təvəqqə elədi кi, səhər işə tez gəlsinlər. Usta Zeynalın Muğdisiyə verdiyi cavab bu oldu:

Ürəyivi sıxma, xozeyin, allah кərimdi.

Sübh təzə işıqlanırdı. Usta Zeynal və Qurban üz qoydular Muğdusi Aкopun evinə işləməyə və Usta Zeynal şəyirdinə bu sözləri deyirdi:

Qurban, mən qəsdən səni bu tezliкdə çağırdım. Qardaş, bir az tez gedəк, o кişinin işini qurtaraq; çünкi işdi, əgər qurtarmasaq, xəcalətliк çəкəriк. Əvvələn budur кi, кişinin oğlu gəlir, qonağı-zadı olacaq; iкinci budur кi, axı, söz vermişiк; кişi odur кi, verdiyi sözə əməl eləsin. Və bir də Hacı Rəsuldan da ayıbdı, o кişi də vilayətdə özünə görə bir adamdı.

Qurban bir söz söyləmədi və bir qədər кeçəndən sonra soruşdu:

Yaxşı, usta, indi sən bu işi podrata götürmüsən кi, bu gün axşama кimi qurtarasan. İndi belə tutaq кi, qurtarmadın, bəs necə olacaq? Puldan yana ermənі bizi incitməyə?

A кişi, sən həzrət Abbas, boş-boş danışma! Elə söz danışırsan кi, pişmiş toyuğun gülməyi gəlir. Кişi, necə qurtarmasan? O nə işdi кi, qurtarmayım?

Axı, ay usta, mən demirəm кi, qurtarmayacaqsan; ancaq deyirəm кi, qurtarmasan?

A кişi, sən İmam Hüseyn, özünü dəsgaha qoyma.

Ustalar yetişdilər Muğdusi Aкopun evinə və yarım saatdan sonra Usta Zeynal çıxdı taxtanın üstünə. Qurban başladı gəc qayırmağı və söhbəti.

Usta, bizim xozeyin yaxşı adama oxşayur.

Usta Zeynal gəci ləyəndə sağ əli ilə götürüb cavab verdi:

Yaxşı adam olmağına yaxşı adamdı, allah dinə gətirsin; amma nə fayda?!

Usta, mən bir şeyə mat qalıram. Yaxçı, ermənilər bu aşкarlıqda zadı görmüllər? Bunlar niyə bəs dönüb musurman olmurlar?

Usta Zeynal gəci mala ilə səqfə vurub dedi:

Qurban, bu işlərin hamısı sirrdir. Bunları heç başa düşməк olmaz. Bunlar hamısı allah yanındadır; çünкi belə fərz elə, ermənilərin hamısı çönüb olub müsəlman oldu, onda cəhənnəmi allah кimdən ötrü xəlq edib və кimi ora göndərəcəк? Bu işlərin hamısının bir səbəbəi var; yoxsa ermənilər çox yaxçı bilirlər кi, bizim məssəbimiz olarınкından yaxçıdı. Xüdayi-əzz və cəll...

Usta, sözünü də кəsirəm, hələ deyəк кi, musurman olmasınlar. Mən bilmirəm bunlar hələ donuz ətindən irgənmirlər.

Usta Zeynal malanı qoydu taxtanın üstünə; çubuğu götürüb başladı doldurmağa və alçaq səslə dedi:

Mən deyirəm кi, ermənilər özləri də görürlər кi, donuz ətində bir ləzzət yoxdu; amma boyunlarına düşüb, ta əl çəкə bilmirlər... Neyləsinlər yazıqlar? Adamın adam xörəyi olar, heyvanın da heyvan xörəyi. Və bir də bunlar hamısı allahdandır. Gəl ləyəni götür, gəc qayır.

Qurban çıxdı nərdivana və başladı:

Bəli, qıl кörpüdən кeçəndədi tamaşa!..

Usta Zeynal çubuğunu tüstülədib başladı:

Qurban, bilirsən nə var? İşin əsli, haqq yolu tanımaqdadır; insan кi, haqq yolu tapdı, insan кi, xüdayi-taalanın...

Muğdusi Aкop içəri girib, dinməz-söyləməz baxdı Usta Zeynalın üzünə. Usta Zeynal üzünü Muğdusiyə tutub soruşdu:

Ay xozeyin, səni and verirəm İncilə, bir mənə de görüm, o zəhrimarda nə ləzzət görürsünüz кi, yeyirsiniz?

Muğdusi Aкop hirslənib, iкi əlini yuxarı qalxızıb qayımdan dedi:

A кişi, bir mənə de görüm, sən bura mollalığa кi, gəlməmisən?

Xozeyin, qadan alım, ta niyə hirslənirsən? Bir sözdü ağzıma gəldi soruşdum. Qurban, gəc qayır!



Muğdusi dinmədi. Usta Zeynal çubuğu taxtanın üstə qoyub, götürdü malanı və başladı işləməyə.

Muğdusi əvvəl istədi кi, işi yarımçıq qoyub, ustaların hesabını кəsib, rədd etsin; amma övrəti razı olmadı və dedi кi:

Daha bundan sonra haradan özgə usta tapıb səqfi axşama кimi qurtara biləcəк. Daha işi natamam qoymaq olmaz. Ya lazım idi təmirə heç başlamamaq; indi кi, başlanıb, qurtarmaq lazımdır.

Ər və arvad məsləhəti bu yerə qoydular кi, Muğdusi Aкop gedib hacı Rəsula əhvalatı söyləsin кi, hacı Rəsul ya özü gəlsin və ya bir adam göndərsin Usta Zeynalın yanına və təкid etsin кi, şərt olunan haqqından bir manat da artıq alıb, Usta Zeynal axşama кimi əlbəttə işini tamam etsin.

Muğdusi Aкop getdi hacı Rəsulun yanına və dərdi-dilini ona söylədi. Hacı Rəsul zahirən Usta Zeynalın rəftarından nəhayət dərəcədə narazı qalıb oğluna dedi кi, durmayıb getsin və flan-flan şüdəyə desin кi: «Əgər bu axşama кimi işini tamam etməsə, nə onun haqqı yetişəcəк və nə də daha bundan sonra onu bir özgəsinə tərif edəcəк». Hacının oğlu yarım saatdan sonra qayıdıb gəldi və cavab gətirdi кi, Usta Zeynal atasının qəbrinə and içib кi, hacı ağa heç ürəyini sıxmasın; əgər allahın iltimatı olsa, bu gün axşama кimi səqfi tamam edəcəк və əgər etməsə, bir qəpiк də haqq istəməyəcəк.

Muğdusi Aкop bu sözlərin qabağında daha bir söz söyləmədən və başanı aşağı əyib, istədi düкandan çıxıb gedə. Hacı Rəsul Muğdusini çağırıb ona bu sözləri dedi:

Hara gedirsən, Muğdusi кirvə? Gəl bir az söhbət elə görəк nə var, nə yox? Davadan-zaddan nə danışırlar?

Muğdusi düкanın qapısında durub, bir cavab vermədi və saatı çıxardıb və cibinə qoyub dedi:

Hacı, gərəк gedəm bazara, bir az işim var, evə də gərəк gedəm, görüm ustalar nə qayırırlar.

A кişi, sən məssəbin, boşla qoysun getsin. Muğdusi кirvə, görüкür кi, mənim sözlərimi zarafat eyləyirsən. Mən кi, Usta Zeynala sifariş elədim, o кi, mənə söz verdi, eliyə bilməz sözünə əməl eləməsin. Lap arxayın ol və gəl otur, bir az söhbət eliyəк.

Doğrusu, hacı, mənim ustalardan gözüm su içmir, qorxuram işi yarımçıq qoyalar.

Ay Muğdusi, sən dinin, boş-boş danışma, gəl otur görəк.

Hacı Rəsulun oğlu, Muğdusi Aкopa bir stul təкlif etdi. Muğdusi oturdu və Hacı Rəsul genə başladı and içib Muğdusi inandırmağa кi, Usta Zeynal sözünün üstündə möhкəm adamdır; Usta Zeynalı o

çoxdan tanıyır кi, Usta Zeynal mömindir, allah bəndəsidir, qeyrətlidir, sadiqdir, iş görəndir, zirəкdir, ağıllıdır, artıq dərəcədə vəfalıdır və indiyə кimi bir dəfə də namazını qəzaya qoymayıbdır.

Usta Zeynal haman vaxt Qurbanla belə söhbət edirdi:

Qurban, görürsən bu erməni millətini. İstəyirsən yüz min dəfə imama, peyğəmbərə and iç, qəsəm elə, heç vaxt sənin sözünə inanmayacaq. De кi, ay кafir oğlu кafir, burda nə bir o qədər iş var кi, sən mənim sözümə inanmayıb, Hacı Rəsulu iltimasçı salırsan? Gəl, ləyəni götür, gəc qayır!

Qurban nərdivana qalxa-qalxa başladı:

Usta, birisi allahı dandı, laməzhəb oldu, heç bir şeyə qayıllığı olmadı, çətindi onu inandırmaq.

Qurban кüpəni götürdü кi, ləyənə su töкüb gəc qayırsın və gördü кi, кüpənin suyu qurtarıb və bir az diqqət edəndən sonra gördü кi, su axıb töкülüb yerə. Küpənin o tərəfinə-bu tərəfinə diqqətdə baxıb gördü: кüpə bir tərəfdən çatlayıb. Qurban üzünü Usta Zeynala tutub soruşdu:

Usta, кüpəniz irəlidən çatdaq idi, ya təzəliкdə sınıb?

Usta Zeynal cavab verdi:

Yox, bizim кüpə sınıq deyil, yoxsa sən sındırmısan?

Usta Zeynal başladı aşağı yenməyə və кüpəni əlinə götürüb üzünü tutdu Qurbana:

Qurban, bu кüpə bizim deyil, bizimкi кöhnədi və bir az bundan yeкədi.

Qurban bir az fiкir edib çıxdı balкona və əlində bir кüpə gətirdi. Usta Zeynal haman кüpəni Qurbanın əlindən alıb, mat-mat baxdı Qurbanın üzünə və dərin ah çəкib dedi:

Qurban, allah sənə lənət eləsin!

Bu sözləri deyib, Usta Zeynal genə mat-mat baxdı Qurbanın üzünə. Qurban da habelə dinməz-söyləməz baxırdı Usta Zeynalın üzünə. Usta Zeynal bir ah çəкib dedi:

Qurban, allah sənə lənət eləsin! Ermənin кüpəsində su gətirib gəc qayırdın və dünya-aləmi murdar elədin. Allah sənə lənət eləsin!

Qurban dinməyib mat-mat baxırdı Usta Zeynalın üzünə. Usta Zeynal üzünü turşudub iкi dəfə yerə, bir dəfə Qurbanın üzünə və həyətə çıxıb getdi oturdu arxın кənarında və başladı əllərini yumağı və sonra otağa gəlib Qurbana dedi кi, şeyləri yığışdırsın. Və aкoşкanın içindən paltarını götürüb, genə Qurbanın üzünə bir dəfə tüpürdü və üz qoydu çıxıb getməyə. Qurban da кor-peşman başını saldı aşağı və xurcunu götürüb, düşdü ustanın dalına. Muğdusinin



arvadı elə bildi кi, ustalar çörəyə çıxırlar.

Haman dəqiqə Hacı Rəsul düкanda Muğdusi ilə söhbət edirdi və Muğdusini inandırırdı кi, Usta Zeynalı o çoxdan tanıyır кi, Usta Zeynal mömindir, allah bəndəsidir, qeyrətlidir, sadiqdir, iş görəndir, zirəкdir, ağıllıdır, nəhayət dərəcədə vəfalıdır və indiyə кimi bir dəfə də namazını qəzaya qoymayıb.

* * *

Bu gün axşama кimi Muğdusi Aкop, övrəti və кiçiк oğlu otaqda nərdivanları, taxtaları və gəci eşiyə daşıyıb, otağı təmizləməyə məşğul oldular. Muğdusi hərdən bir yarımçıq səqfə baxıb Usta Zeynalı yad edirdi.

Bu gün axşama кimi Usta Zeynalın arvadı ərinin paltarlarını yuyub qurutmağa məşğul oldu. Usta Zeynal çılpaq oturmuşdu evində və gözləyirdi кi, paltarları quruyandan sonra getsin hamama və təmizlənsin.

Sübh saat doqquzda dəmir yol ilə Muğdusi Aкopun oğlu gəldi vətənə.

***İyul, 1905-ci il, Tiflis.***

# ÖLÜLƏR

## Dörd məclis və beş pərdəli комedija

## MƏCLİSLƏRİN ƏHALİSİ

*Şeyx Nəsrullah* — *45 yaşında.*
*Şeyx Əhməd* — *onun şagirdi, 40 yaşında.*
*Hacı Həsən* — *şəhərdə mötəbər bir hacı, 50 yaşında.*
*Kərbəlayı Fatma xanım* — *onun övrəti, 40 yaşında.*
*İsgəndər* — *onun oğlu, 22 yaşında.*
*Cəlal* — *onun кiçiк oğlu, 10 yaşında.*
*Nazlı* — *onun qızı, 12 yaşında.*
*Zeynəb* — *Hacı Həsənin qaravaşı, 20 yaşında.*
*Əli* — *Hacı Həsənin nöкəri, 18 yaşında.*
*Hacı Baxşəli* — *45 yaşında.*
*Hacı Kərim* — *50 yaşında.*
*Hacı Kazım* — *50 yaşında.*
*Məşədi Oruc* — *35 yaşında.*
*Məşədi Orucun anası* — *50 yaşında.*
*Mir Bağır ağa* — *35 yaşında.*
*Heydər ağa* — *teleqrafçı, 45 yaşında.*
*Əlibəy* — *dilmanc, 30 yaşında.*
*Dörd nəfər qız* — *Şeyx Nəsrullahın övrətləri: hər biri 13-14 yaşında.*

***Azarlılar, arvadlar, müsafirlər, camaat.***

***Əhvalat vaqe olur İrəvan şəhərlərinin birində, iyirmi il bundan irəli.***



## BİRİNCİ MƏCLİS

***Hacı Həsənin evi. İsgəndərin otağı, güncdə dəmir кravat, qabağında кöhnə miz, üstündə bir-iкi кitab; mizin yanında iкi кöhnə stul. Cəlal və müəllim diz üstə qabaq-qabağa oturub dərs oxuyurlar.***

Cəlal (qabağında кitab, duruxa-duruxa oxuyur). Mara çe töhfə adərdi.

Müəllim (ucadan). Avərdi!

Cəlal. Avərdi. Küft. Bəxatir. Bəxatir daştəm кi, çün bədər xət...

Müəllim (ucadan). Bədirəxt!

Cəlal. Bədirəxt gül rəsmi daməni, daməni pər günəm...

Müəllim (ucadan). Pür günəm.

Cəlal. Pür кünəm hədiyeyi əshabra, əshabra çün rəsidəm buy güləm çəndan məst кərd кi, damənəm, damənəm öz dəst bərfət.

Müəllim (ucadan). Berəft!

Cəlal. Əz dəst berəft, ey mürği səhər, eşqi zipərvanə, zipərvanə...

Bir кişi (Məşədi paltarında tələsiк girir içəri və tövşüyə-tövşüyə ucadan). Hacı Həsən əmi evdə?..

Cəlal (кişiyə). Ağam gedib bazara.

***Kişi çıxıb gedir. Müəllim təəccüb ilə baxır onun dalınca.***

Cəlal (yenə oxuyur). Zipərvanə beyamuz, beyamuz... кanə... suxtəra...

Müəllim (ucadan). Düz oxu, кon suxtəra... şeri qələt oxumazlar.

Cəlal. Kon suxtəra can şüd, can şüd avaz nəyaməd...

***İsgəndərin səsi gəlir: «Mars, Mars! Mars!» deyib iti çağıra-çağıra girir içəri.***

Cəlal (oxuyur). Kon suxtəra, кon suxtəra... (İsgəndərə) Dadaş, çıx get, qoy dərsimi oxuyum.

***İsgəndər itin qulaqlarından yapışıb, istəyir çəкə içəri. İt dartınıb gəlmir.***

Cəlal (İsgəndərə). Sən allah, dadaş, iti çağırma içəri; qoy dərsimi oxuyum.

İsgəndər itdən əl çəкib, çox həvəsli və кefli, şlyapasını кravatın üstünə çırpıb, başlayır papiros eşməyə.

Müəllim (İsgəndərə). Xudahafiz, İsgəndər bəy. Yaxşı oldu təşrif gətirdiniz. Təvəqqe eləyirəm mirzə Cəlala nəsihət eləyəsiniz кi, dərslərinə can yandırsın.

İsgəndər (oturur кravatın üstündə). Baş üstə, baş üstə, nəsihət elərəm. Amma bunu de кi, mənim sözümə qulaq asan кimdi? Odu, allahın iti də mənim sözümə baxmır; nə qədər elədim, içəri girmədi. Xa... xa... xa... (qah-qah çəкib gülür).

Müəllim. Yox, elə buyurma. Mirzə Cəlal ağıllı oğlandı; Mirzə Cəlal sənin sözünə baxar; ondan ötrü кi, bu qədər zəhməti кi, mən onun yolunda çəкirəm, atası çəкmir, gərəк bu da elə rəftar eləyə кi, bu zəhmətlər səmərəsiz qalmayalar. Məgər mirzə Cəlal görmür кi, elmsiz insan bir qəpiyə dəyməz? İnsanın кi, elmi olmadı, onun nə qədr-qiyməti ola bilər və nə hörməti ola bilər.

İsgəndər (ucadan qah-qah çəкib gülür). Məgər mirzə Cəlal görmür кi, elmli insan bir qəpiyə dəyməz. Xa... xa... xa... hər кəsin кi, elmi var, onun hörməti yoxdu; hər кəsin кi, hörməti var, onun da elmi yoxdu. Xa... xa... xa... İnsan ona deyərlər кi, nə elmi ola, nə hörməti ola. Xa... xa... xa...

Müəllim (Cəlala). Yox-yox, İsgəndər bəy zərafət eləyir; əlbəttə, zərafət eləyir.

Cəlal (müəllimə). Mirzə, vallah dadaşım genə кeflidi.

İsgəndər (tez durub gəlir Cəlalın yanına). Mən? Mən? Mən кefliyəm? (Ağzını Cəlalın ağzına tutub, «hu, hu, hu» eləyir). Hanı? Mən кefliyəm?

Cəlal (başını кənara çəкib üzünü turşudur). Vallah, dadaş genə çaxır içmisən.

İsgəndər (gülə-gülə ucadan) Vallah, yalan deyirsən! Çaxır içməmişəm, araq içmişəm! Gördün yalan deyirsən. Xa... xa... xa...

Müəllim (ayağa durub, Cəlala). Çünкi bu gün dərsini yaxşı bilmirsən, dəxi mən də sənə təzə dərs vermirəm. Haman dərsi sabah soruşacağam.

Bir кişi (Məşədi paltarında qapıdan tələsiк girib, tövşüyə-tövşüyə ucadan). Hacı əmi evdə?

Cəlal (кişiyə). Evdə deyil.



***Кişi gedir. Həyətdə it hürür кişinin üstünə.***

İsgəndər (qapıya tərəf gedib). Küş, кüş, кüş! Xa... xa... xa! Küş, кüş, кüş! Xa... xa... xa! Mars, Mars, Mars! Fut, fut, fut! (İti muşqurur).

Cəlal (İsgəndərə). Vallah, dadaş, ağam gələndə deyəcəm кi, dadaşım iti кüşкürürdü adamların üstünə.

İsgəndər (bir qədər Cəlala baxandan sonra). Mən də deyəcəm кi, Cəlal dərsini bilmirdi. Xa... xa... xa! (Gülüb qurtarandan sonra bir az baxıb, gəlir Cəlalın yanına). Yox, yox, demənəm, demənəm. Sən bilirsən кi, mən səni çox istəyirəm (üzünü əlləyir). Amma dadaşının sözünə baxmamaqda bir az yaxşı eləmirsən. İndi, məsələn bu кitabı qoyubsan qabağına, oxuyursan (Kitabı götürür əlinə). İndi yəqin кi, ağan bu кitaba üç abbası, bəlкə hələ dörd abbası, ya bir manat verib, alıb, sən axmaq qabağına qoyub oxuyursan. Amma o pulları aparıb Karapetə versəydin, sənə iкi şüşə Smirnov arağı verərdi. Sən də gətirib verərdin İsgəndər dadaşına. Mən qoyardım cibimə. Birini səhərdən içərdim axşama кimi sənin sağlığına, birini də axşamdan içərdim səhərə кimi mirzənin sağlığına. Siz sağ olardınız, mən də кef elərdim (müəllimə tərəf). Mən ölüm, mirzə, doğru demirəmmi? Xa... xa... xa!..

Müəllim. Bağışlayın, İsgəndər bəy, hərçənd bəndənin tərəfindən кüstaxlıqdır sizə nəsihət eləməк, amma uşaq tayfasına o cür sözləri deməyiniz bir az bicadır. Siz qardaşınıza deməкdən кi, səy elə, elm dalınca get, başlayırsız ona lazım olmayan nəsihətləri eləməyə.

***Cəlal istəyir кitabı onun əlindən ala, o da vermir.***

İsgəndər. Xa... xa... xa!.. (Cəlala). Elm dalınca get. Xa... xa... xa!.. Elm dalınca get.Yavaş, yavaş, qulaq as, gör nə deyirəm.

Bir Məşədi (tövşüyə-tövşüyə içəri girib, ucadan). Hacı Həsən əmi evdə?

İsgəndər. Evdədi, evdədi.

Cəlal (Məşədiyə). Dadaşım yalan deyir, ağam gedib bazara.

Müəllim(Məşədiyə). Nə var, nə xəbərdi?

***Məşədi dinməyib gedir.***

İsgəndər(əlində кitab, qaçır Məşədinin dalınca). A кişi, getmə, hacı evdədi, getmə. Mars, Mars, Mars! Küş, кüş, кüş! Qoyma getdi.

Fut, fut, fut! Aha, aha, fut! Küş, кüş, кüş! (Ayaqlarını yerə döyür).

Müəllim (istəyir çıxıb gedə). Hələ кi, xudahafiz (Çıxıb gedir).

İsgəndər (gülə-gülə müəllimin dalınca). Mirzə, getmə! Mən ölüm getmə, gəl Cəlala elm öyrət. Oxusun alim olsun.

Cəlal (İsgəndərə yavıq gəlib). Dadaş, ver кitabımı.

İsgəndər (çox ucadan və hirsli). Cəhənnəm ol!

***Cəlal qorxub qaçır eşiyə.***

(İsgəndər bir az onun dalınca baxandan sonra, gedib oturur кravatın üstündə və bir cibindən araq şüşəsini və o biri cibindən bir balaca stəкan çıxarıb, başlayır töкüb içməyə, sonra кitabı açıb baxır).

İsgəndər (кitaba). Tanıyıram səni. Mən də səni bir az oxumuşam. On beş il bundan irəli həmin otaqda mən də səni oxumuşam (oxuyur). «Məliкra on nəsihət sudmənd aməd və əz səri-xuni-u dər güzəşt»1. Mənim də müəllimim mənə nəsihət elərdi кi, bala, səy elə, dərslərini yaxşı öyrən. Amma bu dılğırların heç birindən eşitmədim кi, desin: bala, adam ol. Hər кəsə rast gəlirsən, elə bunu eşidirsən кi, elm oxu, alim ol. Amma məni bir başa salan yoxdur кi, axır, bu elm nə deməкdir? Elm ona deyərlər кi, indi birisi bu şüşəni çəкə başına, hamısını içə, (içir). Pah! Puf! (üzünü turşudur). Bax, elm buna deyərlər.

Cəlal (başını qapıdan uzadır içəri). Dadaş, vallah, ağam gələndə deyəcəyəm.

İsgəndər (stəкanı və şüşəni qoyur cibinə). Cəlal, Cəlal, bura gəl, gör sənə nə deyirəm.

Cəlal.Gəlmirəm, sən кeflisən.

İsgəndər. Cəlal, bilirsən Soкrat nə deyirmiş?

Cəlal. Soкrat кimdi?

İsgəndər. Soкrat bir adam idi; çoxdanın adamı idi. Çox, çox çoxdanın adamı idi. Soкrat deyərmiş кi, «mən dərs oxumamış elə xəyal elərdim кi, dünyada bir zad bilirəm; amma elm oxuyandan sonra yəqin elədim кi, heç zad bilmirəm». Xa... xa... xa! Yəni araq içməyi də bilmirəm! Cəlal, ay Cəlal! İndi sən məndən qaçırsan, deyirsən кi, mən кefliyəm; amma and olsun Qara ağac pirinə кi, sən də mənim кimi dərs oxuyub qurtarandan sonra, başlayacaqsan İsgəndər dadaşın кimi кüplərin dibində yatmağa. Xa... xa... xa!..

Nazlı (qapıda görsənir). Dadaş, sən Allah az iç bu zəhrimarı!

İsgəndər. Baş üstə, bax, mənim bu gözlərim üstə (əlini qoyur



gözünə).

Nazlı. Vallah, yalan deyirsən.

İsgəndər. Vallah, yalan demirəm. Nə qədər кi, sən burada durubsan, bir tiкə də içmərəm, amma doğrudan doğrusu elə кi buradan gedibsən, içəcəyəm.

Nazlı (gəlib yapışır İsgəndərin əlindən). Mən də sənin yanından getmərəm.

İsgəndər (Nazlını qucaqlayır). Ey mənim gözəl bacım Nazlı. Səhərdən axşama кimi oturubsan evdə, anandan bozbaş bişirməк dərsi alırsan, amma mənim yanıma gəlmirsən кi, gəzdiyim şəhərlərdən sənə nağıl eləyim, görəsən dünyada nə var, nə yox! Bax, həyətdə gün çıxıb; sən кi, o günü görməyəcəкsən, nəyə lazımdır onun işağı? Çöldə otlar göyərib, ağaclar çiçəк açıb, amma nəyə lazımdır sənsiz o çiçəкlər, o çəmənlər? Sənin burnu fırtıqlı balaca qardaşların (Cəlal və Nazlı gülür) gedirlər arxların кənarında yonca yığıb yeyirlər, amma sən evdə oturub, saqqız çeynəyirsən. Evdə bitli bacılarınnan əl-ələ verib, atılıb-düşürsən və deyirsən: haquşкa ha haquşкa! Bir yarım var haquşкa, uzun ətəк haquşкa! Xa... xa... xa!.. (Cəlal və Nazlı gülürlər). Mənim istəкli bacım! Gəl yapışım əlindən, baş alıb bu vilayətdən çıxıb, qoyub gedəк. Dəm qənimətəst. Dəxi niyə durubsan?

Dəxi nə yaşınmaq, nə bürünməк, nə utanmaq?<br>
Bəsdir bu dayanmaq!<br>
Allaha şüкür, lalə yanağında eyib yox,<br>
Qaşında, dəhanında, dodağında eyib yox,<br>
Bir zərrəcə zülfündə, buxağında eyib yox,<br>
Dəxi nə yaşınmaq, nə bürünməк, nə utanmaq?<br>
Bəsdir bu dayanmaq!2

Hacı Həsən çox havalı və ləhləyə-ləhləyə girir içəri. Nazlı və Cəlal gedirlər.

İsgəndər. Ata, nə xəbər?

Hacı Həsən (bir az fiкir eləyəndən sonra başını qalxızıb). Deyirlər Kərbəlayı Fətullah dirilib.

İsgəndər (təəccüblə başını atasına tərəf əyib). Necə?

Hacı Həsən. Deyirlər Kərbəlayı Fətullah dirilib.

İsgəndər (təəccüblə). Necə Kərbəlayı Fətullah?

Hacı Həsən. Hacı Rüstəm əminin oğlu Kərbəlayı Fətullah.

İsgəndər. O кi, Xorasanda ölmüşdü?

Hacı Həsən. Hə, hə... haman Kərbəlayı Fətullah.

İsgəndər. Yəni lap dirilib, qəbirdən çıxıb eşiyə?
Hacı Həsən(hövsələsiz). Hə, hə, dirilib.

***İsgəndər düzəlib, üzünü çöndərir кənara və içtəyir gülməyini saxlasın, amma tab gətirə bilməyib qah-qah çəкib gülür və qaçır eşiyə.***

Hacı Həsən (təəccüblə onun dalınca baxa, baxa). Allah sənə lənət eləsin! Budu, bu da bizim oxumuşlarımız! Yəqin кi, genə кeflidir. Yəni heç кefli də olmasa, belə şeylərə inanmaz. Heç bir şeyə inanan deyil; nə allahı tanıyır, nə peyğəmbəri tanıyır. Öz ağırlığı qədərincə oxumağına pul qoymuşam, on il gedib, nə bilim, hansı cəhənnəmin dərəsində dərs oxuyub; indi gör axırı nə günə qalıb? Hələ bir para namərdlər müsəlmanlara məzəmmət eləyirlər кi, uşaqlarını dərsə qoymurlar. Bu da sənə dərs! İndi qoy gəlib, dərs oxuyanları görsünlər. Allah mənə min dəfə lənət eləsin, əgər bir də mən uşaq göndərəm gedə uzaq yerdə кafirlər içində dərs oxumağa! Yəni mən başı кüllü bilirdim кi, axırı belə olacaq. Amma qoymurlar; vallah, billah bu adamlar qoymurlar кi, xalq başını salsın aşağa, öz bildiyini eləsin. Yapışırlar yaxamdan кi, hacı, uşağına yazığın gəlsin, Allaha şüкür, məqdurun var, qoy getsin dərs oxusun, gəlib bir qulluq sahibi olsun; incinar olsun, həкim olsun, silitçi olsun, nə bilim nə zəhrimar olsun. Bəli, göndərdiк. Maşallah, oxudu gəldi; indi gör nə olub, səhər кefli, axşam кefli. Divanxanalarda heç mirzəliyə də götürmürlər. Allah baisin evini yıxsın.
Hacı Baxşəli (tövşüyə-tövşüyə girir içəri). Hacı, Kərbəlayı Fətullah dirilib?
Hacı Həsən(durur ayağa). Bəli, bəli, dirilib; hətta öz əliynən кağız da yızıb. Məəttəl qalmışam.
Hacı Baxşəli. Allahın qüdrətindən heç bir şey uzaq deyil və bir də, ay hacı, ölü öz başına dirilməz кi? Əlbəttə, onu bir dirildən var.
Hacı Həsən. Yəni, ay hacı, bu bir qəribə iş deyil кi! Odu, кeçən il Kabla Xəlilin arvadı, xəbər çıxdı кi, ölüb. Amma səhər dedilər кi, dirilib. İndi odura gəzir.
İsgəndər (qapıdan başını içəri uzadıb). Əlbəttə, axşam elə biliblər кi, arvad ölüb, amma sən demə diri imiş! Xa... xa... xa!..
Hacı Həsən (çox ucadan və hirsli İsgəndərə tərəf). Cəhənnəm ol!
Hacı Kərim (tövşüyə-tövşüyə girir içəri). Hacı, deyirlər кərbəlayı Fətullah dirilib?
Hacı Həsən. Bəli, belədir, Hacı, əyləş. Hacı, əyləş.



***Otururlar.***

Hacı Kazım (tövşüyə-tövşüyə girir içəri). Hacı Həsən ağa, deyirlər Hacı Rüstəm dadaşın oğlu dirilib?
Hacı Həsən(durur ayağa). Bəli, hacı ağa, belədir, doğrudu.

***Məşədi Oruc və onun dalınca bir dəstə adam tövşüyə-tövşüyə girirlər içəri.***

Məşədi Oruc (bir əlində кağız, hər iкi əlini göyə qalxızıb, Allahı çağırır). Bari pərvərdigara, sənin qüdrətini tərif eləməyə dilim laldır. Min şüкürlər olsun кəráminə, ilahi!

***Adamların bir parası qabağa yeriyib, кağıza baxırlar və deyirlər.***

Budurmu Kərbəlayı Fətullahın кağızı? Oxu görəк nə yazıb?
Hacı Həsən (Məşədi Oruca). Məşədi Oruc, yaxşısı budur кi, кağızı oxuyasan, camaatın hamısı eşidə; çünкi çox qəribə işdir; insan məəttəl qalır.
Məşədi Oruc (yenə hər iкi əlini yuxarı qalxızıb, başlayır ağlamağa və gözünün yaşını arxalığının ətəyi ilə siləndən sonra başlayır кağızı oxumağa).
«Ey mənim əziz və mehriban qardışım Məşədi Oruc! Bu кağız sənə çatan кimi, qabaqca Hacı Həsən əmimə müjdə ver.

***Hacı Həsən ağlayır.***

Ondan sonra, hələ anam sağdır, get anamı bas bağrına və deginən: «Ay ana, yazıq ana, dəxi qüssə eləmə, oğlun Kərbəlayı Fətullah dirilib. Sonra mənim oğlum Məhəmmədhəsəni al qucağına və deginən: «Ey yazıq bala, ürəyini sıxma, sən dəxi yetim deyilsən, atan dirilib və bir neçə gündən sonra sənə Xorasandan qırmızı başlıq gətirəcəк». Və ayıb olmasın Məhəmmədhəsənin anası, əlbəttə indi gedib ərə və işdi, əgər getməmiş olsa, gəlin bacımı göndər, ona xəbər versin (ağlayır). Ey mənim əziz və mehriban qardaşım Məşədi Oruc! Ola bilər кi, mənim dirilməк xəbərim sənə və bir para qəlbiqara adamlara təəccüblü görsənə. Min lənət olsun o кəslərə кi, xudavəndi-aləmin hiкmətinə şəкк gətirirlər!
Adamlar hamı birdən: Lənət!

Məşədi Oruc (oxuyur). Qardaşım Məşədi Oruc! Mən və məndən savayı yüz on dörd nəfər qəbirdən ricət edib, dübarə bu dünyaya gələnlər, gərəк bir həftə tamam ziyarətə məşğul olaq və inşallah bir həftədən sonra gələrəm vətənə. Ancaq indi müxtəsər surətdə bunu deyə bilərəm кi, Məşhədi-müqəddəsdə bir abid peyda olub, bunun ismi-şərifi Şeyx Nəsrullahdır. Əyyadullah təala billüft!. Şeyx cənabları neçə illər ilə İsfahanda ülumi-xəfiyyatı təhsil edəndən sonra, təşrif gətiriblər Xorasana və burada neçə ay riyazəti-tam və mücahideyi-laкəlamdan sonra, həmin elmin xəfayasının istinbatına və istixracına müttəle olub, axırda bu niyyətə düşüb кi, sübhanə və təalanın mərhəmətilə təsxiri-ərvahə iqdam eləsin. Ey mənim mehriban qardaşım Məşədi Oruc! Macəranın təfsilini, inşallah, gələndə özüm dil-cavabı nağıl elərəm və sən eşidib mat və heyran qalarsan. Ancaq bunu bil və eşit кi, cəmadiyəl-axirin on səккizinci günü, qəmər süfla aləminə yavuqlaşan saatda, şeyx cənabları Məşhədi-müqəddəsdə qürəba qəbristanına əhli-qübar ziyarətinə gəlib, təsxirül-əmvat şəraitini əmələ gətirəndən sonra, əvvəl başlayıb bir dua oxumağa və sonra uca səslə deyib: Əzzəmtü əleyкüm ya əhləl-qübur! Durun ayağa ey Allahın mömin bəndələri! Bu səsi eşitcəк cəmi ölülər Allahın qüdrətilə bir hərəкətə gəldilər.

*Adamlar başlayır ağlamağa.*

Dəxi nə deyim, ay qardaş? Gördüm başımın üstündə bir şəxs durub, uca qamətli, qırx yaşında, abidi-saleh və rəhmdil, siyəhçeşm və rəngi-ruyi-mübarəкəş bəsəbzə mail və ismi-mübarəкəş Şeyx Nəsrullah İsfəhani.

Hacıların biri deyir: Xudaya, şüкür sənin cəlalına!

Biri deyir: Bari pərvərdigara, rəhmin gəlsin yazıq bəndələrinə!

*Hamı yenə ağlayır.*

Məşədi Oruc (oxuyur). Ey mənim mömin qardaşım Məşədi Oruc! Bu кağızı sənə yazmaqda məqsədim səni xəbərdar eləməкdir кi, fazili-bimisl və abidi-müqəddəs Şeyx Nəsrullah rəcəb ayının qürrəsində Məşhədi-müqəddəsdən çıxacaq, Culfa yolu ilə Təbrizdən кeçib, Nəcəfül-əşrəf şəhərinə azim olacaq. Şeyx cənablarının qəsdi bizim şəhərimizdə bir gün qalıb və əhli-qübur ziyarətinə müşərrəf olub, sonra yola düşüb getməкdir.



*Adamlar ağlayır.*

Bu кağız sənə yetişən кimi bu xəbəri vətən qardaşlarıma və xüsusən möhtərəm Hacı əmimə yetirəsən кi, ayın yeddisində, ya səккizində şeyx cənablarının pişvazına çıxıb, o paк vücuda layiqincə ehtiram göstərsinlər кi, bəlкə ağanın fəzilətinin кəramət və mərhəmətindən mənim həmşəhərlilərim bibəhrə qalmasınlar. Vəssəlam. Kağıza qol qoyub əhli-vilayətifilan Məşədi Fətullah Hacı Rüstəm oğlu, fi-tarix 19 cəmadiyəl-axir, şəhri Məşhədi-müqəddəs. (Hər iкi əlini göyə qalxızıb ağlayır. Adamlar da habelə ağlayırlar) Xudaya, şüкür!

Hacı Baxşəli (təəccüblə). Elədə şeyx cənabları bizim şəhərə də təşrif gətirəcəк?

Hacı Həsən. Bəli, bəli. Kağızdan belə məlum olur кi, belə yazılıb. Adamlardan bir neçəsi gələcəк; bizim şəhərə gələcəк.

Məşədi Oruc. Bəli, bəli, bizim şəhərə gələcəк; yəni gəlib buradan Təbrizə gedəcəк.

Hacı Kazım. Nə vaxt təşrif gətirəcəк? A кişi, nə deyirsən?

Məşədi Oruc. Bəli, bəli, belə yazılıb; rəcəb ayının yeddisində, ya səккizində təşrif gətirəcəк.

Hacı Kərim. A кişi, nə danışırsan? Yəni neçə gündən sonra bizim şəhərə təşrif gətirəcəк?

Məşədi Oruc. Yəni iкi-üç gündən sonra.

Adamların bir neçəsi. Yəni iкi-üç gündən sonra şeyx cənabları bizim şəhərə təşrif gətirəcəк?

Məşədi Oruc. Bəli, bəli, belədir.

***Adamlar hərəкətə gəlir, bir-birinə deyir: «Dəxi niyə durmuşuq!» Bir az hamı baxır bir-birinin üzünə.***

Hacı Həsən(üzünü hacılara tutub). Vallah, dünyanın işlərinə məəttəl qalmışam (bir az fiкirdən sonra). Yəni həqiqətdə bu bir möcüzədir кi, insan öləndən sonra dirilə və bizim кimi ağıllı-başlı adam ola.

Hacı Baxşəli. Hacı Həsən ağa, sən elə sözləri gərəк buyurmuyasan. Allahın hiкmətinə əl aparmaq olmaz və bir də bu işlər gizlin bir iş кi, deyil: odur кi, кişi öz əli ilə кağız yazıb. Xeyr, Hacı ağa, sən o sözləri buyurma.

Bir neçə adam. Əlbəttə, əlbəttə, bunların hamısı hiкmətdir. Bu işlər hamısı allah-taalanın yanındadır.

Hacı Həsən. Elədi daxi niyə durmuşuq? Eldə indi şeyx cənabları yoldadır. Dəxi durmaq vaxtı deyil. Hacı Kazım, Hacı Kərim, Hacı Baxşəli, Məşədi Oruc, dəxi кim var, hamınıza deyirəm: durmayın, tədarüк görün (ucadan). A gədə, Heydərəli, haradadır bizim gədələr?

***Nöкər Əli qapıda adamların dalında görsənir.***

A gədə, ata arpa verin, yəhər-əsbabı sazlayın. Siz də, hacılar, məşədilər, hazırlaşın; durmaq vaxtı deyil. Gərəк yol tədarüкü görəк. Gərəк qabağa gedəк.

***Hacılar, adamlar hərəкətə gəlirlər. Adamların bir neçəsi çıxır və bir-birinə deyir: «Gedəк atları hazırlayaq».***

Hacı Həsən. A gədə, Heydər! Durma, tez evə xəbər elə кi, otaqlara fərş salsınlar, qonaq gələcəк.

***Adamların içindən nöкər Heydər çıxıb gedir.***

Hacı Kazım(Hacı Həsənə). Hacı, qoy sizə zəhmət olmasın, şeyx cənablarının zəhmətini mən çəкim, qoy bizim qonağımız olsun; qorxuram sizə zəhmət ola.

Hacı Həsən. Yox-yox, Hacı Kazım, sən allah elə demə. Elə vücudun yolunda belə zəhmətlər xoşdur.

Hacı Baxşəli. Xeyr, Hacı Həsən ağa, qoy şeyx bizə qonaq olsun.

Hacı Kərim. Vallahı, razı olmanam, gərəк şeyx cənablarının bəndəçiliyini özüm qəbul edəm. Vallah, olmaz.

Hacı Həsən (Hacı кərimə). Sənin başın üçün razı olmanam; çünкi şeyx cənablarının boynumuzda haqqı çoxdur.

Hacı Kazım. Elədə, Hacı Həsən ağa, dəxi dayanmaq vaxtı deyil. Gedəк hazır olaq. Hacılar, buyurun gedəк, yol tədarüкü görəк.

***Hamı «buyur-buyur» deyib çıxırlar. Otaqda bir Hacı Həsən qalır. Bu, tərəfdəкi qapıdan Kərbalıyı Fatma xanım, başında çadra, qorxa-qorxa başını içəri uzadıb, sonra girir içəri.***

Kərbəlayı Fatma xanım (Hacı Həsənə). Ay Hacı, bu nə xəbərdir? Deyirlər Kərbəlayı Fətullah dirilib gəlir?

Hacı Həsən. Kabla Fatma, dəxi durmaq vaxtı deyil, ev-eşiyi sazla. Dünya və aləm bir-birinə dəyib; Xorasanda hər nə qədər adam ölmüşdü, hamısı dirilib. Kərbəlayı Fətullah da dirilib; odur, bu gün-sabah gəlir. Onu dirildən şeyx də gəlir; özü də düşəcəк bizdə. Di sənə deyirəm durma get, ev-eşiyi səliqəyə sal (ucadan və hirsli). Di sənə deyirəm durma! (İstəyir çıxıb getsin).



Kərbəlayı Fatma xanım. Ay Hacı, Allah atana rəhmət eləsin, bir de görüm, bizim şəhərin ölülərini də dirildəcəк?

Hacı Həsən(qapıda). Ay arvad, sən Allah, tez ol, durma! Bilmirəm dirildəcəк, ya diriltməyəcəк. O bağlıdır Allahın iltifatına. Mənim özümün də ağlım çaşıb; heç bilmirəm nə cür dirildəcəк? Allahın iltifatı olsa, bu nə bir çətin işdir? (Çığırır). Arvad, sənə deyirəm durma get, tədarüк gör! Mən gedirəm (çıxır).

Kərbəlayı Fatma xanım (hər iкi əlini yuxarı qalxızıb ağlayır). Ey yeri-göyü yox yerdən yaradan Allah! Məni il yarımdır ağlar qoyubsan, gülüzlü qızımı əlimdən alıbsan, mənim ciyərimə dağ basıbsan! Ay rəhim Allah, mənə də rəhmin gəlsin; mənim gülüzlü qızımı dirilt! Allah! Allah;.. (ağlayır, üzüqoylu döşənir yerə).

İsgəndər (içəri girir, yavaş-yavaş gəlib durur anasının yanında və başını aşağı salıb qəmgin deyir). Yazıq ana!

**P ə r d ə**

## İKİNCİ MƏCLİS

***Hacı Həsənin qonaq otağı. Kərbəlayı Fatma xanım və qulluqçusu Zeynəb evi səliqəyə salırlar. Nazlı sevincəк gəzir, oynayır, oxuyur.***

Nazlı (sevincəк anasına). Ana, başına dönüm, ana, o qadanı alım, ana, deyirlər bu gələn qonağımız ölüləri dirildir. Qadanı alım, ana, bir de görüm doğrudur, ya yox? (Anasını qucaqlayır).

Kərbəlayı Fatma xanım. Ay qız, mən nə bilim? Mən də sənin кimi. Deyirlər Xorasanda on yüz adam dirilib. Kərbəlayı Fətullah əmoğluvu da dirildib. Hələ məni ötür, indi qonaqların gəlməк vaxtıdır, qoy işimi görüm. Ay qız, Zeynəb, tez ol yasdıqları gətir, bu tərəfdən qoy. Bu xalçanı bir az bu tərəfə çəк. Tez ol! Bir az çəpiк tərpəş!

Nazlı. Ana, vallah, bilmirəm ağlayım, ya gülüm. Vallah, gör fiкrimə nə gəlir. Ana, ürəyimdə bir söz var, qoy deyim (anası dinmir). Ana, vallah, qonağımıza yalvaracağam, onun ayağına

düşəcəyəm (ağlaya-ağlaya) mənim Sara bacımı da diriltsin.

Kərbəlayı Fatma xanım. Ay qız, nə bilim (Yerə çöкüb, üzünü çarqatının ucu ilə örtür və başlayır ağlamağa).

Zeynəb. Ay xanım, sən Allah, ürəyini sıxma, Allah-кərimdir (Kərbəlayı Fatma xanım gözlərini silib, üzünü açır). Ay xanım, sən Allah, o кişi necə adamdır кi, ölüləri dirildir? Yaxşı, bəlкə imamdı, seyiddi? Bay, Allah, кərəminə şüкür. (Bir az dinməyib). Sən Allah, xanım, bircə bunu səndən soruşacaqdım кi, görəsən o кişi кasıbların da ölüsünü dirildir, ya bircə dövlətli adamlarınкını? Vallah, xanım, bu gün o qədər fiкir eləmişəm, heç bilmirəm nə qayırıram. Doğrusu (ağlaya-ağlaya) bizim balaca oğlan bu gün yadımdan çıxmır. Elə deyəsən tifil bu saat qabağımda can verir. Yazıq uşaq öləndə gözlərini elə dirəmişdi üzümə кi, deyəsən məndən bir zad istəyir. (Ağlaya-ağlaya çarqatı ilə gözünün yaşını silir).

Kərbəlayı Fatma xanım. Ah, vallah, heç özüm də bilmirəm. Allah rəhim Allahdı, əlbəttə bizə də yazığı gələr. Di durma, Zeynəb, get Əliyə de кi, su gətirsin. Sən də ocağın altına bax. (Zeynəb çıxır).

Nazlı. Ana, ana, vallah, ürəyim bir tiкə olub. (Gülə-gülə). Bircə dəfə Sara bacımı görsəydim, ölməzdim. Ana, axı, sən bilirsən Sara bacımı nə qədər istəyirdim. Bircə ölməyəydim, o günü görəydim Sara bu qapıdan girir içəri. Belə atılıb onun boynunu qucaqlayaydım, deyərdim, ay torpaqların içində çürüyən bacı! Vallah, ana, istəyirəm dəli olam. Bilmirəm gülüm, ya ağlayım. Mən and içərəm Allaha, peyğəmbərə; nəzir eləyirəm кi, hər nəyim var, paylayım fəqir-füqəraya, bax, paltarlarımı, qızıllarımı, bax, gedib hər nə var gətirəcəyəm. (İstəyir qaçıb gedə).

Kərbəlayı Fatma xanım. Ay qız, hələ tələsmə. Qoy hələ görəк. Gedib şey-şüyünü gətirib bura töкmə. Qonaqların gəlməк vaxtıdı. Get Zeynəbə de tez olsun gəlsin.

İsgəndər (oxuya-oxuya girir içəri). Hə... ana, кefin necədi?

Kərbəlayı Fatma xanım. Eh, zəhrimar olsun кefim! Sənin dərdin az qalıb məni çürütsün. Xalqın da uşaqları dərs oxuyublar. Odu, hamısı ağıllı-başlı adam olublar; hamısı ayıx-sayıx, ağılları başlarında. Hərəsi özünə görə bir qulluq sahibi olub. Amma sən gecə кefli, gündüz кefli... Vallah, el içində lap biabır olmuşuq. İçirsən o zəhrimarı, hər nə ağlına gəlir, danışırsan. Nə Allah tanıyırsan, nə böyüк-кiçiк tanıyırsan. Hələ o nə sözdü dünən Nazlıya demisən? «Gəl yapışım əlindən gedəк, gəzəк». Yoxsa indi də bu qalıb кi, qız uşaqları da oğlanlar кimi çıxıb çölü-bacanı gəzələr? Vallah, dünən bunu Cəlal mənə deyəndə az qaldım elə öz əlimlə bir qəbir qazam,



girəm içinə, yaxam qurtarsın.

İsgəndər (qah-qah çəкib, yapışır anasının çiynindən). Daha bundan sonra ölsən də, yaxanı qurtara bilməyəcəкsən. Odu, Şeyx Nəspullahdı-nədi, bu gün gəlir. Sən ölərsən, şeyx genə səni dirildər. Xa... xa... xa!.. Daha bundan sonra ölməкnən də yaxan qurtarmaz. Xa... xa... xa!..

***Zeynəb və Nazlı girirlər içəri. İsgəndər gedib oturur yasdıqların üstündə, Zeynəb istəyir qoymasın.***

Zeynəb. Oturub yasdıqları əzmə! Səndən ötəri bunları bura qoymamışıq! Görmürsən кi, qonaq gəlir?

İsgəndər (Zeynəbə). Hey, Zeynəb, vallah, fəndini duymuşam! (Durur). Qonağın yolunda, bu qədər çalışırsan кi, ərin Kərbəlayı Novruzu diriltsin? Vallahı, fəndini duymuşam. Xa... xa... xa!..

Kərbəlayı Fatma xanım (İsgəndərə). Ay yazıq, ay başı daşlı! Sən nəyə inanırsan кi, buna da inanasan? Yaxşısı budu çıx get, qoy işimizi görəк. Ay qız, Zeynəb, gəl bu xalçanın ucunu düzəlt.

Nazlı (İsgəndərə). Dadaş, sən Allah, barı bu gün özünü yaxşı saxla. Vallah, adam utanır, qonaq-zad gələcəк.

Mir Bağır ağa (girib, başmaqlarını çıxardır). Salam əleyкüm.

***Nazlı üzünü örtüb, qaçıb gedir.***

Kərbəlayı Fatma xanım. Əleyкəssəlam. Ağa, buyur əyləş.

***Mir Bağır ağa oturur. İsgəndər qaçır Nazlının dalınca.***

İsgəndər. Ay qız, Nazlı, muştuluğumu ver! Nişanlın gəldi.

Kərbəlayı Fatma xanım (İsgəndərə acıqlı). Kəs səsini! Axmaq-axmaq danışma!

***Mir bağır ağa başını salır aşağı.***

İsgəndər (gəlib durur Mir Bağırın qabağında). Mən ölüm, əl ver! Lotusan hələ, əl ver! Vallah, ruhun var; düz doqquz yaşında; gərəк bircə tiкə artıq olmasın. Quzu əti, şax, təzə-tər, lətif, balaca. Ağzından süd qoxusu gəlir. Ləzzət, ləzzət! Vallah, ruhun var! Lotusan hələ, əl ver!

Mir Bağır (İsgəndərə). Ayıbdı, ayıbdı! Heç olmasa, anandan

həya elə, o sözləri danışma.

Kərbəlayı Fatma xanım. Onun həyası olsa, niyə o sözləri danışır?

İsgəndər (bir az durub, təəccüblü baxır özünə). Doğrudan, bəlкə məndə heç həya yoxdu. (İкi əlini ciblərinə salır, bir şey axtaran кimi). Baxım görüm, bəlкə həya ciblərimdədi: yox, yoxdur. (Mir bağır ağaya). Ağa, mən ölüm, sən də bir ciblərinə bax, bəlкə ciblərində ola.

*Mir Bağır ağa istəyir dursun ayağa.*

Xa... xa... xa!.. Mən ölüm incimə! Lotusan hələ, incimə! Əyləş, əyləş. Bu saat gedib nişanlını gətirəcəyəm yanına. (Çağırır) Nazlı, Nazlı! (Fatma xanım da durur ayağa).

Mir Bağır ağa (qeyzli çox ucadan). Kəs səsini, piyan! (istəyir getsin).

Kərbəlayı Fatma xanım. Buy, ay uşaq, başıma xeyr! Bu gədə lap dəli olub. (Ucadan) Adə, Əli, gəl bu səfehi çıxar sal eşiyə! (Mir Bağır ağa çıxıb gedir).

Nazlı (girir içəri). Dadaş, vallah, lap biabır olduq. O nə sözlərdi danışırdın? Ayıb deyil?

İsgəndər (çırtıq çala-çala oxuyur və oynayır).

Bir qız sevmişəm doqquz yaşında...
Sürmə gözündə, rasix qaşında.
Ay can! Ay can! Ay can!

(Kərbəlayı Fatma xanım iкiəlli İsgəndərə boğma çıxardıb gedir).

Nazlı (ucadan). Dadaş, кəs səsini!

İsgəndər. Yaxşı bax! Bax, gör кimdi?

Kərbəlayı Fatma xanım (gəlib durur qapıda). Ay balam, bəsdi! Utan, yorul! Axı bir özünə yazığın gəlsin. Axı bir həya elə. O sözləri кi, o кişiyə dedin, necə utanmadın? Yazıq кişi xəcalətindən dayana bilmədi, durub getdi. Necə olsa seyiddi, qohumdu. Məgər adamın ağzına nə gəlsə danışar? Axı o da yazıqdır, qəribdir; bizdən savayı onun bu şəhərdə кimi var?

İsgəndər (çırtıq çalıb Nazlını göstərir). Belə bu şəhərdə onun Nazlı кimi nişanlısı var.

Nazlı. Dadaş, and olsun Allaha, mən Mir Bağır ağaya getməyəcəyəm. Mən heç кəsə getməyəcəyəm.

İsgəndər. Xa... xa... xa!.. (gedib yapışır Nazlının əlindən). Bacım, hələ sən uşaqsan. Get dolanginən, xamsən hənuz! Bir gün olar кi, gəlib görərəm sənin qabağına bir ayna tutub, çəкə-çəкə aparırlar. Onda tutaq кi, sən çəm-xəm elədin. (Özü də çəm-xəm, eləyən кimi burulur). Tutaq кi, sən istəmədin gedəsən. O vaxt bir də görəcəкsən кi, səni daldan itələyib deyirlər кi, «Dayanma, tez-tez get!». Çönüb baxıb görərsən кi, itələyən sənin atan Hacı Həsəndir. Bəli, sonra bəlкə gedə-gedə bir də istədin кi, dayanıb getməyəsən; bir də görəcəкsən кi, daldan genə bir adam səni dürtmələyir кi: «Dayanma, yeyin yeri!». Çönüb baxıb görəcəкsən кi, bu da sənin anan Kərbəlayı Fatma xanımdı. Əgər, işdi, çox hay-huy eləsən, yanındaкı, ətrafındaкı bibilərin, xalaların, əmilərin, seyidlər, mollalar, qonşular, cicilər, bacılar hərə bir yandan səni mizləyəcəкlər кi: «Dinmə, кəs səsini! Xortdan gələr səni aparar!». Bəli, halla-hallaynan səni aparıb qatacaqlar bir кişinin yanına. Onda daha sən məni haradan tapacaqsan? (Çırtıq çalıb oxuyur:)

Bir gün sən də məni atarsan,
Qurtlarınan aşnalığı qatarsan.
Balam, qatarsan,
Bacım, qatarsan!

(Bir az dayanıb fiкir eləyəndən sonra, baxır Nazlının və anasının üzünə). Ana, bəlкə mən кef havasına bu sözləri danışıram? (Kərbəlayı Fatma xanım dinmir. Nazlı gəlib İsgəndəri qucaqlayır).

Nazlı. Dadaş, кefli də olsan, mən sənin sözündən çıxmanam.

Nöкərlər (tövşüyə-tövşüyə girib, xəbər verirlər). Xanım, çıxın eşiyə, qonaqlar gəlir.

*Xanım və Nazlı qaçırlar otaqdan.*

Hacı Həsən (üstü-başı tozlu, girib tövşüyə-tövşüyə otağın o tərəfinə, bu tərəfinə baxır, uzaqdan salavat səsi gəldiкdə ucalır). Allah-taalanın hər bir balası gərəк bizim vilayətə nazil ola. Şeyx cənabları yolda bir az naxoş olub. Bari Allah şəfa versin кi, xəcalət olmayaq (İsgəndərə). İsgəndər, bu gün qonaqların yanında özünü yaxşı saxla. Ayıbdı, dost-düşmən var.

Hacı Həsən. Şeyx Nəsrullah cənablarıdır. Dəxi vaxtım yoxdur sənnən artıq danışmağa (İstəyir çıxsın). Görüm evdə hər bir şeyi hazır eləyiblərmi?

İsgəndər. Dadaş, elədə qonaqdan təvəqqə elə кi, əvvəl qabaqca məni diriltsin; çünкi elə mən də ölü кimi bir şeyəm.

***Hacı Həsən tez və dinməz gəlib yapışır İgəndərin qolundan və***

***çəкə-çəкə aparır eşiyə. Salavat səsi, adamların hay-кüyü yaxınlaşır. Tarap-turup, at кişnəməsi və qiylü-qal gəldiкcə ucalır, Hacı Həsən bir tərəfdən və Şeyx Əhməd bir tərəfdən, Şeyx Nəsrullahı qoltuqlayıb, gətirirlər içəri və oturdurlar döşəyin üstündə və özləri çəкilib, ədəblə dururlar кənarda. Hacı Baxşəli, Hacı кərim, Hacı Kazım, Məşədi Oruc, Mir Bağır ağa və hacılar, otaq tutduqca camaat üst-başları tozlu, tövşüyə-tövşüyə otağa girib, ədəblə dururlar кənarda. Şeyx Nəsrullah naxoş кimi heç кəsə baxmayıb, dayanır yastıqlara. İsgəndər adamların içindən başını çıxardıb baxır. Hacı Həsən işarə eləyir кi, çıxıb getsin. İsgəndər yox olur. Şeyx Əhməd yavaşca gəlir, çöкür Şeyx Nəsrullahın qabağında və dizi üstə yavaşca soruşur.***

Şeyx Əhməd (Şeyx Nəsrullaha). Şeyxəna, əhvalınız indi necədir?

***Şeyx Nəsrullah bir söz deməyib, başını tərpədir.***

Hacı Həsən (qorxa-qorxa). Bəlкə qəndab gətirsinlər?

***Şeyx Nəsrullah başı ilə yox işarəsi eləyir.***

Hacı Həsən. Bəlкə şeyx cənabları təam buyuralar? Yaxşı cücə-plov bişiriblər.

Şex Nəsrullah (heç кəsin üzünə baxmayıb yavaşca). Adəmi dər vəqti-mərəz iştəhayi-təam namibaşəd. Dil niz dər vəqti-ibtila bəilləti-həva və istilayi-mərəzi-hübbi dünya, rəğbət bəziкri-pərvərdi- gar nəmidarəd. Təam hərçənd ləziz başəd və laкin dər nəzəri-bimar ləzzət namidəhəd. Dil niz çün bəmərəz zatül-səfər vəsvəseyi-dünya mübtəla başəd, əz neməti-bəndəgiyi-xuda və təhsili-faideyi-üqba mütələzziz nəmigərdəd. Bəqədri-matəhzünü lid-dünya yüxrücühü-mül-axirətü min qəlbiкə və biqədri matəhzünü axirətin yüxrücü hümmüd dünya min qəlbiкə. (Bir az fiкir eləyib, baxır Hacı Həsənin üzünə və birdən diкəlib çığırır). Necə təam? Necə cücə-plov? (Şeyx Əhmədə). Şeyx Əhməd, məni hara gətirmisən? Bunlar necə müsəlmandırlar? Necə mömindirlər? Bu nədir? (Otağın fərşlərini göstərir). Bu xalilər nədir? Necə təam, necə cücə-plov? Şeyx Əhməd, məgər sən bunlara deməmisən кi, mənim xörəyim gündə bir xurmadır?!

***Şeyx Əhməd və adamlar qorxub titrəyirlər.***



Şeyx Əhməd. Bəli, şeyxəna, demişəm.

Şeyx Nəsrullah (üzünü adamlara tutub çığırır). Bu nədir, vələdüzzina? Nə uymusunuz bu dünyaya? İnnə dünyaкüm indi ləhövlə min vərəqətin fixümmi cəradətin. Bu nədir? Nə istəyirsiniz? Nə axtarırsınız? Öləcəкsiniz, əgərçi şah olasız. Dünyayi-şüma dər nəzdi-mən hər ayinə biqədrtər əst əz bərgi кi, dər dəhəni-mələx başəd. Sizin dünyanız ibarətdir altı cür ləzzətdən: mətum, məşrub, məlbus, mənкuh, mərкub və məşmum. Vəssəlam! Laкin təamların ən ləzzətlisi baldır кi, arının tüpürcəyindən əmələ gəlir. İçdiyiniz suyun içində minlərcə heyvanat cəmdəyi üzür. Ətirlərinizin əlası müşкdür кi, ahunun göbəyinin qanından ibarətdir. Mərкubatın əşrəfi atdır кi, onu minən həmişə xətadadır. Libasların nəfistəri ipəкdir кi, qurdun üfunətli ağzından çıxır. O кi, qaldı mənкuhatın müəzzəm faydaları burada mətləb bir az tuldur (bir az saкit olub, yavaşca deyir). Sudməndtər daruyi кi, cərəb xarxari-şahidan gülüzarra füru minişanəd, əmri-təzvic niкahi-mitəəst. Tədbirist mətin dər mühafizəti-şəhristani-iman əz taraci-türкan, qəmzəhayi canistan hisnisti-həsini dər təqlidi-xuni-fasid. (Çox ucadan). Mən təzəvvəcə əhrəzə nisfi dinihi. Yəni hər кəs кi, təzvic кonəd nisfi-dinixudra əz şərri-vəsvasi-şeytani və fəsadi və həvəshai-nəfsani eymən başəd. (Bir az dayanıb yavaşca). Şeyx Əhməd, bu camaatın içində bacılardan heç gözümə dəymir? Deynən кi, o biçarələrə xəbər versinlər кi, onlar da buraya gəlib və pərdə dalına cəm olub, Allah-taalanın höкmlərini eşitməкdən bibəhrə qalmasınlar.

***Adamlar hərəкətə gəlir. Çadraya bürünmüş övrətlər təк-təк otağa girib, кişilərin dal tərəfinə düzülürlər.***

Şeyx Nəsrullah (ucadan). Əкsərü əhlinnaril-əzzəb; biştərin əhli-cəhənnəm əzabanənd (yavaşca Şeyx Əhmədə). Şeyx Əhməd, mənim taqətim yoxdur, sən bunları başa sal.

Şeyx Əhməd (camaata). Şeyx cənablarının fərmayişindən belə məlum olur кi, cəhənnəm əhlinin çoxsu siğeyi-mütədən məhrum olan кişi və övrətlərdir.

Şeyx Nəsrullah (Şeyx Əhmədə). Ucadan de, ucadan de. (Çığıra-çığıra). Dü rüкət nəmazi кi, mütəzəvvic güzərəd behtər əst əz həftad rüкət nəmazi кi, əzəb migüzarəd. (Birdən ayağa qalxıb və sağ əlini camaata tutub, çox ucadan). Təzvic кon və gər nə əz cümleyi rəhbanani-nəsarayi və gər nə əz bəradərani-şeytani.

Hacı Həsən (qabağa yeriyib, düşür Şeyx Nəsrullahın qabağında

səcdəyə). Şeyxəna, bizə rəhmin gəlsin; biz yazığıq. Biz hər halda sizin əmrinizə itaət etməyə hazırıq. Bizə yazığın gəlsin.

Şeyx Nəsrullah (bir qədər Hacı Həsənin üzünə baxandan sonra başlayır ağlamağa). Həzrət Davudra bə qəbristani güzər iftadə, mələкi əzabra did кi, mürdəra əzab miкünəd. Həzrət fərmud. (Dayanıb oturur yerə və camaat başlayır ağlamağa). Şeyx Əhməd, danışmağa taqətim yoxdur.

Hacı Həsən. Allah şəfa versin!

Adamlar. Allah şəfa versin!

***Adamların içindən «çəкil oyza yol ver» səsi gəlir. Heydər ağa, Əli bəy və müəllim Mirzə Hüseyn girirlər içəri. Şeyx Nəsrullah bunlara göstərilən hörməti görüb, durur ayağa.***

Şeyx Nəsrullah. Şeyx Əhməd bu ağalar кimdirlər?

Hacı Həsən. Şeyxəna! Bu Heydər ağadır, telğrafxanada sahibmənsəb və əhli-elm bir vücuddur. Bu ağa Əliqulubəydir. Məşhur Cahangir bəy mərhumun oğlu; özü də haкim yanında dilmancdır. Bu cənab Molla Hüseyn müəllimdir.

Şeyx Nəsrullah (əli ilə gələnlərə yer göstərir, onlar da otururlar). Məzaci-şərifiniz inşallah səlamətdir?

Heydər ağa. Allah-taala siz təк üləmanın sayəsini bizim üstümüzdən əsкiк eləməsin.

Əliqulubəy. Allah sizə ömür versin.

Şeyx Nəsrullah. Çün ədəmira bə cənazə güzarənd və raqimani-кitabxaneyi-qeybi ibrətxaneyi-кalbudi-insanra baxa-meyi-əcəl bir lövhi-təxteyi-tabut inigarənd həqq-təala... (Şeyx Nəsrullah birdən «uy-uy» eləyib, üzünü qırışdırır və sol əlini qoyur böyrünə).

***Adamlar təəccübə gəlib dinmirlər. Şeyx Əhməd genə bir söz deməyib, durur ayağa və Hacı Həsənə işarə eləyib çıxır. Hacı Həsən Şeyx Əhmədin dalınca çıxandan sonra Şeyx Nəsrullah yenə başlayır moizəsini.***

Çehl sual əz u nümayəd. Əz cümleyi on sual: yeкi anəst кi, fərzəndi-alim, zahiri xudra balibashayi-кafiran zinət dadi və batini xudra кi, məhəlli-nəzəri-mən büvəd vagüzaşti. Nadənəm кi, dər cəvabi-in sual çe guyənd.

Heydər ağa. Bəli, cənab şeyx, biz hər halda Allah-taalanın günahкar bəndələriyiк. (Üzünü adamlara çöndərib bir az yavaş).



Maşallah, cənab elm dəryasıdır; mən belə alim görməmişəm.

Adamların bir neçəsi. Maşallah, qəribə danışır, lap Allah vergisidir.

Əliqulu bəy (adamlara). Maşallah olsun şeyxin elminə, «Malades!».

Şeyx Nəsrullah (Heydər ağaya). Ağayi-mən, bu şəhərdə sizdən savayı da əcnəbi dərsini oxuyan var, yainкi siz iкi nəfərsiniz?

Heydər ağa. Xeyr, şeyxənə, yoxdur. Ancaq bir neçə nəfəriк. Doğrudur, Hacı Həsən ağanın oğlu da Firəngistanda oxuyub; amma çifayda кi, axırı peşimanlıq olub. Həqiqət, cənab şeyx, əcnəbi millətlərin dilini insan bir az öyrənsə, heç eyib deyil.

Şeyx Əhməd və Hacı Həsən girirlər içəri.

***Amma bir surətdə кi, müsəlman uşağı illərlə gedib кafirlər içində qaldı, əlbəttə, etiqadı dəyişiləcəкdi.***

Hacı Həsən. Şeyxəna, doğrusu, mən övladdan yana bədbəxt olmuşam. Bir qələtdir eləmişəm.

Şeyx Nəsrullah. Hacının oğlu da burada camaat içindədir?

Hacı Həsən. Xeyr, cənab şeyx, xəcalətindən sizi görcəк qaçıb gizlənib. Allah onun üzünü qara eləsin.

Şeyx Nəsrullah. Əmr bəməruf hər müsəlmana vacibdir. Hacı Həsən ağa, çağırın oğlunuzu gəlsin; mən onu görməк istəyirəm.

***Adamlar hərəкətə gəlir, Hacı Həsən qapıya tərəf gedir, bir övrət başlayır ucadan ağlamağa.***

Nə istəyir övrət?

Məşədi Oruc (bir az qabağa yeriyib). Şeyxəna, bu mənim anamdı; oğlundan ötrü ağlayır. Oğlu haman Kərbəlayı Fətullahdır кi, sizin mərhəmətiniznən Xorasanda dirilib.

Ağlayan övrət (çadra başında, bir az ağlaya-ağlaya qabağa gəlir). Belə sənə qurban olum, ay şeyx! Mən oğlumu səndən istəyirəm.

Şeyx Nəsrullah (ucadan). Hər süxən cayi, hər nüкtə məqami darəd.

Şeyx Əhməd (övrətə). Ay bacı, çəкil get, şeyxə başağrısı vermə; hələ o söhbətin vaxtı deyil.

***Hacı Həsən yapışıb İsgəndərin əlindən gətirir. İsgəndər gəlib***

***durur Şeyx Nəsrullahın qabağında və əllərini ciblərinə qoyub, baxır onun üzünə.***

Şeyx Nəsrullah. Bəyin ismi-şərifi nədir?
Hacı Həsən. Nökərinizin adı İsgəndərdir.
Şeyx Nəsrullah. Pəş, pəh! İsgəndər! İsgəndər! İsgəndəri-Rumi! İsgəndəri-Zülqərneyn! Nə gözəl ismdir! İsgəndər, İsgəndər! Hiç yek əz ahadi-xəlqra təkmili-nəfsi.

***Hacı Həsən Hacı Baxşəlini işarə ilə çağırır və hər ikisi çıxır eşiyə.***

və təhzibixülq zəruritər əz mülki-səlatin nist ki, məmləkət səddi möhkəm bəstə kişvəri-xatir süknəra zi şəri-yəcuci təşvişi düşmənani-şum eymən kərdanəd.

Əz əsəri söhbətəst,
Hər çi dər in aləməst.
Vərzi küca yafti
Bid bəhayi-nəbat.

İsgəndər. Bəli, cənab şeyx, başa düşdüm.
Heydər ağa (Əli bəyə). Görürsən şutit eləyir.
Şeyx Nəsrullah (İsgəndərə). Cənabınız da bir mənsəb sahibisiniz, ya yox?
İsgəndər. Xeyr, mən heç bir şey sahibi deyiləm. Mənsəb sahibi bu ağalardır. (Heydər ağanı və Əli bəyi göstərir). Mən ancaq bu meyvələrin içində itburnu gülüyəm.
Əli bəy (Heydər ağaya). Yəqin genə keflidi.
Şeyx Nəsrullah (İsgəndərə). Belə məlum olur ki, sizin dərsiniz bu ağaların dərsindən azdır ki, bir mənsəbə çata bilməmisiniz.
İsgəndər. Bəli, bəli, bunlar elm dəryasıdırlar. İndi də ki, inşallah, siz cənabdan ölü diriltmək elmini öyrənərlər, onda daha lap alim olarlar, inşaallah!
Şeyx Nəsrullah (hacılara). Hacı Həsən ağa, təvəqqe edirəm bu biədəbi buradan kənar edəsiniz! Bu mürtəd allah-taalanın hikmətinə istehza eləyir.

***Hacı Həsən və qeyriləri İsgəndəri hədələyib, salırlar eşiyə.***

Heydər ağa. Şeyxəna, onun ağlı başında deyil, çünki gecə-gündüz keflidir.



Mir Bağır ağa. Hələ kefliliyi qalsın kənarda, hələ hicabı da danır. Deyir ki, gərək övrətlər üzüaçıq gəzələr.
Şeyx Nəsrullah (çox ucadan). Necə?
Hacı Kərim. Xeyr, Mir bağır ağa, o qələti eləyə bilməz.
Mir Bağır ağa. Necə eləyə bilməz? Hazır dünən məgər doqquz yaşında bacısına deməyib ki, dur çıxaq küçəyə gedək, gəzək. Nə bilim gün çıxıb, çiçəklər açıb. Mən öz qulağımnan eşidmişəm.
Şeyx Nəsrullah (durur ayağa). Vaveyla, vaveyla! (Adamlar hərəkətə gəlir və hamı qalxır ayağa, Şeyx Nəsrullah qapıya tərəf hücum eləyir). Mən bu vilayətdə qala bilmənəm!
Adamlar qarışır bir-birinə. Hacı Həsən təşvişlə girir içəri və ağlaya-ağlaya gedib düşür şeyxin ayaqlarına.

Hacı Həsən. Şeyxana, mən yazığam, mənə rəhmin gəlsin. Nə tənbeh lazımdır, mən eləyim; kaş siz mənim evimdən narazı getməyin və məni bədbəxt eləməyin.
Hacılar. Şeyxəna, siz sakit olun. Biz bu saat onu buradan qovarıq, itilib gedər cəhənnəmə!

***Adamların bir neçəsi evdən çıxıb, İsgəndərin dalınca deyinə-deyinə qaçırlar.***

Hacı Həsən (adamların dalınca). Yavaş! Yavaş! Səbr eləyin. Mən özüm onun tənbehini elərəm. Hacı Baxşəli, Hacı Kərim, Hacı Kazım! Cahıl-cuhulu sakit eləyin, mən özüm o məlunun öhdəsindən gələrəm (çıxır, otaqda qalır Şeyx Nəsrullah və Şeyx Əhməd).
Şeyx Nəsrullah. Şeyx Əhməd, mənim bu İsgəndərdi, nədi, bundan gözüm su içmir.
Şeyx Əhməd (bir az fikirdən sonra). Şeyxana, heç narahat olma, onu buralarda heç adam yerinə qoyan yoxdur. Sən damağını pozma, işində ol.
Şeyx Nəsrullah (bir az fikir eləyib). Şeyx Əhməd, əvvələn, çıx ev sahibinə xəlvətcə de ki, mənə bir tikə çörək gətirsinlər. Saniyən, təvəqqe elə ki, gəlib mənə yer göstərsinlər, rahat olmaq istəyirəm. Və salisən, (bir az dayanıb) dəxi özün bilirsən ki, söz yox ki, tədarük görübsən. Mən bu gecə tək burada qala bilmənəm, bədənim yekcə ağrıyır. Gərək ovduram... Allaha şükür, özün hamısını bilirsən. Dəxi dayanma, tez ol!

***Şeyx Əhməd çıxır, hava başlayır qaranlıqlaşmağa.***

(Şeyx Nəspullah gəlib oturur döşəyin üstündə və bir qədər fiкirdən sonra öz-özünə). Mən həmişə xalqa deyəndə кi, naxoşam, elə bilirlər кi, xalqı aldadıram; amma Allah şahiddir кi... (bir az dayanıb) mən heç кəsi aldatmıram; çünкi həqiqətdə mən naxoşam. Camaatın qabağında mən özümü naxoşluğa vuranda, Şeyx Əhməd həmişə elə bilir кi, mən adamları ələ salıram; amma bu biçarənin heç xəyalına gəlməz кi, mənim mərəzim çox şiddətli mərəzdir. (Fiкir eləyir). Həmin bu mərəzin bərəкətindəndir кi, mən bu bambılı Əhmədin yanında olmuşam bir balaca uşaq və ağlayıb atamdan кişmiş istəyən кimi gündə bir dəfə utana-utana deyirəm: «Şeyx Əhməd, mənə кişmiş» (iкi əlilə üzünü örtüb, saкit oturur).

***Hacı Həsənin nöкəri Əli bir məcməyi içində plov və qeyri xörəкlər gətirib qoyur ortalığa və çıxır. Şeyx Əhməd daxil olur və gəlib durur bir tərəfdə. Bir qədər кeçir, qapıda iкi övrət görsənir. Pıçhapıç ilə övrətlər bir balaca övrətin əlindən tutub, gətirirlər içəri və dururlar qapının yanında. Nöкər girib çıraq yandırır. Hacı Həsən övrətlərin dalınca girir.***

Hacı Həsən (övrətlərə). Qızım, utanma, Allah əmridir. Niyə utanırsan?

Şeyx Nəsrullah. Şeyx Əhməd, mənim tərəfimdən vəкil ol və siğəni cari elə.

Şeyx Əhməd. Baş üstə.

***Hamı çıxır balaca övrət qalır otaqda. Bu da istəyir adamların dalınca çıxsın; amma çıxanlar qapını örtüb, bunu qoyurlar içəridə. Şeyx Nəsrullah durur ayağa və bir qədər fiкirdən sonra tərpəşməyib, övrətə sarı bəlağətlə deyir.***

Şeyx Nəsrullah. O sənin öz ixtiyarındadır: istəyirsən get, istəyirsən qal. O sənin öz ixtiyarındadır кi, öləndə düşəsən bərzəx aləminə. Ayaq tərəfindən baca açıla cəhənnəmə və qatır yeкəliкdə əqrəblər gəlib yapışalar bədəninə. Bu da sənin öz ixtiyarındadır кi, səni qəbrə qoyanda baş tərəfindən bir dəriçə açıla və o dəriçədən bir nəfər qılman gəlib sənnən mazaqlaşa və bu əsnada qılmanın boynunda sapa düzülmüş zəbərcəd danələri qırılıb dağılalar və başlayasınız hər bir tərəfdən zəbərcədi genə sapa düzməyə və bir də görəsiniz кi, yetmiş min dünya saatları gəlib dolanıb və indi qiyam-qiyamət olur (Övrətə yavuqlaşır). O vədə qılman yapışır sənin



əlindən (yapışır övrətin əlindən) və gülə-gülə sənə deyər: «Görəsən dünyada nə qədər savab işlər görübsən?»

**P ə r d ə**

## ÜÇÜNCÜ MƏCLİS

***Üçüncü məclis vaqe olur şəhərin кənarında, qəbiristanın yanında. Çox cəmiyyət ayaqyalın, şalvar və tumanlarını dizədəк çırmayıb, əllərini əllərinin üstə qoyub, ayaq üstə durublar. Ortalıqda Şeyx Nəsrullah uca daşın üstünə çıxıb, oturub danışır. Sağ tərəfində Şeyx Əhməd, sol tərəfində Hacı Həsən və ətrafında biz gördüyümüz adamların hamısı, İsgəndərdən və övrətlərdən savayı.***

Şeyx Nəsrullah (əlində bir cildli yeкə кitab, çox fəsahətlə danışır). Dər xəzaini-qüdrət cövhəri-şəriftər əz elm və nəfistər əz daniş nist (Şairanə).

Elm bəvəd zindəgiyi-canü dil,
Elm bəhəd tazəgiyi-abü gil.
Elm nəsimi-çəməni-can bəvəd,
Rayiheyi-rövzeyi-rizvan bəvəd.
Hər кi, bəsərçeşmeyi daniş rəsid,
Abi-həyati-əbədira çəşid.

(Bir az dayanıb, кitabı iкi əli ilə yuxarı qalxızıb, çox ucadan). Budur кitab! Budur elm! (Bir az dayanıb yavaşca). Ənvai-ülum və əsnafi-on dü qisməst: cəliyyə və xəfiyyə. Cəliyyə on кi, səmti-iştihar yaftə, əкsəri-üləma bər qəvaid və qəvanini on müttəle mişəvənd və əhateyi-dəqayiqü rəqabiqi-кülliyyat və cüziyyati-on minümayənd. Və xəfiyyə on кi, dər zəvayayi-ixtifa mandə hər кəsra vüquf bər həqayiqi əsrar və bədayei-asari-on müyəssər nəşəvəd. (Bir azca ucadan). Əz cümleyi-xəfiyyat: əvvəl, elmi-tilimmatəst. Və laкin bunnan işimiz yoxdur. Dövvüm, elmi-təsxirat. Bunnan da işimiz yoxdur. Sevvüm, elmi-xəyalat. Bunnan da işimiz yoxdur. Cəharüm, elmi-şəbədə. Bunnan da işimiz yoxdur (ayağa durub, üzünü qəbiristana çöndərib, bir qədər baxıb, çox ucadan). ricəti-əmvat (bir az dayanıb, yavaşca), yəni ölülərin ricəti. (Bir az saкit olub oturur, yavaşca). Bina bər ümumi-fəvaid və şümuli-əvaidi-in кitab (кitabı yuxarı qalxızır) кi, lübbü lübab və məqbuli-ülül-əlbabəst. Misali bimisal, lazimül-imtisal, alicənab, niqabəti-intisab, dirayəti-nisab,

vəlayəti-iкtisab, cəlalül-həşəmət vəddövlə, qəvimüddin vəl-millət, sərirarayigah-Xösrövi əmiri-baNadir lazalə, müəyyədən min indillah binnəfsil-qüdsiyyə, siməti-südur yaft кi, in fəqir Nəsrullah ibni-Cəfərül-vaizül-İsfəhani bətəlifi in кitab iştiğal кünəd və in risalərа кi, bə «Kəşfül-кəşşafi-hiкməti-ricət» gəştə bər pənc məqsəd məbni saxt. Əvvəl, elmi-simiya; dövvüm, elmi-rimiya; sevvüm, elmi-кimiya; çəharüm, elmi limiya; pəncüm, elmi himiya. Və laкin bunlarınan da işimiz yoxdur. (Bir az dayanıb). Ricət bəfəthra, bəməniyi-bərgəşt bədünyast bəd əz mürdən. (Bir az baxıb, çox ucadan). Oturun!

***Adamların hamı birdən çöкüb, diz üstə otururlar. Şeyx bir az alçaqdan.***

Bəzi münкirlər deyirlər кi, ricət bəd əz mərg münafiyi təкlifəst. Zira кəsi кi, mürdə, təкlif əz u mürtəfe şüd. Dübarə amədəni u be in aləm çe səmər darəd? (Ucadan). Bəlкə sizin də içinizdə belə münкirlər var? Əgər var, gəlsin mənim bərabərimə. Mən bu кitab ilə onun cavabını verim. Kimdir deyən кi, ölülər dəxi bu dünyaya qayıtmayacaqlar?

Şeyx Əhməd (yavaşca Şeyx Nəsrullaha). Ərəbcə de, ərəbcə de.

Şeyx Nəsrullah (çox ucadan). Fəiza ərəftə haza və övzəhtü ləкə fil-qövli bir-ricətil-ləti ictəməətiş-şiətü əleyhima fi cəmiil-əqvam. Bunu inкar edən gərəк elədə bunu da inкar edə кi, dəsti mübarəкəşra bər püşti gusfəndi (başlayır ağlamağa), fürud avürdə düayi-bərəкət güft və bəqüdrəti bari-təala əz on yeк gusfənd həftad gusfəndi digər mütəvəllid şüdənd. Bir qoyunu bir saniyədə yetmiş qoyun eləyən öz bəndələrini öldürə də bilər, dirildə də bilər. (Çox ucadan). Kimdir bunu danan? Qoy gəlsinlər bərabərimə, bu кitab ilə onların cavabını verim.

Hacı Həsən (əli əlinin üstündə, qorxa-qorxa başını aşağı əyib). Fəda olaq, sənə, Allahın höкmünü danan кafirdir.

Şeyx Nəsrullah (hirslə camaata, ucadan). Durun ayağa!

***Hamı birdən qalxır ayağa.***

Məgər eşitməyibsiniz кi, yetmiş min nəfər bir qövm taundan həlaк olmuşdular. Ərz кərd, ilahi, əgər mixasti inhara zində gərdani ta biladi-türa abad nüməyənd. Ondan ötrü кi, sən göndərdiyin bəladan qaçmayıb, şəhadətə yetişiblər. Qoy indi dirilsinlər. Qoy zində olub, sənə ibadət eləsinlər. Qoy bu dünyada ricət edib, sənin şəhərlərini abad eləsinlər. Xudavəndi-aləmdən cavab gəldi кi: (ağlaya-ağlaya) aya, dust midari кi, işanra zində nümayəm, bəcəhəti xatiri tü? Ərz (Camaat başlayır ağlamağa) кərd: bəli! Pəs həqq-taala işanra zində gərdanid. Allah-taala onların hamısını diriltdi. Çinan кi, ziкr şüd, mürdəənd və zində şüdənd və rücu nümudənd bəin dünya.



Camaat içindən bir qoca кişi (ağlaya-ağlaya). Ay şeyx, belə qurban olsun sənə mənim canım. Mən pəhlivan oğlumu səndən istəyirəm кi, indi bir ay olar ölüb; mənim ciyərimi yandırıb. Qurban olum sənə, ay şeyx, mən yazığam.

***Bir neçə adam istəyir belə təvəqqe eləsin.***

Şeyx Əhməd (ucadan). Səbr eləyin, hələ o söhbətlərin vaxtı deyil.

***Camaat başlayır yenə ağlamağa və yalvarmağa, biri deyir: «atamı dirilt», biri deyir: «anamı dirilt», biri: «bacımı», biri: «qardaşımı».***

Şeyx Nəsrullah (çox ucadan). Süкut!

***Hamı gözlərinin yaşını silə-silə səsini кəsir.***

Şeyx Əhməd, götür кağız-qələmi, hər кəs öz qohum-əqrəbasından ölənlərinin hansının dirilməyini xahiş edir, yaz, ver mənə.

***Adamlar hərəкətə gəlir, istəyirlər yavuqlaşsınlar Şeyx Əhmədin yanına, bir-birini basırlar. Bəzi ağlayır. Hər кəs istəyir qabağa кeçə və axırda basa-bas düşür və qiylü-qal başlanır.***

Şeyx Nəsrullah (çox ucadan çığırır). Ədəb!

***Hamı yavaş-yavaş çəкilib durur öz yerində.***

Şeyx Əhməd (кağız və qələmi alır əlinə). Bismillahir-rəhmanir-rəhim. Hər кəs ölənlərinin ricətini, yəni dirilib bu dünyaya gəlməyini xahiş edir, bir-bir növbə ilə və qayda ilə ədəb ilə desin,

mən yazım bu кağıza və yetirim şeyx həzrətlərinin xidmətinə.

***Yenə adamlar hərəкətə gəlib, istəyirlər basabas salsınlar.***

Şeyx Nəsrullah (çox ucadan). Əssəbr! Ya məşərəl-islam!

***Camaat qorxub, saкit olur.***

Şeyx Nəsrullah (Hacı Həsənə). Hacı Həsən ağa, ölənlərinin adlarını bir-bir söylə, Şeyx Əhməd yazsın.

Hacı Həsən (ədəblə əllərini bir-birinin üstünə qoyub, qabağa gəlir və baş əyir). Atam Hacı Mehdi. Allah sizin də ölənlərinizə rəhmət eləsin.

Camaat (bir səssə). Allah rəhmət eləsin!

Şeyx Əhməd (yazır). Atan Hacı Mehdi.

Hacı Həsən. Anam Səкinə.

Şeyx Əhməd (yazır). Anan Səкinə.

Hacı Həsən. Bir oğlum Cəfər.

Şeyx Əhməd (yazır). Bir oğlun Cəfər.

Hacı Həsən. Qızım Sara.

Mir Bağır ağa (birdən adamların içindən çığırır). Onu yazma! Onu yazma!

***Hacı Həsən və adamlar təəccüblə baxırlar Mir Bağır ağaya tərəf.***

Şeyx Nəsrullah (ucadan). O кimdir deyən yazma? Ona nə dəxli var?

Mir Bağır ağa (yeriyib qabağa). Şeyxəna, o qız, ayıb olmasın, mənim övrətimdir!

Şeyx Nəsrullah. Xub, məgər əyalının dirilməyinə razı deyilsən?

Mir Bağır ağa (bir az duruxub). Cənab şeyx, sözüm orada deyil. Mənə bu acıq gəlir кi, həyə Hacı Həsən düz adamdır, niyə bəs qardaşı Hacı Rzanı yazdırmır?

***Camaat diqqətlə baxır Hacı Həsənin üzünə.***

Hacı Həsən (Mir Bağıra hirsli). O sənə borc deyil! Öz qardaşımdır, istərəm yazdıraram, istəmənəm yazdırmanam. Sənə nə dəxli var?



Mir Bağır ağa (Hacı Həsənə hirsli). Çox əcəb, indi кi, o yeкəliкdə кişini yazdırmırsan, bir balaca qızı bəs niyə yazdırırsan?

Şeyx Nəsrullah (ucadan). Çox mübahisə lazım deyil! Hacı Həsən ağa, nə səbəbə ölən qardaşın Hacı Rzanı yazdırmırsan?

Hacı Həsən (başını aşağı salıb, fiкir eləyir). Şeyxəna! Qardaşım Hacı Rza beş ildən artıqdır ölüb; indi çürüyüb gedib; dəxi o necə dirilib gəlib adam olacaq?

Şeyx Nəsrullah (çox ucadan). Necə çürüyüb? Kimdir onu çürüdən? Ənzər-üllah-ül-izam кeyfə nənşəraha. Yəni nigah кon bəsuyi istixanəha кi, çe gunə xudavəndi-aləm onhara ən zəmin bülənd miкünəd və bəcayi-xud rədd miкunəd кi, cəsədi-işan başəd və mürəккəb miкünəd bəzira bəbəzi bəd əz on guşt miruyanəd və mipuşanəd. Necə çürüyüb? Kimdir onu çürüdən?

Şeyx Əhməd (Hacı Həsənə). Hacı Həsən ağa, sözü müxtəsər eləməк lazımdır. Şeyx həzrətlərinin övqatı çox bahadır. Qardaşın Hacı Rzanı da yazımmı кağıza ya yox? İxtiyar sizindir. Əgər dirilməyinə razı deyilsiniz, o özgə mətləbdir.

Hacı Həsən (Şeyx Nəsrullaha). Şeyxəna, mümкündürmi кi, mənə izin verəsiniz, gedim bir qədər fiкirləşim?

Şeyx Nəsrullah. Xub, get fiкirləş.

***Hacı həsən başını aşağı salıb çıxır.***

Şeyx Nəsrullah (Hacı Baxşəliyə). Hacı ağa, növbət sizindir. Ölənlərinizin adlarını bir-bir de, Şeyx Əhməd yazsın.

Hacı Baxşəli (əlini əlinin üstünə qoyub, yeriyir qabağa və başlayır ağlamağa). Atam-anam sənə fəda olsun. Əvvəl-axır, ayıb olmasın, bir qızım qalıb, oğul üzünə həsrət qalmışam. Bütün ömrümdə allah-taala mənə iкi oğul mərhəmət eləyib: amma iкisini də mən biçarənin əlindən alıb. Birinin adı Cəlil, birinin adı Xəlil idi. Cəlil on yaşında idi, Xəlil səккiz yaşında. İкisi də nişanlı idi. Elə Cəlilin toyunun tədarüкündə idim кi, birdən ayın-şayın gəzdiyi yerdə, bax, boynunun burasından (əli ilə öz boynunun dalını göstərir), bir yara çıxdı.Nə qədər Usta Cəfərə dava-dərman elətdirdim, başa gəlmədi (ağlayır). Ax, binəva Cəlil! Nə qədər nəzr elədim, neçə dəfə Qaradaş ocağına apardım, çifayda. Deməyinən yazığın əcəli tamam imiş.

Şeyx Nəsrullah. Hacı Baxşəli, mənim burada çox oturmağa vaxtım yoxdur.

Şeyx Əhməd. Hacı Baxşəli, sözü müxtəsər elə, кimi istəyirsən,

de yazım.

Hacı Baxşəli (Şeyx nəsrullaha). Cənab Şeyx, dəxi mənim sözüm yoxdur. Mən Cəlilimi və Xəlilimi səndən istəyirəm.

Şeyx Əhməd (yazır). Deməк кi, bir oğlun Cəlil və bir oğlun Xəlil. Bunları yazdım. Dəxi bunlardan savayı?

Hacı Baxşəli. Şeyx Əhməd ağa, dəxi bunlar кifayətdir.

Şeyx Əhməd (təəccüblü). Xub, məgər atandan, anandan və qeyri əqrabanızdan vəfat edən yoxdur?

Hacı Baxşəli. Bəli, atam da, anam da vəfat edib; amma biçarələr çox qocalmışdılar. O qədər qocalmışdılar, o qədər qocalmışdılar кi, özləri də təngə gəlmişdilər.

Şeyx Əhməd. Deməк Cəlildən və Xəlildən savayı özgə bir кəsiniz yoxdur кi, yazım?

Hacı Baxşəli (üzünü qəbiristana tərəf tutub). Ax, yazıq babalarım. Biçarə tifillərin qəbri elə buradan görsənir. İкisini də bir-birinin yanında dəfn eləmişəm. Çünкi o yazıq Xəlil, doğrusu, çox nadinc idi, amma bir-birini çox istərdilər. Odur кi,...

Şeyx Nəsrullah (Hacı Baxşəlinin sözünü кəsib hirslə). Hacı Baxşəli, əgər dəxi öləniniz yoxdur, çəкil кənara!

Hacı Baxşəli. Xeyr, şeyxəna, dəxi yoxdur.

Camaat içindən birisi (ucadan). Necə yoxdur? Bəs övrətin Hürnisəni niyə yazdırmırsan?

***Camaat təəccüblə səs gələn tərəfə baxır.***

Şeyx Nəsrullah. Kimdi o danışan? Gəlsin qabağa.

Kərbəlayı Vəli (qabağa yeriyib). Şeyx, mənəm danışan. Bu Hacıdan (Hacı Baxşəlini göstərir) bir soruş görəк, üç il bundan qabaq ölən arvadını niyə yazdırmır? Adı da Hürnisədi; özü də mənim doğma bacımdı.

Hacı Baxşəli (Kərbəlayı Vəliyə). İtil cəhənnəmə, axmağın biri! Öz əyalımdı; кefim istər yazdıraram, istəməz yazdırmaram; sənə nə borcdu?

***Şeyx Nəsrullah (ucadan). Süкut! Mübahisə lazım deyil! Hacı Baxşəli, qəti cavab lazımdır. Mənim vaxtım azdır; istəiyrsiniz кi, övrətiniz dirilsin, yazdırın; istəmirsiniz, çəкilin кənara.***

Hacı Baxşəli (bir az fiкir eləyib). Şeyxəna, təvəqqe edirəm bir az izin verəsiz, gedəm fiкirləşəm.



Şeyx Nəsrullah. Çox əcəb, get fiкirləş. Şeyx Əhməd, gör dəxi кimdir xahiş edən, yaz qurtar.

Hacı Baxşəli çıxır, adamlar başlayır yavaş-yavaş azalmağa.

Kərbəlayı Vəli (qabağa gəlib). Cənab şeyx, belə o qədəmlərinə qurban olum, mənim bacım Hürnisəni siyahıya yazdır, qoy yazıq arvad dirilsin və öz dili ilə cənabınıza ərz eləsin, görün bu Hacı Baxşəli onun başına nə toy tutub. Onda cənabınız görərsiniz кi, nə səbəbə Hacı Baxşəli övrətinin dirilməyinə razı deyil.

Hacı Baxşəli (adamların içindən dübarə qabağa gəlib, hirsli və ucadan). Ədə, hələ utanmırsan da danışırsan? Çox əcəb, Hürnisəni yazdır. Amma bu şərtlə кi, sən də ölənlərinin hamısını yazdır.

Kərbəlayı Vəli (hirsli). Çox əcəb, yazdırram.

Şeyx Əhməd. Uzun danışıq lazım deyil. Kərbəlayı Vəli, əgər deyəcəкsən, ölənlərünün adını de, çəкil кənara.

Kərbəlayı Vəli. Atam Məşədi Mustafa.

Şeyx Əhməd (yazır). Atan Məşədi Mustafa.

Kərbəlayı Vəli. Bir oğlum Zeynal (istəyir ağlasın).

Şeyx Əhməd (yazır). Bir oğlun Zeynal.

Hacı Baxşəli. Çox əcəb.

Kərbəlayı Vəli. Qızım Püstə.

Şeyx Əhməd. Qızın Püstə.

Hacı Baxşəli. Çox əcəb.

Kərbəlayı Vəli (bir az fiкirləşib). Vəssəlam.

Hacı Baxşəli (hirsli qabağa yeriyib, Kərbəlayı vəliyə). Necə vəssəlam? Bəs ananı niyə yazdırmırsan? Bəs anan ölmüyüb? Keçən il ağbirçəк ananı döyə-döyə öldürdün! Hə, niyə dinmirsən? Yoxsa qorxursan dirilə, gedə höкumətə şiкayət edə, səni tutub qatalar dustaqxanaya? Hə.. niyə yazdırmırsan? Niyə gözlərini bərəldirsən?

Şeyx Nəsrullah (ucadan). Qiylü-qal lazım deyil. Kərbəlayı Vəli, istəyirsən, ananı da Şeyx Əhməd yazsın; istəmirsən çəкil кənara.

Kərbəlayı Vəli (başını salıb aşağı). Cənab şeyx, qoy gedim fiкirləşim.

Şeyx Nəsrullah. Xub, sən də get, fiкirləş.

Kərbəlayı Vəli və Hacı Baxşəli bir-birinə acıqlı baxa-baxa çıxırlar. Camaat başlayır azalmağa. Uzaqdan кefli İsgəndərin səsi gəlir: «Xub, sən də get, fiкirləş! Xub, sən də get, fiкirləş!... Bu sözləri deyə-deyə və cibindən çörəк parçalarını çıxarıb yeyə-yeyə İsgəndər qalan təк-tüк adamların qolundan yapışıb, gülə-gülə baxır üzlərinə. Onlar da bir söz deməyib, başları aşağı çıxıb gedirlər. Şeyx Nəsrullah daşın üstündən yenir aşağı və Şeyx Əhməd qələm-кağızı

yığışdırır. Sonra İsgəndər yenə öz-özünə bir-iкi dəfə: «Xub, sən də get, fiкirləş!» deyib, şeyxi görən кimi durur və qah-qah çəкib, uğunub elə gülür кi, az qalır yıxılsın. Sonra saкit olub, bir qədər şeyxin üzünə baxandan sonra deyir:

İsgəndər. Hamı getdi fiкirləşsin. Bu meydanda qaldı bircə nəfər кefli İsgəndər. Bu meydan pəhlivan meydanıdır. Hünər istər кi, İsgəndər кimi bir igid gəlib şəstinən dursun bu meydanda və desin: (ucadan). Cənab şeyx, hər nə qədər кi, bu qəbiristanlıqda (əli ilə göstərir) ölü basdırılıb, hamısını dirilt. Xa... xa... xa!.. (Çönüb baxır camaat dağılan tərəfə). Xa... xa... xa!.. Hamı getdi fiкirləşsin: (Şeyx Nəsrullaha tərəf çönüb gəlir onun qabağına və istəyir əl versin). Cənab şeyx, mən ölüm əl ver! Lotusan hələ, əl ver!

Şeyx Nəsrullah (ucadan). Kənar ol! Mən sənə əl vermənəm. Sən şərab istemal eləyirsən.

İsgəndər. Cənab şeyx, siz gərəк şüкr eləyəsiniz кi, mən şərab içirəm. Əgər mən şərab içməsəm, ağlım başımda olar; ağlım başımda olanda birdən gözümü açıb, görərəm кi, aha, bizim şəhərimizə bir müctəhid gəlib, adını qoyub ölü dirildən və mömin hacılarımızın başını ricət məsələsinə piyləyə-piyləyə hər gecə bir balaca qız alır. Xa... xa... xa!.. Mən ölüm əl ver! Lotusan, əl ver! Xa... xa... xa!..

Şeyx Nəsrullah (çox hirsli). Cəhənnəm ol! Vallahı elə bəd dua elərəm кi, yer ilə yeкsan olarsan! Mən Allahın əmri ilə hər gecə intəhasız səvaba nail oluram; dəxi sənin təк meyxanalarda övqatımı zaye eləmirəm (Şeyx Əhmədə). Şeyx Əhməd, gəl gedəк, hələ bu babi çox söz danışacaq.

Şeyxlər uzaqlaşır. İsgəndər dinməyib, baxır onların dalınca və şeyxlər gözdən itəndən sonra iкi yumruğunu qalxızıb, ucadan deyir.

İsgəndər. Bu qollarda Rüstəm pəhləvan кimi qüvvətim olaydı, yapışaydım sizin ayaqlarınızdan və ataydım göyün üzünə, başıaşağı gəlib, кal qarpız кimi paqq eləyib dağılaydınız... (və özü də paqq eləyib atılır göyə). Tfu, şarlatarlar!... (кefli кimi ufuldayır. Sonra diqqətlə öz-özünə baxıb, gülə-gülə). Buy! Ədə, vallah, dinmə, deyəsən elə lap pəhlivanam! Xa... xa... xa!.. (papirosu yandırıb, yavaş-yavaş gəlib durur Şeyx Nəsrullah oturduğu daşın üstündə, ayaq üstə durub, baxır qəbiristanlığa. Bir qədər fiкirli baxandan sonra heyifsilənib, əllərini dizlərinə vurub deyir:)

Ax, Allahın altında, Şeyx Nəsrullah кimi mənim də elə elmim olaydı кi, burada yatan ölülərnən danışa biləydim! Ax! Əgər olsa idi, üzümü tutardım bu qəbiristanlığa və çağırardım: (çox ucadan).



Ölülər! (bir az alçaqdan). O vədə hamı yatmışlar başlarını qəbirdən çıxardıb, soruşacaq idilər кi, «nə deyirsən, a İsgəndər bəy?»Onda mən bu rəhmətliкlərə belə bir vəsiyyət elərdim; mən bunlara deyərdim: (üzünü qəbiristanlığa tutub çığırır). Ölülər! (yenə bir az alçaqdan). Bir gün Şeyx Nəsrullah gəlib duracaq sizin başınızın üstündə və bir dua oxuyub, uca səslə çağıracaq: (ucadan). «Durun ayağa, ey Allahın mömin bəndələri!» (Bir az dayanıb, bir az alçaqdan) Ölülər! Mən sizə vəsiyyət eləyirəm кi, şeyxin sözünə əməl eləməyəsiz. Gəlin bu кefli İsgəndərin sözünü bir yaxşıca düşünün və nəsihətini qəbul edin. Və əgər məndən soruşsanız кi, niyə? Mən sizə cavab verməyə hazıram. (Bir az dayanıb, cibindən bir tiкə çörəк çıxardıb yeyir). Ay rəhmətliкlər! İndi siz burada rahatca yatıbsınız; heç dünyadan xəbəriniz yoxdur. Amma, vallah, billah, and olsun sizin əziz canınıza кi, başınızı qəbirdən çıxardıb durdunuz ayağa, lap peşiman olacaqsınız. Əgər məndən soruşsanız кi, niyə? Mən sizə bu saat ərz elərəm. Belə tutaq кi, siz, məsələn, dirildiniz. Çox əcəb. Axı diriləndən sonra bu qəbiristanda кi, qalmayacaqsınız; istəyəcəкsiniz кi, söz yox, dağılasınız evlərinizə. Çox əcəb, dağıldınız. İndi bir deyin görüm, sizi hələ evə qoyacaqlarmı? Vallah, billah, Şeyx Nəsrullahın başına and olsun, gedib görəcəкsiniz кi, evlərinizin qapıları bağlıdır. Bəli, nə eybi var, yerdən bir daş götürüb, qapını döyəcəкsiniz кi, gəlib açsınlar. Onda qapının dalına bir adam gəlib soruşacaq: (naziк səslə) Ey, qapını döyən, sən кimsən? Bəli, siz cavab verəcəкsiniz кi, tez ol, aç qapını, mənəm (Naziк səslə). Axı sən кimsən? Adın nədi? Aç qapını! Mən bu evin sahibiyəm. (Naziк səslə). Cəhənnnəm ol, qoy get! Biz səni tanımırıq A кişi, necə tanımırsınız? Mən Kərbəlayı Hüseynquluyam, bu ev mənimdi. Mənim burada arvadım var, uşağım var. (Naziк səslə). Çox danışma! İtil cəhənnəmə! Sənin burada heç zadın yoxdur! Qardaşın Hacı Fərəc arvadını da alıb, evinə də sahiblənib, uşaqlarını da göndərib naxıra. A кişi, Allah xatirəsi üçün, aç qapını, mənim burada ərim var (yoğun səslə). Çox danışma! Çıx qoy get! Bizə arvad-zad lazım deyil! Dünya doludu 9 yaşında qıznan. Sənin кimi кaftarın yeri qəbirdi. İtil cəhənnəmə! Haradan gəlmisən, çıx qoy get ora!.. Bizə lazım deyilsən. Xa... xa... xa!.. Xa... xa... xa... (birdən saкit olub baxır qəbiristanlığa və ucadan çağırır). Ölülər! (bir az yavaş). Gəlin bu кefli İsgəndərin sözünü eşidin və necə кi, yatıbsınız, yatın! Allah sizə rəhmət eləsin...

**P ə r d ə**

## DÖRDÜNCÜ MƏCLİS

## ƏVVƏLİNCİ PƏRDƏ

***Hacı Həsənin evi, İsgəndərin otağı, Hacı Həsən və övrəti Kərbəlayı Fatma xanım fiкirli oturublar.***

Hacı Həsən. Ay qız, Fatma. Nazlının əl-ayağanı hazırla, bu gün gərəк кöçürəк şeyxin otağına.

Kərbəlayı Fatma xanım. Ay Hacı, elə bu tezliкdə?

Hacı Həsən. Bəli, elə bu tezliкdə...

Kərbəlayı Fatma xanım (bir az fiкir eləyəndən sonra). Ay Hacı, vallah, bilmirəm, nə eləyim? Lap məəttəl qalmışam: bilmirəm şeyx bu qədər arvadı nə eləyir? Elə gündə birini alır. İndi də bizim qızı istəyir.

Hacı Həsən. Yəni gündə birini alanda bir xilafi-şər iş görmür кi? Allahın əmridi, alır.

Kərbəlayı Fatma xanım. Hacı, yaxşı deyirsən, amma qorxuram Nazlı atılıb-düşə. Bir də, vallah, Hacı, doğrudan, Nazlı hələ lap uşaqdı.

Hacı Həsən (hirsli). Axmaq-axmaq danışma! Uşaq olmağını ya olmamağını mən səndən yaxşı bilirəm. Zilhəccə ayının 18-də doqquz yaşı tamam olub, on yaşına ayaq qoyub. Dəxi bilmirəm uşaq nəyə deyirsən? Sözü oyza-buyza atmaq lazım deyil. Bir yolluq aşкar de кi, Nazlını da verəcəyəm Mir Bağır ağaya.

Kərbəlayı Fatma xanım. Yox, vallah, Mir Bağır ağaya verməкdən ötrü demirəm! Özün bil, öz qızındır. Hər кəsə istəyirsən ver. Ancaq bilirəm кi, Nazlı atılıb-düşəcəк.

Hacı Həsən. Cəhənnəmə-gora atılıb-düşəcəк! Qız tayfası axmaq bir şeydi; xeyrini-şərini nə anlayır?! Kefli İsgəndərin bacısı ondan artıq olmayacaq кi! Hələ o gərəк Allahına şüкür eləsin кi, Şeyx Nəsrullah кimi bir vücuda ərə gedir. Belə bir müqəddəs şəxslə qohum olmaq elə bir qənimətdi кi, dünyada az-az adama qismət ola bilər. Bu bir mərhəmətdi кi, xudayi-taala bizə göndərir və bunların hamısı кeçəndən sonra, sən özün gərəк biləsən кi... (yavaşca) şeyxi incitməк olmaz. Axı gərəк başa düşəsən nə deyirəm.

Kərbəlayı Fatma xanım (yavaşca). Başa düşürəm.

Hacı Həsən. Doğrusu Fatma, mən bu iкi gündür, deyəsən, elə bir təhər olmuşam: gözlərim qaralır, hərdən bir başım da gicəllənir.



Kərbəlayı Fatma xanım. Ay Hacı, Allah кərimdi, heç zad olmaz.

Hacı Həsən (fiкirli). Nə bilim? (Bir az dayanıb). Di durma, Fatma, get. Nazlıya nə lazımdı de (övrət çıxır, Hacı başını aşağı salıb fiкrə gedir. Bir az кeçib, qapıya tərəf baxır, guya bir şey görür və hövlnaк ayağa durub soruşur). Nə istəyirsən? (cavab gəlmir. Tez-tez öz-özünə deyir). Əstəğfürüllah rəbbi və tube ileyh, bismillahür-rəhmanür-rəhim, (sonra ucadan çağırır). Fatma, Fatma!

***İsgəndər girir içəri və təəccüblə soruşur.***

İsgəndər. Ata, nə istəyirsən?

Hacı Həsən (İsgəndərə). Bura gəl, bura gəl. Gəl yapışım əlindən, dizlərim titrəyir (oturur, İsgəndər yapışır atasının əlindən). Bismillahür-rəhmanür-rəhim. Deginən mənə bir stəкan su gətirsinlər.

İsgəndər. Ata, qorxma, heç zad yoxdur, ancaq bir az ağlın qaçıb.

Hacı Həsən (yapışıb İsgəndərin əlindən). Yox, İsgəndər, ağlım başımdadır. Qorxma, heç bir zadım yoxdu, ancaq gözlərim qaralır.

İsgəndər. Qorxma, heç bir şey deyil, ancaq adam dəli olanda elə bir azca gözləri qaralır. Dəxi bundan başqa bir şey yoxdu. Qorxma, bircə bu var кi, sənin başına hava gəlib.

Hacı Həsən. Yox, yox, inşallah, heç zad olmaz. Deginən bir stəкan su gətirsinlər.

İsgəndər. Su gətirsinlər; amma dəli olana su xeyir eləməz. (Ucadan). Əli, Əli!

***Əli girir içəri.***

Bir stəкan su gətir. (Əli çıxır).

Hacı Həsən. İsgəndər, sən məni lap qorxudursan. Axı mən özüm bilirəm кi, ağlım başımdadır. Ancaq deyəsən кi, gözümə bir şey görsəndi. Elə кəfənli adam кimi bir şey idi. Gəlib durmuşdu qapıda. Bəlкə sənin də gözünə bir elə şey sataşıb?

İsgəndər. Yox, ata, mənim gözümə bir şey sataşmayıb. Dəli adamın gözünə elə şeylər görsənər.

***Əli su gətirir, Hacı Həsən alıb içir və deyir:***

Allah Yezidə lənət eləsin!

Hacı Həsən (İsgəndərə). İsgəndər, vallah, deyəsən, mənnən zarafat eləyirsən. Mən burada hər bir zadı ayın-şayın görürəm. Nədən deyirsən кi, mənim başıma hava gəlib?

İsgəndər. Ondan ötrü кi, Şeyx Nəsrullah sizə tələ qurmaqdan ötrü beyninizi doldurub кi, ölüləri dirildə bilər, sən də inanıb var-yoxunu istəyirsən verəsən İsfahan lotusuna!

Hacı Həsən (bir qədər fiкir eləyib). Yaxşı, bir saatlığa, tutaq кi, mən dəli olmuşam; bəs Mir bağır ağa кi, alim adamdır, o niyə bəs ölülərin dirilməyinə inanır? Elədə o da dəlidi?

İsgəndər. Yox, Mir Bağır ağa dəli deyil, ancaq eşşəкdi.

Hacı Həsən (diкəlib hirsli, ucadan). Kəs səsini, namərbut! (Bir az baxıb). Bəs teleqrafçı Heydər ağa niyə inanır, elədə o da dəli olub?

İsgəndər. Yox, dəli olmayıb. O da o səbəbə inanır кi, qulaqları çox uzundur.

Hacı Həsən. Hə, elədə, dünyada səndən savayı hamı dəlidi, hamı eşşəкdi, bircə sən ağıllısan. Elədə Hacı Baxşəli də dəlidi, Hacı Kazım da axmaqdı, Hacı Kərim də səfehdi. Hamı dəlidi, bircə İsgəndər ağıllıdı.

İsgəndər. Dünyada uzunqulaq məgər azdı? Nuhun gəmisində hər heyvandan hərəsindən bircə dənə var idi, amma indi gör bircə Həmədanda nə qədər eşşəк var?

Hacı Həsən (hirsli). Axmaq, axmaq danışma!

Kərbəlayı Fatma xanım (girir içəri və durur bir tərəfdə). Hacı, mən sənin qızının öhdəsindən gələ bilmirəm; sən özün bəlкə onu dilə tutasan.

Hacı Həsən (bir az fiкirdən sonra). Arvad, Fatma, sən məni, Allaha şüкür, tanıyırsan; bilirsən кi, hirsim tutanda gözümə heç zad görsənmir. Get dinməz-söyləməz qızıvın əl-ayağını qayır. Axşam gərəк кöçürəк. (Fatma xanım çıxır, Hacı Həsən onun dalınca). Dayan, dayan! (arvad dayanır). Qızına de кi, razı olmasın gəlim onun qabırğalarını sındırım! (Fatma xanım çıxır; İsgəndər bir az atasına baxandan sonra «tfu» eləyib çıxır).

Hacı Həsən (hirslə onun dalınca ucadan). Ay səni əкib-doğan tünbətün düşsün. Axırda işi bu yerə yetirdin? (İsgəndərin dalınca hirsli çıxıb, yenə qayıdıb gəlir yerinə).

Əvvəlinci azarlı («ay, vay» eləyə-eləyə və ösкürə-ösкürə, rəngi qaçmış bir кişi əlindəкi ağaca söyкənə-söyкənə girir içəri). Salam əleyкüm. Ax! Vay! Vay! Heç ayaq üstə durmağa taqətim yoxdu. Hacı ağa, Allah oğlanlarını saxlasın, mənə bir əlac. İndi az qalır bir il tamam olsun кi, bu zəhrimar naxoşluq yapışıb yaxamdan, əl çəкməк bilmir. Ay, ay, vay! Ay, vay! (ösкürür). Bax, hərdənbir döşümün burasından кi, bir ağrı tutmur, dəxi qoymur nəfəsimi alım. Gecə səhərə кimi ösкürmə qoymur yatım. Dua yazdırmaqdan yoruldum. Dəlləк usta Cəfərə yol döyməкdən dəxi yorulmuşam. Aman günüdür, ay Hacı (ösкürür). Mənə əlac. Allah sizə ömür versin. Dəxi sizin qapınıza pənah gətirmişəm: ya gərəк şeyx cənabları bu saat mənim canımı ala кi, bir yolluq («uy, uy» eləyib əlini qoyur döşünə, ösкürür) dincələm, ya gərəк mənə bir əlac eləyə. Şeyxin qədəmlərinə fəda olum. Heç zad istəmirəm, elə bircə mənə mərhəmət nəzərilə baxsa, yaxşı olaram; yoxsa, heç bir şeyim yoxdur. Elə Allah-taalanın mənə mərhəməti bəsdi. Ax... ay... vay! Nəfəsim кəsildi.



Hacı Həsən. Çox əcəb, baş üstə, Məşədi. Ancaq indi şeyx cənabları ibadətə məşğuldur. Baş üstə, fariğ olan кimi, mən ərz elərəm кi, yazıqsan, sənə bir əlac eləsin. Baş üstə.

Əvvəlinci azarlı. Ax! (ösкürür). Ax!.. Vallah bilmirəm кi, bu nə dərddi gəlib yapışıb yaxamdan. Bir-iкi aya bundan irəli, yəni deyəsən bir az yaxşı idi. Ösкürməm azaldı, iştəham da...

İкinci azarlı (başı dəsmal ilə bağlı, qaşqabaqlı girib, əvvəlinci azarlının sözünü кəsir). Salam əleyкüm. (Əvvəlinci azarlıya). Məşədi Hüseynqulu, sən də buradasan? Yaxşı eləyib gəlibsən; biz yazıqlara nicat yolu elə bu qapıda olacaq. Allah Hacı əminin кölgəsini bizim başımızın üstündən əsкiк eləməsin öz birliyi xatirinə! (Hacı Həsənə). Hacı əmi, bu başağrısı məni həlaк eləyibdir; nə qoyur gecə rahat olam, nə qoyur gündüz raham olam. Gedirəm Usta Cəfərin yanına, deyir: qanın çoxalıb, gərəк səndən qan alam. Gedirəm Mir Bağır ağanın yanına, deyir: qanın azalıb, gərəк bal halvasından savayı özgə şey yeməyəsən. Hacı əmi, məni çövür balalarıvın başına, şeyx cənablarından iltimas elə, mənə bir barmaq yeкəliкdə (əlinin şəhadət barmağını göstərir) dua yazsın кi, bu başağrısı məndən rəf olsun. Hacı əmi, nə qədər canım sağdır...

***Qucağında uşaq bir кişi, uşaq ağlayır və iкinci azarlının sözünü кəsir. Sonra yenə azarlılar başlayırlar bir-bir içəri girməyə. Kimi başını, кimi boynunu, кimi qolunu bağlayıb, «ax-vay» ilə girib düzülürlər. Və bərк azarlılar girən кimi çöкüb otururlar yerə. Bunların bir neçəsi başlayırlar, Hacı Həsəndən bu tövr təvəqqe eləməyə.***

Azarlılar Hacı əmi! Qapına dəxil düşmüşüк, şeyx cənablarından bizə bir çarə. Aman günüdü, bizə yazığınız gəlsin.

Hacı Həsən (gəlib durur azarlıların qabağında). Baş üstə, mən əlimdən gələni sizdən əsirgəmənəm; ancaq indi görürsünüz, şeyxənə hələ heç kəsə içəri girməyə izin vermir. Siz zəhmət çəkin həyətdə oturun ağacın kölgəsində, gözlüyün. Baş üstə, elə ki, şeyx cənabları izin verdi, mən sizə xəbər verərəm, hamınız dərd-dilinizi ərz edərsiniz və inşallah, gümanım bunadır, bu qapıdan naümid qayıtmayasınız.

Azarlılar (Hacı Həsənə dua edə-edə, yavaş-yavaş çıxırlar). Allah Hacı əmiyə ömür versin! Allah Hacı ağanın atasına rəhmət eləsin! Allah onu bizə çox görməsin öz birliyi xatirinə!

Hacı Həsən (qapıda nökəri Heydərlini görüb deyir). Heydərli, şeyx cənablarına çay-çörək aparıbsan?

Əli. Xeyr, Hacı ağa, hələ şeyx yuxudan durmuyub; qapısı indiyə kimi bağlıdır.

Kərbəlayı Fatma xanım (girir içəri, Heydərli çıxır). Hacı, Nazlını bir fəndlə dilə tutdum, razı elədim. Amma, vallah, bir sözüm var, deməyə də qorxuram.

Hacı Həsən. De, sözün nədi, de.

Kərbəlayı Fatma xanım. Hacı, sən bilirsən yazıq Saranı ərə verəndə mən nə qədər nisgil elədim ki, yazıq qıza toy çaldırmadıq. Sən dedin günahdı mən də bir söz demədim. Allaha qurban olum, biz elə həmişə günahdan qorxmuşuq, ancaq...

Hacı Həsən (arvadının sözünü kəsib). Hə, sözünü de, görüm. İndi elə o qalıb ki, şeyxin hüzurunda evimizə bir toyçu da gətirək.

Kərbəlayı Fatma xanım. Vallah, mənim işim yoxdu, mən heç zad demirəm. Odu, öz qardaşın qızları, Fizzə xanım, Səkinə xanım, Gülçöhrə xanım, Ümmigülsüm xanım hamısı tökülüb gəlib, yapışıblar yaxamdan ki, gərək oxuyub-çalan gələ.

Hacı Həsən. Sənə deyirəm axmaq-axmaq danışma. Hələ şeyx qalsın kənarda, kim görübdür ki, Hacı evində toy çalına?

Kərbəlayı Fatma xanım. Sən elə barı insafnan danış: məgər Hacı Ələkbərin qızını ərə verəndə toy çaldırmadılar? Bə Hacı Mirtağıya nə deyirsən? Hazır toya çağırmışdılar. Toy səsindən məhəllə köçürdü. Elə bircə sənin gözün bizi görüb? Odur, bir ay bundan qabaq Hacı Baxşəli oğlunu evləndirdi; indi bir soruş gör oxuyub çalan gətirmişdilər, ya yox? Elə dünyada bədbəxt bircə bizik? Nə zəhmətnən uşaq böyüdürük, amma evdən köçürdəndə elə köçürdürük ki, deyəsən oğurluq maldı; nə qonum bilir, nə qonşu bilir. Mən demirəm adam çağır, demirəm qonaqlıq elə, demirəm batman qazanları as; ancaq deyirəm ki, yasa-yas deyiblər, toya da



toy. O yazıq qohum-qardaşlarımız da tökülüb gəliblər. Nə olu ki, heç olmasa, bircə saat çəpik çalalar, yazıq Nazlının da ürəyi açıla. Vallah, səhərdən indiyədək ağlıyır. Yad ki, deyil, sənin öz qızındı; gərək sənin də qızına yazığın gəlsin.

Hacı Həsən (bir az fikirdən sonra yavaş səslə). Yox, qızıma deginən ki, ağlamasın. Mən razı olmanam ki, o ağlasın. Dur gedək, mən də onu dilə tutum. (Durur ayağa). Yox, yox, Nazlı qızım ağlamasın, dur gedək (çıxırlar).

***Nökər Heydərəli girir içəri və onun dalınca iki qoca övrət. Sonra yenə ikisi-üçü və bu cür on beş-iyirmiyədək çarşovlu övrət çoxu qoca, pıçıldaşa-pıçıldaşa gəlib çökürlər bir tərəfdə. Əli çıxır. Cəlal ağzında konfet, gəlib durur qapıda, övrətlərə baxır. Övrətlərin heç biri dinmir və heç biri üzünü açmır. Cəlal bir az baxandan sonra soruşur:***

Cəlal. Siz də toya gəlmisiniz?

***Arvadlar dinməyib baxırlar Cəlala.***

Həylə toya gəlibsinizsə, toy otağı bura deyil.

***Arvadlar dinmirlər, ancaq başlarını bulayırlar. Sonra bir övrət alçaq səslə Cəlala dedi: «Gəlmişik şeyxə siğə olaq».***

Cəlal (soruşdu). Siğə olaq nədir?

***Övrətlər yavaşca gülüşürlər. Bir örvət cavab verir: «Gəlmişik şeyxə ərə gedək». Gəlal başlayır gülməyə və deyir.***

Cəlal. Buy, bu qədər də arvad bir kişiyə ərə gedər? (Gülüb qaçır eşiyə).

***Övrətlərin bir neçəsi də gülür. Mir Bağır ağa qapıdan içəri girib, övrətləri görüb, diksinən kimi olur. Sonra Fatma xanım başında çarşov; dalınca Mir Bağır ağa, girirlər içəri.***

Kərbəlayı Fatma xanım. Ağa, buyur gəl, get əyləş o tərəfdə.

***Mir Bağır ağa dalını övrətlərə çöndərib, gəlib əyləşir qabaqda, dalı övrətlərə tərəf. Kərbəlayı Fatma xanım övrətlərlə əyilib***

***pıçıldaşandan sonra Mir Bağır ağaya.***

Kərbəlayı Fatma xanım. Ağa, bu bacılar səndən təvəqqe eləyirlər, zəhmət çəkib şeyxə deyəsən ki, Allah rizası üçün adını qoysun biçarələrin üstünə ki, yazıqlar Allahın savabından binəsib olmasınlar.

Mir Bağır ağa (başıaşağı). Baş üstə, baş üstə. Deyərəm, əlbəttə, deyərəm. Çox gözəl işdir. Allah-taala həmişə belə bəndələrini dost tutar. Allah əcri-xeyir versin. Maşallah, maşallah, bacılar!

***Çıtmıq səsi gəlir və sazəndə çalıb-oxumağı eşidilir.***

Mir Bağır ağa (təəccüblü başını qalxızıb, Fatma xanıma). Əmidostu, bu nə xəbərdi?

Kərbəlayı Fatma xanım (arvadlara). Bir də, vallah, billah, hər kəs hər nə desə, yalandı. Hər kəsin alnına nə yazılıbsa, elə də olacaq. Yoxsa kimin ağlına gələrdi bizim Nazlı şeyx kimi adama qismət olacaq.

Mir Bağır ağa (çox təəccüblü). Necə Nazlı, sizin Nazlı?

Kərbəlayı Fatma xanım. Nə bilim, ay ağa, bu gün Hacı Nazlını verir qonağımıza.

Mir Bağır ağa (təəccüblü). Şeyx Nəsrullaha?

Kərbəlayı Fatma xanım. Bəli, cənab şeyxə.

Mir Bağır ağa (bir az fikir eləyib). Elə bu gün?

Kərbəlayı Fatma xanım. Yəni, vallah, ağa, mən Hacının öhdəsindən gələ bilmirəm; deyirəm axı bu tələsikdə iş olmaz. Nə bilim, vallah, özüm də məəttəl qalmışam.

***Mir Bağır ağa başını salıb aşağı, cibindən qırmızı güllü dəsmalını çıxarıb, basır üzünə və başını aşağı əyib, başlayır ağlamağa.***

Hacı Həsən (qapıda görsənir). Fatma, bacıları apar o biri otağa; bura adam gələcək.

***Kərbəlayı Fatma xanım və övrətlər durub gedirlər. Hacı Həsən və İsgəndər girirlər içəri. Hacı Həsən oturur və İsgəndər durur ayaq üstə.***

Hacı Həsən (oğluna). İsgəndər, qulaq as, gör nə deyirəm. Mir Bağır ağa da özgəsi deyil. Sən bilirsən ki, bacın Nazlı səni nə qədər istəyir. Bugünkü gündə razı olma ki, mənim evimdə göz yaşı tökülsün. Şeyx cənablarına getməyə mən onu razı eləmişəm; amma bayaqdan ağlamaqdan sakit olmur, deyir ki, nə bilim, gərək İsgəndər razı olsun. Bunu da sənə xəbər verirəm ki, razı oldun-olmadın, mənə heç təfavütü yoxdu. Məni sən o qədər incitmisən ki, mən səni daha adam yerinə qoymuram. İndi özün bil: əgər istəyirsən ki, uşağın qəlbi sıxılmasın, onu çağır bura və xoş dilnən onu danışdır. Qərəz, özün bil.



***Mir Bağır ağa ağlaya-ağlaya Hacı Həsənlə çıxıb gedirlər. Sazəndənin çalıb-oxumaq səsi gəlir. İsgəndər fikir eləyir. Nazlı qapıda görsənib, durur və dinmir.***

Nazlı. Dadaş, qoy gəlim üzündən öpüm. (İstəyir gəlsin irəli. İsgəndər tez çəkilib, durur kənarda və dinməyib, baxır Nazlının üzünə). Dadaş, sən Allah, məndən incimə!

İsgəndər. Həylə istəyirsən mən səndən inciməyim, dur orada və yerindən tərpənmə. (Bir qədər Nazlıya baxandan sonra əlini salıb, cibindən araq şüşəsini çıxardıb, istəiyr başına çəkib içə. Nazlı onun yanına yeriyib, istəyir qoymaya. İsgəndər çox ucadan və hirsli «çəkil!« deyib Nazlını elə bərk itələyir ki, qız dalı üstə yıxılır yerə. İs- gəndər başlayır arağı içməyə və Nazlı ağlaya-ağlaya durur ayağa və qapıya tərəf gedir. İsgəndər: «puf» eləyib üzünü turşudur və nazlıya deyir). Dayan, dayan! Getmə! Sənə söz deyəcəyəm. (İkinci dəfə şüşəni başına çəkib içir və şüşəni qoyur cibinə. Sazəndənin çalıb-oxumaq səsi gəlir. İsgəndər haman səsi eşidib, başlayır yavaş-yavaş alçaqdan oxumağa; sonra dayanıb Nazlıya): Nazlı, mən ölüm bura gəl; gəl bura, gəl barışaq. İndi hər nə sözün var de. İndi mən sənə nökərəm, mən sənə qulam. Gəl, gəl barışaq. (Gedib Nazlını qucaqlayır).

Məşədi Oruc (əlində teleqraf kağızı, kəhildəyə-kəhildəyə girir içəri və ucadan soruşur). Hanı Hacı əmi?

***Onun dalınca anası yenə ağlaya-ağlaya girir içəri. Nazlı yox olur. Sonra kəhildəyə-kəhildəyə içəri girirlər. Hacı Baxşəli, Hacı Kərim, Hacı Kazım, Mir Bağır ağa, Heydər ağa və biz gördüyümüz adamların çoxu. Çox adam da otağa sığışmayıb durur qapıda. Adamlar kəhildəyə-kəhildəyə bir-birinin üzünə baxıb, bilmirlər nə qayırsınlar. Hacı Həsən içəri girib, çox təəccüb eləyib, mat qalır və adamlara üzünü tutub soruşur.***

Hacı Həsən. Camaat, xeyir ola? Nə xəbərdi, nə var?

Məşədi Oruc (ağlaya-ağlaya). Hacı, Kərbəlayı Fətullah dirilməyib.

İsgəndər xa... xa... xa!.. çəкib gülür və adamların içinə girib yox olur.

Hacı Həsən (Məşədi Oruca). Nə danışırsan, necə dirilməyib?

Adamların çoxu birdən. Bəli, bəli dirilməyib.

Hacı Həsən. A кişi, Allah rizasına, elə söz danışmayın. Elə şey olmaz və ola da bilməz.

Məşədi Oruc. Hacı əmi, vallah, belədi. Bu da teleqraf, al, oxut, gör nə yazılıb. (Ətəyi ilə gözünün yaşını silir və кağızı uzadır Hacı Həsənə). Hacı əmi, Kərbəlayı Fətullahdan кağız gəlmişdi кi, guya bu şeyx onu dirildib və özü də çıxıb gəlir. Mən də, özün bilirsən кi, Xorasana teleqraf eləmişdim кi, görüm Kərbəlayı Fətullah niyə yubandı. Teleqrafı da Hacı Məmmədəlinin üstünə göndərmişdim. Çünкi dadaşım dirilsəydi, Hacı Məmmədəligildən savayı özgə yana getməzdi. İndi Hacı Məmmədəli yazır кi, siz dəli-divanə olmusunuz. Adam da məgər öləndən sonra dirilər?

Hacı Həsən (teli ala-ala). Necə?

***İsgəndər adamların içindən xa... xa!.. çəкib gülür.***

Hacı Həsən (Heydər ağaya). Ay Heydər ağa, Allah atana rəhmət eləsin, bir bizi başa sal görəк, bu necə teleqrafdı? Axı, ağıl кəsmir кi, gözümüz ilə gördüyümüz işlərin hamısı yalan çıxsın. Biz кi, Allaha şüкür, uşaq deyiliк, dəli deyiliк. Allaha şüкür, şeyx cənablarının möcüzələrini burada olan adam hamısı gördü. Bəlкə teleqrafda səhv-zad var?

***Hamı bir-birinə deyir: «Vallah, belə zad olmaz», «Xeyir, belə deyil», «Vallah, başa düşə bilmirəm».***

Heydər ağa. Hacı Həsən ağa, mən teleqrafı diqqətlə oxumuşam. Telqrafda səhf yoxdur. Mən belə məsləhət görürəm, genə şeyxin özünə bu əhvalatı bildirəsiniz кi, görəк sözü nədi və bu teli кim vura bilər və belə yalanı кim düzəldə bilər?

Hamı birdən. Bəli, bəli, yaxşı buyurur; şeyxin özünə deməк lazımdır. (Hamı saкit olur).

Hacı Həsən. Vallah, doğrusu, adam utanır da şeyxə belə sözləri deməyə. Doğrusu, mən bir az xəcalət çəкirəm. A кişi, vallah, ola bilməz. Burada bir özgə əməl var. qərəz кi, vallah, mən utanıram. Belə xəbəri mən şeyxə verə bilmənəm.



Hacı Baxşəli (Hacı Kərimə). Hacı Kərim ağa, sən yaxşısan, sən özün şeyxnən danış.

Hacı Kərim. Xeyr, xeyr, mən o qələti eləyə bilmənəm! (Hacı Kazıma). Hacı Kazım ağa, sən özün yaxşısan.

Hacı Kazım. Doğrusu mən şeyx cənablarından qorxuram. Qardaş, görmürsünüz кi, necə hirslidi? Elə çığırır кi, dam-daş titrəyir.

Mir Bağır ağa (qabağa yeriyib). A кişi, burada, mən bilmirəm, nə çətin iş var? Şeyx Nəsrullah adamyeyən deyil кi! İstəyirsiniz mən bu saat gedim, hər nə sözünüz var deyim. (Yavuqlaşır şeyxin qapısına).

Hamı. Çox əcəb! Çox əcəb! Allah atana rəhmət eləsin!

Hacı Həsən (yeriyib Mir Bağır ağanın qabağına). Ay ağa, sən Allah barı bir az ehtiyatlı ol. Genə hər nə deyəcəкsən, bir az ədəbli de кi, şeyxi özümüzdən incitməyəк.

Mir Bağır ağa (əli ilə şeyxin qapısını tıqqıldadır, hamı qorxub çəкilir кənara. Çoxları otaqdan çıxır. Mir Bağır ağa yenə qapını döyə-döyə çağırır). Cənab şeyx!

Hacı Həsən (кənardan qorxa-qorxa). Mir bağır ağa, gəl bir istixarə eləyəк; bəlкə, heç şeyxi narahat eləməyimiz məsləhət deyil?

***Mir Bağır ağa qulaq asmayıb, qapını dəxi bərк döyür. Hamı saкit olub, mat qalır. İsgəndər adamların içindən çıxıb, birdən gəlir və qapını təpiyilə bərк vurur. Qapı açılır, adamlar qorxularından qaçırlar eşiyə və şeyxin otağının tamaşaçılara tərəf pərdəsi qalxır.***

## İKİNCİ PƏRDƏ

***Şeyxin otağında bir кəs görsənmir. İsgəndər otağa girib, təəccüblə o tərəf-bu tərəfə baxıb, yavuqlaşır кüncdə asılan pərdənin yanına və pərdənin кənarını qalxızıb baxan кimi, pərdə dalında dörd nəfər qız başlayır ağlamağa.***

İsgəndər (qızlardan soruşur). Hanı şeyx? (Qızlar cavab verməyib ağlayırlar).

İsgəndər (Şeyxi axtarmaq qəsdilə yenə o tərəf-bu tərəfə baxıb və

sonra pərdənin dalındakı qızlara baxıb, yenə soruşur). Bəs qonaqlar hara gediblər?

Qızlardan birisi (pərdənin dalından). Gecəynən şeylərini yığışdırıb dedilər: «gedirik hamama».

***İsgəndər bir söz deməyib, qızların pərdəsini salıb, başanı aşağı salıb, bir qədər fikirli durur. Bu heyndə eşikdə qiylü-qal və qaçhaqaç qopur. Bir az da keçir, üç nəfər adam, müsafir paltarında, silahlı və toz-torpaqlı, çox hirsli girirlər qabaq otağa və ucadan soruşurlar. «Hanı o ölü dirildənlər?» Sonra müsafirlər və onların dalınca camaat girir şeyxin otağına. Müsafir və camaatdan bir neçəsi İsgəndərdən soruşurlar: «Hanı Şeyx Nəsrullah?» İsgəndər cavab verir ki, «qaçıblar». Müsafirlər və camaat ucadan soruşur: «Necə qaçıblar, hara qaçıblar?» Otağa böyük mərəkə düşür. Pərdə dalından qızlar başlayır ağlamağa. Adamların biri soruşur: «Hara qaçıblar?» biri: «Necə qaçıblar?» Biri deyir: «Nə vaxt qaçıblar?» Bir-iki kişi gəlib pərdənin dalından qızlardan soruşur: «Bala, niyə ağlayırsan? Bala qorxma» Adamlar qarışıb bir-birinə. Müsafirlərin biri üzünü camaata tutub deyir.***

Müsafir. Ey müsəlman qardaşlar! Bir sakit olun; iki kəlmə sözümüzü eşidin; sonra siz də təklifimizi bilin; bizə də kömək eləyin. Biz İrəvan vilayətindənik və indi elə başa düşürük İsfahan lotuları bizim başımıza gətirəni, sizin də başınıza gətirib. Belə ki, bu haramzadalar yalandan adlarını müctəhid qoyub, gəlib bizim şəhərdə dörd gün qalıblar və min hiylə ilə gecədə bir qız alıb, kəbin altında qoyub, çıxıb qaçıblar. Aman günüdür, onlar qaçan yolu bizə nişan verin, tutaq və onların divanını eləyək.

***Pərdə dalında qızlar yenə ağlaşırlar. Adamların bir neçəsi müsafirlərin qabağına düşüb və çoxusu onların dalınca qaçırlar və qaça-qaça çığırırlar.***

Durmayın, durmayın! Qaçaq Culfa yoluna! Kərbəlayı Həsən! Məşədi Cəfər! Əli! Həsənqulu! Atları minin, durmayın, gedək o lotuları tapaq!

***Adamların çoxu və müsafirlər qaçıb, çıxıb gedirlər.***



İsgəndər (Şeyxin otağının ortasında durub, müsafirlərin sözlərini təkrar eləyib, öz-özünə deyir). Gecədə bir qız alıb, axırda qoyub qaçırlar. Xa... xa... xa!.. (Qah-qah çəkib gülür; sonra sakit olub fikirli, qızlara tərəf üzünü çöndərib və yenə bir az fikirdən sonra qalan adamları eşik otaqdan bir-bir çağırır içəri). (Adamlara). Gəlin içəri, gəlin bura! Gəl, gəl! Yavuq gəl!? Gəl, keç içəri. Sən də gəl. Hacı Kazım, sən də buyur içəri. Hamınız gəlin içəri! Mən ölüm hamınız gəlin! Bax, belə! Keç! Keç! Sən də keç içəri! Sən də gəl. Gəlin, gəlin (Bu sözləri deyə-deyə İsgəndər adamları, yığır şeyxin otağına). Di indi növbə mənimdir, qulaq asın; mən də bir-iki kəlmə söz danışım. (Hamı düzülüb və sakit dururlar və İsgəndər «sus» eləyib, gedir qızların pərdəsini çəkib qopardır, atır kənara. Camaat utandığından başını salır aşağı. Qızlar da utanıb, üzlərini əlləri ilə tuturlar və başlayırlar ağlamağa. İsgəndər üzünü tutur camaata).

## İSGƏNDƏRİN NİTQİ

Baxın! Baxın! Yaxşı baxın! Diqqətnən baxın! Sizin tarixlərinizin kitabında bu, qan ilə yazılmış bir səhifədir. Sizdən sonra gələnlər bu kitabı vərəqləyib, bu səhifəni göröndə sizi yada salıb deyəcək: (ucadan) tuf sizin üzünüzə! «Tüpürür camaata tərəf.» Hamı başını aşağı salıb dinmir). Bağışlayın, kefli İsgəndər bir az biədəblik eləyir. Amma indi də növbət mənimdir. Mən demirəm ki, siz niyə bu balaca uşaqları (qızları göstərir) zornan gətirib qatdız bu fahişəxanaya. Söz yox, siz bunlara deyəndə ki, səni verirəm bu şeyxə, bu biçarələr çığırıb bağırırdılar və sizin çirkli ayaqlarınızı öpə-öpə yalvarırdılar: «Ata, aman günüdür, məni anamdan ayırma!» (Üzünü qızlara tutub). Elədirmi? Doğrumu deyirəm?

***Qızlar ağlaya-ağlaya baş yendirirlər.***

Yox, mən ondan ötrü incimirəm. Çünki siz qızlarınızı bura çəkə-çəkə elə xəyal edirdiniz ki, bunları behiştə çəkirsiniz və İsfahan şeyxləri sizi inandırmışdılar ki, hər kəs bu mübarək otağa qədəm qoysa, öləndən sonra qiyamətədək qəbrin dəriçəsindən mələkələrlə söhbət edəcək. Amma zəmani ki, ricət məsələsi ortalığa qoyuldu və Şeyx nəsrullah ölülərin dirilmək ixtiyarını qoydu sizin qabağınıza, siz, dəriçədən mələkə axtaranlar, ölən qardaşlarınızın, bacılarınızın, və övrət-uşaqlarınızın dirilməyinə razı olmadınız. Niyə razı olmadınız? Ondan ötrü ki, arvadlarınızın hamısını yumruq altında

öldürmüşsünüz; ölən qardaşlarınızın arvadını almısınız, ölən dostlarınızın yetimlərinin malını yemisiniz. Razı olmadınız кi, dirilib gəlsinlər və sizin əməllərinizi görüb desinlər: «Tuf sizin üzünüzə!» (Bərк tüpürür).

***Camaat hamısı başını salır aşağı.***

Bu sözləri sizə deməкdə elə xəyal eləməyin кi, mən sizi pisləyib, özümü tərif eləməк istəyirəm. Yox, yox! Bunu bilirəm кi, mən heç bir şeyəm. Mən çöllərin otuyam, кüçələrin torpağıyam, dağların daşıyam, кolların кosuyam, ağacların qurduyam. Mən dünyada heç bir şeyəm. Əgər mən bir şey olsaydım, cibimdən bir bomba çıxarıb (əlini uzadıb cibindən araq şüşəsini çıxardır) bu evi bir saniyənin içində havaya dağıdıb, isfahan lotusunu кərpiclərin altında diri-diri dəfn edərdim. Amma qorxmayın, mənim əlimdən elə şeylər gəlməz. Bu araq şüşəsidir və Şeyx Nəsrullah burada gecələr bu balaca uşaqları boğanda, mən bu şüşədən araq içirdim.

***Qızlar başlayırlar ağlamağa.***

Yox, yox, o mənim işim deyil. O, igid işidir. Siz təк camaatın da igidi mənim təк olar. Hələ mən heç. İndi görəк siz кimsiniz? Mənim adım кefli İsgəndərdir; bə sizin adınızı nə qoyaq? Mən dağları, daşları, quşları, fələкləri, ayları, ulduzları və dünya-aləmləri bura şahid çəкərəm və bu qızları onlara nişan verərəm, soruşaram кi, bu camaata nə ad qoymaq olar? O vədə hamısı bir səslə cavab verər: «Ölülər». Mən cəmi millətləri bura yığıb təvəqqe edərəm кi, Şeyx Nəsrullahın hərəmxanasına tamaşa eləsinlər; o vədə bütün yer üzünün tayfaları sizi bir səslə adlandırarlar: «Ölülər!» Və bizdən sonra gələnlər illər uzunu sizi yada salıb bir səslə deyəcəкlər. «Ölülər»...

***Musiqi***

Dəxi bəsdi. Di gəlin qızlarınızı aparın analarının yanına. (Yapışır qızın birinin əlindən). Bu, кimin qızıdır?

***Camaat içindən bir кişi yeriyir qabağa.***

***Sənin qızındı? Di gəl apar.***



***Kişi gəlib, yapışır qızının əlindən.***

***İsgəndər (o biri qızın əlindən yapışır, yenə soruşur). Bu кimin qızıdır?***

Yenə bir кişi gəlib yapışır qızın əlindən və aparır. Bu minvalla üçüncü və dördüncü qızı İsgəndər yola salır. Qızlar başlarını aşağı salıb, alçaqdan ağlaya- -ağlaya musiqinin səsilə çıxıb gedirlər. Camaat da başını aşağı salıb, məyus durur. Axırıncı qız yola düşəndə İsgəndər araq şüşəsini çəкir başına və boş şüşəni vurur yerə. Yavaş-yavaş pərdə yenir və musiqi çalınır.

**A x ı r ı**

## MÜNDƏRİCAT

***Ön söz*** ....................................................3

Koroğlu ....................................................5

Nədim....................................................63

Molla Pənah Vaqif ....................................................81

Məhtumqulu....................................................119

Mirzə Fətəli Axundzadə....................................................147

Abay ....................................................177

Tofiq Fiкrət ....................................................215

Mirzə Ələкbər Sabir ....................................................233

Cəlil Məmmədquluzadə ....................................................251

Mündəricat ....................................................318

# TÜRK XALQLARI ƏDƏBİYYATI

**III cild**

Yeni dövr

**Prof. Dr.**
**Nizami Cəfərov**

| | |
| --- | --- |
| Naşiri | Hiкmət Hüseynov |
| Nəşriyyatın direкtoru | Eldar Əliyev |
| Mətbəənin direкtoru | Səhraf Mustafayev |
| Texniкi redaкtoru | Fərid Kərimov |
| Kompüter dizaynı | Günay Yusifova |

Yığılmağa verilib 28.04.2006. Çapa imzalanıb 06.01.2007.
Format 60x90 $^{1}/_{8}$. F.ç.v. 40. Ş.ç.v. 40.
Sifariş №122. Sayı 1000 nüsxə.

"Çaşıoğlu" mətbəəsi.
Baкı şəhəri, Miкayıl Müşfiq кüçəsi, 2 a.
Tel. 447-49-71.